# MÖZU 1. KRİMİNALİSTİKANIN PREDMETİ, VƏZİFƏLRİ, SİSTEMİ

## PLAN

1. Kriminalistikanın predmeti və vəzifələri.
2. Kriminalistikanın sistemi.
3. Kriminalistikanın hüquq elmləri və digər elmlərlə əlaqəsi.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Н.П.Яблокова. М.: Норма, 2010.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Аверьянова Т.В., Белкин Р.С., Корухов Ю.Г., Россинская Е.Р. Криминалистика. М.,2010.

Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

6.Баев О.Я. Основы криминалистики. М.: Экзамен, 2003.

7.Ишенко Е.П., Егоров Н.Н. Криминалистика для следователея и дознавателей. М.: Юридическая фирма «Контракт»: «ИНФРА –М»,2010.

8.Эксархопуло А.А. Предмет и система криминалистики: Проблемы развития на рубеже XX – XXI веков.- СПб.: Издательский Дом СПбГУ, 2004.


.

### 1. Kriminalistikanın predmeti və vəzifələri

Peşəkar hüquqşünas kadrların (müstəntiqlərin, prokurorların, hakimlərin, vəkillərin və s.) hazırlanmasında tədris edilən əsas elmi fənlər içərisində kriminalistikanın özünəməxsus yeri vardır. Kriminalistika latın sözü "criminalis"-dən götürülüb, hərfi mənası cinayətkarlıq deməkdir. XIX əsrin II yarısında ilk dəfə bu termini Avstriya kriminalisti Hans Qross işlətmişdir. Ona qədər bu elm ayrı-ayrı ölkələrdə müxtəlif cür, məsələn, "elmi polis", "texniki polis" və s. adlandırılırdı.

Kriminalistika cinayətkarlıqla mübarizə təcrübəsini öyrənir, ümumiləşdirir və zəruri üsul, vasitə və metodikanı işləyib hazırlayır.

Müasir dövrdə cinayətkarlığın peşəkar və mütəşəkkil xarakter alması kriminalistik fəaliyyətin təkmilləşməsini tələb edir. Bu mənada kriminalistika haqlı olaraq cinayətkarlığa qarşı mübarizənin ön sıralarında olan elm hesab edilir.

Kriminalistikanın əsas vəzifəsi hüquq mühafizə orqanlarının cinayətkarlığa qarşı fəal mübarizə aparmaları üçün elmi cəhətdən hərtərəfli işlənib hazırlanmış və müasir tələblərə cavab verən texniki, taktiki və metodik üsul və vasitələr işləyib hazırlamaqdan ibarətdir.

MUHASIBAT.AZ

Göstərilən ümumi vəzifə cinayət-prosessual fəaliyyətə-cinayətin açılmasına, istintaqına və qarşısının alınmasına yönəlir. Məhz kriminalistika cinayətlərin vaxtında, obyektiv və tam açılmasını, eyni zamanda, istintaqın digər məqsədlərinə nail olmasını təmin edir.

Kriminalistikanın qeyd olunan ümumi vəzifələrinə tabe olan xüsusi vəzifələri də vardır. Onlar aşağıdakılardır:

Cinayətin edilməsinin yeni üsullarını müəyyən etmək məqsədilə istintaq təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi, təcrübi işçilər tərəfindən işlənib hazırlanmış kriminalistik üsulların müəyyən edilməsi, təkmilləşdirilməsi, istintaqın tələblərindən irəli gələn yeni üsul və metodların işlənib hazırlanması (məsələn,  kompüter informasiyası sahəsində cinayətlər, mütəşəkkil cinayətkarlıq, terrorizm və s.).

Əksər taktiki və metodiki üsullar istintaq təcrübəsi əsasında yaranır. Alimlər isə onları ümumiləşdirərək, bəzi hallarda isə təkmilləşdirərək elmi tövsiyələr kimi qruplaşdırırlar.

Kriminalistikanın xüsusi vəzifəsi texniki, təbii və humanitar elmlərin nailiyyətlərindən istifadə etməklə onları ibtidai araşdırmanın (məhkəmənin) ehtiyaclarını ödəməyə yönəltməkdir.

Cinayətin istintaqının mahiyyəti əsasən onun açılması ilə bağlı olan fəaliyyətlə müəyyənləşir. Ancaq bununla yanaşı, o həm də cinayətkarın şəxsiyyəti ilə bağlı halların (ağırlaşdırıcı və yüngülləşdirici halların) aşkarlanması, qanunun düzgün tətbiqinin müəyyən edilməsi ilə də səciyyələnir. Bununla da istintaq zamanı cinayət prosesinin digər mühüm vəzifə və funksiyalarını reallaşdırır.

Cinayətkarlığın qarşısının alınması dedikdə kriminalistikada cinayətin törədilməsinə imkan və şərait yaratmış səbəblərin aşkarlanması üçün zəruri olan vasitələrin sistemi, kriminalistik profilaktikanın təsir obyektləri, həmçinin konkret şəxslərin cinayətkar fəaliyyətinin dayandırılması, qarşısının alınması üçün digər profilaktik tədbirlər başa düşülür. Göstərilən fəaliyyət istiqamətlərində qarşıya qoyulan məqsədlərə nail olmaq ümumi və xüsusi kriminalistik metodların işləyib hazırladığı vasitələrin köməyi ilə mümkün olur.

Bütün digər elmlərdə olduğu kimi kriminalistikanın predmetinin anlayışına onun obyekti, məqsədləri, tədqiqat prinsipləri, xüsusi üsul və vəzifələri, nəzəri və təcrübi istiqamətlərin öyrənilməsi daxildir. Tədqiqat obyektinin müəyyən edilməsi elmin formalaşmasının mühüm tələblərindən biridir. Kriminalistikanın obyektinə cinayətkarlığın funksional tərəfi, yəni cinayətin mexanizmini yarandan hərəkətlərin və münasibətlərin məcmusu aiddir. Cinayətin törədilmə mexanizmi, yəni onun ətraf aləmdə əks olunma prosesi, qanunauyğunluqları və cinayətin istintaqı ilə bağlı fəaliyyətinin xüsusiyyətləri kriminalistikanın tədqiqat obyektini təşkil edir.

Kriminalistika elminin əsas məqsədi yeni biliklərin əldə edilməsindən ibarətdir. Kriminalistik tədqiqatın məqsədləri arasında nəzəriyyələrin formalaşmasını ayrıca qeyd etmək lazımdır. Ümumi nəzəriyyədən başqa, tədqiqatın məqsədi qismində tədqiqat obyektlərinin mövcudluğunun, inkişafının qanunauyğunluqlarının sistemləşdirilməsi də göstərilməlidir. Bununla əlaqədar olaraq əvvəllər kriminalistika sübutların aşkar edilməsi, götürülməsi, tədqiqi və qiymətləndirilməsinin qanunauyğunluqları haqqında elm kimi müəyyənləşdirilirdi. Qeyd etmək lazımdır ki, kriminalistikada qanunauyğunluqların öyrənilməsi və dərk edilməsi zəruridir. Lakin qanunauyğunluqların dərk edilməsi elmin bütün mümkün məqsədlərini əhatə etmir. İnkişaf qanunauyğunluqlarını öyrənməklə yanaşı,

MUHASIBAT.AZ

kriminalistikanın məqsədinə həm də proseslərin proqnozlaşdırılması, obyektlərin və hadisələrin aşkar edilmiş qanunauyğunluqlarının istintaq təcrübəsində tətbiq edilməsi daxildir.

Kriminalistikanın əsas tədqiqat obyektlərinə, yəni cinayət, onun izlərdə əks olunması prosesi və istintaq fəaliyyəti arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsi kimi spesifik məqsədlərinə də xüsusi diqqət yetirilməlidir.

Cinayət törədilərkən onun baş verdiyi mühitdə əmələ gələn dəyişikliklər ayrıca bir obyektdə deyil, kompleks obyektlər, proseslər və hallarda özünü göstərir.

Cinayət hadisəsi haqqında informasiya bütün obyektlər üzrə, başqa sözlə, kompleks şəkildə həmin obyektlərdə əks olunmuş və sübuti əhəmiyyət kəsb edən izlərdə özünü büruzə verir ki, bunların da hər birində özünəməxsus olan həddə informasiya əks olunur. İnformasiyanın həcmi konkret sübutda əks olunur ki, bu da həmin mühitdə dəyişikliyin nə dərəcədə əks olunmasından asılıdır. Qeyd edilən dəyişiklik nə qədər çox olarsa, obyekt, subyekt və hərəkətlər arasında əks olunan qarşılıqlı əlaqə o qədər də sıx olur.

Kriminalistikanın predmeti yalnız nəzəri məqsədləri əks etdirməklə kifayətlənməyib, həm də təcrübi fəaliyyətin təmin olunmasına yönəlir. O, cinayətin açılmasını təmin edən faktların aşkarlanması və tədqiqi üçün müxtəlif texniki vasitələr, istintaq fəaliyyətinin həyata keçirilməsini yüngülləşdirən üsullar işləyib hazırlayır, istintaqın təşkili və planlaşdırılması ilə bağlı təkliflər irəli sürür.

Kriminalistika elminin predmetinə verilən anlayışlar tarixi nöqteyi - nəzərdən təhlil edilsə, onun 30-cu illərdə texniki elm hesab edilməsi aydın görünər. Əlbəttə, belə bir anlayış onun inkişafına, eləcə də onun təcrübədə tətbiqinə mane olurdu. 50-ci illərdə kriminalistika cinayətlərin açılması, müttəhimin ( yeni qanunvericiliklə təqsirləndirilən şəxsin) müəyyən edilməsi, cinayətkarlığın qarşısının alınmasında, məhkəmə sübutlarının aşkar edilməsi, toplanması və qiymətləndirilməsində istifadə edilən texniki üsul və vasitələr haqqında elm kimi müəyyən edilirdi.

70-ci illərdə bu anlayış bir qədər təkmilləşdirilir və kriminalistika cinayətkarlığa qarşı mübarizə və baş vermiş cinayətin üstünün açılması məqsədilə maddi sübutların aşkar edilməsi, götürülməsi, rəsmiləşdirilməsi və tədqiqi zamanı tətbiq olunan texniki vasitələr, taktiki üsul və metodlar haqqında elm kimi müəyyən edilir.

Nəhayət, müasir dövrdə kriminalistika cinayət prosesində axtarış - dərketmə fəaliyyətinin vasitələri və mexanizmi (texnologiyası) haqqında elm kimi qiymətləndirilir. Bu fikri ilk dəfə V.A.Obraztsov irəli sürmüşdür.

Bəzən bu anlayış genişləndirilərək cinayət davranışının informasiya vasitələrində əks olunma mexanizminin qanunauyğunluqlarını, cinayətlərin açılması, istintaqı, qarşısının alınması ilə bağlı fəaliyyətin xüsusiyyətlərinin tədqiqi əsasında maddi-prosessual normaların müvafiq tətbiqini təmin etmək məqsədilə göstərilən fəaliyyətin vasitə və metodlarını işləyib hazırlayan elm kimi verilir.

Kriminalistikaya ən qısa və konkret anlayışı İ.F.Panteleyev vermişdir: Kriminalistika cinayətlərin asıldması haqqında elmdir.

Kriminalistikaya verilən anlayışları ümumiləşdirərək onun predmetinin aşağıdakı kimi xarakterizə edilməsi, fikrimizcə, daha məqsədəmüvafiqdir.

Kriminalistika baş vermiş cinayət hadisəsinin xüsusiyyətlərini nəzərə almaqla onun istintaqı, açılması və qarşısının alınması məqsədilə həmin cinayəti xarakterizə edən və

MUHASIBAT.AZ

məlumat daşıyıcılarında əks olunan maddi və digər izlərin əmələ gəlmə mexanizminin qanunauyğunluqlarını müəyyən etməklə, eyni zamanda, cinayət-prosessual qanunvericiliyin normalarına riayət etməklə onların aşkar edilməsi, götürülməsi və rəsmiləşdirilməsində istifadə edilən texniki vasitələr, taktiki üsul və metodlar haqqında elmdir.

## 2. Kriminalistikanın sistemi

Kriminalistika vahid bir tam kimi onu təşkil edən, bir-biri ilə qarşılıqlı, ardıcıl, məntiqi əlaqəyə malik olan bölmələrdən ibarətdir.

Bunlar aşağıdakılardır:

1. Kriminalistikanın nəzəri və metodoloji əsasları;
2. Kriminalistik texnika;
3. Kriminalistik taktika;
4. Ayrı-ayrı növ cinayətlərin istintaqının kriminalistik metodikası (Kriminalistik metodika).

Son illər kriminalistikanın ənənəvi qəbul edilmiş və yuxarıda qeyd edilən sistemi bəzi kriminalistlər (Pleskaçevski V.M., Aqafonov V.V. və s.) qəbul etməyərək ona bir qədər başqa yanaşmanı təklif edirlər. Daha doğrusu, kriminalistikanın sistemini aşağıdakı 5 (beş) bölməyə ayırmağı təklif edirlər:

1. Kriminalistika kursuna giriş (kriminalistik metodologiya);
2. Kriminalistik texnika;
3. Kriminalistik taktika;
4. Ayrı-ayrı növ cinayətlərin istintaqının kriminalistik metodikası;
5. Cinayətlərin istintaqı və açılmasının təşkilinin kriminalistik məsələləri.

Lakin bir daha nəzərinizə çatdırmaq istəyirəm ki, kriminalistikanın sistemi yuxarıda qeyd edilən 4 (dörd) bölmədən ibarətdir. İndii hər bir bölmənin təhlilinə keçək.

**Kriminalistikanın nəzəri və metodoloji əsasları.** Bu bölmə kriminalistikanın nəzəri konsepsiyalarının metodik prinsiplərinin və anlayışlarının sistemlərindən ibarətdir. O, kriminalistikanın obyektləri, predmeti və anlayışının ümumnəzəri, metodoloji və məlumat aspektləri haqqında məsələləri məcmuu şəkildə özündə əks etdirir. Kriminalistikanın tərkib hissəsi kimi onun predmetinin nəzəri və metodoloji aspektləri, sistemi, metodları, kriminalistik eyniləşdirmə, kriminalistik fərziyyələr, istintaqın təşkili və planlaşdırılması, istintaq şəraiti, cinayətlərin istintaqında taktiki əməliyyat, cinayətlərin kriminalistik xarakteristikası, kriminalistikanın elmlər sistemində yeri və və s. bu bölmədə öz əksini tapmışdır.

**Kriminalistik texnika**. Kriminalistik texnika dedikdə ibtidai araşdırma və məhkəmə orqanları tərəfindən məhkəmə sübutlarını toplamaq və tədqiq etmək, habelə cinayətin açılması və qarşısının alınması məqsədilə ayrı-ayrı istintaq hərəkətlərinin aparılması zamanı tətbiq edilən və kriminalistik ekspert idarələrində tədqiqat məqsədləri üçün istifadə olunan

MUHASIBAT.AZ

elmi-texniki vasitələrin və metodların sistemi başa düşülür. Bu bölmədə elmi-texniki vasitələrin anlayışı, təsnifatı və tətbiqi dairələri ətraflı təhlil edilir. Eyni zamanda istintaq, təhqiqat və məhkəmədə, eləcə də ekspert tədqiqatında istifadə edilən elmi-texniki vasitələr və üsullar barədə məlumat verilir.

Bununla yanaşı, izlərin əmələ gəlmə mexanizmindən asılı olaraq onların aşkar edilməsi, götürülməsi, qablaşdırılması və rəsmiləşdirilməsində istifadə edilən elmi-texniki vasitələrin tətbiq xüsusiyyətləri izah olunur. Bunlara istintaq prosesində aşkar edilmiş görünməyən və ya zəif görünən əl-barmaq izləri, ayaq izləri, sındırma alət və vasitələri izlərinin, odlu silah izlərinin götürülməsində istifadə edilən texniki vasitələri və predmetləri misal göstərmək olar.

Yuxarıda göstərilənlərlə yanaşı, bu hissədə insanın kriminalistik tədqiqatına əhəmiyyətli yer tutur. Həmin tədqiqat nəticəsində insanın cinayət əməlini törədən zaman müxtəlif obyekt və subyektlərlə qarşılıqlı təsiri nəticəsində ətraf maddi aləmdə əks olunmuş xüsusiyyətləri öyrənilir. İnsanın eyniləşdirilməsinin müxtəlif imkanları araşdırılır və bu məqsədlə onun tərəfindən qoyulmuş bioloji və anatomik izlərdən istifadə edilir. İnsanın fotoşəkillərinə, sklet qalıqlarına görə eyniləşdirilməsinin imkanları tədqiq olunur. Başqa sözlə desək bu bölmədə trasologiya, məhkəmə ballistikası, yazının kriminalistik tədqiqi, sənədlərin texnik-kriminalistik tədqiqi, kriminalistik habitologiya və s. məsələlər öyrənilir.

**Kriminalistik taktika**. Kriminalistik taktika cinayətkar fəaliyyətin və onun araşdırılması ilə məşğul olan kriminalistik fəaliyyətin taktiki aspektlərindən bəhs edir. Bu bölmə iki hissədən ibarətdir: kriminalistik taktikanın ümumi müddəaları və ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasının taktiki xüsusiyyətləri.

Ümumi müddəalarda kriminalistik taktikanın ümumi anlayışı, əhəmiyyəti, növləri, onların məntiq, psixologiya, etika, əməyin elmi təşkili ilə qarşılıqlı əlaqəsi və s. təhlil edilir.

Ayrı-ayrı istintaq hərəkətlərinin aparılması taktikasının xüsusiyyətləri hissəsində hadisə yerinə baxış, dindirmə, istintaq eksperimenti, axtarış və götürmə, ifadənin yerində yoxlanılması, ekspertizanın təyin edilməsi və aparılması taktikasından danışılır. Bu istintaq hərəkətləri aparılarkən istintaq təcrübəsinin ümumiləşdirilməsi nəticəsində işlənib hazırlanmış elmi müddəalardan, taktiki üsul və tövsiyələrdən səmərəli istifadə etməklə bərabər, cinayət-prosessual qanunvericiliyin normalarına da riayət edilməlidir. Əks təqdirdə həmin istintaq hərəkətlərinin aparılmasının heç bir sübuti əhəmiyyəti olmayacaqdır. Məsələn, Azərbaycan Respublikası CPM-in 262.5-ci maddəsində istintaq eksperimentinin aparılmasına o halda yol verilir ki, bu eksperimentdə iştirak edən insanların həyatı və sağlamlığı üçün təhlükə yaratmasın, şərəf və ləyaqətləri alçaldılmasın, onlara maddi zərər vurulmasın.

Kriminalistik taktika kriminalistik texnika ilə sıx əlaqədədir. Hər bir istintaq hərəkətinin aparılması zamanı taktiki üsullarla texniki vasitələr bir-birini tamamlayır və konkret istintaq hərəkətlərinin müvəffəqiyyətlə başa çatdırılmasını təmin edir.

İzlərin aşkar edilməsi kriminalistik texnikanın vəzifəsi olmaqla yanaşı, kriminalistik taktikanın da vəzifəsidir, lakin onlardan istifadə edilməsinin üsul və vasitələri müxtəlifdir. Kriminalistik texnika qarşılıqlı təsir göstərən obyektlərin xüsusiyyətlərini nəzərə almaqla izlərin aşkar edilməsi zamanı istifadə ediləcək alət və vasitələri seçməyi müəyyən edir. Kriminalistik taktika isə cinayətkarın fəaliyyətinin modelləşdirilməsi mövqeyindən çıxış edir.

MUHASIBAT.AZ

Müstəntiq maddi şəraitdə cinayət hadisəsini, cinayətkarın hərəkətlərini öyrənərək onların qarşılıqlı hərəkət anını müəyyən edir ki, bu da istintaqı aparılan hadisənin potensial informasiya daşıyıcısıdır.

İzlərin aşkar edilməsinin taktiki üsulları kriminalistik texnikanın zəruri üsul və vasitələrini seçib səmərəli tətbiq etməyə imkan verir.

Kriminalistik texnika və kriminalistik taktika istintaq, təhqiqat və məhkəmə orqanlarının əməli fəaliyyətində istintaqın kriminalistik metodikası ilə həyata keçirilir.

**Ayrı-ayrı növ cinayətlərin istintaqının kriminalistik metodikası (Kriminalistik metodika)**. Kriminalistikanın bu bölməsi onun mühüm sahələrindən biridir. Onun əsas vəzifəsi müstəntiq və onunla qarşılıqlı əlaqədə fəaliyyət göstərən şəxsləri müxtəlif istintaq şəraitlərində araşdırılan cinayətlərin açılması və qarşısının alınması üçün zəruri elmi-metodik biliklər və vasitələrlə təmin etməkdir. Ayrı-ayrı növ cinayətlərin istintaqının kriminalistik metodikasının predmetini, hər şeydən əvvəl, cinayətlərin kriminalistik xarakteristikasını müəyyənləşdirən xüsusiyyətlərin öyrənilməsi təşkil edir. Belə ki, istintaq prosesində cinayətlərin kriminalistik xarakteristikasının quruluşuna daxil olan həm imperativ, həm də fakultativ elementlər mühüm əhəmiyyət kəsb edir.

İstintaqın kriminalistik metodikası həmçinin, cinayətlərin qarşısını almaq üçün daha səmərəli profilaktik tədbirlərin işlənib hazırlanmasına xidmət edir. İstintaqın kriminalistik metodikası, hər şeydən əvvəl, törədilən cinayətlərin fərdi xüsusiyyətlərinə əsaslanır. Cinayətlər təkcə cinayət qanununda müəyyən edilən əlamətlərinə görə deyil, həm də yuxarıda qeyd etdiyimiz spesifik kriminalistik xüsusiyyətlərinə (edilmə üsulu, mexanizmi, şəraiti və s.) görə fərqlənirlər. Həmin əlamətlərə görə eyni növlü cinayətlər biri digərindən fərqlənsə də, onları xarakterizə edən bir çox ümumi cəhətlər vardır. Məhz bu ümumi cəhətlərin mövcudluğu istintaqın kriminalistik metodikasının işlənib hazırlanmasına imkan verir. Hər bir cinayət, məsələn, konkret oğurluq cinayəti özünün fərdi xüsusiyyətlərinə malik olsa da, bütün bu növ cinayətləri xarakterizə edən bir sıra ümumi cəhətlərə malikdir. Bunlar da həmin növ cinayət işləri üzrə cinayət işinin başlanması, aydınlaşdırılması, zəruri olan halların dairəsinin müəyyən edilməsi, xarakterik istintaq fərziyyələrinin irəli sürülməsi, istintaq hərəkətlərinin aparılması ardıcıllığını və xarakterini, bir sözlə, həmin növ cinayət işləri üzrə istintaq metodikasını işləyib hazırlamağa imkan verir.

Kriminalistikanın sisteminə daxil olan qeyd etdiyimiz hər bir bölmə bir-birilə sıx əlaqədə olub, biri digərini tamamlayır. Bu qarşılıqlı əlaqə konkret növ cinayətin istintaqı aparılarkən özünü daha aydın göstərir.

## 3.Kriminalistikanın hüquq elmləri və digər elmlərlə əlaqəsi

Kriminalistika cinayətkarlıqla mübarizədə öz vəzifələrini tam ,hərtərəfli və məqsədyönlü həyata kesirmək üçün digər elmlərlə - cinayət hüququ,cinayət-prosessual hüquq, kriminologiya, cəza- icra hüququ, məhkəmə təbabəti, əməliyyat- axtarış fəaliyyətinin əsasları, məhkəmə psixatriyası və s. qarşılıqlı əlaqədədir.

Kriminalistika qeyd edilən elmlərdən cinayət hüququ və cinayət-prosessual hüquq elmi ilə daha sıx əlaqədədir.

MUHASIBAT.AZ

Cinayət hüququnun kriminalistika ilə əlaqəsi əsasən istintaqın kriminalistik metodikası bölməsi ilə daha qabarıq şəkildə özünü büruzə verir. Belə ki, konkret növ cinayətin istintaqı aparılarkən cinayət hüququnun cinayət, təqsir, cəza, cinayətkar, cinayətdə iştirakçılıq haqqındakı anlayışlar həmin cinayətlərin kriminalistik xarakteristikasını müəyyən etməyə, istintaq şəraitindən asılı olaraq daha məqsədyönlü fərziyyələr irəli sürməyə, istintaq hərəkətlərinin ardıcıllığını müəyyən etməyə kömək edir.

Cinayət hüququnun cinayət tərkibi barədə məlumatlarından kriminalistikada geniş istifadə edilir. Belə ki, konkret növ cinayətin istintaqı aparılarkən əməlin düzgün tövsüf edilməsi istintaq metodikası ilə əlaqədardır. Məsələn, meyit tapıldıqda ölümün səbəbini aydınlaşdırmaq üçün müstəntiq aşağıdakı ümumi fərziyyələri irəli sürür:

- zərər çəkmiş şəxs intihar etmişdir;
- zərər çəkmiş şəxs zorakılıqla öldürülmüşdür;
- bədbəxt hadisə baş vermişdir.

Göstərilən hər bir hal cinayət hüququnun xüsusi hissəsinin konkret norması ilə tövsüf edilir.

Kriminalistika cinayət-prosessual hüquq elmi ilə qarşılıqlı əlaqədədir. Cinayət prosesi cinayət işləri üzrə məhkəmə, istintaq-prokurorluq orqanlarının fəaliyyətilə əlaqədar olaraq həmin orqanlarla işdə iştirak edən şəxslər arasındakı münasibətləri nizama salan hüquq normalarının məcmusundan ibarətdir.

Kriminalistika özünün texniki vasitələr, taktiki üsul və metodlarını işləyib hazırlamaqla cinayət-prosessual qanunun tələblərinin daha dolğun həyata keçirilməsini təmin edir. Bununla, o, cinayət-prosessual qanunvericiliyini təkmilləşdirir, zənginləşdirir, dəyişdirir və yeni normaların yaranmasına təsir edir.

İstintaq təcrübəsində özünü doğruldan və konkret istintaq hərəkətlərinin aparılması zamanı tətbiq edilən taktiki üsul və tövsiyələr sonradan cinayət-prosessual qanunvericiliyinin normasına çevrilir. Məsələn, canlı şəxslərin, meyitlərin, heyvanların və s. tanınma üçün təqdim edilməsi.

İstintaq təcrübəsində geniş tətbiq edilən, lakin köhnə CPM-də nəzərdə tutulmamış, yeni CPM qəbul edilərkən ifadənin yerində yoxlanılması müstəqil istintaq hərəkəti kimi məcəlləyə daxil edilmişdir.

Kriminalistika kriminologiya elmi ilə də əlaqədardır. Kriminalistikanın kriminologiya ilə əlaqəsi kriminalistikanın elmi təkliflərinin kriminologiyanın cinayətlərin qarşısının alınması ilə bağlı vəzifələrinin yerinə yetirilməsində, kriminologiyanın elmi təklifləri isə cinayətlərin kriminalistik xarakteristikasının formalaşdırılmasında və istintaq metodikasının işlənib hazırlanmasında nəzərə alınması ilə xarakterizə olunur.

Əlbəttə, profilaktik fəaliyyət kriminologiyanın predmetinə aiddir və onun elmi təklifləri nəzərə alınmaqla həyata keçirilir, lakin kriminalistikanın təklifləri də hüquq pozuntularının qarşısının alınmasına kömək edir və onlardan istifadə edilir.

Kriminoloqlar haqlı olaraq qeyd edirlər ki, kriminalistika kriminologiyaya konkret cinayətlərin səbəblərinin müstəntiq və məhkəmələr tərəfindən aşkarlanması taktikası və metodikası haqqında materiallar verir, həmçinin cinayətin törədilməsinin qarşısını almağa kömək edən texniki vasitələr hazırlayır.

Kriminalistika cəza-icra hüququ ilə də əlaqədədir. İslah-əmək idarələrində baş vermiş cinayətlərin istintaqının aparılması metodikası cəza-icra hüququ elminin müddəaları nəzərə alınmaqla işlənib hazırlanır.

Kriminalistika ilə məhkəmə təbabətinin qarşılıqlı əlaqəsi özünü əsasən şəxsiyyət əleyhinə edilən cinayətlərin istintaqı zamanı daha qabarıq şəkildə göstərir.

Məhkəmə təbabətinin nailiyyətlərindən istifadə etməklə ölümün baş vermə səbəbi, vaxtı, şəraiti və s. məsələlər aydınlaşdırılır. İstintaq prosesində insanın müxtəlif izləri ilə yanaşı orqanizmin ifrazatları da (sperma, tüpürcək, qan və s.) aşkar edilir ki, bunlar da məhkəmə təbabətinin obyekti qismində çıxış edirlər və mühüm eyniləşdirmə əhəmiyyətinə malikdirlər.

Məhkəmə psixiatriyası elmindən istintaq prosesində insan psixikası ilə bağlı məsələlərin həll edilməsində istifadə olunur.

Məhkəmə psixologiyasının nailiyyətlərindən kriminalistik üsul və tövsiyələrin hazırlanmasında geniş istifadə edilir. Ayrı-ayrı istintaq hərəkətlərinin aparılması zamanı onların məqsəd və vəzifələrindən asılı olaraq müvafiq taktiki üsullar tətbiq edilir. Başqa sözlə, kriminalistik taktikanın psixoloji əsaslarının işlənib hazırlanmasında mühüm rol oynayır. Məsələn, dindirmə, axtarış və götürmə, tanınma üçün təqdim etmə və s. istintaq hərəkətlərinin aparılmasında psixologiyanın müddəaları nəzərə alınır.

Qeyd edilənlərdən başqa kriminalistikada məntiq, fəlsəfə, əməyin elmi təşkili, fizika, kimya və s. başqa sözlə, təbii və texniki elmlərdən kriminalistikanın tələbləri nəzərə alınmaqla istifadə olunur.

Bununla yanaşı, kriminalistika öz növbəsində başqa elmlərin inkişafına öz təsirini göstərir. Belə ki, kriminalistikanın işləyib hazırladığı metodlar təbabətdə, psixiatriyada, arxeologiyada, tarix elmində geniş tətbiq edilir. Ədəbiyyatşünaslıq və digər elmlər kriminalistikanın metodlarından əhəmiyyətli dərəcədə istifadə edirlər. Kriminalistikanın metodları təftiş və yoxlama fəaliyyətində də geniş tətbiq edilir.

Kriminalistika elmdə bir sıra yeni istiqamətlərin meydana gələrək formalaşmasına təkan vermişdir. Onun inkişafı, məsələn, kriminalistik nəzəriyyəyə əsaslanan və qeyri-prosessual vasitələrdən istifadə edən əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsinin meydana gəlməsinə təsir etmişdir. Başqa elmlərlə əlaqələrin yaranmasına, genişləndirilməsinə və onların nailiyyətlərinin kriminalistikanın vəzifələrinin həll edilməsi üçün tətbiqinə olan zərurət elmdə yeni istiqamətlərin formalaşmasına öz təsirini göstərir. Belə istiqamətlərdən biri kimi məhkəmə ekspertizasının yeni yaranmış növlərini göstərmək olar. Qeyd edilənlər kriminalistikanın bir elm kimi necə böyük əhəmiyyətə malik olduğuna və digər elmlərlə geniş qarşılıqlı təsir imkanlarına malik olduğuna əyani sübutdur.

MUHASIBAT.AZ

## MÖVZU 2. KRİMİNALİSTİKANIN METODLARI

### PLAN

1.Kriminalistikanın metodlarının anlayışı və növləri.
2.Kriminalistikanın ənümumi və ümumelmi (ümumi) metodları.
3.Kriminalistikanın xüsusi metodları.

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Н.П.Яблокова. М.: Норма, 2010.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Аверьянова Т.В., Белкин Р.С., Корухов Ю.Г., Россинская Е.Р. Криминалистика. М.,2010.

Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

6.Баев О.Я. Основы криминалистики. М.: Экзамен, 2003.

MUHASIBAT.AZ

7.Возгрин И.А. Введение в криминалистику: история, основы теории, библиография. СПб.,2003.
8.Ишенко Е.П., Егоров Н.Н. Криминалистика для следователея и дознавателей. М.: Юридическая фирма «Контракт»: «ИНФРА –М»,2010.

## 1.Kriminalistikanın metodlarının anlayışı və növləri

Kriminalistika cinayətkar fəaliyyəti və hüquqmühafizə orqanlarının fəaliyyətini öyrənməklə bu iki spesifik fəaliyyət növünün qanunauyğunluqlarını dərk edir. Bunun əsasında da kriminalistika cinayətlərinin tədqiqi metodlarını işləyib hazırlayır. Kriminalistikanın metodları sistemində elmi dərketmə metodunu, yəni kriminalistikanın özünün formalaşması prosesində tətbiq edilən və tətbiqi metodları, yəni cinayətlərin istintaqında tətbiq edilən vasitə və üsulları fərqləndirmək lazımdır.

Metod yunanca "methods" sözündən olub, obyektiv maddi və mənəvi aləmin, təbiətin, ictimai həyatın və şüurun inkişaf qanunauyğunluqlarını tədqiq və dərk etmənin elmi cəhətdən əsaslandırılmış müəyyən üsulu deməkdir. Metod elmi təfəkkür qaydasıdır, qarşıya qoyulmuş məsələləri düzgün öyrənmək və həll etmək üçün tətbiq edilən üsullar sistemidir. Metod fikrin hərəkət üsuludur və hərəkət üsulu tədqiq edilən predmetin məzmunu ilə sıx bağlıdır. Qeyd etmək lazımdır ki, hər bir metodun çıxış nöqtəsi və xarakteri öyrənilən predmetin xassələrindən və xüsusiyyətlərindən irəli gəlir.

Metod statik deyil, dinamik xarakter daşıyır, yəni daim inkişaf edir və təkmilləşir. Elmin tədqiqat metodu onun çıxış nöqtəsidir, həmin elmin predmetini təşkil edən bu və ya digər ictimai hadisəni öyrənmək üçün tətbiq edilən üsuldur. İnsan konkret təcrübi vəzifəni yerinə yetirməmişdən əvvəl öz fəaliyyət planını tərtib edir, üsul və üsullar sistemini işləyib hazırlayır.

Kriminalistikada kriminalistik metodlar ilə kriminalistikanın metodları anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. İkinci anlayış birincidən genişdir. Kriminalistik metodlar və digər elmlərin metodları birlikdə kriminalistikanın metodları təşkil edir. Digər elmlərin metodları kriminalistikada öz təbiətini itirmir, riyazi, fiziki, kimyəvi və s. metodlar kimi qalır. Tətbiq edilən bu elmi metodlardan heç birini yeganə universal metodlara çevirmək və mütləqləşdirmək olmaz. Bu elmi metodların heç biri bir-birindən ayrılıqda, nə elmi tədqiqatda, nə də təcrübi fəaliyyətdə uğurlu nəticə verə bilməz.

Kriminalistikanın metodlarından bəhs edərkən kriminalistik metodologiya məsələsi də diqqəti cəlb edir. Metodologiyanın mahiyyəti haqqında istər fəlsəfi, istərsə də hüquq ədəbiyyatında vahid fikir yoxdur. Məsələn, Fəlsəfi ensklopediyada metodologiyaya təcrübəyə, ümumiyyətlə, mənəvi yaradıcılığa və dərketmə prosesinə dünyagörüşü prinsiplərinin tətbiqi kimi, həqiqətin aşkar edilməsi və dərk edilməsi metodları haqqında təlim kimi" anlayış verilir. Bu zaman ancaq ümumfəlsəfi deyil, həm də konkret elmi metodlar da nəzərdə tutulur. Bəzən metodologiyaya bu və ya digər elmlər çərçivəsində, dərketmə prosesində tətbiq edilən metodların müəyyən sistemi kimi anlayış verilir. R.S.Belkinə görə metodologiya ilə metodlar sisteminin eyniləşdirilməsi bu anlayışın mahiyyətinin açılmasına praqmatik yanaşmaya gətirib çıxara bilər.

MUHASIBAT.AZ

Elmi axtarış aparılan sahədə müəyyən tədqiqat prosesinin metodologiyasını nəzəri biliklər sistemindən təcrid olunmuş şəkildə ümumiyyətlə, təsəvvür etmək olmaz. Bu məsələyə öz münasibətini N.N.Stefanov özünəməxsus şəkildə ifadə edərək metodologiyanı rəhbəredici prinsip, elmi təhlil vasitəsi, bu təhlilin tələblərinin həyata keçirilməsinin aləti rolunu oynayan müəyyən nəzəriyyələr sistemi kimi müəyyən etmişdir. Metodologiyanı ideyalar sistemi hesab edib, tədqiqat metodunun onunla heç bir münasibətdə olmadığını söyləmək düzgün olmazdı. Burada metodologiyanın mahiyyətinin anlaşılmasında digər bir cəhət də vardır. Metodologiyanın tərkib hissəsini dərketmə metodları, eyni zamanda nəzəri müddəaların formalaşması metodları və nəzəriyyənin yaradılması metodları haqqında təlim təşkil edir.

Beləliklə, metodologiya dedikdə müvafiq obyektlərin nəzəri və təcrübi fəaliyyətdə dərk edilməsi prinsipləri, metodları və onlara yanaşmanın sistemi başa düşülür. Başqa sözlə, metodologiya təkcə məntiqi elmi dərketmə deyil, eyni zamanda konkret təcrübi fəaliyyətin metodlar sistemidir.

**Kriminalistikada tətbiq edilən metodların təsnifatı** – Kriminalistikada tətbiq edilən metodların müxtəlif təsnifatı verilmişdir. Bəziləri bunların üç, bəziləri isə dörd səviyyədə birləşdirirlər: Birinci qrup müəlliflər kriminalistikanın metodlarına aşağıdakıları aid edirlər:

1.Ənümumi metodlar;

2.Ümumelmi (ümumi) metodlar;

3.Xüsusi metodlar.

Bu müəlliflər xusüsi metodları iki yerə bölülər: texniki-kriminalistik metodlar və struktur- kriminalistik metodlar.

İkinci qrup müəlliflər isə aşağıdakı təsniatı qeyd edirlər:

1 Ənümumi metodlar;

2.Ümumelmi (ümumi) metodlar;

3.Xüsusi metodlar;

4.Sırf kriminalistik metodlar.

Onu da qeyd etmək lazımdır ki, ikinci təsnifat qrupu praktiki baxımdan daha məqsədəmüvafiqdir.

## 2.Kriminalistikanın ənümumi və ümumelmi (ümumi) metodları

Dialektik metod bütün ictimai elmlərdə olduğu kimi kriminalistika elmində də ən ümumi metod olub, onun metodologiyasının əsasıdır. Dialektik metod kriminalistikaya xas olan problemlərin fəlsəfi mahiyyəti (məsələn, izlərin əks olunmasına əsasən insan və predmetlərin eyniləşdirilməsi prosesi, müxtəlif ekspert tədqiqatı nəticələrinin qiymətləndirilməsi zamanı etibarlılığın şərti və s.) açmağa imkan verir və kriminalistik təcrübi fəaliyyətin, eləcə də müstəntiqlərin, hakimlərin kriminalistika elminin nailiyyətlərinə yiyələnmələrinin elmi kriminalistik tədqiqatda nə kimi rol oynamasını müəyyənləşdirir. Dialektikanın kateqoriyaları kriminalistikanın nəzəriyyəsinin işlənib hazırlanması üçün əsas bazadır.

Yuxarıda qeyd edildiyi kimi, dialektik dərketmə metodu kriminalistikanın ən ümumi metodudur və kriminalistikanın metodları bunun əsasında formalaşır və inkişaf edir. Lakin

MUHASIBAT.AZ

dialektik dərketmə heç bir vaxt müxtəlif elmlərin, o cümlədən kriminalistikanın metodlarını əvəz etmir və edə də bilməz. Çünki hadisə və faktların tam təhlili onlara konkret üsullarla yanaşmanı tələb edir. Ən ümumi metod idrakın predmetinin bütün hissələrinə nüfuz edə bilməz. Buna görə də konkret predmeti öyrənmək üçün konkret tədqiqat üsulu və metodları tələb edilir.

Dialektik metod kriminalistika üçün spesifik olan problemlərin fəlsəfi mahiyyətini açmağa imkan verir, daha doğrusu, istintaq-məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və bunun əsasında işlənib hazırlanmış tövsiyələrin elmi kriminalistik tədqiqatlarda, eləcə də müstəntiq və məhkəmə fəaliyyətindəki rolunu müəyyən etməyə imkan verir.

Dialektikanın kriminalistikada tətbiqinin təzahür forması kimi tədqiq edilən obyektin hərtərəfli öyrənilməsi tələb edilir.

Ümumi (ümumelmi) metodlar. Aydındır ki, istənilən konkret predmetin öyrənilməsi zamanı ümumi metodologiya ilə yanaşı xüsusi yanaşma da tələb edilir. Bu mənada müxtəlif elm sahələrində tətbiq edilən ümumi metodların rolu böyükdür. İstintaq, məhkmə və ekspert təcrübəsində təbii və texniki elmlərin müxtəlif sahələrində tətbiq edilən ümumelmi metodlardan (müşahidə, müqayisə, təsvir, ölçmə, eksperiment, analogiya, analiz, sintez, modelləşdirmə və s.) geniş istifadə edilir.

Kriminalistik fəaliyyətdə bu metodlar spesifik məzmuna malik olub, cinayətin hazırlanması, törədilməsi və ört-basdır edilməsinin gedişində baş vermiş faktiki halların öyrənilməsində istifadə edilir və onların tətbiqi müəyyən tələblər çərçivəsində həyata keçirilir.

Müşahidə ümumi metodlardan biri olub, ictimai münasibətlərin bilavasitə öyrənilməsinə yönələn fəaliyyətdir. Müşahidə prosesində müşahidə obyektinə diqqət cəmləşdirilir ki, bu da müşahidəçinin obyektə olan həssaslığını artırır. Diqqət bu zaman müşahidənin zəruri ünsürü kimi çıxış edir.

Kriminalistik müşahidənin digər müşahidələrdən fərqi yalnız onunla müəyyən olunur ki, o, sübutların toplanması, tədqiqi və qiymətləndirilməsi prosesində tətbiq edilir. Müşahidənin iştirakçıları baxımından onu bilavasitə və bilvasitə olmaqla fərqləndirirlər. İstintaq prosesində müşahidə obyektləri maddi aləmin bütün predmet və hadisələri deyil, yalnız cinayət ilə bağlı və sübut əhəmiyyətinə malik olan məlumat daşıyıcılarıdırlar. Bunlara cinayət və cinayətkarın izləri, onların əmələ gəlmə mexanizmi və s. aiddir.

Bu metoddan əsasən konkret istintaq hərəkətlərinin aparılmasında istifadə edilir. Məsələn, hadisə yerinin müayinəsi, tanınma üçün təqdim etmə və s.

Ölçmə. Bəzən istintaq prosesində obyektin hər hansı bir kəmiyyət xarakteristikasını və onlar arasında məkan və zaman münasibətlərini müəyyən etmək zərurəti ortaya çıxır. Buna ölçmə vasitəsilə nail olunur. Ölçmə metodu vasitəsilə hadisə yerində qalmış ayaq izlərinə görə izi qoyan şəxsin ayağının və yaxud ayaqqabının ölçüsü barədə mə`lumat əldə etmək mükün olur. Eləcə də nəqliyyat, sındırma alət və vasitələrinin və s. izlərin ölçüləri barədə mə`lumat əldə etmək üçün bu metod tətbiq olunur.

Təsvir etmə. Bu metod kriminalistik tədqiqatda müşahidə, ölçmə, eksperiment və s. metodlar vasitəsilə əldə edilmiş məlumatların rəsmiləşdirilməsi vasitəsi kimi, digər tərəfdən isə tədqiq edilən obyektin xüsusiyyətlərinin başa düşülməsi və qiymətləndirilməsinin zəruri şərti kimi çıxış edir.

Kriminalistikada təsvir metodu müxtəlif üsullarla aparılır:

MUHASIBAT.AZ

- obyekt haqqında məlumat sözlə ifadə olunur;

- obyekt haqqında məlumatın qrafik işarələrlə verilməsi (məsələn, sxemlər, qrafiklər və s.);

- müəyyən kodlardan istifadə etməklə təsvir etmə.

Təsvir metodu kino və videoçəkmə vasitəsilə də aparılır.

Müqayisə metodu əsasən kriminalistik tədqiqatlarda tətbiq olunur. Bu zaman tədqiq edilən obyektin eyniliyi, ya da qrup mənsubiyyəti müəyyən edilir.

Müqayisə edilən obyektin xüsusiyyətindən asılı olaraq onlar sadə və mürəkkəb üsulla aparılır. Sadə üsula tutuşdurma, üst-üstə qoyma və birləşdirmə aiddir.

Mürəkkəb üsulla müqayisə metodu, adətən, texniki vasitələrdən istifadə etməklə aparılır. Bu zaman müxtəlif mikroskoplardan, optik cihazlardan və s. istifadə edilir.

Eksperiment - latın sözü olub, mənası təcrübə (sınaq) deməkdir. Eksperiment konkret halın, prosesin mümkünlüyünü yoxlamaq məqsədilə müxtəlif şəraitlərdə dəfələrlə aparılan məqsədyönlü təcrübədir.

Eksperimentin nəticəsindən asılı olaraq irəli sürülmüş fərziyyələr ya təsdiq olunur, ya da inkar edilir.

Bu metod da ölçmə, təsvir etmə, müşahidə və s. metodlar kimi sübutların əldə edilməsi, tədqiqi və qiymətləndirilməsində mühüm rol oynayır.

Eksperiment metodu müstəntiqin istintaq hərəkəti kimi (istintaq eksperimenti), eləcə də müxtəlif ekspertizaların (məhkəmə ballistik, trasaloji və s.) aparılmasında tədqiqat metodu kimi çıxış edir.

Ekspert tədqiqatında analiz vasitəsilə obyektlərin ümumi və xüsusi əlamətləri müəyyən edilirsə, sintez vasitəsilə bu əlamətlərin qiymətləndirilməsi başa çatdırılır.

Bundan başqa ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında da analiz və sintez metodundan istifadə olunur. Məsələn, hadisə yerinə baxış aparılmasında və s.

İnduksiya və deduksiya cinayətlərin istintaqında, xüsusilə də fərziyyələrin qurulması (ümumi və xüsusi fərziyyələrin), yoxlanılması zamanı ümumi metod kimi tətbiq olunur.

Qeyd edilənlərdən başqa məntiqin anologiya və abstrakt qanunlarından da müvafiq kriminalistik məsələlərin həllində istifadə edilir.

## 3.Kriminalistikanın xüsusi metodları

Xüsusi elmi metodlar dedikdə konkret obyektin, hadisənin, predmet və faktların öyrənilməsi üzrə müəyyən üsul, qayda və tövsiyələr sistemi başa düşülür.

Bu qrupa sahəvi xarakter daşıyan elmlərin istifadə etdiyi metodlar daxildir. Bunlara aşağıdakılar aiddir: riyazi, fiziki, kimyəvi, fiziki-kimyəvi, antropoloji, antropometrik, sosioloji metodlar.

Riyazi metod - buraya analitik həndəsənin, ehtimal nəzəriyyəsinin, riyazi statistika və riyaziyyatın digər sahələrinin metodları daxildir. Bu metodlar vasitəsilə kriminalistik tədqiqatlar apararkən tədqiq edilən obyektin keyfiyyət göstəriciləri ilə yanaşı kəmiyyət və quruluş xüsusiyyətlərini də müəyyən etmək mümkün olur. Məsələn, məhkəmə xətşünaslıq ekspertizasının aparılmasında qeyd edilən riyazi metodlar tətbiq edilir.

MUHASIBAT.AZ

Fiziki, kimyəvi və fiziki-kimyəvi metodlar. Bu metodlar vasitəsi ilə cinayət izlərinin aşkar edilməsi, rəsmiləşdirilməsi və tədqiqi aparılır. Eyni zamanda tədqiq edilən obyektlərin növlərindən asılı olaraq onların morfoloci əlaqələri, ayrı-ayrı fiziki və kimyəvi keyfiyyətləri, onun daxili quruluşunun xüsusiyyətləri və s. məsələlər həll olunur.

Fiziki, kimyəvi və fiziki-kimyəvi metodlar əsasən kriminalistik texnika bölməsində əks olunmuş ayrı-ayrı məsələlərin tədqiqində tətbiq olunur.

Bu metodlar fotoşəkilçəkmə, səsyazma, izlərin aşkar edilməsi şəklində, eləcə də spektral analiz, lüminessensiya analizi, xromatoqrafiya, mikrokimyəvi analiz və s. formada istifadə edilir.

Antropoloji və antropometrik metodlar. Bu metod ekspert tədqiqatında canlı şəxslərin və meyitlərin anatomik əlamətlərinə görə eyniləşdirilməsində, tanınma üçün təqdim etmədə, eləcə də axtarışda olan şəxslərin tapılmasında şifahi portret terminlərindən istifadə etməklə zahiri görünüş əlamətlərinin təsvir edilməsində və s. məsələlərin həll edilməsində tətbiq edilir.

Sosioloji metod. Cinayətin baş vermə şəraiti və səbəbini aydınlaşdırmaq məqsədilə kriminalistikada tətbiq edilən tədqiqat metodlarından biri kimi hüquq mühafizə orqanlarının işçiləri arasında sorğu və anketləşdirmə aparmaqla həyata keçirilir. Belə sorğu və anketləşdirmə istintaq prosesində rast gəlinən tipik halların müəyyən edilməsi, cinayətlərin kriminalistik xarakteristikasının quruluşuna daxil olan elementlərin qarşılıqlı əlaqəsinin qanunauyğunluqlarının aydınlaşdırılması, istintaq prosesinə daha səmərəli üsulların tətbiq edilməsi və s. məqsədilə aparılır.

Sırf kriminalistik metodlar. Xüsusi metodlardan fərqli olaraq sırf kriminalistik metodlar yalnız kriminalistik fəaliyyətdə tətbiq edilmək üçün işlənib hazırlanmışdır. Göstərilən metodlar kriminalistik fəaliyyət dairəsində yalnız elmi cəhətdən əsaslı, təhlükəsiz, səmərəli, etik normalara və mövcud qanunvericiliyə uyğun olmaq şərti ilə tətbiq edilə bilərlər. Belə metodlara hissələrə görə tamın eyniləşdirilməsi, pozma, silmə, sonradan əlavə etmə əlamətlərinin müəyyən edilməsi metodları, istintaq hərəkətlərinin planlaşdırılması, taktiki üsulların kompleks tətbiq edilməsi və s. aiddir.

Məlum olduğu kimi bu metodlar özləri də kriminalistik texnika, kriminalistik taktika və istintaqın kriminalistik metodikası bölmələrində tətbiq edildiklərinə görə bir-birindən fərqlənirlər. Əgər kriminalistik texnika bölməsində sırf kriminalistik metodlar tətbiq edilərkən daha çox texniki vasitələrdən istifadə edilməsini tələb edirsə, istintaqın kriminalistik metodikasında istintaqı aparılan cinayət hadisəsinin növündən asılı olaraq onun planlaşdırılması metodu, uydurma şəraitin, yalan alibinin ifşa edilməsi metodlarının tətbiqi zəruridir.

Elm və texnikanın inkişafı ilə əlaqədar olaraq modelləşdirmə digər elm sahələrində (riyaziyyatda, fizikada və s.) olduğu kimi, istintaq prosesində də geniş tətbiq edilir.

Modelləşdirmənin universal əhəmiyyət kəsb etməsi onu təfəkkürün ümumelmi metodu kimi qəbul etməyə əsas vermişdir. Eləcə də kriminalistikanın ümumelmi metodlarından biri də modelləşdirmədir.

Bu metoddan faktların birbaşa tədqiqi mümkün olmadıqda və yaxud məqsədəmüvafiq hesab edilmədikdə istifadə olunur.

İstintaq, məhkəmə və ekspert təcrübəsində modelləşdirmə geniş tətbiq edilir. Belə ki, istintaqın planlaşdırılması, istintaq fərziyyələrinin qurulması, eləcə də məhkəmə

MUHASIBAT.AZ

ekspertizalarının, xüsusilə də, kriminalistik ekspertizaların aparılmasında onun mühüm əhəmiyyəti vardır.

Modelləşdirmənin mahiyyətinin daha ətraflı başa düşmək üçün modelin anlayışı verilməlidir.

Əvvəllər modelin anlayışı maddi obyektlə əlaqədar izah edildiyi üçün ona predmetin kiçildilmiş, bəzi hallarda böyüdülmüş və ya naturasının əksi kimi baxılırdı.

Sonralar "model" terminінə başqa bir fikir - "əks" termini sinonim kimi əlavə olundu. Elmi axtarışda isə hər hansı bir şeyin surəti kimi əhəmiyyət kəsb etdi. Bundan sonra model təkcə predmetin deyil, hadisənin, prosesin də əksi kimi qəbul edildi.

Model nəinki ideal formada hər hansı bir materialı, şeyi, eyni zamanda fikri də ifadə edir.

Kriminalistik ədəbiyyatda modelin anlayışına müxtəlif mövqedən yanaşırlar. Y.A.Ponomaryov qeyd edir ki, biz modeli bütün maddi cisimlərin və ya halların bu və ya digər əsildən (orcinaldan) alınmış surəti adlandırırıq.

İ.M. Luzqin qeyd edir ki, model tədqiqat obyektini əks və təsvir edən reallaşmış maddi və ya fikri təmsil edilən elə bir sistemdir ki, bu model tədqiqat haqqında yeni mə`lumatlar əldə etməyə imkan verir1.

A.R.Ratinovun fikrincə, model dedikdə ümumiyyətlə, nəzəri və praktiki yaradılmış struktur başa düşülür (statik və dinamik) və bu hər hansı fəaliyyətin müəyyən hissəsini əks etdirən qəbul olunmuş və sxem şəklinə salınmış formadır.

Hal-hazırda model orjinalın ya bütöv, ya da hər hansı bir hissəsinin xüsusiyyətlərini əks etdirən vasitə kimi başa düşülür. Əgər bütün məlumatlar öz-özlüyündə model kimi qəbul edilərsə, onda model termini universal xarakter daşıyır.

Deməli, model insanı əhatə edən bütün maddi aləmin, onun ayrı-ayrı elementlərinin formalaşması və siqnallar məcmusu kimi qəbul edilə bilər. Beləliklə, model insanı əhatə edən hadisələri başa düşmə vasitəsidir.

"Modelləşdirmə" anlayışı ilə "model" anlayışı bir-biri ilə sıx əlaqədədir.

Modelləşdirmə anlayışı altında, adətən, modellərin hazırlanması prosesi başa düşülür. Modelləşdirmənin mahiyyəti müəyyən hadisə və proseslərin fikrən və ya maddi olaraq modelinin elə qurulmasıdır ki, onun köməyi ilə əldə edilmiş mə`lumatlar tədqiq olunan digər predmet və hadisələr haqqında fikir söyləməyə əsas verir.

Beləliklə, modelləşdirmə özündə həm tədqiq olunan obyektin modelinin qurulması və ya yaradılması üçün müəyyən təcrübələrin, müəyyən mühakimələrin formalaşmasını birləşdirir, həm də həmin təcrübənin nəticələrinə görə müəyyən obyekti qiymətləndirməyə imkan verir.

Modelləşdirmə öyrənilən obyektin yalnız bəzi bizə məlum olan cəhətlərini özündə birləşdirir və tədqiqatın məqsədi modelləşdirmənin köməyi ilə bizə məlum olmayan digər cəhətlər haqqında da məlumat əldə etməyə imkan verir.

Ümumiyyətlə, cinayətlərin istintaqı zamanı tətbiq edilən modelləşdirmə, daha doğrusu, konkret bir modelin tətbiq edilməsi bizdə həmin obyektlərin ayrı-ayrı elementlərini ayırmağa, bu elementlərin xarakteri, onlar arasındakı əlaqəni öyrənməyə, həmçinin modellə əsil arasındakı, eləcə də modellə digər sübutlar arasındakı münasibəti tədqiq etməyə imkan verir.

MUHASIBAT.AZ

Modellərin vasitəsi ilə obyekti və yaxud onun ayrı-ayrı tərəflərini (halları, prosesi) əks etdirmək, onu yenidən düzəltmək, eləcə də onların köməyilə yeni məlumatlar əldə etmək mümkündür.

Model və modelləşdirmənin növləri kriminalistik ədəbiyyatda müxtəlif cür təsnifləşdirilsə də əksər kriminalistlər modelləşdirməni iki əsas sinfə bölürlər:

1. Maddi modelləşdirmə

2. İdeal modelləşdirmə.

Bu prosesdə alınmış modellər müvafiq olaraq maddi və ideal modellərə bölünürlər.

Maddi modellər məkanca həndəsi, fiziki, riyazi model-lərə, ideal modellər isə obrazlı, qarışıq və simvolik modellərə bölünürlər.

Kriminalistik tədqiqatda bu təsnifata daxil olan bütün növ modellərdən istifadə edilir.

Maddi modellər içərisində məkanca uyğun (həndəsi) modellər kriminalistik fəaliyyətdə daha çox tətbiq edilir. Belə modellərdə öz ölçüsü və forması olan ayrı-ayrı predmetlərin həcmi xüsusiyyətlərinin məcmusu əks etdirilir.

Belə obyektlərə müxtəlif əşyalar, tikililər, qurğular və eləcə də təbii mövcud olan obyektlər, o cümlədən hər hansı bir sahə, insanın zahiri görünüşü, heyvanın xarici görünüşü və s. aiddir.

Belə modellər predmetin xarici əlamətlərini əks etdirmək məqsədilə mulyaj şəklində və eləcə də hadisə yerinin və yaxud hər hansı bir sahənin əsas hissələrini özündə əks etdirən maket şəklində qurula bilər. Modeldə əslin həm xarici xüsusiyyətləri, həm də daxili strukturları, əsas hissəsi, daxili quruluşu (mexanizmlər, elektrik naqilləri sistemi) və s. əks oluna bilər.

Məkanca uyğun modellər əsillə (orjinalla) izomorf uyğunluğa malik olmalıdırlar.

Modelin elementləri, hissələri əsllə analoci uyğunluğa malik olmalıdır. Məkanca oxşar modellər əsl haqqında aydın təsəvvür yaradır. Bundan müxtəlif istintaq hərəkətlərinin yerinə yetirilməsi zamanı istifadə edilir, məsələn, istintaq eksperimenti və s.

Məkanca uyğun modellərə fotoşəkillər, kinolentlər, video əkslər, əl, ayaq, diş, sındırma alət və vasitələrin və s. izlərin surəti də aiddir.

Fiziki oxşar modellər əsllə mexaniki, dinamik və s. fiziki oxşarlıqlara malik olur.

Fiziki oxşar modellərdə əks olunan əslin xüsusiyyəti ya adi gözlə, ya da xüsusi cihazlar vasitəsi ilə müqayisə olunur ki, bu da əsl ilə model arasındakı forma, struktur və s. uyğunluğun dərəcəsini yoxlamağa imkan verir. Kriminalistik fəaliyyətdə belə modellər çox geniş tətbiq olunur. Onlara kinofilmlər, fonoqramlar, videoəkslər və s. aiddir.

Riyazi oxşar modellər vasitəsi ilə predmetlərin, proseslərin, hadisələrin müxtəlif əlamətləri yenidən riyazi formula, riyazi bərabərlik şəklində yaradılır. Bunlar isə funksional kibernetik qurğular, hesablama maşınlarının və s. köməyilə hazırlanır.

Burada əsllə model arasındakı uyğunluq rəqəm göstəricilərinin mə`nasının açılması vasitəsilə yoxlanıla bilər. Bu üsulla da göstərilən qurğuların köməyi ilə aparılan tədqiqatın nəticəsi qiymətləndirilir.

Cinayətlərin istintaqı zamanı ideal modellərdən daha çox istifadə edilir.

İdeal modellər üç yerə bölünür: obrazlı, qarışıq və simvolik.

Obrazlı modellərə hipotez, oxşar və ideallaşdırılmış modellər aiddirlər. Bu modellər vasitəsi ilə əvvəlcədən məlum olan, eləcə də real mövcud olan obyektlər, yaxud da ehtimal olunan obyektlər haqqında təsəvvürlər əldə edilir.

MUHASIBAT.AZ

Cinayətlərin istintaqı zamanı müstəntiq istintaqın planlaşdırılması, istintaq fərziyyələrinin qurulması, onların yoxlanılması, eləcə də bu zaman əldə edilmiş sübutların qiymətləndirilməsi prosesində fasiləsiz olaraq obrazlı modellər qurur.

Qarışıq modellər özündə sxemləri, xəritələri, çertyocları, qrafikləri, kimyəvi struktur formulalarını əks etdirir ki, bu da tədqiqat obyektlərinin xüsusiyyətləri haqqında fikir yürütməyə imkan verir. Belə modellər şərti-işarələrin köməyilə tədqiq edilən obyektin müəyyən xüsusiyyətlərini əks etdirir. Məsələn, hadisə yerinə baxış zamanı onun sxeminin çəkilməsi, ekspertin rəyə müəyyən illüstrasiyalar əlavə etməsi və s.

Simvolik modellər müxtəlif şərti nişanlar sistemidir. Belə modelin elementləri hərflər, rəqəmlər və s. simvolik işarələrlə göstərilir ki, onlar da müəyyən məntiqi ardıcıllığın simvolu olaraq obyektin obrazını yox, onun anlayışını əks etdirir. Belə modellərə cinayət qeydiyyatında istifadə edilən daktilodüsturlar aiddir. Burada rəqəmlərin köməyilə papilyar naxışların xüsusiyyətləri əks etdirilir. Məsələn, əgər əsas düstur 32/32-dirsə, ondar insan əl barmaqlarının 10-nunda papilyar naxış xətlərinin dairəvi olduğu barədə fikir irəli sürülür və s.

Yuxarıda qeyd edilənlərdən başqa modellər zamana görə istiqamətindən asılı olaraq retrospektiv və prespektiv modellərə də bölünür. Bu modellər ideal modelləşdirmənin xüsusi bir növü kimi fərqləndirilir.

Retrospektiv modellər, adətən, keçmişdə mövcud olan və modelləşdirilən zaman mövcud olmayan hadisələri, predmetləri, hərəkət və prosesləri əks etdirir.

Retrospektiv model bilavasitə hadisə yerinin vəziyyəti ilə, ifadələrlə, sənəd və predmetlərlə tanışlığa əsaslanır. Belə modellərdə əsas yeri fərziyyələr tutur.

Retrospektiv modelin əsasını istintaq hərəkətlərinin icrası zamanı aşkar edilmiş və sonradan sübut kimi qəbul edilmiş faktiki məlumatlar təşkil edir. Əgər retrospektiv modelə müstəntiqin baş vermiş hadisə haqqında mə`lumatlarının sistemi kimi baxsaq, onda sübutlar sistemini müstəntiqin dərketmə və sübutetmə fəaliyyətinin nəticəsi kimi qəbul etməliyik.

Sübutlar sistemi retrospektiv modelin köməyi ilə formalaşır. İstintaqın müəyyən mərhələsində bu model dərketmənin həqiqi nəticəsi, bütün istintaq müddətində isə dərketmə vasitəsi kimi çıxış edir.

Perspektiv modelləşdirmədə isə öz inkişafını davam edən obyekt əks olunur.

O, istintaq planında özünü ifadə edir. Perspektiv modelləşdirmə də retrospektiv modelləşdirmə kimi cinayət işi üzrə məlumatlara, xüsusi elmlərə və müstəntiqin təcrübəsinə əsaslanır. Bu modellərin məzmunu müxtəlif olsa da onların yaranma mənbəyi eynidir. Perspektiv modellər də müəyyən quruluşa malikdir. Onun elementlərinə aşağıdakılar daxildir: fərziyyələr, işçi proqram, müstəntiqin davranışının şəxsi modeli və s.

Perspektiv modellər nəticəvi və proqnoz modellərə bölünür.

Nəticəvi model tədqiqat prosesində əks olunan obyektin dəqiq məlum olan istiqamətini və surətini göstərməklə, inkişafını əks etdirməklə həqiqi nəticə almağa imkan verir.

Proqnoz model tədqiqat prosesində obyektin ehtimal olunan gələcək inkişafını öyrənməyə imkan verir. O, bir tərəfdən obyektin inkişafına təsir edən müxtəlif faktorların qarşılıqlı hərəkətlərinin qanunauyğunluğunu aşkar etməyə, digər tərəfdən isə proqnoz təsdiq olunmayan hallarda obyektin inkişafına mühüm tə`sir göstərən faktorların nəzərdən qaçdığını müəyyən etməyə imkan verir.

MUHASIBAT.AZ

Modelləşdirmə həcmindən asılı olaraq ümumi və xüsusi modellərə də bölünür.

Ümumi model Azərbaycan Respublikasının CPM-in 139-cu (sübut edilməli olan hallar) maddəsinin tələblərindən irəli gələn məsələlərin həllinə yönəlir.

Xüsusi model ayrı-ayrı məsələlərin və halların öyrənilməsinə xidmət edir. Məsələn, cinayətkarın şəxsiyyətinə aid olan modellər, hadisə yerinin modeli, istintaq və əməliyyat-axtarış hərəkətlərinin modelləri və s.

Ümumi və xüsusi modellərin eyniləşdirmə, istiqamətverici və təşkilati modellərə bölünməsi istintaq prosesində modellərin işçi rolu haqqında və müstəntiqin onlara uyğun işinin istiqamətini müəyyən etməsi haqqında təsəvvür yaradır.

Təşkilati modellər iş üzrə müxtəlif konkret məsələlərin tədqiqatı ilə bilavasitə əlaqədar modellərin yaradılmasının məqsədəuyğun ardıcıllığını müəyyən etməyə imkan verir.

Eyniləşdirici modellər konkret şəxslərin və ya predmetlərin müxtəlif özünəməxsus əlamət və xüsusiyyətlərini aşkara çıxarmağa, qorumağa və dərk olunmasını asanlaşdırmağa, həmçinin, onların daxil olduqları qrupları müəyyən etməyə və eyniləşdirməyə imkan verir. Məsələn, şübhə edilən şəxsin modeli.

İstiqamətverici modellər müxtəlif obyektlər və hadisələr aralarındakı əlaqəni müəyyən etməyə, hadisənin gələcək inkişafını, habelə şəxslərin gələcək davranışını proqnozlaşdırmağa imkan verir. Bundan asılı olaraq müstəntiq öz fəaliyyətini müəyyən edir. Məsələn, hadisə yerinin, ayrı-ayrı şəxslər arasındakı əlaqələrin və onların münasibətlərinin modelləri və s.

Nəhayət, subyektinə görə də modelləşdirməni aşağıdakı növlərə ayırmaq olar:

- müstəntiq və məhkəmə tərəfindən modelləşdirmənin tətbiqi;
- əməliyyat-axtarış işçiləri tərəfindən həyata keçirilən modelləşdirmə;
- ekspert fəaliyyətində modelləşdirmə.

Kriminalistik ədəbiyyatda modelləşdirmənin xüsusi bir növü kimi rekonstruksiya da fərqləndirilir.

MUHASIBAT.AZ

## MÖVZU: 3 KRİMİNALİSTİK EYNİLƏŞDİRMƏ VƏ DİAQNOSTİKA

**RLAN**

1. Kriminalistik eyniləşdirmənin anlayışı, elmi əsasları və növləri
2. Eyniləşdirmə obyektləri və əlamətləri
3. Ekspert eyniləşdirməsinin ümumi metodikası
4. Kriminalistik diaqnostika

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

1.Kriminalistika. К.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

6.Колдин В.Я. Идентификайия при расследовании преступлений. М., 1978.

7.Колдин В.Я. Судебня идентификация.- М.: ЛексЭст, 2002.

8.Корухов Ю.Г.Криминалистическая диагностика при расследовании преступлений: Научно-практическое пособие. СПб.,1998.

### 1. Kriminalistik eyniləşdirmənin anlayışı, elmi əsasları və növləri

İstintaq təcrübəsində eyniləşdirmə ilə bağlı müxtəlif məsələlərə çox tez-tez rast gəlinir. Cinayət işlərinin istintaqı zamanı bir çox hallarda hadisə yerində və cinayətin edilməsi ilə əlaqədar digər yerlərdə cinayətkarın və ya zərər çəkmiş şəxsin əl-barmaq və ayaq izləri, sındırma aləti, yaxud odlu silah izləri, habelə cinayəti və cinayətkarı xarakterizə edən, iş üçün əhəmiyyət kəsb edən izlər və digər maddi əkslər aşkar edilir. Hər bir halda aşkar edilən belə izlərin və digər maddi əkslərin istintaqı aparılan cinayət işi ilə əlaqəsinin müəyyən

MUHASIBAT.AZ

edilməsi və bu izlərin kim tərəfindən, yaxud bilavasitə hansı predmetlərdən qoyulmasının aydınlaşdırılması tələbi meydana çıxır (məsələn, hadisə yerində aşkar edilmiş əl-barmaq izinin konkret şəxs tərəfindən qoyulmasının, yaxud sənəddə əks olunan möhürün konkret möhürlə vurulmasının müəyyən edilməsi). İzlər və digər maddi əkslər üzrə həmin izi, yaxud maddi əksi qoyan şəxsin və ya predmetin müəyyən edilməsi eyniləşdirmə vasitəsilə həyata keçirilir.

Eyniləşdirmə prosesində izi qoyan obyektin müəyyən edilməsi məqsədi ilə izdə əks olunan əlamətlər izi qoyması ehtimal edilən obyektin əlamətləri ilə müqayisə edilir.

Eyniləşdirmə istintaqı aparılan cinayət hadisəsi ilə bağlı obyektlərin eyniyyət məsələsini və hadisə ilə bağlı əlaqəsini müəyyən etmək məqsədi ilə aparılan müqayisəli tədqiqatdır.

Obyektin eyniliyi dedikdə, hər şeydən əvvəl həmin obyekti xarakterizə edən əlamətlərin başqa obyeklərdə, o cümlədən ona oxşar, yaxud həmin növ və ya cinsdən olan obyektlərdə təkrar olunmaması və bunlardan fərqlənməsi başa düşülür.

Dialektik eyniyyət və dialektik dərketmə metodu haqqında təlim kriminalistik eyniləşdirmə nəzəriyyəsinin əsasını təşkil edir.

İnsan təfəkkürünün mühüm qanunlarından biri kimi formal məntiqin eyniyyət qanunu eyniləşdirmə prosesində mühüm əhəmiyyət kəsb edir.

Dialektik eyniyyət haqqında təlim maddi aləm obyektlərinin fərdiliyi prinsipindən çıxış edir.

Kriminalistik eyniləşdirmə haqqında təlimin kriminalistika elmində böyük nəzəri və təcrübi əhəmiyyəti vardır. Eyniləşdirmə məhkəmə sübutlarını toplamaq və tədqiq etmək məqsədilə istintaq-təhqiqat və məhkəmə orqanlarının fəaliyyətində və bu məqsədlə aparılan müxtəlif növlü kriminalistik ekspertizalarda tətbiq edilir.

Maddi obyektlərin eyniliyi həmin obyektlərin xüsusiyyətlərinin ifadəsi kimi bir sıra əlamətləri ilə müəyyən edilir və belə əlamətlərin məcmusu həmin obyekti ona oxşar obyektlərdən fərqləndirir. Məsələn, hər hansı əşya üçün bu kimi əlamətlər: həmin əşyanın ölçüsü, çəkisi, təyinatı, onun materialının quruluşu və onu xarakterizə edən digər ümumi və xüsusi əlamətlər ola bilər.

Kriminalistik eyniləşdirmə heç də müxtəlif obyektlərə xas olan bütün xüsusiyyətlərə və əlamətlərə əsaslanmır. Eyniləşdirmə aparılarkən obyektin xarici formasının fərdiliyinin böyük əhəmiyyəti vardır.

Kriminalistik eyniləşdirmənin obyektləri: adamlar (cinayətkar, zərər çəkmiş şəxs, şahid və ya başqa şəxslər), heyvanlar, maddi sübut ola bilən predmetlər (silah, nəqliyyat vasitələri, sındırma alətləri və sair) ola bilər. Eyniləşdirmə prosesində göstərilənlərlə yanaşı bu və ya digər eyniləşdirilən obyektin buraxdığı izlər də (ayaq və əl-barmaq izləri, sındırma aləti izləri, odlu silahın tətbiq edilməsi nəticəsində güllə və gilizdə qalan izlər və s.) tədqiq olunur. Kriminalistik eyniləşdirmədə şəxsiyyətin eyniləşdirilməsi vasitələrindən biri kimi insan vərdişlərindən də istifadə edilir (məsələn, xəttin tədqiqatında).

Eyniləşdirmədə obyektin fərdi mənsubiyyəti müəyyən edilir və obyekti xarakterizə edən əlamətlərin məcmuu onu oxşar obyektlərdən fərqləndirir.

Eyniləşdirmə tədqiqatı prosesində eyniliyin və qrup mənsubiyyətinin müəyyən edilməsi bir-biri ilə sıx əlaqədədir. Bir çox hallarda qrup mənsubiyyətinin müəyyən edilməsi eyniləşdirmə prosesinin ilk mərhələsini təşkil edir. Obyektlərin eyniliyi təkcə eyni cinsli obyektlərə xas olan ümumi əlamətlərin uyğun gəlməsi ilə deyil (obyektin cinsi, növü, ümumi

MUHASIBAT.AZ

quruluşu), həm də obyekti bilavasitə xarakterizə edən və onu oxşar obyektlərdən fərqləndirən xüsusi əlamətlərin məcmusu əsasında müəyyən edilir. Eyniləşdirilən obyektlərin təbiətinə görə, insan hafizəsində əks olunmuş ideal obrazlara görə, obyektlərin əks olunmuş maddi izlərinə və hissələrinə görə tamın eyniləşdirilməsi fərqləndirilir.

Şəxslərin, heyvanların, meyidlərin, şeylərin və digər obyektlərin tanınması eyniləşdirmə təliminə əsaslanır və eyniləşdirmə əsasında aparılır. Bu baxımdan eyniləşdirmədən digər istintaq hərəkətləri aparılarkən də (məsələn, baxış, axtarış) istifadə olunur.

Eyniləşdirmə nəticəsində alınan məlumatlar cinayət işlərinin istintaqı və mahiyyət üzrə həll edilməsi zamanı iş üzrə müəyyən edilməsi zəruri olan halların aydınlaşdırılmasında sübutetmə vasitələrindən biridir. Eyniləşdirmə prosesi nəticəsində əldə edilən məlumatlar iş üzrə həqiqəti müəyyən etmək üçün əhəmiyyətə malik olan konkret faktların müəyyən edilməsində mühüm rol oynayır.

Kriminalistik eyniləşdirmədə obyektin xarici quruluşunun, onun müəyyən hissəsinin, yaxud eyniləşdirən obyektdə qalan əksinin əlamətləri və ya xüsusiyyətləri əsas götürülür. Subyektinə görə istintaq, məhkəmə və ekspert eyniləşdirilməsi fərqləndirilir. Eyniləşdirmənin aparılması xüsusi bilik və elmi-texniki vasitələrdən istifadəni tələb etməzsə, bunu müstəntiq özü həyata keçirməlidir. Bir sıra hallarda eyniləşdirmənin müstəntiqin özü tərəfindən aparılması cinayət prosessual qanunun tələblərindən irəli gəlir. Məsələn, Azərbaycan Respublikası CPM-nin 227.4.-cü maddəsinə əsasən müstəntiq şahidi dindirməzdən əvvəl onun şəxsiyyətini müəyyən etməlidir. Yaxud həmin məcəllənin 239 və 240-cı maddələri tanınma üçün şəxsiyyətin təqdim edilməsi və ya bu məqsədlə predmetlərin tanınma üçün təqdim edilməsi zamanı müstəntiqin tanınmanı eyniləşdirmə əlamətləri üzrə aparması tələb edilir. Lakin bir qrup obyektlərin eyniləşdirilməsi zamanı xüsusi bilikdən və elmi-texniki vasitələrdən istifadə etmək zərurəti yaranır. Bu zaman eyniləşdirmə kriminalistik ekspertiza vasitəsilə həyata keçirilir.

A.İ.Vinberq eyniləşdirmə prosesinin aparılmasının üç növünü qeyd edir: istintaq (məhkəmə) eyniləşdirməsi, kriminalistik qeydiyyatın köməyi ilə eyniləşdirmə və ən nəhayət, ekspert eyniləşdirməsi. O göstərir ki, əgər eynilik obyektin açıq aydın əlamətləri üzrə müstəntiq tərəfindən müəyyən edilərsə, bu istintaq (məhkəmə) eyniləşdirməsidir (məsələn, şəxsiyyəti tanınma üçün təqdim etmə, yaxud istintaq baxışı, axtarış və digər istintaq hərəkətləri vasitəsilə müəyyən edilməsi). Şəxsiyyətin müəyyən edilməsi daktiloskopik qeydiyyat vasitəsi ilə yoxlamanı tələb edirsə, belə hallarda kriminalistik qeydiyyatın məlumatlarından istifadə etməklə aparılan eyniləşdirmə mövcud olur. Əgər şəxsiyyət haqqında məsələnin həlli ekspertiza aparılmasını tələb edərsə (məsələn, xarici əlamətlərinə görə "şifahi portret", yaxud yazı xəttinə görə) onda, ekspert eyniləşdirilməsi aparılır.

Subyektinə görə əməliyyat-axtarış fəaliyyəti prosesində əməliyyat-axtarış işçiləri tərəfindən həyata keçirilən obyektlərin eyniləşdirilməsi də fərqləndirilməlidir.

Eyniləşdirmə prosesinin aparılmasının növlərə bölünməsi şərti xarakter daşıyır. Bu şərtiliyin həm tədris-metodiki və həm də təcrübi əhəmiyyəti vardır. Müstəntiq tərəfindən kriminalistik eyniləşdirmənin tələblərinə qeyri-ciddi münasibət, yaxud etinasızlıq iş üçün mühüm olan sübutların əldə edilməsinə mənfi təsir göstərir. Məsələn, oğurlanmış əmlakın əlamətlərinin müstəntiq tərəfindən səthi qeyd edilməsi həmin əmlakın axtarışını çətinləşdirir. Müstəntiq müqayisəedici materialları tələb edilən səviyyədə toplamalı və eyniləşdirilən obyektlərin dairəsini düzgün müəyyən etməlidir.

MUHASIBAT.AZ

Eyniləşdirmə prosesinin aparılması xüsusi bilik, yaxud cinayət qeydiyyatı məlumatlarından istifadə edilməsini tələb etmirsə, onda eyniləşdirməni müstəntiq özü aparmalıdır. İstintaq və məhkəmə təcrübəsi göstərir ki, cinayət işlərinin istintaqı ilə əlaqədar olaraq dəniz və hava donanmasının komandirlərinə məxsus olan gödək qılınc aşkar edildikdə müstəntiq, adətən, həmin silahın soyuq silahlar qrupuna aid olub-olmamasını müəyyən etmək üçün silahı ekspertizaya göndərir. Ancaq bunun üçün xüsusi bilik tələb olunmur. Həmin silahlarda soyuq silahları xarakterizə edən əlamətləri ekspertin köməyi olmadan müstəntiq özü müəyyən edə bilər. Bunu müstəntiqdən onun peşə ixtisası tələb edir.

İstintaq təcrübəsində bir çox hallarda tamın onun hissələrinə görə müəyyən edilməsi məsələsi də meydana çıxır. Tamın hissələrinə görə eyniləşdirilməsi yalnız onun bölünməsi zamanı yaranan (kəsmə, parçalama) izləri öyrənməklə kifayətlənmir, o həm də tədqiq olunan hissələrin maddələrinin (materiallarının) quruluşunu, tərkibini təhlil edir. Bəzən hadisə yerində, yaxud cinayətin edilməsi ilə əlaqədar digər yerlərdə cinayət alətlərinin, cinayətkar hərəkətin yönəlmiş olduğu konkret obyektin və iş üçün əhəmiyyəti ola bilən hər hansı bir predmetin müəyyən hissələri qala bilər. Həmin hissələrin bilavasitə hansı predmetin hissəsi olmasını aydınlaşdırmağın böyük əhəmiyyəti vardır. Məsələn, cinayət yerində sındırma alətinin qalmış bir hissəsinin və şübhə edilən şəxsin evinin axtarışı zamanı həmin alətin qalan hissəsinin tapılması. Təbiidir ki, tapılmış hər iki alət hissələrinin konkret bir alətin hissələrini təşkil edib-etməməsinin aydınlaşdırılması istintaq üçün xüsusi əhəmiyyət kəsb edir.

Obyektin onun hissələri üzrə eyniləşdirilməsi həmin hissələri birləşdirib ayrılma xətti üzrə müqayisə etməklə aparılır və belə tədqiqatlar əksər haldlarda yaxşı nəticələr verir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, ideal izlərə (insan şüurunda əks olunan) görə, məsələn, tanınma üçün təqdim etmə, insan qalıqlarına və fotoşəkilə görə eyniləşdirmə də fərqləndirilir.

## 2. Eyniləşdirmə obyektləri və əlamətləri

Eyniləşdirmə prosesində iştirak edən obyektlərin təsnifləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki həmin obyektlərin rolu müxtəlifdir. Onlar eyniləşdirilən (axtarılan) və eyniləşdirən (yoxlanılan) obyektlərə bölünür.

Eyniləşdirilən obyekt cinayət hadisəsi törədilən zaman izi qoymuş obyektdir və onun müəyyən edilməsi eyniləşdirmə tədqiqatının məqsədini təşkil edir.

Eyniləşdirən obyektlər izləri özündə əks etdirən obyektlərdir. Bunlara hadisə yerində qalmış ayaq izləri, papilyar naxışların əksi, yazı mətni, cırılmış sənədin hissələri və s. aid ola bilər. Bundan əlavə, obyektin insan hafizəsində qalmış ideal əksi də həmin obyektlər qrupuna daxildir.

İstər maddi, istərsə də ideal formada mövcud olan eyniləşdirən obyektlər eyniləşdirilən (axtarılan) obyektin kifayət qədər əlamətlərini özündə əks etdirməlidir ki, onların əsasında eyniyyət məsələsini həll etmək mümkün olsun. Əgər həmin obyektlər eyniləşdirilən obyektin kifayət qədər əlamətlərini özündə əks etdirmirsə, onda onlar eyniləşdirən obyekt rolunu oynaya bilməzlər və belə hallarda eyniyyət məsələsini həll etmək mümkün olmur.

MUHASIBAT.AZ

Eyniləşdirən obyekt həm fərdi, həm də qrup eyniləşdirməsi üçün eyni dərəcədə zəruridir. Qrup eyniləşdirməsi zamanı eyniləşdirən obyekt rolunu həmin qrupa daxil olan və onların uyğun əlamətlərini özündə əks etdirən obyektlər oynayır.

Eyniləşdirmə obyektləri axtarılan və yoxlanılan obyektlərə də bölünürlər.

Axtarılan və yoxlanılan obyektlərin fərqləndirilməsi eyniləşdirmənin mühüm prinsiplərindən biridir və o, istintaq və məhkəmə tədqiqatlarında faktların və ehtimalların ciddi olaraq fərqləndirilməsi tələbindən irəli gəlir.

Tədqiqat prosesində yoxlanılan obyektin axtarılan olduğu güman edilir, ancaq nəticədə aydın ola bilər ki, izlər yoxlanılan obyekt tərəfindən deyil, başqa obyekt tərəfindən qoyulub. Axtarılan obyektin xüsusiyyətləri onun əksinə (izinə, şəklinə) görə müəyyən edilir.

Yoxlanılan obyektlərin xüsusiyyətləri isə onun eyniləşdirilməsi məqsədilə alınmış nümunələrinə görə müəyyənləşdirilir. Bundan əlavə, yoxlanılan obyektin xüsusiyyətləri onun bilavasitə tədqiq edilməsi yolu ilə də müəyyən edilə bilər.

Zahirən oxşar olsalar da yoxlanılan obyektin nümunələrini axtarılan obyektin izlərindən fərqləndirmək zəruridir. Axtarılan obyektin izinin mühüm əlamətlərindən biri onun istintaqı aparılan cinayət hadisəsi ilə əlaqədar olmasıdır.

Yoxlanılan obyektin nümunələrinin mühüm xüsusiyyəti ondan ibarətdir ki, onların konkret olaraq hansı şəxsə və ya predmetə mənsub olması tədqiqatçıya məlum olur.

Beləliklə, axtarılan obyekt dedikdə hadisə yerində izləri qoymuş və həmin izlərə görə müəyyənləşdirilməli olan obyekt, yoxlanılan obyekt dedikdə isə işin hallarına görə izləri qoyduğu güman edilən obyekt başa düşülür.

Qeyd etdiyimiz obyektlərdən başqa, eyniləşdirmə prosesində müqayisə nümunələrindən də istifadə edilir. Bu nümunələr müəyyən tələblərə cavab verməlidirlər:

a) hökmən yoxlanılan obyektə məxsus olmalıdır;

b) yoxlanılan obyektin kifayət qədər xüsusiyyətlərini əks etdirməlidirlər;

c) eyniləşdirilən obyektlərlə maksimum dərəcədə müqayisə edilə biləcək olmalıdırlar.

Bu tələblərdən hər hansı birinin gözlənilməməsi obyektin müqayisə nümunəsi qismində istifadəsini mümkünsüz edir.

Müqayisə nümunələri sərbəst və eksperimental nümunələrə bölünürlər.

Sərbəst nümunələr istintaqı aparılan cinayət işi ilə əlaqəsi olmayan və cinayət törədilməsindən və cinayət işinin başlanmasından əvvəl meydana gələn nümunələrdir (məsələn, təqsirləndirilən və ya şübhə edilən şəxsin cinayət etməzdən əvvəl yazdığı məktub xəttin eyniləşdirilməsi üçün sərbəst nümunə ola bilər).

Eksperimental nümunələr eyniləşdirmə məqsədilə ekspertiza təyin edilən zaman CPM-in 273-cü maddəsində nəzərdə tutulmuş şərtlərə və kriminalistik üsullara uyğun olaraq alınan nümunələrdir.

İdrak nəzəriyyəsi öyrədir ki, maddi aləmin hər bir predmeti və hadisəsi yalnız ona məxsus olan müəyyən qrup xassələrə və əlamətlərə malik olduğu üçün fərdi xarakter daşıyır. Məhz obyektlərin göstərilən xassə və əlamətlərə malik olması onların eyniliyinin və qrup mənsubiyyətinin müəyyən olunmasına əsas verir. Etiraf etmək lazımdır ki, həyatda dəyişməz heç bir şey yoxdur. Maddi aləmin predmet və şeyləri müxtəlif səbəblərdən müəyyən dəyişikliklərə məruz qalır. Belə dəyişikliklər nisbi xarakter daşıyır. Predmet və ya şeylər müəyyən müddət ərzində (qısa, yaxud uzun müddət ərzində) qismən dəyişikliklərə uğrasalar da onları xarakterizə edən bir sıra əlamət və xassələr dəyişməz qalır və şeylərin

MUHASIBAT.AZ

eyniləşdirilməsinə imkan verir. Kriminalistikada belə əlamətlərə eyniləşdirmə əlamətləri deyilir. Eyniləşdirmə əlamətləri özünün nisbi sabitliyi, yalnız həmin obyekt üçün xarakterik olması, ona oxşar obyektlərdə təkrar olunmaması, habelə aşkar edilməsinin və müqayisəli tədqiqat aparılmasının mümkünlüyü ilə xarakterizə olunur.

Eyniləşdirmə əlamətləri axtarılan obyektin əlamətlərini əks etdirir və onun eyniləşdirilməsində istifadə edilir. Hər bir obyekt çoxlu əlamətlərlə xarakterizə olunur, lakin eyniləşdirmə prosesində eyniləşdirilən obyektin istənilən yox, yalnız izlərdə əks olunan əlamətləri əhəmiyyət kəsb edir. Çünki məhz həmin əlamətlərin köməyi ilə axtarılan obyektin eyniyyət məsələsi həll edilir. Axtarılan obyektin eyniləşdirilməsi zamanı eyniləşdirmə əlamətləri funksiyasını həmin obyektin onu eynicinsli obyektlərdən fərqləndirən fərdi, spesifik (özünəməxsus) əlamətləri yerinə yetirir. Bir neçə eyniləşdirmə əlaməti əlaqəli şəkildə mövcud olduğu zaman həmin əlamətlərdən yalnız biri eyniləşdirmə məqsədi ilə istifadə oluna bilər.

Eyniləşdirmə əlamətləri iki qrupa - ümumi və xüsusi əlamətlərə bölünür.

Obyektin qrup mənsubiyyətini müəyyən etməyə imkan verən, eyni cins, yaxud növ obyektləri ümumi şəkildə xarakterizə edən və onu ona oxşar başqa növ və cins obyektlərdən fərqləndirən xassələrə ümumi əlamətlər deyilir. Obyektin öz məzmunu etibarı ilə ona oxşar obyektlərdən fərqləndirən konkret fərdi əlamətlərə isə xüsusi əlamətlər deyilir. Konkret eyniliyin müəyyən edilməsində xüsusi əlamətlər həlledici əhəmiyyətə malik olduğu üçün onların daha müfəssəl öyrənilməsi tələb olunur.

Eyniləşdirmə əlamətləri ya bilavasitə obyektin özü, yaxud onun digər obyektlərdə buraxdığı maddi əkslər vasitəsi ilə aşkar edilir.

Eyniləşdirmə əlamətləri keyfiyyət və kəmiyyət xarakterli ola blərlər. Məsələn, dairəvi papilyar naxışlar əl-barmaq izlərinin keyfiyyət, atılmış güllə üzərində yivlərin sayı və eni odlu silahın kəmiyyət göstəricilərini əks etdirirlər.

Eyniləşdirilən obyektin müəyyən edilməsi üçün vasitəçi rolunu oynayan obyektlərə isə eyniləşdirən obyektlər deyilir. Məsələn, izlər onu qoyan obyektin, yəni eyniləşdirilən obyektin müəyyən edilməsi üçün vasitəçi rolunu oynadığından belə izlər bütün hallarda eyniləşdirən obyektlər sayılır.

Eyniləşdirilən obyektlərin onların izi, yaxud digər əkslərinə görə müəyyən edilməsi yuxarıda qeyd etdiyimiz kimi həmin obyektlərin fərdiliyinə və nisbi sabitliyinə əsaslanır. Hətta standarta uyğun kütləvi istehsal olunan predmetlər özlərinin bir sıra xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Bu kimi fərdi əlamətlər predmetin həm istehsalı, həm də istismarı prosesində əmələ gəlir. Lakin hər bir predmet göstərilən fərdi xüsusiyyətlərə malik olmaqla yanaşı bir sıra əlamətlərə də malik olur ki, bu onu oxşar predmetlərə yaxınlaşdırır. Bu baxımdan eyniliyi oxşarlıqdan fərqləndirmək lazımdır. Məlumdur ki, eyni cinsdən, yaxud eyni növdən olan predmetləri bir-birinə yaxınlaşdıran bir sıra ümumi oxşar cəhətləri vardır. Lakin predmetlərin bir-birinə oxşaması hələ həmin predmetlərin eyni olması demək deyildir. Eyniləşdirmə prosesinin vəzifəsi belə oxşarlığı deyil, obyektin eyniliyini müəyyən etməkdir. Bu prosesdə eyniləşdirilən obyektlərin oxşarlığını və eyniliyini fərqləndirmək, ayırmaq zəruridir.

Eyniləşdirmədə obyektlərin sabitlik dərəcəsini nəzərə almaq lazımdır. Çünki obyektlərin fərdiliyi, nisbi sabitliyi həmin obyektlər üzrə eyniləşdirmə aparılmasına imkan verən mühüm şərtlərdəndir. Obyektlərin sabitliyi nisbi xarakter daşıyır və konkret şəraitdən

MUHASIBAT.AZ

asılı olaraq müxtəlif dərəcədə dəyişikliyə uğrayır. Eyniləşdirmə obyektlərinin xarakterindən və xassələrindən asılı olaraq onların sabitlik dərəcəsi də müxtəlif olur. Bu baxımdan bir qrup obyektlər nisbi sabit, digər qrup obyektlər az sabit, başqa qrup obyektlər isə daha az sabit xassəyə malik olur.

Nisbətən az sabit kriminalistik eyniləşdirmə obyektlərinə misal yazı xəttini göstərmək olar. Yazı qəsdən, həm də müxtəlif xarici faktorların təsiri nəticəsində dəyişdirilə bilər. Fiziki, psixoloji faktorların təsiri nəticəsində də yazıda dəyişikliklər əmələ gələ bilər. Şəxs qocaldıqda, xəstələndikdə, adi vəziyyətdə olmadıqda hər hansı bir mətni icra edərkən yazısında ciddi dəyişikliklər əmələ gəlir. Adətən, belə dəyişikliklər həmin şəxsin yazısının fərdi əlamətlərinin hamısına deyil, bir hissəsinə aid olur. Lakin belə hallarda da yazının bir sıra fərdi əlamətləri sabit qalır və bu, əksər hallarda eyniləşdirmə aparmaq üçün kifayət edir.

Bərk olmayan materiallardan hazırlanan məmulatlar kriminalistik eyniləşdirmənin obyekti kimi daha az sabitliyə malik olur. Rezindən, dəridən, yaxud yumşaq metaldan hazırlanan hər hansı bir şey onun mütəmadi istismarı nəticəsində daha az dərəcədə sabitliyini saxlayır.

Obyektlərin sabitlik dərəcəsindən asılı olaraq müxtəlif kimyəvi təsir nəticəsində də onlarda olan ilk əlamətlər öz keyfiyyətini itirir. Bəzən belə əlamətlər o dərəcədə dəyişir ki, eyniləşdirmə aparmaq belə mümkün olmur.

Eyniləşdirilən obyektlərin ilk əlamətlərində dəyişikliklər həm də cinayət işinin gedişində marağı olan şəxslər tərəfindən qəsdən, yaxud kənar şəxslər tərəfindən təsadüfən də edilə bilər. Məhz elə bu səbəblərdən eyniləşdirmə aparan kriminalist-ekspert eyniləşdirmə obyektlərinin nisbi sabitlik dərəcəsini və həmin obyektlərin ilkin əlamətlərinin nə kimi dəyişikliklərə məruz qala bilməsini müəyyən etməli və tədqiqaqat prosesində bunları nəzərə almalıdır.

Kriminalistik eyniləşdirmənin mühüm şərtlərindən biri də eyniləşdirən obyektlərin eyniləşdirilən obyektlərin əlamətlərini özündə əks etdirmək qabiliyyətinin olmasıdır.

Eyniləşdirilən obyekt onun qoyduğu maddi izlərə əsasən müəyyən edilir və bu maddi əkslər müxtəlif formada ola bilər. Belə maddi əkslər iz şəklində ayrı-ayrı predmetlərdə, insanın bu və ya digər vərdişi şəklində (yazı, peşə vərdişi), cinayətkarın, yaxud ayrı-ayrı əşyaların fotoşəkilləri şəklində, əşyanı, yaxud cinayətkarı müşahidə edən şəxsin həmin əşya və ya cinayətkar haqqında təsəvvürü şəklində ifadə oluna bilər.

Eyniləşdirilən obyektin onu müşahidə edən şəxsin təsəvvürünə görə əldə edilən məlumatlar əsasında müəyyən edilməsi şəxsin həmin obyekti nə dərəcədə qavraması, yadda saxlaması və onu sonradan təsəvvüründə canlandırması kimi psixi proseslərin tədqiq edilməsini tələb edir. Belə tədqiqatlar texniki xarakter daşımadığı üçün dindirmənin, tanınma üçün təqdim etmənin və digər istintaq hərəkətlərinin taktiki üsulları əsasında aparılır.

Eyniləşdirilən obyektlərin qoyduqları maddi əkslərə, yəni onların izlərinə, yaxud fotoşəkillərinə, yaxud da insanın bu və ya digər vərdişinə əsasən eyniləşdirilməsi elmi-texniki üsul və vasitələrin tətbiq edilməsini tələb etdiyi üçün belə tədqiqatlar mütəxəssislər tərəfindən aparılır.

Eyniləşdirilən obyektin müəyyən edilməsində onun xarici quruluşunun xarakterik xüsusiyyətlərinin izdə nə dərəcədə əks olunmasının həlledici əhəmiyyəti vardır. İzin

MUHASIBAT.AZ

yaranma mexanizmindən və şəraitindən, habelə izi qoyan və üzərində iz qalan obyektlərin xassələrindən asılı olaraq eyniləşdirilən obyektin əmələ gətirdiyi izlər müxtəlif keyfiyyətdə ola bilər.

Eyniləşdirilən obyektlərin maddi əksləri, yaxud izləri bir qayda olaraq onu qoyan obyektin bütün xarakterik əlamətlərini özündə əks etdirmir. Şəraitdən və izin əmələ gəlmə mexanizmindən asılı olaraq izdə onu əmələ gətirən obyektin bəzi əlamətləri təhrif olunmuş şəkildə əks olunur, bəzi əlamətləri isə tamamilə əks olunmur. Bir sıra hallarda isə bəzi əlamətlər müxtəlif variantlarda əks olunur. Məsələn, hadisə yerində cinayətkarın hərəkətini xarakterizə edən bir neçə ayaqqabı izi tapıla bilər. Aydındır ki, belə izlər onu qoyan ayaqqabının əlamətlərini eyni dərəcədə özlərində əks etdirə bilməz. Bu izlərin bir qismi eyniləşdirmə üçün yararsız ola bilər, bir qismi isə ayaqqabı altlığının fərdi xüsusiyyətlərini müxtəlif variantlarda özlərində əks etdirə bilər (məsələn, pəncədə olan yamağın müxtəlif variantlarda izlərdə əks olunması).

## 3. Ekspert eyniləşdirməsinin ümumi metodikası

Kriminalistik ekspertizanın köməyi ilə həyata keçirilən eyniləşdirmə tədqiqatı əsasən dörd mərhələni əhatə edir. Lakin kriminalistik ədəbiyyatda eyniləşdirmə tədqiqatının üç mərhələni əhatə etməsini və tədqiqata hazırlıq mərhələsinin müstəqil mərhələ kimi ayrılmasını əleyhinə olan fikirlər də mövcuddur. Beləliklə, eyniləşdirmə tədqiqatı aşağıdakı mərhələlərdən ibarətdir:

- tədqiqata hazırlıq;
- eyniləşdirmə obyektlərinin ayrılıqda tədqiqatı;
- müqayisəli tədqiqat;
- müqayisəli tədqiqatın nəticələrinin qiymətləndirilməsi.

Eyniləşdirmə tədqiqatının göstərilən mərhələləri sıx əlaqədə olub, biri digərini tamamlayır.

Yuxarıda qeyd edildiyi kimi kriminalistika üzrə dərsliklərdə tədqiqata hazırlıq eyniləşdirmə tədqiqatının müstəqil bir mərhələsi kimi qeyd edilmir. Bu heç də həqiqətə uyğun deyildir. Başqa tədqiqatlarda olduğu kimi eyniləşdirmə tədqiqatında da ona hazırlıq tədqiqatın üzvi hissəsini təşkil edir.

Eyniləşdirmə tədqiqatına hazırlıq ekspert tədqiqatının ilk mərhələsidir. Bu zaman ekspert cinayət işinin materiallarını öyrənir, tədqiqatın vəzifələrini və onun həcmini müəyyən edir və ən nəhayət, eyniləşdirmə obyektlərinə baxış keçirir. Bundan sonra tədqiqat metodikasını müəyyən, istifadə ediləcək elmi-texniki vasitələri hazırlayır, yeni metodika tətbiq ediləcəksə istifadə ediləsək metodik vəsaitləri hazırlayır və s.

Eyniləşdirmə tədqiqatına hazırlıq mərhələsində ekspert eyniləşdirmə obyektlərinin dairəsini və ekspertiza prosesində həll edilməli olan məsələləri müəyyən edir. Bundan sonra isə eyniləşdirmə obyektləri və müqayisəli tədqiqat aparmaq üçün təqdim olunan nümunələrə baxış kesirilir. İstər eyniləşdirilən obyektlərin və istərsə də nümunələrin baxışı zamanı ekspert həmin materiallara əsasən qoyulan suallar üzrə eyniləşdirmə aparılmasının mümkünlüyünü aydınlaşdırır.

MUHASIBAT.AZ

Ekspert ekspertizaya təqdim olunan nümunələrə baxış keçirərkən onların alınma mənbəyini müəyyən etməklə yanaşı, həm də nə dərəcədə qoyulan tələblərə əməl edilməklə alınmasını da yoxlamalıdır.

Ekspert tədqiqatının ikinci mərhələsində ekspertizaya göndərilən eyniləşdirmə obyektləri ayrılıqda tədqiq olunur. Bu zaman eyniləşdirilən obyektlərin xassə və əlamətləri öyrənilir. Eyniləşdirmə obyektlərinin ayrılıqda tədqiq edilməsi zamanı aşkar edilən eyniləşdirmə əlamətlərinin əmələ gəlmə mənbəyi və onların xüsusiyyətləri ayrılıqda mükəmməl öyrənilir və bu əlamətlər arasında olan qarşılıqlı əlaqə aydınlaşdırılır. Ekspert tədqiqat zamanı obyektlərdə əmələ gələn təsadüfi, yaxud xarakterik olmayan əlamətləri obyekti xarakterizə edən spesifik əlamətlərdən fərqləndirməli və aşkar etdiyi əlamətlərin məhz yalnız həmin obyekt üçün xarakterik olmasına tam inanmalıdır. Beləliklə, eyniləşdirmə obyektlərinin ayrılıqda tədqiqatı eyniləşdirilən və eyniləşdirən obyektlərin təklikdə hərtərəfli və mükəmməl tədqiq edilməsi ilə aparılır.

Eyniləşdirmə tədqiqatının üçüncü mərhələsində - müqayisəli tədqiqatda eyniləşdirilən və eyniləşdirən obyektlərin xassə və əlamətləri dəqiq və mükəmməl müqayisə edilir, həmin xassə və əlamətlərdən hansıların uyğun gəlməsi və hansılarının fərqlənməsi aydınlaşdırılır. Eyniləşdirmə obyektlərinin xüsusiyyətlərindən asılı olaraq müqayisəli tədqiqat əsasən üç üsul ilə: a) tutuşdurma, b) obyektləri üst-üstə qoyma və v) obyektləri birləşdirmə yolu ilə aparılır. Eyniləşdirmə əlamətlərinin tutuşdurulması prosesində daha əlverişli şərait yaratmaq məqsədi ilə müxtəlif optik cihazlardan, məsələn, müqayisəedici mikroskopdan istifadə olunur.

Müqayisəli tədiqatın obyektləri üst-üstə qoymaqla aparılması üsulu əsasən möhürlərin və ştampların onların əksləri üzrə eyniləşdirilməsi zamanı tətbiq olunur. Tutuşdurulan obyektlərin eyniləşdirmə əlamətlərini müqayisə etmək məqsədi ilə həmin obyektlər üst-üstə qoyulur. Bu zaman obyektlərin hər ikisinin, yaxud birinin şəffaf olması (diapozitiv şəklində) tələb olunur. Üst-üstə qoyulan obyektlərin eyniləşdirmə əlamətləri uyğun gəldikdə bir obyekti xarakterizə edən vahid əks alınır.

Eyniləşdirmə obyektlərinin birləşdirmə üsulu ilə müqayisə edilməsində obyektlər, yaxud onların fotoəksləri bir-birinə yaxın məsafədə qoyulur və obyektlərin eyniləşdirmə əlamətləri uyğun gəldikdə biri digərinin davamını təşkil edir. Müqayisə edilən obyektlərin hissələrinin birləşdirilməsini müqayisəedici mikroskopların (MİS-10, MSK-1, MS-51) köməyi ilə də həyata keçirmək olar. Müqayisəli tədqiqatın bu üsulu kəsmə, sürtünmə izləri üzrə eyniləşdirmə aparılarkən tətbiq olunur.

Eyniləşdirmə tədqiqatının dördüncü mərhələsində müqayisəli tədqiqatın nəticələri qiymətləndirilir. Bu zaman tədqiq olunan və müqayisə edilən obyektlərin həm uyğun gələn, həm də fərqlənən əlamətləri dərindən tədqiq edilir və qiymətləndirilir. Adətən, eyniliyin mövcud olub-olmaması məsələsi qrup əhəmiyyətinə malik olan əlamətlərin müqayisə edilməsi ilə başlanır. Eyniləşdirmə obyektlərinin qrup əlamətləri uyğun gəlmədikdə, bu vəziyyət bəzi fərdi əlamətlərin qiymətləndirilməsinə keçmədən eyniliyin mövcud olmaması haqda rəyə gəlməyə imkan verir. Uyğun gələn və fərqlənən qrup əlamətləri öz məcmuu etibarı ilə eyniliyi aradan qaldırmağa əsas vermədikdə fərdi əlamətlərin qiymətləndirilməsi başlanır.

Eyniləşdirmə obyektlərinin fərdi əlamətlərinin uyğun gəlməsi, eynilik haqqında müsbət fikrə gəlmək üçün hələ də tam əsas ola bilməz. Uyğun gələn fərdi əlamətlər həm kəmiyyətcə,

MUHASIBAT.AZ

həm də keyfiyyətcə eyni olmalı, alınan nəticələr isə elmi üsul və vasitələrin tətbiq edilməsi əsasında əldə edilməlidir. Eyniləşdirmə tədqiqatında ekspert aşkar edilən əlamətlərin keyfiyyətli olub-olmaması sualını həmin əlamətlərin sabitliyini, konkret növ, yaxud cins obyektlərdə bu əlamətlərə nə dərəcədə təsadüf edilməsini və onların müstəqilliyini müəyyən etməklə aydınlaşdıra bilər.

Əgər ekspert müqayisəli tədqiqat nəticəsində müəyyən edərsə ki, müqayisə edilən obyektlərin əlamətləri öz məcmuu etibarı ilə eyni obyekti xarakterizə edir, aşkar olunan fərqlər isə eyniləşdirilən obyektin dəyişikliyə uğraması ilə izah olunur və bunlar təsadüfi xarakter daşıyır o, eyniləşdirilən obyektlərin eyniliyi haqqında rəy verir.

## 4. Kriminalistik diaqnostika

Son zamanlar hadisələrin və proseslərin vəziyyətini öyrənməyə yönəlmiş kriminalistik diaqnostika daha mühüm rol oynamağa başlayır. Belə ki, yalın ayaq izlərinə görə təkcə şəxsiyyəti eyniləşdirmək yox, həmçinin hərəkətin istiqamətini, sürətini, subyektin yük aparmasını, fiziki vəziyyətini müəyyən etmək olar. Sındırma izlərinə görə tətbiq olunan üsul və vasitələr, cinayətkarın peşə vərdişləri, fiziki gücü və s. haqqında mülahizələr yürüdülür.

Kriminalistik diaqnostika obyektlərin, hadisələrin mahiyyətini açır, dərk edir. Kriminalistik diaqnostikanın ümumi vəzifəsi obyektiv həqiqətin müəyyən edilməsi, obyektlərin (hadisələrin) xüsusiyyətlərini, vəziyyətlərini öyrənməkdən, izah etməkdən ibarətdir. Deməli, diaqnostikanı ümumi hadisələrin onların təzahürlərinə görə dərk olunması kimi müəyyən etmək olar.

Məhkəmə sübutetmə prosesinin metodlarından biri olan diaqnostika obyektiv həqiqəti müəyyən etmənin bütün ümumi prinsipləri ilə tam uzlaşır. Dərketmə nöqteyi-nəzərindən məhkəmə sübutetmə prosesi keçmişdə qalmış hadisələrin fikrən bərpası kimi qiymətləndirilir və burada əks istiqamətdə, yəni formadan məzmuna, nəticədən səbəbə, surətdən onda əks olunan obyektin xüsusiyyətlərinin və vəziyyətinin analizinə doğru nəticələrə gətirir. Belə dərketmə prosesinin əsasında əks olunma nəzəriyyəsi durur.

Deyilənləri nəzərə alaraq kriminalistik diaqnostikanın predmetini obyektlərin onlarda baş verən dəyişikliklərin, belə dəyişikliklərin səbəblərinin törədilmiş cinayət hadisəsi ilə əlaqəsini müəyyən etmək məqsədi ilə xüsusiyyətlərinin və vəziyyətlərinin tədqiqi kimi müəyyən etmək olar.

Eyniləşdirmə və diaqnostikanın məqsədi ümumi olduqda belə (törədilmş cinayət hadisəsi ilə bağlı sübutları müəyyən etmək) onların həll etdikləri vəzifələrin mahiyyəti müxtəlifdir. Eyniləşdirmə zamanı söhbət fərdi obyekti müəyyən etməkdən, ikinci halda isə hadisənin baş verdiyi konkret şəraiti müəyyən etməkdən gedir. Hər iki məsələ bir-biri ilə sıx əlaqəlidir. Belə ki, izlərin yaranma şəraitinin müəyyən edilməsi bütün hallarda obyektin həmin izlərə görə eyniləşdirilməsi ilə müşayiət olunur. Öz növbəsində izlərin yaranma mexanizminin diaqnostikası izi qoymuş obyektin xüsusiyyətlərini, vəziyyətini nəzərə alır. Lakin hər iki qrupa daxil olan vəzifələrin həll edilməsi heç də eyni mahiyyət kəsb etmir. Onlar növbəli, əlaqəli və həm də ayrı-ayrılıqda həll edilə bilərlər. Məsələn, sındırma alətlərinin qoymuş olduğu izlərin ekspert tədqiqatı zamanı bu vəzifələrin əlaqəsi aşağıdakı qaydada təzahür edir: sındırmanın istiqaməti (diaqnostik vəzifə), subyektin

MUHASIBAT.AZ

xüsusiyyətlərinin: gücünün, boyunun, vərdişlərinin müəyyən edilməsi (diaqnostika); istifadə olunmuş sındırma alətinin qrup mənsubiyyətinin təyini (eyniləşdirmə); izlərin eyniləşdirmək üçün yararlığının təyini (diaqnostika); sındırma alətinin izlərə görə eyniləşdirilməsi (eyniləşdirmə). Əsas məsələ ondan ibarətdir ki, bu vəzifələri qarşı-qarşıya qoymaq, birini digərindən ayırmaq olmaz.

Kriminalistik diaqnostikanın quruluşunu ümumən aşağıdakı kimi təsəvvür etmək olar: məqsədin müəyyən edilməsi, obyektlərin ilkin təhlili, diaqnostik əlamətlərin təhlili, analoji müqayisə, əldə edilmiş nəticələrin dəqiqləşdirilməsi və qiymətləndirilməsi, nəticələrin formulə edilməsi. Gətirilən sxemdə kriminalistik eyniləşdirmə prosesi özünü göstərir. Burada heç bir ziddiyyət yoxdur. Belə ki, qeyd etdiyimiz kimi eyniləşdirmə və diaqnostika bir çox ümumi əlamətlərə malikdir. Bu zaman nəzərə almaq lazımdır ki, eyniləşdirmə prosesində müqayisəli tədqiqat konkret obyekti müəyyən etmək üçün, diaqnostik tədqiqat isə hadisənin konkret şəraitini müəyyən etmək üçün tətbiq edilir.

Eyniləşdirmə zamanı obyektin əlamətləri izdə əks olunmuş əlamətlərlə müqayisə edilir və onlar üst-üstə düşdükdə obyektin fərdiliyi nəticəsinə gəlinir. Diaqnostikanın məqsədi konkret şəraiti müəyyən etməkdən ibarət olsa da onların fərdi olması heç də hökmən tələb olunmur. Burada müqayisə metodu izlərə görə öyrənilən şəraiti təkrar oluna bilən hadisələrin məlum qanunauyğunluqlarına əsasən mövcud olan tipik şəraitlə tutuşdurmaq məqsədilə tətbiq olunur.

Diaqnostik tədqiqatlarda analogiya və müqayisə metodları ilə yanaşı modelləşdirmə, eksperiment, ölçmə və s. metodlar da tətbiq edilir.

Kriminalistik eyniləşdirmə nəzəriyyəsində obyektlər eyniləşdirən və eyniləşdirilən, axtarılan və yoxlanılan obyektlərə bölünürlər. Professor R.S.Belkinin fikrincə, buna oxşar təsnifat diaqnostikada da mövcuddur1. Burada obyektlər diaqnostika edilən və diaqnostika edən, axtarılan və yoxlanılan obyektlərə bölünə bilərlər. Diaqnostika edilən obyektlər hadisənin mexanizmi, obyektin xüsusiyyətləri və vəziyyətindən ibarətdir. Diaqnostika edən isə həmin vəziyyəti, xüsusiyyəti, mexanizmi maddi şəkildə əks etdirən əlamətlərdən ibarətdir. Hadisənin diaqnostikasını müəyyən edən, ətraf maddi aləmdə əks olunan şərtlər, amillər axtarılan obyektdir. Yoxlanılan müstəntiqin, hakimin ehtimalları (fərziyyələri), proses iştirakçılarının izahlarıdır.

"Diaqnostik tədqiqat" anlayışına: a) obyektin xüsusiyyətlərini və vəziyyətini müəyyən etmək; b) baş vermiş hadisənin hallarının aydınlaşdırılması; v) məlum faktlar arasındakı səbəbli əlaqənin müəyyən edilməsi daxildir.

Diaqnostik tədqiqat obyektin faktiki vəziyyətinin (partlayıcı mexanizmin yararlı olmasını), onun keçmişdə mövcud olmuş zahiri görünüşünün müəyyən edilməsinə (cinayətkarın tapançanın üzərindən sildiyi zavod nömrəsini müəyyən etməyə) kömək edir. Çox zaman diaqnostik tədqiqatlar eyniləşdirmədən əvvəl həyata keçirilir, obyekti izə görə eyniləşdirməzdən əvvəl ekspert izin eyniləşdirmə üçün yararlı olmasını, xarakterik əlamətlərin əks olunmasını, izyaranma prosesində obyektin faktiki vəziyyətini müəyyənləşdirməli olur.

Hadisə yerində izlərin diaqnostik təhlili zamanı cinayət hadisəsinin hallarını müəyyən etmək mümkündür. İzlərə görə hadisənin törədilmə mexanizmini bərpa etmək, izlərin meydana gəlmə ardıcıllığını aydınlaşdırmaq və bunun əsasında cinayətkarın hərəkətlərinin mexanizmini müəyyənləşdirmək olar. Məsələn, qan izlərinin formasına, vəziyyətinə görə

MUHASIBAT.AZ

zərər çəkmişə zədələrin vurulma yerini, onun yerinin dəyişdirilməsini, hansı vəziyyətdə olmasını, harada dayanmasını və s. müəyyən etmək mümkündür. Atəş izlərinə görə onun istiqamətini, məsafəsini, istifadə olunan silahın xarakterini və təyinatını, atəş açanla zərər çəkmişin qarşılıqlı vəziyyətini və s. müəyyən edirlər.

Faktlar və obyektlərin arasında münasibətlərin aydınlaşdırılması ilə bağlı keçirilən tədqiqatlar da diaqnostik tədqiqatlara aiddirlər. Onlar mövcud olmuş hərəkətlərlə meydana gəlmiş nəticələr arasında səbəbli əlaqəni müəyyən etməyə imkan verir.

Diaqnostik tədqiqat prosesində hadisələrin səbəbləri, mexanizmi, obyektlərin xüsusiyyətləri haqqında müəyyən nəticələrə gəlinir. Məsələn, yol-nəqliyyat hadisəsi zamanı mövcud izlərin kompleks diaqnostik təhlili vasitəsi ilə nəqliyyat vasitələrinin toqquşduğu ana qədər sürətlərini, hərəkətin istiqamətini, toqquşma yerlərini, xətti bucaqlarını, sonrakı yerdəyişmələrini və s. müəyyən etmək olur.

MUHASIBAT.AZ

## MÖVZU : 4. KRİMİNAL VƏ CİNAYƏTKAR FƏALİYYƏT. CİNAYƏTLƏRİN KRİMİNALİSTİK XARAKTERİSTİKASI

**PLAN**

1. İnformasiya daşıyıcıları istintaqın məlumat əsası kimi
2. Cinayətlərin kriminalistik xarakteristikasının anlayışı və əhəmiyyəti
3. Cinayətlərin kriminalistik xarakteristikasının quruluşu

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**


1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Аббасова И.С.Криминалистическая характеристика преступлений: Общие положения. Иркутск,1991.

6.Аббасова И.С.Криминалистические характеристики преступлений в системе юридических знаний. Иркутск,1991.

7.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

8.Баев О.Я. Основы криминалистики. М.: Экзамен, 2003.

9.Ермолович В.Ф. Криминалистическая характеристика преступлений.Минск,2001.


### 1. İnformasiya daşıyıcıları istintaqın məlumat əsası kimi

Cinayətlərin açılmasında və istintaqında kriminalistik əhəmiyyət kəsb edən informasiya mühüm rol oynayır. Təsadüfi deyildir ki, sübut etmə hüquq ədəbiyyatında informasiya kimi qəbul edilir.

Hər bir cinayətin törədilmə prosesində cinayətkar (və ya cinayətkarlar) maddi aləmin müxtəlif obyektləri ilə təmasda olur və bunun nəticəsində həmin obyektlər müxtəlif formada dəyişikliyə uğrayırlar. Qarşılıqlı təmas zamanı maddi obyektlərin dəyişməsi dialektikanın inikas nəzəriyyəsinə əsaslanır. Həmin nəzəriyyəyə görə maddi aləmin bütün obyektləri, istənilən maddi proses əks olunmaq və əks etdirmək xüsusiyyətinə malikdirlər. Bu zaman obyektlərin bu və ya digər səviyyədə hökmən dəyişikliyə uğraması qarşılıqlı təmasın qanunauyğun nəticəsi kimi təzahür edir.

Cinayətin törədilməsi mürəkkəb bir maddi proses olduğundan o, cinayətin baş verdiyi maddi mühitin müxtəlif obyektləri ilə təmasda olur ki, bu zaman həmin obyektlər üzərində izlər yaranır. Bunlardan da informasiya-məlumat daşıyıcısı kimi istintaq prosesində istifadə

MUHASIBAT.AZ

olunur. Bu informasiya bir qayda olaraq, törədilmiş cinayət hadisəsinin tərkib elementləri (subyekti, üsul və vasitələri, predmeti və s.) haqqında məlumatları özündə əks etdirir. Prof. N.P.Yablokov kriminalistikanın iki dərketmə obyektini fərqləndirir: cinayətkar fəaliyyət və kriminalistik fəaliyyət. O, qeyd edir ki, kriminalistika insan fəaliyyətinin müəyyən növlərini - bir tərəfdən cinayətkarın və başqa iştirakçıların, digər tərəfdən isə cinayətkar fəaliyyətin əksi olan müstəntiq və hüquq mühafizə orqanlarının fəaliyyətini öyrənir1.

Cinayətkar fəaliyyət Cinayət Məcəlləsində nəzərdə tutulan bütün cinayət növlərini, qruplarını, yarımqruplarını əhatə edir. Bu fəaliyyətin sisteminə aşağıdakı elementlər daxildir: subyektlər, qəsdin predmeti, məqsədi (subyektiv cəhəti), cinayətkar davranış (cinayət törədilən zaman istifadə edilən üsul və vasitələr, hiylələr), cinayətin törədilmə şəraiti və nəticələri (qanunla mənafeyi qorunan subyektə fiziki, maddi, mənəvi ziyanın vurulması). Hər bir cinayətkar fəaliyyətin nəticələrində qeyd edilən elementlər haqqında izlərdə əks olunan axtarış əhəmiyyətli məlumatlar, onun kriminalistik xüsusiyyətləri, elementləri arasında qarşılıqlı əlaqə (kriminalistik xarakteristika) haqqında təsəvvür yaratmağa imkan verir və ən optimal istintaq metodikasını seçməyə kömək edir.

Cinayətkar fəaliyyətin bilavasitə təsiri altında və onun əksi kimi yaranmış kriminalistik fəaliyyət cinayətkarlıqla mübarizədə onun qarşısında duran vəzifələrin xüsusiyyətlərindən asılı olaraq bir neçə növə bölünür: cinayət işlərinin məhkəmədə baxılması üzrə kriminalistik fəaliyyət, cinayətin açılması və istintaqı üzrə kriminalistik fəaliyyət, ekspert-kriminalistik fəaliyyət, kriminalistik profilaktika, əməliyyat-axtarış fəaliyyəti, kriminalistik elmi-pedaqoji fəaliyyət.

Kriminalistik fəaliyyətin bu növləri bir-biri ilə sıx əlaqədədirlər və müstəqil şəkildə onların heç biri mövcud ola bilməz. Eyni zamanda onların hər biri kriminalistik fəaliyyətin müstəqil növləri kimi çıxış edirlər.

Kriminalistik fəaliyyətin növləri içərisində aparıcı yer cinayətlərin ilkin istintaqı ilə bağlı kriminalistik fəaliyyətə məxsusdur. O öz növbəsində mürəkkəb quruluşa malik olub digər fəaliyyət növlərinin meydana gəlməsini şərtləndirir. Məsələn, ekspert-kriminalistik fəaliyyəti yalnız müstəntiqin konkret növ ekspertizanın təyin edilməsi barədə qərarının çıxarılması ilə başlayır. Ədalət mühakiməsinin həyata keçirilməsində ekspert-kriminalistik fəaliyyətin rolu əvəzedilməzdir. Əksər hallarda onsuz keçinmək olmur. O kriminalistik biliklərdən özünəməxsus formada istifadə etməklə sübutların tədqiqini həyata keçirir.

Cinayətlərin üstünün açılmasında, istintaqında və qarşısının alınmasında təhqiqat orqanlarının rolu böyükdür. Əməliyyat-axtarış orqanlarının kriminalistik fəaliyyəti əsasən hadisə yerindən qaçıb gizlənmiş cinayətkarın axtarılıb tapılmasına və iş üzrə əhəmiyyət kəsb edən digər sübutların toplanmasına yönəlmişdir.

Son dövrlərdə kriminalistik elmi-tədqiqat fəaliyyətinin digər növləri də meydana gəlmişdir. Bu fəaliyyətin əsas mahiyyəti ondan ibarətdir ki, o, təkcə təcrübi kriminalistik fəaliyyəti deyil, eyni zamanda onun nəzəri problemlərini araşdırır, ümumiləşdirir, elmi cəhətdən əsaslandırılmış üsul və vasitələr işləyib hazırlayır və onlar digər kriminalistik fəaliyyət növləri tərəfindən müvəffəqiyyətlə istifadə edilirlər. Kriminalistikanın bir elm kimi mövcud olması məhz həmin fəaliyyətin nəticəsidir.

Kriminalistik profilaktik fəaliyyət cinayətkarlığa qarşı hüquqi profilaktikanın tərkib hissəsi olub, onu doğuran səbəblərin aradan qaldırılmasına birbaşa yönəlmiş fəaliyyətdir.

MUHASIBAT.AZ

Cinayətkar fəaliyyətin, onun elementlərinin və onlar arasındakı qarşılıqlı əlaqənin, onun əsasında formalaşan kriminalistik xarakteristikasının kriminalistika tərəfindən öyrənilməsi cinayət hadisəsinin informasiya daşıyıcısı olan zahiri təzahür prosesini bilmədən mümkün deyildir.

Cinayətkar fəaliyyətin baş verdiyi ətraf aləm müxtəlif təbiət obyektlərinin, insanların mövcudluğuna görə rəngarəng olduğundan, o, həmin obyektlər üzərində maddi və ideal izlər qoyur. Bunun da nəticəsində törədilmiş cinayət hadisəsinin halları və xüsusiyyətləri haqqında informasiya yaranır. Cinayətin törədildiyi mühitdə istənilən cinayət hadisəsi müxtəlif tərəflərdən əks olunur ki, bunun nəticəsində də müxtəlif təbiətli izlər yaranır. Bu zaman eyni bir obyekt müxtəlif xarakterli informasiyaların daşıyıcısı ola bilər. Məsələn, cinayət hadisəsi ilə əlaqəli olan əlyazma onun icraçısı, müəllifi haqqında informasiyaları, sənədə toxunmuş şəxsin əl izlərini əks etdirə bilər. Nəticədə maddi sübutda müxtəlif informasiyalar əks olunmuş olur. Ona görə də ibtidai və məhkəmə istintaqında cinayət hadisəsinin bütün hallarının mahiyyətini dərk etmək üçün müxtəlif informasiya daşıyıcılarını və mənbələrini müəyyən etmək vacibdir.

İnformasiyanın istənilən növünü qiymətləndirərkən, hər şeydən əvvəl, onun cinayətin açılmasında və istintaqında istifadə edilmə imkanlarını müəyyən etmək lazımdır. Bu zaman informasiyanın sübuti əhəmiyyəti onun cinayət-prosessual hüquqi nöqteyi-nəzərindən - istintaqı aparılan cinayətə aidiyyatı və onun açılmasında bu növ cinayətlərin qarşısının alınmasında istifadə edilə bilmək imkanı ilə müəyyən edilir. Digər kriminalistik informasiyalar onların müxtəlif axtarış xarakterli məsələlərin (yeni sübut mənbələrinin, cinayətkarların, cinayətin edilməsində istifadə edilmiş alət və vasitələrin, oğurlanmış əmlakın axtarılması və s.) həllində istifadə edilməsi nöqteyi-nəzərindən qiymətləndirilir.

Qiymətləndirmə zamanı cinayət işinin növünü, xüsusiyyətlərini, əsasən də kriminalistik əlamətlərinin xarakteristikasını, həmçinin konkret istintaq şəraitində istintaqın qarşısında duran, həyata keçirilməli olan ilkin və sonrakı vəzifələrin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Məhz onlar müstəntiqin prosessual və kriminalistik əhəmiyyətli informasiyanı aşkar edib qiymətləndirmək, istifadə etmək üçün hərəkətlərinin istiqamətini, formasını, üsul və vasitələrini əvvəlcədən müəyyən edir və nəticədə konkret cinayət əməlinin istintaqının informasiya bazası yaradılmış olur.

## 2. Cinayətlərin kriminalistik xarakteristikasının anlayışı və əhəmiyyəti

Cinayətlərin istintaqı, onların açılması, eləcə də qarşısının alınması baş vermiş cinayət hadisəsinin cinayət-hüquqi, cinayət prosessual xarakteristikaları ilə yanaşı, kriminalistik xarakteristikanı da düzgün müəyyən etmədən mümkün deyildir.

Cinayətlərin kriminalistik xarakteristikası ilk dəfə L.A.Sergeyev (1966-cı il) tərəfindən işlədilsə də bir kompleks anlayış kimi əksər kriminalistlər tərəfindən xüsusi kriminalistik metodikaya son illər daxil edilmişdir1.

Cinayətlərin kriminalistik xarakteristikasının anlayışını təhlil etməmişdən əvvəl "xarakteristika" terminini izah edək. "Xarakteristika" dedikdə kimin isə (insanların), nəyin isə (predmetlərin) fərqləndirici xüsusiyyətlərinin, keyfiyyətlərinin təsvir edilməsi başa düşülür. Eyni ilə "cinayətlərin kriminalistik xarakteristikası" söz birləşməsi də etimoloji cəhətdən cinayətin elə fərqləndirici xüsusiyyətlərini əks etdirməlidir ki, onlar kriminalistika

MUHASIBAT.AZ

üçün mühüm əhəmiyyət kəsb etsin və cinayətlərin istintaqı, eləcə də qarşısının alınmasında bu məlumatlardan istifadə edilə bilinsin.

Cinayətlərin kriminalistik xarakteristikasına müasir anlayış verilərkən, adətən, müəlliflər bu xarakteristikanı müəyyən növ (bəzən isə yarım növ) cinayətlərlə bağlayırlar.

Fikrimizcə, cinayətlərin kriminalistik xarakteristikasını üç səviyyədə tədqiq etmək lazımdır:

- bütün növ cinayətlər üçün ümumi xarakteristika;
- növ, yarım növ cinayətlərin xarakteristikası;
- konkret cinayətin xarakteristikası.

Qeyd edilən hər bir səviyyədə cinayətlərin kriminalistik xarakteristikalarının nəzəri və təcrübi əhəmiyyəti müxtəlifdir.

Cinayətlərin ümumi kriminalistik xarakteristikası bütün cinayət hərəkətlərinə aid olan ümumi xüsusiyyətlərin təsviridir ki, bunlar da cinayətlərin istintaqı və qarşısının alınmasında mühüm rol oynayırlar. Belə xarakteristika cinayətin özünün obyektiv xüsusiyyətləri ilə şərtlənən cinayətlərin ümumi müddəalarının və istintaq metodikasının işlənib hazırlanmasında, eləcə də digər növ cinayətlərin kriminalistik xarakteristikasının və tipik modellərin formalaşmasında nəzəri baza rolunu oynayır.

Növ kriminalistik xarakteristika dedikdə müəyyən növ (yarım növ) cinayətə xas olan əlamətlərin təsviri başa düşülür ki, onların da cinayətlərin istintaqı və qarşısının alınmasında mühüm taktiki-kriminalistik əhəmiyyəti vardır. Məsələn, ölüm cinayətləri, soyğunçuluq, quldurluq və s. cinayətlərin kriminalistik xarakteristikası. Belə xarakteristikalar kriminalistika elminin elementi qismində kriminal təcrübəni (cinayət fəaliyyətini) cinayət hüququ və kriminologiya kimi öyrənir, lakin bu zaman "ümumi obyektdən" öz aspektlərini nəzərə almaqla istifadə edir: cinayətə hazırlığın üsulu, cinayətin edilməsi və cinayətin ört-basdır edilməsi üsulları, bu fəaliyyət zamanı qalmış izlər və s. Bu zaman kriminalistika son nəticə kimi qalmış izlərə görə cinayətin açılmasını təmin etmək üçün daha səmərəli tövsiyələr işləyib hazırlayır. Növ kriminalistik xarakteristikanın əsas funksiyası bu ümumi məqsədə xidmət etməkdir.

Cinayətlərin növ kriminalistik xarakteristikası cinayətlərin ümumi kriminalistik xarakteristikası kimi, kriminalistik nəzəriyyə formalaşdırır.

Konkret cinayətin kriminalistik xarakteristikası istintaqı aparılan cinayətin (yazılı və ya ideal) təsviridir ki, bunu da müstəntiq özü həyata keçirir. Hər bir konkret cinayətin kriminalistik xarakteristikası real faktların kriminalistik baxımdan qiymətləndirilməsidir. Belə xarakteristika dinamikdir.

İstintaq prosesində onun məzmunu toplanmış sübutların qiymətləndirilməsindən asılı olaraq daha da tamamlanır, təkmilləşir və ibtidai istintaq qurtardığı vaxtda başa çatır.

Beləliklə, cinayətlərin kriminalistik xarakteristikası istintaq üçün mühüm əhəmiyyət kəsb edən cinayət və onunla əlaqədar olan digər hallar haqqında məlumatlar sistemidir. Bu sistem özünü cinayətkarın şəxsiyyəti, cinayətin edilmə üsulu, mexanizmi, vaxtı və s. hallarda ifadə edir ki, bunlar da cinayətlərin istintaqı, açılması və qarşısının alınmasında ən səmərəli taktiki-metodiki tövsiyələrin seçilib tətbiq edilməsində mühüm rol oynayır.

## 3. Cinayətlərin kriminalistik xarakteristikasının quruluşu

MUHASIBAT.AZ

Cinayətlərin kriminalistik xarakteristikası müəyyən quruluşa malikdir. Bu quruluşa müxtəlif elementlər daxildir. Onlar şərti olaraq imperativ (məcburi) və fakultativ olmaqla iki yerə bölünür.

Hər növ cinayətin kriminalistik xarakteristikasının quruluşuna aşağıdakı imperativ elementlər daxildir:

1. Cinayəti törədən şəxslər haqqında ümumiləşdirilmiş m`lumatlar. Nəzərə almaq lazımdır ki, konkret cinayətin istintaqı zamanı taktiki kriminalistik baxımdan kriminoloqlar tərəfindən işlənib hazırlanmış cinayətkar haqqında tipoloji məlumatlardan da istifadə edilə bilər. Bundan başqa, cinayətkar haqqında aşağıdakı məlumatlar hərtərəfli araşdırılır: “professional” vərdişləri, qəddarlığı, kobudluğu, həddən artıq ehtiyatlı olması və s.

Bu məlumatlar müstəntiqə cinayətkarın sosial, psixoloji və funksional portretini tərtib etməyə imkan verir.

2. Cinayətin edilmə üsulu (cinayətkar nəticəyə çatmaq üçün cinayəkar tərəfindən seçilən hərəkətlər kompleksi). Cinayətin edilmə üsulu dedikdə obyektiv və subyektiv faktorlarla şərtləndirilmiş hərəkət və hərəkətsizlik sistemi başa düşülür ki, bunun nəticəsində maddi və yaxud qeyri-maddi izlər yaranmış olur. Cinayətlərin edilmə üsulu haqqında məlumatlardan istifadə edərək cinayətkar, onun vərdişləri, biliyi və fiziki gücü, izləri məhv etmək cəhdi, məqsədi və s. haqqında məsələləri aydınlaşdırmaq mümkündür. Məlumdur ki, bir sıra hallarda cinayətin edilmə üsulu cinayətin obyektiv tərəfinin elementi kimi çıxış edir və cinayət-hüquqi xarakteristikaya daxil olur.

Cinayətin kriminalistik xarakteristikasının elementi kimi cinayətin edilmə üsulunun müəyyən edilməsi üçün mühüm taktiki kriminalistik əhəmiyyət kəsb edən aşağıdakı məsələlərə fikir verilməlidir: cinayətin edilmə üsulunun yayılma dərəcəsi, onun həyata keçirilməsinin konkret üsulları, istifadə edilmiş alət və vasitələrin konstruktiv xüsusiyyətləri və s.

3. Cinayətin edilmə mexanizmi. Cinayətin edilmə mexanizmi üsulundan fərqli olaraq cinayətin keyfiyyət tərəfini deyil, onun ardıcıllığı və texnoloji cəhəti haqqında məlumatları özündə əks etdirir. Cinayətin edilmə mexanizmi cinayət hadisəsinin ayra-ayrı halları, mərhələləri, faktorları, cinayətin edilməsi və onun üstünün ört-basdır edilməsi və s. haqqında məlumat sistemidir ki, bu da müəyyən zaman və məkan daxilində baş verir.

4. Cinayətin edilmə şəraiti. Cinayətin edilmə şəraiti cinayət edilənə qədər və cinayətin edildiyi vaxt bir-biri ilə qarşılıqlı əlaqədə olan obyektlər, hallar, proseslər sistemi olub, cinayətin edilmə yeri, vaxtı, metereoloji şəraiti, istehsalat-məişət və ətraf mühitin digər şəraiti, hüquqa zidd olan hərəkətin digər iştirakçılarının hərəkət xüsusiyyətləri, onlar arasında psixoloji əlaqə və obyektiv reallığın digər faktorlarını özündə birləşdirir.

5. Cinayətkarın hərəkətlərinin motiviasiyası. Psixologiyada motivasiya müəyyən motivlə hərəkətin oyanmasına deyilir. Motivasiya prosesi tələbatın səviyyəsinə və xarakterinə uyğun olaraq obyektiv gerçəklikdə insanın davranışının determinatlarını ifadə edir1. Subyektin öz funksional qabiliyyətini necə və hansı istiqamətdə sərf edəcəyi motivasiyadan asılıdır. Belə ki, motivasiya müxtəlif, mümkün olan hərəkətlərdən hansını seçməyə və seçilmiş variantı inadla və intensiv həyata keçirməyə və nəhayət, planlaşdırılmış nəticəyə nail olmağa fəaliyyəti istiqamətləndirir.

MUHASIBAT.AZ

Aydındır ki, insanın hər bir hərəkəti bu və ya digər motivlə bağlı olur və müəyyən məqsədə yönəldilir, bu və ya digər məsələni həll edir, ətraf aləmə insanın müəyyən münasibətini bildirir.

6. Cinayət nəticəsində qalmış izlər və onların yaranma mexanizmi. Cinayətlə əlaqədar izlər aşkar edildikdə onların yaranma mexanizmi, yaranma ardıcıllığı, növləri barədə ətraflı məlumat toplamaq lazımdır. Eyni zamanda izlərin müəyyən müddət keçəndən sonra əvvəlki sturuktur əlamətlərinin dəyişib-dəyişilməməsini aydınlaşdırmaq vacibdir. Belə ki, izlərin cinayətlərin istintaqı və  açılmasında mühüm əhəmiyyəti vardır.

Cinayətlərin kriminalistik xarakteristikasının quruluşuna daxil olan fakultativ elementlər həddən artıq çoxtərəfli, eləcə də kriminal təcrübə kimi dəyişkən olduğu üçün onların qəti siyahısını vermək praktiki mümkün deyildir. O, ayrı-ayrı növ (qrup) cinayətlər üzrə ümumiləşdirilmiş şəkildə verilə bilər. Məsələn, şəxsiyyət əleyhinə edilən cinayətlərin kriminalistik xarakteristikasının formalaşmasında viktimoloji1 cəhət və cinayətdən zərər çəkmiş şəxs haqqında ümumiləşdirilmiş məlumatlar istintaq fərziyyələrinin qurulmasında və istintaqın planlaşdırılmasında müstəntiqə əhəmiyyətli kömək edir.

Cinayətlərin kriminalistik xarakteristikasının quruluşuna fakultativ element kimi cinayətdən zərər çəkmiş şəxs haqqında məlumat da daxildir.

Cinayətdən zərər çəkmiş şəxs kriminalistik viktimologiyanın tədqiqat obyekti kimi öyrənilərkən ona üç cəhətdən yanaşılır:

- zərər çəkmişin şəxsiyyəti və psixoloji xüsusiyyətlərinin öyrənilməsi;
- cinayətkarla zərər çəkmiş şəxsin qarşılıqlı münasibəti;
- zərər çəkmiş şəxsin ibtidai araşdırmada və məhkəmə baxışında özünü aparmasının spesifikliyi və onların dindirilməsi taktikasının xüsusiyyətləri.

Başqa bir halda isə, taktiki kriminalistik mənada cinayətkar sui-qəsdə məruz qalmış predmet (məsələn, oğurluq, soyğunçuluq və quldurluq cinayətlərində) haqqında ümumiləşdirilmiş məlumatlar və ya cinayətin nəticəsi, yaxud da cinayətin baş verməsinin səbəbi və s. kriminalistik xarakteristikanın elementlərindən biri kimi çıxış edir.

Cinayətlərin kriminalistik xarakteristikasının quruluşuna daxil olan elementlərin fakultativ və imperativə ayrılması müəyyən mənada şərti xarakter daşıyır.

Yadda saxlamaq lazımdır ki, fakultativə aid edilən hər bir quruluş elementi müəyyən növ (yarımnöv) cinayətin kriminalistik xarakteristikasının formalaşmasında imperativ quruluşun elementinə çevrilə bilərlər. Məsələn, qəsdən adam öldürmə cinayəti baş vermişsə və hadisəni gözü ilə görən şahid yoxdursa, bu zaman cinayətin növ kriminalistik xarakteristikasının zəruri (imperativ) elementlərindən biri kimi zərər çəkmiş şəxs haqqında ümumiləşdirilmiş məlumatlar çıxış edəcək.

Cinayətlərin kriminalistik xarakteristikasının elementləri arasında olan əlaqələrin müəyyən edilməsinin mühüm praktiki əhəmiyyəti vardır. Bu əlaqələr özünü müxtəlif formada göstərir: təsadüfi əlaqə, qarşılıqlı əlaqə, korrelyasion əlaqə, funksional əlaqə, genetik əlaqə və s.

Belə bir qənaətə gəlmək olar ki, cinayətlərin kriminalistik xarakteristikasının spesifikliyi ardıcıl bir sistem kimi hər bir konkret halda bu xarakteristikanı təşkil edən elementlər arasındakı əlaqənin xarakteri və münasibətindən asılıdır.

Cinayətlərin kriminalistik xarakteristikasının elementləri arasındakı əlaqə müəyyən qanunauyğunluğa tabedir.

MUHASIBAT.AZ

N.A.Selivanov göstərir ki, cinayətlərin kriminalistik xarakteristikasının elementləri arasında hər iki qanunauyğun əlaqəni - birtərəfli (dinamik) və ehtimal (statistik) müşahidə etmək olar. Birtərəfli qanunauyğun əlaqənin olmasını göstərən əlamətin mövcudluğu qəti olaraq onunla əlaqəsi olan digər əlamətin olması barədə fikir yürütmək deməkdir. Belə əlaqələrə az rast gəlinir. Adətən, cinayətlərin kriminalistik xarakteristikasının elementləri arasında qanunauyğun əlaqə ehtimal-statistik xarakter daşıyır.

## MÖVZU 5. KRİMİNALİSTİK FƏRZİYYƏLƏR, İSTİNTAQIN TƏŞKİLİ VƏ PLANLAŞDIRMA

### PLAN

1. Kriminalistik fərziyyələrin anlayışı və əhəmiyyəti
2. Kriminalistik fərziyyələrin növləri
3. Fərziyyələrin qurulması və yoxlanılması
4. İstintaqın təşkili və planlaşdırılması
5. İstintaqın planlaşdırılmasının prinsipləri və növləri

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

6.Баев О.Я. Основы криминалистики. М.: Экзамен, 2003.

7.Ишенко Е.П., Егоров Н.Н. Криминалистика для следователей и дознавателей: Научно-практическое пособие. М.,2010.

8.Ларин А.М.От следственной версии к истине. М.,1976.

9.Малахов В.П. Логика построения следственных версий. М.,1996.


MUHASIBAT.AZ

Реховский А.Ф. Теоретические основы учения о криминалистических версиях. Владивосток, 1996.
10.Ян Пешак От следственной версии к истине. М.,1976.

### 1. Kriminalistik fərziyyələrin anlayışı və əhəmiyyəti

İstintaq və məhkəmə orqanlarının cinayət işi üzrə həqiqətin müəyyən edilməsinə dair fəaliyyəti keçmişdə baş vermiş hadisələrə, faktlara və hallara yönəlmiş olur. Bundan başqa, müstəntiq, təhqiqat aparan şəxs, yaxud məhkəmə həmin hadisələrin bilavasitə müşahidəçisi olmurlar. Ona görə də cinayət işi üzrə istintaq aparan müstəntiqin fəaliyyəti bilavasitə özünün müşahidə etmədiyi halların tədqiqinə yönəlir. Bu halların müəyyən edilməsi cinayətin maddi izləri və cinayət hadisəsi ilə əlaqədar olan halları müşahidə etmiş şəxslərin məlumatları vasitəsilə mümkündür. Deməli, müstəntiq istintaqını apardığı cinayət işinə dair faktları onları təsdiq edən digər faktların köməyi ilə müəyyən etməli olur. Bu isə o deməkdir ki, müstəntiqin cinayət işi üzrə halların müəyyən edilməsinə yönəlmiş fəaliyyəti idrak fəaliyyəti olub, təfəkkür prosesini təşkil edir. Müstəntiqin fəaliyyəti indiki faktlar əsasında keçmişdə mövcud olmuş faktları müəyyən etməkdən və onlar arasındakı səbəbli əlaqəni aydınlaşdırmaqdan ibarətdir. Müstəntiq cinayət işi üzrə faktiki halları (keçmiş zamanda artıq baş vermiş halları) düzgün müəyyən etmək üçün həmin faktların mövcudluğunun mümkün olan bütün konkret variantlarını aydınlaşdırmalı və yoxlamalıdır. Müstəntiqin tədqiq etdiyi faktların mövcud ola bildiyi bu cür konkret variantlar əsasında istintaq fərziyyələri yaranır.

Beləliklə, kriminalistik fərziyyələr müstəntiq və digər subyektlərin törədilmiş cinayət hadisəsi və onun ayrı-ayrı halları haqqında faktiki cəhətdən əsaslandırılmış, məntiqin qanunlarına uyğun olaraq qurduqları ehtimal xarakterli əqli nəticələridir.

Kriminalistik fərziyyələr mahiyyətcə olmasa da bir sıra zahiri əlamətləri ilə digər hipotezlərdən fərqlənir. Fərziyyələr aid olduqları sahəyə, məzmununa, yoxlanılma üsullarına, habelə təyinatına görə bir sıra spesifik zahiri əlamətlərə malikdirlər ki, bununla da onlar digər hipotezlərdən fərqlənirlər:

- kriminalistik fərziyyələr yalnız cinayət mühakimə icraatı dairəsində qurulur və yoxlanılır. Digər hipotezlər isə elmi və əməli idrak prosesinin başqa sahələrinə aiddir;
- kriminalistik fərziyyələr faktiki məlumatlarla keçmişdə olan faktların səbəbli əlaqəsinə dair elə ehtimallardır ki, onlar məzmununa görə cinayət

MUHASIBAT.AZ

işinin istintaqı və həlli üçün əhəmiyyət kəsb edir. Bu cür əhəmiyyət kəsb etməyən fərziyyələr istintaq fərziyyələri sistemindən kənarlaşdırılır;

- kriminalistik fərziyyələr xüsusi üsulla - sübutların toplanılmasının cinayət - prosessual qanunvericiliklə müəyyən edilmiş üsulları ilə yoxlanılır. Hipotezlər isə elmi və əməli idrak prosesində mövcud olan hər hansı üsulla yoxlanıla bilər;

- fərziyyələrin qurulması və yoxlanılmasının məqsədi tədqiq olunan cinayət işi üzrə həqiqəti müəyyənləşdirmək, yəni cinayət törətməkdə təqsirləndirilən şəxsin həqiqətən təqsirli olub-olmamasını aydınlaşdırmaqdır. Hipotezlərin təyinatı isə elmi və əməli idrak prosesinin müxtəlif məsələləri üzrə gerçəkliyin müəyyən edilməsidir.

Kriminalistik fərziyyələr anlayışını geniş və məhdud mənada başa düşmək olar. Geniş mənada kriminalistik fərziyyələr dedikdə, təkcə ibtidai istintaqla deyil, ümumiyyətlə, iş üzrə icraatla əlaqədar olaraq qurulan bütün fərziyyələr nəzərdə tutulur. Məhdud mənada kriminalistik fərziyyələr dedikdə isə yalnız ibtidai istintaqda müstəntiq tərəfindən irəli sürülən fərziyyələr başa düşülür.

İstintaq zamanı qurulan fərziyyələr mühüm əhəmiyyətə malik olub, istintaqın planlaşdırılmasında həlledici rol oynayır. Belə ki, fərziyyələrin qurulması və yoxlanılması istintaqın planlaşdırılmasının əsasını təşkil edir. Fərziyyələr vasitəsilə istintaqın istiqaməti, habelə iş üzrə aydınlaşdırılmalı olan halların dairəsi müəyyən edilir. İstintaq fərziyyələri müstəntiqin fəaliyyət dairəsini, istiqamətini və xarakterini müəyyənləşdirir. Fərziyyələrin əhəmiyyətindən bəhs edərkən onların bütün cinayət işləri üzrə istintaq zamanı irəli sürülməsinin zəruri olub-olmaması məsələsi də diqqəti cəlb edir. Ümumiyyətlə, hüquq ədəbiyyatında bu məsələyə dair vahid fikir yoxdur. Məsələn, R.S.Belkin, A.M.Larin və başqaları belə hesab edirlər ki, istintaq fərziyyələri bütün cinayət işləri üzrə irəli sürülür, çünki nə qədər ki, ibtidai istintaq qurtarmamışdır müstəntiqin tədqiq olunan hadisəyə dair mülahizəsi ehtimal xarakteri daşıyır və onun sübuta yetirilməsi tələb olunur. A.N.Vasilyev isə göstərir ki, fərziyyələrin bütün cinayət işləri üzrə irəli sürülməsinin zəruri olub-olmaması barədə sualın qoyuluşunda, hər şeydən əvvəl, məntiqsizlik var. Çünki iş üzrə bu və ya digər hal tamamilə aydındırsa, onda həmin hallara dair fərziyyələrin qurulması mənasızdır.

Fərziyyələrin bütün cinayət işləri üzrə qurulmasını zəruri hesab etmək daha düzgündür. Belə ki, istintaqı aparan müstəntiq, habelə cinayət işinə baxan məhkəmə iş üzrə heç bir faktın bilavasitə müşahidəçisi olmur. Buna görə də onlar iş üçün əhəmiyyəti olan hər hansı bir faktı yalnız digər faktların köməyi ilə sübut etdikdən sonra müəyyən nəticəyə gələ bilərlər. Hətta istintaq

MUHASIBAT.AZ

zamanı hər hansı bir faktın tam aydın olması belə həmin işlər üzrə fərziyyələrin qurulması ehtiyacını aradan qaldırmır.

Kriminalistik fərziyyələr vasitəsilə həqiqətin üzə çıxarılması da təfəkkür prosesində meydana gələn digər hipotezlər kimi bir sıra ümumi tələblərə cavab verməlidir. Belə ki, a) fərziyyələr və onların vasitəsilə müəyyən ediləcək faktlar arasında ziddiyyət olmamalıdır; b) fərziyyələrdə elə hallar irəli sürülməlidir ki, onları canlı müşahidənin, yaxud müəyyən hərəkətlərin nəticələri ilə yoxlamaq mümkün olsun; v) fərziyyələr təkcə onların vasitəsilə müəyyən ediləcək hallara deyil, habelə həmin hallarla əlaqədar digər hallara da uyğun gəlməlidir və s.

Göstərilən ümumi şərtlərlə yanaşı, bilavasitə kriminalistik fərziyyələrə aid olan xüsusi şərtlər də vardır. Bu şərtlər aşağıdakılardan ibarətdir: 1) kriminalistik fərziyyələr aid olduqları hər hansı bir elmin ümumi müddəaları və qanunlarına uyğun gəlməli, onlarla ziddiyyət təşkil etməməlidir; 2) kriminalistik fərziyyələr arasında məntiqi ziddiyyət olmamalıdır; 3) cinayət hadisəsinin ayrı-ayrı hallarına dair irəli sürülən kriminalistik fərziyyələr bütünlükdə həmin hadisəyə aid olan ümumi fərziyyəyə uyğun gəlməlidir; kriminalistik fərziyyələr elə qurulmalıdır ki, onların məhz istintaq hərəkətləri vasitəsilə yoxlanılması mümkün olsun; 5) kriminalistik fərziyyənin yoxlanılmasının mümkünlüyü real olmalıdır; 6) kriminalistik fərziyyələr yalnız faktiki məlumatlara əsaslanmalıdır; 7) kriminalistik fərziyyələrin qurulması üçün kifayət dərəcədə əsas olmalıdır; 8) kriminalistik fərziyyənin irəli sürülməsi konkret faktın müəyyən edilməsindən ötrü zəruri olmalıdır; 9) fərziyyə dəqiq formulə edilməli, alternativ xarakter daşımamalı və konkret olmalıdır.

## 2. Kriminalistik fərziyyələrin təsnifatı

Kriminalistik fərziyyələr: a) subyektə görə; b) müəyyən edilmiş halların həcminə görə (fərziyyələrin istiqamətinə görə); c) məntiqi əlaqəyə görə; q) ittihamın predmetinə görə təsnifləşdirilir.

Fərziyyəni irəli sürən subyektdən asılı olaraq fərziyyələr dörd cür qruplaşdırılır: istintaq, məhkəmə, ekspert və əməliyyat-axtarış fərziyyələri.

İstintaq fərziyyələri - cinayət işi üzrə ibtidai istintaq zamanı sübut edilməli olan halları müəyyən etmək məqsədi ilə irəli sürülən fərziyyələrdir. Bu cür fərziyyələrin qurulması üçün prosessual əsas-cinayət işinin başlanmasıdır. Çünki istintaq fərziyyələrinin qurulması və yoxlanılması üçün istintaq hərəkətlərinin yerinə yetirilməsi lazım gəlir ki, belə hərəkətlərin aparılmasına,

MUHASIBAT.AZ

bir qayda olaraq cinayət işi başlandıqdan sonra yol verilir. İstintaq fərziyyələrinin subyektləri yalnız qanunla ibtidai istintaq aparmaq səlahiyyəti verilmiş vəzifəli şəxslər (müstəntiq, prokuror və təhqiqat aparan şəxs) ola bilər.

Məhkəmə fərziyyələri iş üçün əhəmiyyəti olan halların müəyyən edilməsindən ötrü bilavasitə məhkəmə tərəfindən irəli sürülən fərziyyələrdir. Məhkəmə fərziyyələrinin qurulması zərurəti ondan irəli gəlir ki, ibtidai istintaq orqanlarının sübut olunmuş hesab etdikləri ittiham məhkəmə üçün qəti qüvvəyə malik deyildir. Məhkəmə istər ibtidai istintaq materialları, istərsə də bilavasitə özünün topladığı materiallar əsasında cinayət hadisəsi, cinayətin edilməsi üsulu, şəxsin təqsirliliyi və s. haqqında müxtəlif fərziyyələr irəli sürə bilər.

Ekspert fərziyyələri bilavasitə ekspertizanın aparılması prosesində ekspert tədqiqatının predmeti ilə əlaqədar olaraq irəli sürülür. Bu cür fərziyyələrin subyektləri cinayət işi üzrə icraat zamanı baş verən xüsusi məsələlərə dair zəruri biliyə malik olan və cinayət-prosessual qanunla müəyyən edilmiş qaydada ekspert qismində cəlb edilmiş şəxslər ola bilər. Ekspert fərziyyələri istintaq və məhkəmə fərziyyələrindən təkcə subyektinə görə deyil, bir sıra digər əlamətlərinə görə də fərqlənir. Məsələn, ekspert fərziyyələrinin həddi istintaq və məhkəmə fərziyyələrinin həddindən məhduddur.

Əməliyyat -axtarış fərziyyələri - cinayət etmiş şəxsin gizləndiyi yer, oğurlanmış əmlakın gizlədildiyi və yaxud satılacağı yer və s. barədə fərziyyələr bilavasitə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi prosesində və məhz əməliyyat işçiləri tərəfindən irəli sürülür və yoxlanılır.

İstintaq, məhkəmə və ekspert fərziyyələri bütün hallarda konkret cinayət işinə aid olur və prosessual üsulla əldə edilən məlumatlara-sübutlara əsaslanır. Onlar yalnız prosessual qaydada, yəni istintaq hərəkətləri vasitəsilə yoxlanılır. Bundan fərqli olaraq əməliyyat-axtarış fərziyyələri cinayət-prosessual xarakter daşımır. Belə ki, bu cür fərziyyələr cinayət işi başlanılana qədər də qurula bilər. Həmin fərziyyələr qeyri-prosessual üsullarla yoxlanılır.

Kriminalistik fərziyyələr müəyyən etdikləri halların həcminə (və yaxud yönəldikləri istiqamətlərə) görə iki qrupa ayrılır: a) ümumi fərziyyələr və b) xüsusi fərziyyələr.

Ümumi fərziyyələr bütövlükdə cinayət hadisəsinin xarakterini və səbəbini aydınlaşdırmağa xidmət edir. Belə fərziyyələr, bir qayda olaraq istintaqın əvvəlində təftiş və ya digər yoxlamaların nəticələri, hadisə yerinə baxış, axtarış və s. ilkin istintaq, habelə, əməliyyat-axtarış hərəkətləri nəticəsində əldə edilən məlumatlar əsasında qurulur. Ümumi fərziyyələr o zaman qurulur ki, müstəntiqin sərəncamında olan ilkin məlumatlar yalnız cinayət işinin

MUHASIBAT.AZ

mahiyyətini və ya səbəblərini aydınlaşdırmağa imkan verir, hadisənin ayrı-ayrı konkret hallarını müəyyənləşdirmək üçün isə kifayət etmir.

Xüsusi fərziyyələr cinayət işinin ayrı-ayrı konkret hallarına dair irəli sürülən istintaq fərziyyələridir. Belə fərziyyələr cinayətin baş verdiyi yer, şərait, cinayətin edilməsində istifadə olunan alət və vasitələr, cinayətin izləri və s. hallar və faktlar üzrə qurula bilər.

Məntiqi əlaqə formasına görə fərziyyələr iki qrupa bölünür: əsas fərziyyələr və əks fərziyyələr. Fərziyyələrin bu cür qruplaşdırılması sübutetmənin tam, hərtərəfli və obyektiv olması tələbindən irəli gəlir və istintaq zamanı əvvəlcədən nəticə çıxarma hallarının qarşısını almağı təmin edir. Əsas fərziyyələr istintaqın həmin mərhələsində müstəntiqin sərəncamında olan faktiki materiallar üzrə qurulan fərziyyələrdir. Əks fərziyyələr isə əsas fərziyyələrin məntiqi inkarını ifadə edən fərziyyələrdir.

### 3. Fərziyyələrin qurulması və yoxlanılması

Fərziyyələrin qurulmasında əməli idrak prosesinin digər sahələrində qurulan hipotezlərdə olduğu kimi təfəkkürün məntiqi üsulları tətbiq olunur. Bu məntiqi üsullardan analiz, sintez, induksiya, deduksiya və analogiyanı xüsusilə qeyd etmək lazımdır.

Analiz tədqiqatın məntiqi üsulu olub, cinayət işi üzrə əhəmiyyətli olan halların müstəntiqin təfəkküründə hissələrə ayrılması və onların hər birinin məntiqi abstraksiya yolu ilə təhlil edilməsi deməkdir. Sintez isə işə dair halların bütövlükdə, həm də onları təşkil edən hissələrin qarşılıqlı əlaqəsi şəklində öyrənilməsidir. Başqa sözlə, sintez faktların və halların analiz nəticəsində ayrılmış hissələrinin qarşılıqlı və səbəbli əlaqə halında birləşdirilməsi olub, analizin əksini təşkil edir. Analiz və sintez məntiqi təfəkkürün qarşılıqlı əlaqədə olan və biri digərini şərtləndirən üsullarıdır. Çünki faktı dərk etmək üçün əvvəlcə onun konkret halları (hissələri) ayrılıqda təhlil edilməli, sonra isə həmin hissələr cəm halında sintez edilərək tam əmələ gətirilməlidir. İstintaq fərziyyələrinin qurulmasında da belədir.

İnduksiya üsulu təkcədən ümumiyə, faktlardan ümumiləşdirməyə doğru getmək deməkdir. Deduksiya üsulu isə ümumidən təkcəyə doğru getmək, ümumi hallara əsaslanaraq xüsusi hallar barədə nəticəyə gəlməkdir. Deduksiya üsulu ilə istintaq fərziyyələri qurularkən elmi əsaslar və təcrübədə təsdiqini tapmış müddəalardan istifadə olunur.

MUHASIBAT.AZ

Kriminalistik fərziyyələrin qurulmasında analogiya üsulundan da istifadə edilir. Analogiya - faktların ayrı-ayrı oxşar əlamətlərinə görə müqayisəsi üzrə induktiv əqli mühakimədir. Analogiya üsulu ilə kriminalistik fərziyyələrin qurulması iki sistemin əqli müqayisəsidir. Birinci sistem artıq müəyyən edilmiş faktlardan, ikinci sistem isə istintaq təcrübəsi nəticəsində ayrı-ayrı cinayətlər və onların əlamətləri üzrə əldə edilmiş məlumatlar sistemindən ibarətdir. Analogiya üsuluna görə əgər cinayət hadisələrinin müəyyən əlamətləri uyğun gəlirsə, onda digər əlamətlərin də uyğun gəlməsi barədə nəticə çıxarılır.

Fərziyyələrin qurulmasında intuisiyadan istifadə edilməsi düzgün deyildir. Çünki fərziyyələrin qurulması üçün konkret əsas olmalıdır. Bununla əlaqədar olaraq istintaq fərziyyələrinin əsaslarını aşağıdakı üç qrupa bölmək olar: 1) prosessual üsulla əldə edilən faktiki məlumatlar (sübutlar); 2) əməliyyat-axtarış hərəkətləri vasitələrilə əldə edilən məlumatlar; 3) təsadüfi mənbələrdən alınan məlumatlar. Göründüyü kimi, fərziyyələrin əsası həm prosessual, həm də qeyri-prosessual üsullarla əldə edilə bilər. Bu baxımdan əməliyyat-axtarış hərəkətləri, habelə təsadüfi mənbələrdən alınan məlumatlar əsasında istintaq fərziyyələrinin qurulması heç də qanunçuluğun pozulması kimi qiymətləndirilə bilməz. Çünki fərziyyə irəli sürmək hələ ki, iş üzrə hallara dair hüquqi nəticəyə gəlmək demək deyildir. Odur ki, istintaq fərziyyəsi qeyri-prosessual yolla əldə edilən əsaslar üzərində də qurula bilər. Belə əsaslarla fərziyyələrin qurulmasına yol verilməsi müstəntiqin cinayətləri açmaq imkanını genişləndirir və istintaq prosesində onun təşəbbüskarlığına imkan yaradır.

Kriminalistik fərziyyələrin qurulmasında fərziyyələr çoxluğu prinsipinə istinad etmək lazımdır. Belə ki, eyni faktın izahı üçün bir neçə fərziyyənin qurulması zəruridir. Bu baxımdan L.Karneyevanın iş üzrə yalnız bir fərziyyənin də qurula bilməsi barədə fikri ilə razılaşmaq çətindir.

Fərziyyələr çoxluğu zərurəti, hər şeydən əvvəl fərziyyə anlayışının məntiqi təbiəti və mahiyyəti ilə bağlıdır. Fərziyyə o vaxt irəli sürülür ki, konkret faktı müəyyən etmək üçün əldə edilən materiallar kifayət etmir. Əgər həmin materiallar faktın yəqinliyi üçün kifayət etmirsə, deməli, onların vasitəsilə həmin faktın bir neçə variantda izahı mümkündür. Bu isə onu göstərir ki, vahid fərziyyə ola bilməz. Digər tərəfdən, “fərziyyənin vahid olması” anlayışı məntiqi cəhətdən ziddiyyətlidir. Əgər əldə olan materiallardan yalnız bir nəticə çıxarmaq mümkündürsə, onda həmin nəticə fərziyyə deyil, əsil həqiqətin özüdür.

Beləliklə, krimnalistik fərziyyələr obyektiv həqiqətin müəyyən edilməsi baxımından bütün işlər və iş üçün mühüm əhəmiyyəti olan bütün hallar üzrə, həm də fərziyyələr çoxluğu prinsipinə əsasən qurulmalıdır.

MUHASIBAT.AZ

Fərziyyələr iş üzrə ehtimal olunan faktların və halların əsl gerçəkliyi ifadə edib-etməməsini müəyyənləşdirmək üçün yoxlanılır. Fərziyyələrin yoxlanılması dedikdə, onlardan irəli gələn nəticələri faktiki hallarda deduksiya üsulu ilə müqayisəsi başa düşülür.

Əsl gerçəkliyin üzə çıxarılması üçün: 1) iş üzrə hallara dair mümkün olan bütün fərziyyələr qurulmalıdır; 2) bütün fərziyyələr dəqiq və hərtərəfli yoxlanılmalıdır; 3) fərziyyələrin birindən savayı, qalan bütün fərziyyələr toplanılmış sübutlarla inkar olunmalıdır; 4) fərziyyələrdən yalnız biri toplanmış sübutlar vasitəsilə tam təsdiq olunmalıdır; 5) həmin fərziyyə iş üzrə bütün hallardan çıxarıla bilən yeganə nəticə olmalı, bu hallara tam uyğun gəlməli və onları tam izah etməlidir. Yuxarıda sadalanan bu şərtlərə kompleks riayət olunmalıdır.

İş üzrə mümkün olan bütün fərziyyələrin qurulması zəruriliyi şübhəsiz olub, heç bir mübahisə doğurmur. Çünki əgər cinayət işinə dair halların izahı üzrə hər hansı ehtimal yoxlanmazsa, həmin hallar tam və hərtərəfli müəyyən edilə bilməz. Buna görə də toplanmış materiallar üzrə bütün ehtimallar - fərziyyələr çoxluğu prinsipi üzrə irəli sürülməli və yoxlanılmalıdır.

**Fərziyyələrin yoxlanılması.**

Kriminalistik fərziyyələrin yoxlanılma üsul və vasitələri onların hansı növə aid olması ilə müəyyən edilir. Məhkəmə və istintaq fərziyyələri istintaq hərəkətlərinin vasitəsi ilə yoxlanılır. Bu zaman əməliyyat-axtarış vasitələrindən istifadə edilsə də onlar köməkçi xarakter daşıyırlar. Əməliyyat-axtarış fərziyyələrinin yoxlanılması zamanı isə başlıca olaraq əməliyyat-axtarış üsullarından və vasitələrindən istifadə edilir. Bu fərziyyələrin yoxlanılmasında prosessual vasitələrdən istifadə edilsə də onlar mühüm xarakter daşıyırlar.

Məhkəmə və istintaq fərziyyələrinin yoxlanılması zamanı xüsusi biliklərdən ekspertizanın həyata keçirilməsi və ya mütəxəssisin istintaq hərəkətlərinin həyata keçirilməsinə cəlb olunması vasitəsilə istifadə edilir. Əməliyyat-axtarış fərziyyələrinin yoxlanılması zamanı isə xüsusi biliklərdən qeyri-prosessual formada istifadə edilir. Ekspert fərziyyələrinin yoxlanılması da müəyyən normalarla tənzimlənən qaydada ümumelmi və xüsusi biliklərdən istifadə etməklə həyata keçirilir.

Fərziyyələrin yoxlanılması prinsiplərindən biri ondan ibarətdir ki, öz təsdiqini tapan vahid fərziyyə qalanlarını inkar etməlidir. Bundan başqa, aşağıdakı hallarda kriminalistik fərziyyə özlüyündə inkar olunmuş hesab edilə bilər: 1) onu istisna edən faktiki məlumatlar ortaya çıxdıqda; 2) çıxarılan nəticələr həqiqətə uyğun gəlmədikdə və ya faktın müəyyənləşdirilməsi üçün kifayət etmədikdə; 3) fərziyyənin yoxlanılmasına ehtiyac qalmadıqda.

MUHASIBAT.AZ

Bir qayda olaraq, istintaq fərziyyələri növbə ilə deyil, paralel surətdə yoxlanmalıdır. Məhz belə olduqda ortaya çıxan hər hansı bir yeni məlumatın ayrı-ayrı fərziyyələrlə qarşılıqlı əlaqəsi düzgün qiymətləndirilə bilər. Əksinə, müstəntiq ayrıca bir fərziyyənin üzərində yoxlama apardıqda başqa fərziyyələr nəzərdən qaçırıla bilər. Digər tərəfdən fərziyyələr paralel yoxlanılmadıqda müstəntiqin yoxladığı konkret fərziyyəyə əsassız üstünlük verməsi halları da mümkündür.

Belə düşünmək düzgün deyildir ki, fərziyyələrin paralel yoxlanılması müstəntiq üçün praktiki cəhətdən çətindir və buna görə də o, fərziyyələri növbə ilə ayrılıqda yoxlamalıdır. Əksinə, fərziyyələrin paralel yoxlanılması müstəntiqin istintaq müddətinə riayət etməsini tə`min edir, digər tərəfdən və ən başlıcası, paralel yoxlamanın səmərəliliyi fərziyyələrin mahiyyətindən irəli gəlir. Çünki fərziyyələrin qarşılıqlı əlaqəsini yalnız paralel yoxlama yolu ilə müəyyən etmək olar.

Bunula belə, paralel yoxlama heç də fərziyyələrin yoxlanılmasının yeganə üsulu deyildir. Konkret vəziyyətdən asılı olaraq fərziyyənin ayrılıqda yoxlanılması da səmərəli nəticə verə bilər. Məsələn, tə`xirəsalınmaz istintaq hərəkətlərinin aparılması ilə bağlı olan fərziyyənin əvvəlcə yoxlanılması daha əlverişlidir. Çünki belə fərziyyənin yoxlanılmasının gecikdirilməsi bəzən yoxlama üzrə aparılan istintaq hərəkətlərinin (axtarış, götürmə, hadisə yerinə baxış və s.) heç bir nəticə verməməsinə gətirib çıxara bilər.

Yoxlama nəticəsində təsdiq olunan fərziyyələrin həqiqiliyinə əmin olmaq üçün cinayət hadisəsinin yoxlanılan halı ilə bağlı bütün mümkün fərziyyələr irəli sürülməlidir. Təsdiq olunmuş fərziyyə yeganə həqiqi fərziyyə olmalı və həmin halla bağlı qurulmuş bütün fərziyyələri inkar etməlidir. Təsdiq olunmuş fərziyyədən məntiqi qaydada çıxarıla bilən nəticələr hərtərəfli yoxlanılıb sübuta yetirilmiş olmalıdır və fərziyyə iş üzrə mövcud olan digər hallar ilə ziddiyyət təşkil etməməlidir. Yalnız bu şərtlərə əməl etməklə yoxlanılmış və təsdiq olunmuş fərziyyənin obyektiv reallığı özündə əks etdirdiyini qəbul etmək olar.

## 4. İstintaqın təşkili və planlaşdırılması

İstintaqın təşkili onun planlaşdırılması ilə sıx əlaqəlidir. Lakin onları eyniləşdirmək olmaz. İstintaqın təşkili daha geniş anlayış olub, planlaşdırmanı özündə ehtiva edir. Planlaşdırma istintaqın təşkilinin tərkib hissəsi kimi çıxış

MUHASIBAT.AZ

edir və onun elementlərindən biridir. Daha geniş anlayış olan istintaqın təşkili planlaşdırmadan əlavə digər elementləri də özündə birləşdirir.

İstintaqın təşkili, hər şeydən əvvəl, onun vaxtında planlaşdırılmasından başlayır. Çünki ibtidai istintaq mürəkkəb, çoxşaxəli və aktiv bir fəaliyyət olduğundan onun plansız həyata keçirilməsini təsəvvür etmək mümkün deyildir. Plansız və pərakəndə şəkildə həyata keçirilən istintaq yalnız təsadüf nəticəsində müvəffəqiyyətlə başa çata bilər.

Cinayətlərin istintaqı mürəkkəb bir fəaliyyət olduğundan onun müvəffəqiyyətlə həyata keçirilməsi yalnız müstəntiqin gücü ilə təmin edilə bilməz. Bir qayda olaraq müstəntiq əməliyyat-axtarış orqanları ilə əlaqəli formada fəaliyyət göstərir, ictimaiyyət nümayəndələrinə müraciət etməli olur. Bu əlaqənin daimi olması və tələb olunan anda yaradılması istintaqın təşkilinin mühüm şərtlərindən biridir. Cinayətin istintaqı zamanı müstəntiq və əməliyyat-axtarış orqanlarının işçiləri istintaqın gedişinə mane olmaq istəyən əks fəaliyyətlə qarşılaşmalı olurlar. Bu fəaliyyət bir qayda olaraq cinayətkarlar və onların havadarları tərəfindən gizli şəkildə həyata keçirilir. Onlar müxtəlif üsullarla müstəntiqin tədbirlər planından xəbər tutmağa çalışırlar. Ona görə də müstəntiq planlaşdırılan istintaq hərəkətləri və istintaq-axtarış tədbirləri haqqında məlumatların gizli qalmasını təmin etmək üçün maksimum tədbirlərdən istifadə etməlidir.

Müasir cinayətkarlığa qarşı mübarizə elm və texnikanın nailiyyətlərindən istifadə etmədən mümkün deyildir. İstintaqı aparılan cinayət işinin xüsusiyyətlərindən asılı olaraq müstəntiq müasir texniki vasitələrlə təmin edilməlidir.

Bəzən törədilmiş cinayət hadisəsi mürəkkəb olduğundan onun istintaqı müəyyən istintaq qrupuna və ya briqadasına həvalə edilir. Belə hallarda ümumi rəhbərliyi həyata keçirmək üçün müstəntiqlərdən daha təcrübəlisi rəhbər təyin edilməli, qrupun və ya briqadanın üzvləri arasında vəzifə və tapşırıqlar dəqiqliklə müəyyənləşdirilməli və daimi qarşılıqlı əlaqə, informasiya mübadiləsi mövcud olmalıdır.

İstintaq planı tərtib edilərkən müstəntiqin icraatında olan başqa cinayət işlərinin icraatı nəzərə alınmalıdır. Çünki həddən artıq işlə yüklənməsi müstəntiqin səmərəli işləməsinə öz mənfi təsirini göstərir.

Beləliklə, istintaqın təşkili aşağıdakı məqsədlərin həyata keçirilməsini təmin etməyə yönəlmişdir:

- ilkin daxil olan məlumatların təhlili; - istintaq iştirakçılarının hərəkətlərinin istiqamətləndirilməsi və elmi-texniki vasitələrdən istifadə edilməsi; - istintaqın başa çatdırılması üçün məlumatların toplanması və

MUHASIBAT.AZ

sintezi; - istintaqın müvəffəqiyyətlə həyata keçirilməsi üçün zəruri şərait yaradılması.

İstintaqın təşkili onun iştirakçılarının öyrənilməsinə, hərəkətlərinin funksiyalarının müəyyən edilməsinə, onların həyata keçirilməsi üzərində nəzarətin təşkil edilməsinə, iştirakçıların hərəkətlərini aktivləşdirmək üçün üsul və vasitələrin müəyyən edilməsinə yönəlmişdir.

Müstəntiq zəruri məlumatların toplanması, tədqiqi, yoxlanması, ümumiləşdirilməsi, başqa iştirakçıların fəaliyyətinin təşkili və əldə edilmiş bütün faktların cinayət işinin materiallarında qeyd edilməsi funksiyasını yerinə yetirir. Deməli, istintaqın təşkilini funksional idarəetmə strukturlarının yaradılması və həmin proses iştirakçıları arasında qarşılıqlı əlaqə sistemini yaradan bir fəaliyyət kimi müəyyən etmək olar. Təşkilati idarəetmə fəaliyyətinin əsas metodu istintaqın planlaşdırılmasıdır.

İstintaq planı cinayət işi üzrə həqiqəti müəyyən etmək üçün müstəntiq tərəfindən həyata keçirilməsi nəzərdə tutulan hərəkətlərin məqsədyönlü ardıcıllıqla müəyyən edilmiş sistemidir. İstintaq planı cinayət işinə dair müstəntiqin geniş praktik fəaliyyət proqramıdır.

İstintaq planında hərəkətin məzmunu ilə yanaşı onun forması da nəzərdə tutulmalı, o cümlədən hərəkətin hansı üsulla ediləcəyi müəyyən olunmalıdır. Bu zaman müstəntiq əksər hallarda kriminalistika elminin istintaq təcrübəsi əsasında işləyib hazırladığı təklifləri rəhbər tutur, çünki bir çox istintaq hərəkətlərinin yerinə yetirilməsi qaydası qanunda kifayət qədər geniş nizama salınmamışdır.

İstintaq planına daxil edilən hərəkətləri xarakterinə görə iki qrupa ayırmaq olar:

- cinayət tərkibinin sübut edilməsi ilə əlaqədar olan hərəkətlər;
- iş üzrə müəyyən edilən hallarla əlaqədar olaraq yerinə yetirilən digər hərəkətlər.

Birinci qrupa cinayətin obyektini, obyektiv cəhətini, subyektini və subyektiv cəhətini müəyyən etməyə yönəlmiş hərəkətlər, ikinci qrupa isə cinayət etmiş şəxsin axtarışı, cinayət nəticəsində vurulan zərərin ödənilməsi, cinayətin baş verməsinə səbəb olan halların müəyyənləşdirilərək aradan qaldırılması üzrə hərəkətlər və s. daxildir.

İstintaqın planlaşdırılması anlayışı ilə istintaq fərziyyələrinin qurulması anlayışları da eyni deyildir. Planlaşdırma istintaqın təşkilinin bir üsuludur, fərziyyə isə iş üzrə əhəmiyyəti olan faktların və halların müəyyənləşdirilməsi və dərk edilməsi üsuludur. Lakin hər iki üsul qarşılıqlı əlaqədədir. Belə ki, istintaq planı istintaq fərziyyələrinin yoxlanılmasına xidmət edir, həmçinin

MUHASIBAT.AZ

əksinə, planlaşdırmanın əsas məzmununu bir qayda olaraq fərziyyələrin yoxlanması təşkil edir.

İstintaqın planlaşdırılması onun tezliklə başa çatdırılmasında da mühüm rol oynayır. Belə ki, istintaq hərəkətlərinin planlaşdırılması artıq hərəkətlərin edilməsinin qarşısını almış olur. Bu da cinayətin üstünün vaxtında açılmasına və təqsirli şəxsin müəyyənləşdirilməsinə kömək edir. Beləliklə, planlaşdırma cinayət mühakimə üsulunun cinayətləri tezliklə və bütünlüklə açmaq, habelə təqsirli şəxsləri aşkara çıxarmaq vəzifəsinin müvəffəqiyyətlə yerinə yetirilməsində mühüm rol oynayır.

## 5. İstintaqın planlaşdırılmasının prinsipləri və növləri

İstintaqın planlaşdırılması prinsipləri dedikdə müstəntiq tərəfindən rəhbər tutulan və planlaşdırmanın əsasını təşkil edən müddəalar nəzərdə tutulur. Planlaşdırma prinsipləri bunlardır:

- planlaşdırmanın fərdiliyi;
- planlaşdırmanın dinamikliyi;
- planlaşdırmanın reallığı;
- planlaşdırmanın əsaslılığı;
- planlaşdırmanın konkretliyi;
- planlaşdırmanın vaxtında aparılması.

**Planlaşdırmanın fərdiliyi.** Bu prinsip istintaqı aparılan hər bir cinayət işinin fərdi xüsusiyyətlərə malik olmasından irəli gəlir. Belə ki, bütün əlamətləri üzrə eyni iki cinayət əməli ola bilmədiyi kimi, həmin cinayətlər üzrə istintaqın planlaşdırılması da eyni ola bilməz. Hər bir cinayət üzrə təqsirləndirilən şəxsiyyəti, cinayətin edildiyi yer, vaxt, üsul və s. fərdi xarakter daşıdığına görə planlaşdırma da fərdi xarakter daşımalıdır. Doğrudur, eyni növ cinayətlər üzrə bəzi əlamətlər uyğun gələ bildiyinə görə istintaqın əsas mərhələləri, istintaq hərəkətlərinin ardıcıllığı və s. barədə istintaq planları da uyğun ola bilər. Lakin bu yenə də planlaşdırmanın fərdilik prinsipini inkar etmir.

İstintaqın planlaşdırılmasının fərdi xarakter daşıması prinsipi heç də o demək deyildir ki, bir qrup ilkin istintaq hərəkətlərinin müxtəlif cinayətlər üzrə aparılması məqsədyönlü deyildir. Məsələn, istintaq təcrübəsinin ümumiləşdirilməsi əsasında sındırma yolu ilə oğurluq edilməsi, sənədləri saxtalaşdırmaqla dövlət əmlakının mənimsənilməsini və s. hallar üçün hansı ilkin istintaq hərəkətlərinin xarakterik olduğu müəyyən edilir və onların təcrübədə tətbiqi təklif olunur.

MUHASIBAT.AZ

**Planlaşdırmanın dinamikliyi.** Müstəntiqin tərtib etdiyi istintaq planı dinamik xarakter daşıyır. Belə ki, istintaq prosesində həmin plan dəyişdirilə, yaxud onda müəyyən düzəliş edilə bilər. Ona görə də istintaq planının tərtib edilməsi hələ ki, planlaşdırmanın başa çatdırılması deyil, əslində onun başlanğıcıdır. Planlaşdırma istintaqın gedişi boyu davam edən bir prosesdir. Bu proses də istintaqın özü kimi operativ xarakter daşıyır. Əgər yeni fərziyyələrin qurulması, yaxud istintaqın başqa istiqamətdə aparılması zərurəti ortaya çıxarsa, buna uyğun olaraq istintaq planı da dəyişdirilməlidir.

Planlaşdırmanın dinamikliyi istintaq fərziyyələrinin qurulması zərurəti ilə bağlıdır. İstintaq fərziyyələri iş üzrə ehtimaldan həqiqətə doğru yol olub, yeni-yeni halların ortaya çıxması, müəyyənləşdirilməsi ilə əlaqədardır. İş üzrə yeni halların ortaya çıxması isə başqa bir fərziyyənin planlaşdırılması və yoxlanılması ehtiyacını doğurur. Nə qədər ki, iş üzrə fərziyyələr tam sübuta yetirilməmişdir, istintaq planında bu cür dəyişikliklər ediləcəyi gözlənilə bilər.

Dinamiklik prinsipinə əsaslanması planlaşdırmanın səmərəli nəticə verməsini təmin edir. İstintaq planında zəruri dəyişikliklərin vaxtında edilməməsi, şübhəsiz ki, onun səmərəliliyinin itməsinə səbəb olur.

**Planlaşdırmanın reallığı**. Bu prinsipin tələblərinə görə istintaq planı faktların real surətdə qiymətləndirilməsi və real istintaq fərziyyələri əsasında tərtib olunmalıdır. İstintaq planında işin düzgün həll edilməsi üçün əhəmiyyət kəsb edən bütün halların müəyyən olunması nəzərdə tutulmalıdır.

Reallıq prinsipinin əsas tələblərindən biri istintaq planında nəzərdə tutulan hərəkətlərin yerinə yetirilə bilməsinin real surətdə mümkün olmasıdır. Belə olmadıqda həmin hərəkətin planlaşdırılması da öz əhəmiyyətini itirir. Müstəntiq planda göstərdiyi hərəkətin icrasının həm elmi, həm də təcrübi cəhətdən mümkünlüyünü nəzərə almalıdır. Məsələn, əgər konkret elm sahəsi üzrə xüsusi bilik tələb edən məsələyə dair ekspertiza keçirilməsi planlaşdırılarsa, həmin məsələnin həlli üçün müvafiq elmi üsulların müəyyən olub-olmaması nəzərə alınmalıdır (əgər bu, müstəntiq üçün məlumdursa). Digər tərəfdən hərəkətin icrasının təcrübi cəhətdən mümkünlüyü nəzərdən qaçırıla bilməz. Məsələn, zərər çəkmiş şəxs, yaxud şahid cinayət hadisəsindən sonra görmə qabiliyyətini itirmişlərsə, onların iştirakı ilə bağlı olan istintaq eksperimenti keçirilməsinin planlaşdırılması mənasızdır. Çünki bu hərəkətin təcrübi olaraq yerinə yetirilməsi mümkün deyildir.

**Planlaşdırmanın əsaslılığı.** Bu prinsipin tələbinə görə istintaq planında nəzərdə tutulan hərəkətlər iş üzrə faktiki hallardan irəli gəlməlidir. Əgər həmin hərəkətlər işin faktiki halları ilə bağlı deyildirsə, onların aparılması zəruri ola bilməz.

MUHASIBAT.AZ

Planlaşdırmanın əsaslığı prinsipi ilk növbədə istintaq fərziyyələrinin əsaslı olması tələbindən irəli gəlir. Çünki istintaq hərəkətlərinin planlaşdırılması ilk növbədə istintaq fərziyyələrinin yoxlanılmasına xidmət edir. Planlaşdırmanın faktiki əsası ilə yanaşı qanuni əsası da olmalıdır. Əgər bu və ya digər hərəkətin planlaşdırılması üçün faktiki əsas varsa, lakin həmin hərəkətin edilməsinə qanunla yol verilmirsə, belə hərəkətin planlaşdırılması istintaq üçün heç bir əhəmiyyət kəsb edə bilməz. Çünki həmin hərəkət qeyri-qanuni üsulla edildiyinə görə onun nəticəsi sübut kimi qəbul edilə bilməz.

**Planlaşdırmanın konkretliyi.** Bu prinsipə əsasən istintaq planında nəzərdə tutulan hərəkətin bütün halları müəyyən edilməlidir. Belə ki, hərəkətin icra vaxtı, yeri, üsulu, onun icraçıları konkret olaraq planlaşdırılmalıdır. Çünki bu hallar konkret müəyyən edilməzsə, planın yerinə yetirilməsi qeyri-müəyyən olar və bununla da istintaq planı öz rolunu lazımi dərəcədə oynaya bilməz. Bütün hərəkətlərin konkret planlaşdırılması müstəntiqin öz fəaliyyətinə nəzarət edə bilməsini təmin edir. Digər tərəfdən, konkret planlaşdırma istintaqın tezliklə başa çatdırılması, habelə onun tam və hərtərəfli aparılması üçün də real imkan yaradır. Planlaşdırmanın konkretliyi onun fərdiliyi prinsipi ilə üzvi surətdə bağlıdır. Planın konkretliyi bir növ onun fərdi xarakter daşımasından irəli gəlir. Bununla belə, planın fərdiliyi və konkretliyi eyni olmayıb, mahiyyətcə bir-birindən fərqlənir. Belə ki, fərdilik bütünlükdə cinayət işinin xüsusiyyətlərindən irəli gəldiyi halda, konkretlik ayrı-ayrı istintaq və əməliyyat-axtarış hərəkətlərinin xüsusiyyətləri ilə bağlıdır.

**Planlaşdırmanın vaxtında aparılması.** Bu prinsip istintaq planının məqsədindən irəli gəlir. Məlumdur ki, planlaşdırmada başlıca məqsəd istintaqın məqsədyönlü şəkildə aparılmasının təmin olunmasıdır. Bu isə istintaqın vaxtında planlaşdırılmasını tələb edir.

İstintaq hərəkətlərinin vaxtından əvvəl və yaxud gec planlaşdırılması mənfi nəticələrə səbəb ola bilər. Əgər bu və ya digər hərəkət vaxtından əvvəl planlaşdırılıbsa, istintaqın istiqamətinin düzgün müəyyən edilməsində ciddi səhvlərə yol verilə bilər. Çünki tələsikliyə yol verilməsi nəzərdə tutulmuş nəticənin alınmamasına gətirib çıxarır. Məsələn, mənzildə təkrar axtarış ilk axtarışdan çox az sonra aparılarsa, gözlənilən nəticə alınmaya bilər. Belə ki, ev sahibinin ilkin axtarışdan əvvəl başqa yerdə gizlətdiyi əmlakı evinə gətirməsi üçün bir qədər vaxt keçməsi gözlənilməlidir.

Planlaşdırmanın gecikdirilməsi bir sıra hərəkətlərin aparılmasını çətinləşdirir, bəzən isə həmin hərəkətlərin aparılmasını qeyri-mümkün edir. Məsələn, hadisə yerinə baxış vaxtında aparılmadıqda oradakı izlərin və maddi sübutların aşkar edilməsi xeyli çətinləşir, bir sıra hallarda isə obyektiv və

MUHASIBAT.AZ

subyektiv səbəblər üzündən mümkün olmur. Beləliklə, planlaşdırmanın vaxtında aparılması istintaq planının yerinə yetirilməsinin mümkünlüyü, habelə müvafiq nəticələrin alınması üçün mühüm təminatdır.

Planlaşdırmanın yuxarıda göstərilən prinsipləri qarşılıqlı əlaqədə olub, biri digərini şərtləndirir. Onlardan hər hansı birinə əməl olunmaması, şübhəsiz ki, digər prinsiplərin də pozulmasına gətirib çıxarır.

Predmetinə görə planlaşdırma iki cür olur: a) cinayət işi üzrə istintaqın ümumi planlaşdırılması; b) ayrı-ayrı istintaq hərəkətlərinin planlaşdırılması.

Ümumi planlaşdırmanın predmetini konkret cinayət işinin bütünlükdə istintaqı təşkil edir. Burada cinayət işi üzrə sübut edilməli olan halların dairəsi müəyyənləşdirilir, cinayət işinin xarakterindən və istintaq şəraitindən asılı olaraq daha çox məqsədəuyğun olan istintaq hərəkətləri planlaşdırılır, istintaq hərəkətlərinin hansı ardıcıllıqla və nə vaxt aparılacağı müəyyən olunur. İstintaqın ümumi planı əsasən iş üzrə istintaq fərziyyələrinin qurulması və yoxlanılması ilə bağlı olur ki, hüquq ədəbiyyatında bəzən bu hissə “sübutetmə planı” da adlandırılır. Ümumi planın bu hissəsində istintaq hərəkətlərinin texniki və təşkilati cəhətlərinə aid olan məsələlər də nəzərdə tutulur. Buraya təftiş və ya digər yoxlamaların təşkil edilməsi, idarə, müəssisə, təşkilat və vəzifəli şəxslərdən müvafiq sənədlərin tələb edilməsi, müstəntiqin istehsalat sahələrində işlərlə, uçot-hesabatın təşkili vəziyyəti ilə tanış olması, mütəxəssislərdən məsləhət alması və s. məsələlər aiddir. Cinayət işi üzrə ümumi planlaşdırma əksər hallarda üç əsas mərhələdən ibarət olur. Birinci mərhələdə təxirəsalınmaz ilkin istintaq hərəkətləri planlaşdırılır. Ona görə ki, cinayət işi başlanan vaxt bir qayda olaraq müstəntiqin sərəncamında yalnız ilkin materiallar olur və bu, istintaqın geniş planının tərtibi üçün kifayət etmir.

Planlaşdırmanın birinci mərhələsində ilkin istintaq hərəkətlərinin müəyyən edilməsi zərurəti həm də bu hərəkətlərin (hadisə yerinə baxış, axtarış, hadisəni bilavasitə müşahidə etmiş şahidlərin dindirilməsi və s.) təxirəsalınmaz xarakter daşımasından irəli gəlir.

Planlaşdırmanın ikinci mərhələsi istintaqın geniş planının tərtib edilməsidir. Geniş plan ilkin istintaq hərəkətlərinin nəticəsinə əsasən tərtib olunur. Bununla belə, elə cinayət işləri də olur ki, istintaqın əvvəlində müstəntiqin sərəncamındakı materiallar ilkin hərəkətləri aparmadan geniş planın tərtibi üçün kifayət edir.

İstintaqın geniş planının qarşısında duran vəzifə cinayətin istintaqı üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsidir. Belə ki, geniş planda müstəntiq iş üzrə mümkün olan bütün istintaq fərziyyələrinin yoxlanılmasını nəzərdə tutmalı və istintaq hərəkətlərinin ardıcıllığını müəyyənləşdirməlidir.

MUHASIBAT.AZ

Lakin geniş planın tərtib edilməsi hələ ki, planlaşdırmanın başa çatdırılması demək deyildir. Çünki geniş planda bütün istintaq hərəkətlərini müəyyənləşdirmək mümkün olmur. Bu plan istintaqın ən yaxın vəzifələrini və onların yerinə yetirilməsi üçün zəruri olan istintaq hərəkətlərini müəyyənləşdirməlidir.

Planlaşdırmanın üçüncü mərhələsi istintaqın gedişi zamanı ortaya çıxan konkret halların yoxlanılması üzrə hərəkətlərin müəyyən olunmasını əhatə edir. Məsələn, istintaqın dayandırılması, yaxud cinayət işinin xitam edilməsi üçün əsas ola biləcək halların yoxlanılmasının planlaşdırılması da bu mərhələyə aiddir.

İstintaqın istiqamətini müəyyən etmək baxımından cinayət işlərinin tipik xüsusiyyətlərini konkretləşdirmək lazımdır. Son illərin hüquq ədəbiyyatında bu məsələyə məhz həmin mövqedən yanaşılır. Məsələn, A.N.Vasilyev istintaqın istiqamətinin müəyyən edilməsini istintaqın əvvəlində mövcud olan halların daha konkret cəhətləri ilə əlaqələndirməklə bu halları aşağıdakı qruplara bölür: 1) cinayət hadisəsi və təqsirləndirilən haqqında məlumat var, lakin bu hadisənin həqiqətən olması və əgər olmuşsa, cinayət xarakteri daşıması məlum deyildir; 2) cinayət əlamətləri olan hadisə müəyyən edilmişdir, onun zərərli nəticəsi və onu edən şəxslər məlumdur, lakin hadisənin cinayət xarakterli olması və onu törədən şəxsin təqsirli olması məlum deyildir; 3) cinayət əlamətləri olan hadisə müəyyən edilmişdir, lakin cinayət nəticəsində mənfəət əldə etmək gələcəklə bağlıdır; 4) cinayətin aşkar əlamətləri olan hadisə müəyyən edilmişdir və bu əməl yalnız müəyyən vəzifə tutan şəxs tərəfindən edilə bilər; 5) cinayət hadisəsi müəyyən edilmişdir və onun xüsusi üsullarla, xüsusi peşə vərdişləri ilə törədilməsi aydınlaşdırılmışdır.

Ümumi planlaşdırmada nəzərə alınmalı olan hallardan biri də istintaq hərəkətlərinin ardıcıllığının düzgün müəyyən edilməsidir. Bu isə konkret istintaq hərəkətlərinin xarakterindən asılıdır.

**Ayrı-ayrı istintaq hərəkətlərinin planlaşdırılması.** Konkret cinayət işi üzrə istintaqın müvəffəqiyyətlə başa çatdırılması üçün istintaq hərəkətləri, onların həyata keçirilməsi üsulları və bu hərəkətlərin ardıcıllığının düzgün müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Ayrı-ayrı istintaq hərəkətlərinin planlaşdırılması ümumi planlaşdırmaya nisbətən sadə prosesdir. Çünki burada həll edilən məsələlərin dairəsi nisbətən məhdud və konkretdir. Bununla belə, ayrı-ayrı istintaq hərəkətinin planlaşdırılması prosesi bir sıra məsələlərin həllini tələb edir və bunlara aşağıdakılar aiddir: istintaq hərəkətinin vəzifəsi və məqsədi, hərəkətin icra edilməsi vaxtı və yeri, hərəkətin icraçıları, digər iştirakçıları və onların

MUHASIBAT.AZ

vəzifələri, istintaq hərəkətinin aparılması üçün hazırlıq tədbirləri, ayrı-ayrı istintaq hərəkətlərinin aparılma ardıcıllığı və bu zaman istifadə ediləcək texniki vasitələr, taktiki üsullar, hərəkətin nəticələrinin qeydə alınması.

İstintaq hərəkətlərinin planlaşdırılmasının əsas məsələlərindən biri konkret hərəkətin yerinə yetirilməsi üçün müvafiq hazırlıq tədbirlərinin görülməsidir. Bunun üçün ilk növbədə işdə olan materiallar ətraflı öyrənilməli, sonra isə hərəkətin aparılması üçün lazımi hərəkətlər həyata keçirilməlidir. Məsələn, hadisə yerinə baxış üçün texniki vsitələrin hazırlanması, mütəxəssisin çağırılması, hal şahidlərinin dəvət olunması və s. bu kimi hərəkətlər həmin tədbirlərə aiddir.

İstintaq hərəkəti planlaşdırılarkən ilk növbədə onun məqsədi dəqiq müəyyən edilməlidir. Bunun üçün bütünlükdə istintaqın məqsədi və ümumi istintaq planında göstərilən hallar nəzərə alınmalıdır. Elə etmək lazımdır ki, konkret istintaq hərəkəti ilə aydınlaşdırıla bilən halların hamısını maksimal dərəcədə müəyyənləşdirmək mümkün olsun.

İstintaq hərəkətinin planlaşdırılması prosesinə dair vahid bir sxem təklif etmək çətindir. Çünki eyni istintaq hərəkəti vasitəsilə müəyyən edilən hallar konkret şəraitdə spesifik əlamətlərə malik olur ki, bunları da qabaqcadan görmək mümkün deyildir. Bununla belə, istintaq təcrübəsini nəzərə alaraq hərəkətlərin planlaşdırılması üçün müəyyən bir sxem göstərmək mümkün olur. Belə ki, istintaq hərəkəti üç hissəli sxem üzrə planlaşdırılır, birinci hissədə hərəkətin məqsədini göstərən hallar, ikinci hissədə hərəkətin icrasının ayrı-ayrı mərhələlərinə aid olan hallar, üçüncü hissədə isə hərəkət üzrə tətbiq ediləcək taktiki üsullar nəzərdə tutulur.

İstintaq hərəkətləri fərdi xarakter daşıdığına görə onların hamısı üçün vahid istintaq planı tərtib etmək mümkün deyildir. Planın hansı formada tərtib olunması konkret hal nəzərə alınmaqla müstəntiq tərəfindən müəyyən edilir. İstintaq hərəkətinin planı bir qayda olaraq adi vərəqdə siyahı şəklində tərtib olunur. Orada istintaq hərəkətinin yeri, vaxtı, məqsədi, icraçısı, icra üsulu və nəticələri qeyd olunur.

Mürəkkəb və iri həcmli cinayət işləri üzrə istintaq hərəkətlərinin planı xüsusi cədvəllər (plan-cədvəllər) şəklində tərtib olunur. Həmin cədvəllərdə istintaq hərəkətləri kompleks halda planlaşdırılır, hərəkətin gedişi və nəticəsi barədə cədvəlin xüsusi bölməsində qeydiyyat aparılır.

Cinayət işi üzrə istintaq bir qrup müstəntiq tərəfindən aparıldıqda, istintaq hərəkətləri onların birgə iştirakı ilə planlaşdırılır. Bununla da eyni istintaq hərəkətinin bir neçə müstəntiq tərəfindən təkrar aparılmasının qarşısı alınır. İstintaq hərəkətləri bir qaydada planlaşdırılarkən hərəkətin mürəkkəbliyi və

MUHASIBAT.AZ

xarakteri, habelə müstəntiqin təcrübəsi və bacarığı nəzərə alınmalıdır. Bir qayda olaraq, eyni müstəntiqə xarakterсə bir-birinə yaxın olan hərəkətlərin (məsələn, baxış, axtarış, götürmə və s.) tapşırılması daha yaxşı nəticələr verir, müstəntiq bu hərəkətlərin əlaqələndirilməsi imkanına malik olur.

İstintaqın planlaşdırılması iş üzrə sübuta yetirilməli halların müəyyən edilməsinə dair müstəntiqin idrak fəaliyyətidir. O, həm şifahi, həm də yazılı ifadə edilə bilər. Planlaşdırma yalnız müxtəlif yazılı planların və sxemlərin tərtib edilməsi kimi başa düşülməməlidir. Planlaşdırma, hər şeydən əvvəl, müstəntiqin yaradıcılıq işi olduğuna görə yalnız planın yazılı şəkildə tərtibi ilə qurtarmır. Planlaşdırmanı yalnız yazılı planların, sxemlərin tərtib edilməsi kimi başa düşmək əslində formanı məzmundan ayırmaq deməkdir. Çünki planlaşdırma məzmun, plan isə onun yazılı forması, zahiri təzahürüdür.

Şifahi planlaşdırma bir qayda olaraq təxirəsalınmaz istintaq hərəkətlərinə aiddir. Çünki belə hərəkətlərin yerinə yetirilməsinə dair yazılı şəkildə geniş planın tərtib edilməsi müstəntiq üçün əməli cəhətdən çətindir. Məsələn, əgər şübhə edilən şəxsin mənzilində axtarış aparılması, yaxud ölüm hadisəsinin yerinə təxirə salınmadan baxış keçirilməsi tələb edilərsə, müstəntiq üçün hərəkətlər üzrə yazılı planın tərtibi imkan xaricindədir. Bu halda o, həmin hərəkətlərin ayrı-ayrı konkret cəhətlərini şifahi qaydada planlaşdırmaq və qısa qeydlər etmək imkanına malik olur.

Bütün bunlarla yanaşı, planlaşdırmanın yazılı formada aparılması istintaq təcrübəsi baxımından bir sıra üstünlüklərə malikdir. Təcrübə göstərir ki, bəzən hətta peşəkar müstəntiqlər belə şifahi planlaşdırılmış hərəkətləri bütün incəliklərinə qədər yadda saxlaya bilmir, bir sıra hallarda isə ən mühüm hərəkətləri nəzərdən qaçırırlar. Bundan başqa, şifahi planlaşdırma təcrübəsi göstərir ki, bir sıra hallarda istintaq hərəkətlərinin ardıcıllığı pozulur. Planlaşdırma yazılı aparıldıqda isə göstərilən halların baş verməsinin qarşısı alınmış olur.

Yazılı istintaq planları müxtəlif formada: siyahı-planlar, cədvəl-planlar və təqvim-planlar şəklində tərtib edilir.

**Siyahı-planlar** planlaşdırmanın bir sadə forması olub, hərəkətin ardıcıllıqla edilməsi sistemini göstərən siyahıdan ibarətdir. Müstəntiq siyahı-planı stolüstü dəftərçəsinin ayrıca vərəqində yazır. Siyahı-planlar bir qayda olaraq istintaq prosesində tərtib edilir.

**Cədvəl-planlar** mürəkkəb istintaq hərəkətlərinin aparıldığı cinayət işləri üzrə tərtib olunur. Bu cür planların ayrı-ayrı bölmələrində istintaq fərziyyələri üzrə müəyyən edilməli olan hallar, istintaq hərəkətləri, onların vaxtı və yeri,

MUHASIBAT.AZ

hərəkətin hansı üsulla və kim tərəfindən icra edilməsi, onun nəticəsi və s. göstərilir.

Bəzən qrup halında edilən çox epizodlu mürəkkəb cinayət işləri üzrə istintaq planına müəyyən sənədlərin, sxemlərin və qrafiklərin (hər bir təqsirləndirilən şəxs üçün tərtib olunan şəxsi vərəqlər, cinayət işinin epizodları üzrə kartoçkalar (vərəqələr), hadisə yerinin sxemləri, cinayətkarların əlaqələrini ifadə edən sxemlər və s.) əlavə edilməsi lazım gəlir. Onlardan istintaq planında nəzərdə tutulan məsələlərin konkret cəhətlərini aydınlaşdırmaq üçün istifadə olunur.

Təcrübədə bəzən çox epizodlu **mürəkkəb cinayət işləri üzrə istintaqın həm ümumi planı, həm də cinayətin ayrı-ayrı epizodları üzrə xüsusi plan** tərtib edilir. Bu zaman ümumi planda cinayətin epizodları və onların müəyyən edilməsi qaydaları, habelə cinayətin bütün epizodlarına aid olan istintaq hərəkətləri nəzərdə tutulur. Xüsusi planda isə yalnız cinayətin konkret epizoduna dair istintaq hərəkətləri nəzərdə tutulur. Xüsusi planlar da ümumi planlar kimi, eyni sxem üzrə tərtib olunur. Bu cür planlar müstəntiqin hər bir epizodu ətraflı yoxlamasına və heç bir epizodu nəzərdən qaçırmamasına kömək edir.

**Planlaşdırmanın təqvim-istintaq** planı forması müstəntiqin icraatında olan cinayət işlərinin istintaqını birlikdə əhatə edir. Təqvim-istintaq planında müstəntiqin hər bir cinayət işinə dair görəcəyi işlər ayrı-ayrı günlər üzrə nəzərdə tutulur. Əksər hallarda təqvim-istintaq planı həftələr üzrə tərtib olunur.

Təqvim planında hər bir hərəkətin təxminən nə qədər davam edəcəyi müəyyən edilməlidir. Bu zaman yola və nəqliyyata sərf edilcək vaxt da nəzərə alınmalıdır. Bəzən təcrübədə konkret hərəkət üçün vaxt düzgün planlaşdırılmadıqda, həmin gün nəzərdə tutulan digər hərəkətin edilməsinə vaxt qalmır. Bu, əlbəttə, həmin hərəkətin nəticəsinə mənfi təsir göstərə bilər.

Müstəntiq təqvim planının yerinə yetirilməsinə gündəlik nəzarət etməlidir. Bunun üçün o, xüsusi qrafada müvafiq qeydlər aparmalıdır.

Müstəntiqin təqvim-istintaq planı tərtib etməsinə və onu yerinə yetirməsinə prokuror və müvafiq istintaq şöbəsinin rəisi də nəzarət etməlidir. Yeri gəldikcə onlar bu və ya digər hərəkətin istintaq planına daxil edilməsi, onun plandan çıxarılması, bu hərəkətin yerinə yetirilməsi vaxtı, yeri, üsulu və s. barədə müstəntiqə göstərişlər və məsləhətlər verə bilərlər.

İstintaq planının hansı formada və necə tərtibi müstəntiqin mülahizəsindən asılıdır. Lakin plan istintaq işi üzrə materiallarla tanış olan digər şəxslərə də aydın və anlaşıqlı şəkildə tərtib olunmalıdır.

MUHASIBAT.AZ

## MÖVZU 6.  İSTİNTAQ ŞƏRAİTİ VƏ TAKTİKİ ƏMƏLİYYAT

### PLAN

1.İstintaq şəraitinin anlayışı
2.İstintaq şəraitinin təsnifatı
3.Taktiki əməliyyatın anlayışı və təsnifatı
4.Taktiki əməliyyatın quruluşu və prinsipləri

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

MUHASIBAT.AZ

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

6.Баев О.Я. Основы криминалистики. М.: Экзамен, 2003.

8. Драпкин Л.Я. Основы теории следственных ситуаций. Свердловск, 1987.

9. Ищенко Е.П., Егоров Н.Н. Криминалистика для следователей и дознавателей. М., 2010.

## 1. İstintaq şəraitinin anlayışı

Hər bir cinayətin istintaqı öz spesifikliyi ilə fərqlənir. Bu da həmin cinayətin edilməsi şəraiti, yeri, vaxtı, üsulu və s. daxil olmaqla yanaşı, istintaq hərəkətələrinin aparılmasının konkret şəraitindən də asılıdır. İstintaqın aparıldığı şərait bir sıra obyektiv və subyektiv faktorlardan asılıdır. Obyektiv faktorlara istintaqın aparıldığı yer və vaxt, hadisələrin inkişaf mexanizmi, ətraf aləmdə onların əks olunması xarakteri və s. aiddir.

Subyektiv faktorlara isə müstəntiqin professional hazırlığı, cinayətlə əlaqəsi olan şəxslərin hərəkətləri (şübhə edilən şəxsin, təqsirləndirilən şəxsin, şahidin, zərər çəkmiş şəxsin özlərini necə aparmaları və s.) aiddir.

İstintaqın konkret şəraiti, daha doğrusu, yuxarıda qeyd edilən faktorların məcmusunun xüsusiyyətləri kriminalistikada istintaq şəraiti adlandırılır.

Lakin qeyd edilən faktorların, hətta, ayrıca götürülmüş bir istintaq şəraitindən asılı olaraq hamısını ayırmaq və qruplaşdırmaq mümkün deyil. Kriminalistik ədəbiyyatda öz təbiəti və əhəmiyyətinə görə istintaq şəraitinin formalaşmasını aşağıdakı faktorlarla bağlayırlar: məlumat, psixoloji, prosessual və taktiki xarakterli faktorlar, cinayətin baş vermə şəraiti, sübutların alınma mənbələri, istintaqın gedişi haqqında maraqlı şəxslərin məlumatları və s.

Prosessual və taktiki faktorlara sübutların əldə edilməsi və ondan istifadə edilməsinin mümkünlüyü, istintaq prosesində ortaya çıxan məsələlərin həll edilməsinin taktiki xüsusiyyətləri və s. daxildir.

Psixoloji faktorlara isə müstəntiqlə istintaqı aparılan hadisə ilə əlaqədar olan şəxslərin münasibəti, həmin şəxslərin psixologiyasının xüsusiyyətləri aid edilir.

Təşkilati və maddi-texniki xarakterli faktorlar da istintaq şəraitinin formalaşmasına təsir edir. Belə faktorlara müstəntiqin sərəncamında olan texniki vasitələr, müstəntiqlə əməliyyat-axtarış orqanlarının qarşılıqlı fəaliyyəti və onlardan səmərəli istifadənin mümkünlüyü dərəcəsi aiddir.

Kriminalistik ədəbiyyatda istintaq şəraiti barədə digər mülahizələr də mövcuddur. Belə ki, onlar istintaq şəraitini cinayətin kriminalistik xarakteristikasının elementləri barədə əldə edilmiş məlumatların kəmiyyət və keyfiyyət göstəricisi ilə əlaqələndirirlər. Eyni zamanda bununla əlaqədar olaraq istintaq şəraitini istintaqın müəyyən mərhələsində istintaqı

MUHASIBAT.AZ

aparılan cinayətin kriminalistik xarakteristikasının elementləri barədə olan məlumatların vəziyyəti kimi müəyyən edirlər.

Cinayətlər nə qədər müxtəlif, fərdidirsə, istintaq şəraitləri də bir o qədər fərdi və təkrarolunmazdırlar. Lakin A.Q.Vidonovun fikrincə istintaq prosesində müxtəlif istintaq şəraitlərinin ortaya çıxmasına baxmayaraq, yenə də onları sistemləşdirmək olar və bu tipik istintaq şəraitini sistemləşdirməyin əsas kriteriyası təcrübə olmalıdır.

İstintaq şəraitini istintaq prosesində alınma mənbələri nəzərə alınmaqla müəyyən edilmiş faktiki məlumatlar kompleksi kimi başa düşmək lazımdır. Lakin bir sıra kriminalistlər istintaq şəraitinin anlayışını həddən artıq genişləndirirlər. Onlar istintaq şəraitinə cinayətin istintaqını xarakterizə edən halları, istintaqı təmin edən məlumatlarla yanaşı, həmçinin buraya müstəntiq haqqında məlumatları, istintaqın elmi-texniki vasitələrlə necə təmin edilməsini, müstəntiqin sərəncamında olan cinayət işlərinin həddən artıq çox olmasını və s. də aid edirlər.

Əlbəttə, bu fikirlə razılaşmaq olmaz. Çünki cinayətlərin istintaqı zamanı istintaqın daha optimal variantının seçilməsinə, qanuni və əsaslı prosessual, həmçinin taktiki və metodiki qərarların qəbul edilməsinə müstəntiqin iş şəraiti, onun şəxsiyyəti bir o qədər də təsir etməməlidir. Müstəntiqin sərəncamında işin çox olması, onun kifayət qədər ixtisaslaşmaması ona əsas vermir ki, istintaqı keyfiyyətsiz aparsın, qanunsuz prosessual qərarlar qəbul etsin.

İstintaq şəraiti geniş və dar mənada başa düşülür.

Geniş mənada istintaq şəraiti dedikdə istintaqa təsir edən və onun xüsusiyyətlərini müəyyən edən bütün şəraitin məcmusu başa düşülür. Belə bir məcmu cinayətin istintaqına təsir edən və təsir edə biləcək halları daha tam xarakterizə edir və əks etdirir.

Dar mənada istintaq şəraitinin məzmunu istintaqı aparılan hadisənin istintaqın müəyyən mərhələsində müstəntiqin, yaxud təhqiqatçının sərəncamında olan məlumatlarla məhdudlaşdırılır. Buraya istintaqın planlaşdırılması və aparılması üçün əhəmiyyətli olan bütün məlumatlar, mümkün olan mənbələrdən əlavə məlumatların əldə edilməsi, cinayətlə əlaqəsi olan şəxslərin müstəntiqin planı barədə məlumatlarının olub-olmaması və s. aiddir.

İstintaq şəraitini təhlil edən müstəntiq onun yaranmasına təsir edən faktorları nəzərə almalıdır. Bir halı nəzərdən qaçırmaq lazım deyildir ki, həmişə istintaqın istiqamətini mövcud məlumatlar şərtləndirir. Bunu təcrübi olaraq nəzərdən keçirək. Fərz edək ki,

a) hadisə yerinin şəraiti isti izlərlə təqib etmək imkanı olduğunu göstərir;

b) oğurlanmış şeylər haqqında mövcud informasiya bir neçə yerdə axtarış aparılmasını tələb edir;

v) şübhə edilən şəxsin cinayət başında yaxalanması onun təcili dindirilməsini tələb edir və s.

Yuxarıda qeyd edilən hallarda müstəntiq real şəraitə və mövcud məlumatlara istinad edərək öz hərəkətlərinin aparılması ardıcıllığını müəyyən etməlidir. Bu zaman onun qarşısında aşağıdakı məsələləri həll etmək durur: İlk növbədə isti izlərə görə cinayətkarı təqib etmək üçün hansı qüvvələrdən və necə istifadə etməyi, sonra isə bir neçə şəxsdə, eyni vaxtda qəflətən axtarışı necə təşkil etməyi və s. planlaşdırmaq.

Göründüyü kimi, istintaq şəraiti nəyin və kim tərəfindən həyata keçirilməli olduğunu göstərən məlumatların məcmusu kimi çıxış edir.

MUHASIBAT.AZ

Beləliklə, istintaq şəraiti istintaqı aparılan konkret cinayət işinin və yaxud müəyyən kateqoriya işlərin istintaqının müəyyən mərhələsində məcmusu olub, müstəntiqə iş üzrə həqiqətin müəyyən edilməsi üçün ən optimal vasitə və metodları seçməyə imkan verir.

## 2. İstintaq şəraitinin təsnifatı

İstintaq şəraitinin təsnifatı barədə müxtəlif fikirlər mövcuddur. Bu təsnifatların əsası kimi istintaq şəraitinin komponentlərindən birinin xarakteristikası götürülür. İstintaq şəraiti aşağıdakı kimi təsnifləşdirilir:

a) əlverişli və əlverişsiz;
b) münaqişəli və münaqişəsiz;
v) tipik və spesifik;
q) başlanğıc, aralıq və sonuncu.

Birinci növ təsnifatın əsasında cinayətin istintaqının ilkin mərhələsində hansı istintaq şəraitinin (əlverişli, yaxud əlverişsiz) yaranmasının müəyyən edilməsi durur. Əgər istintaqın ilkin mərhələsində əlverişli şərait mövcuddursa, onda müstəntiq mövcud imkandan səmərəli istifadə etməklə öz hərəkətlərini realizə etməyə çalışmalıdır. Məsələn, baş vermiş cinayət hadisəsi ilə əlaqədar əgər müstəntiqdə cinayətkarın zahiri görünüş əlamətləri haqqında məlumat olarsa, onda müstəntiq cinayətkarın axtarışını təşkil etmək üçün zahiri görünüş əlamətlərindən istifadə etməlidir, yaxud cinayətkar cinayət edərkən yaxalanıbsa, müstəntiq onun psixoloji vəziyyətindən istintaq üçün istifadə etməlidir və s.

Əgər istintaq şəraiti əlverişsizdirsə, onda müstəntiq onu əlverişli etmək üçün bütün taktiki və metodiki üsullardan istifadə etməlidir. Məsələn, cinayətkar haqqında məlumatlar olmadıqda, yaxud tam məlumat olmadıqda müstəntiq cinayətkar haqqında məlumat verə biləcək şəxsləri axtarmaqda davam etməlidir; cinayət hadisəsindən xeyli müddət keçəndən sonra tutulan şübhə edilən şəxsin hərəkətlərinin müxtəlif variantları (eyni zamanda cəzadan yaxa qurtarmaq cəhdi) nəzərə alınmalı, bunun qarşısını almaq üçün müxtəlif taktiki üsullar seçib hazırlamalıdır və s.

İstintaq şəraitinin əlverişli olmasının əsas göstəricisi faktiki məlumatların olması və cinayətlərin istintaqında onlardan istifadə edilməsidir.

Əlverişsiz istintaq şəraitində, adətən, cinayətin üstünün açılması üçün tələb edilən məlumatlar olmur, yaxud bu məlumatlar kifayət qədər tam olmur, eyni zamanda bu məlumatların əldə edilməsi bir sıra çətinliklərlə əlaqədar olur.

Mövcud məlumatın xarakteri və həcmindən asılı olaraq əlverişsiz istintaq şəratini aşağıdakı yarımqruplara ayırırlar: şübhə edilən şəxsin müəyyən edilməsi və axtarışının təşkil edilməsi üçün məlumat yoxdur (izlər və maddi sübutlar); məlumat mövcuddur, lakin onlar cinayətkarın axtarışı üçün kifayət etmir (məsələn, ayaq izləri, sındırma alət izləri və s.); şübhə edilən şəxsin axtarışını təşkil etmək üçün məlumatlar vardır (zahiri görnüşü əlamətləri haqqında), lakin bu məlumatlardan istifadə etmək heç bir natica vermir. Belə istintaq şəraitləri həm istintaqın ilkin mərhələsində, həm də sonrakı mərhələlərində mövcud ola bilər.

İstintaq şəraitinin əlverişli və əlverişsiz olması digər faktorlardan da asılıdır. Məsələn, müstəntiqin sərəncamında olan əməliyyat işçilərinin sayı, elmi-texniki vasitələrin həcmi,

MUHASIBAT.AZ

cinayətlə əlaqəsi olan şəxslərin maraq və məqsədlərinin üst-üstə düşməsi və yaxud ziddiyyətin olması və s. Belə hallar öz növbəsində münaqişəli və münaqişəsiz istintaq şəraitinin yaranmasının əsasını təşkil edir.

Münaqişəli istintaq şəraitində isə əksinə, maraqların ziddiyyətli olması, toqquşması xarakterikdir. Lakin müstəntiqlə məsələn, məsuliyyətdən yaxa qurtarmağa çalışan təqsirləndirilən şəxs arasında olan münaqişəyə ziddiyyət kimi baxılmamalı, cinayətin açılması və təqsirləndirilən şəxsin ifşa edilməsi üçün bütün vasitələrdən istifadə edərkən müstəntiq yalnız cəmiyyətin deyil, təqsirləndirilən şəxsin də mövqeyini nəzərə almalı və bu zaman daha səmərəli taktiki və metodiki üsullardan istifadə etməlidir.

İstintaq prosesində daima münaqişəli istintaq şəraiti dəyişir. Belə ki, bir münaqişə həll ediləndən sonra yeni bir münaqişə ortaya çıxa bilər. Bu zaman müstəntiq mürəkkəb şəraitdə işləməyi bacarmalı, münaqişənin səbəbini araşdırmalı, ziddiyyətin aradan qaldırılması üçün müəyyən taktiki üsullardan istifadə etməli, münasibətdə olduğu şəxslərlə davranmağı bacarmalıdır.

Münaqişəsiz istintaq şəraitində iştirakçıların maraq və məqsədləri ya qismən, ya da tam üst-üstə düşür. Onlar bütün səylərini istintaqın bu mərhələsində qarşılarına qoyduqları məqsədə çatmağa yönəldirlər.

Bəzi kriminalistlər istintaq şəraitini tipik və spesifik olmaqla iki növə bölürlər.

Tipik istintaq şəraiti, adətən, obyektlərin eyni şəraitdə qarşılıqlı əlaqədə olduqları vaxt yaratdıqları izlərdir ki, bunlar eyni növ və tipi əks etdirirlər.

Tipik istintaq şəraitinin mövcud olması istintaq prosesində həll edilməli olan məsələlərə dair EHM-dən istifadə etməklə alqoritmlər hazırlamağa imkan verir.

Spesifik istintaq şəraitinin ayrılması istintaq prosesində cinayətin istintaqı metodikasının, daha doğrusu, taktiki məsələlərin həll edilməsində prosessual və taktiki qərarların düzgün və səmərəli seçilməsində mühüm rol oynayır. Daha doğrusu, spesifik istintaq şəraiti onun həll edilməsi üçün müvafiq üsul və vasitələrin seçilməsi və tətbiq edilməsini tələb edir.

Bununla əlaqədar istintaq təcrübəsinə müraciət edək:

1994-cü il 19 mart tarixdə Bakı metropoliteninin 20 yanvar stansiyasında və 1995-ci ilin oktyabr ayında isə Ulduz və Nərimanov stansiyaları arasındakı tuneldə baş vermiş terror aktlarını misal göstərmək olar. Belə ki, hər iki halda qatarlarda baş verən partlayışlar mexanizminə, vaxtına, üsuluna s. görə bir-birindən fərqlənirlər.

Elə buna görə də bu cinayətlərin istintaqı zamanı mövcud olan istintaq şəraitinin spesifikliyi istintaqa bir sıra xarici dövlətlərdən mütəxəssislərin dəvət edilməsini zəruri etmişdir. Bundan başqa, mövcud spesifik şərait istintaq hərəkətlərinin, əməliyyat-axtarış tədbirlərinin və s. mövcud şəraitə uyğun planlaşdırılmasını və həyata keçrilməsini şərtləndirmişdir.

İstintaq şəratitinin digər növü kimi konkret istintaq şəraiti ayrılır. Konkret istintaq şəraiti öz dinamikliyi ilə fərqlənir. Belə ki, onu təşkil edən elementlər daima dəyişirlər.

Müəyyən mərhələdə konkret olan istintaq şəraiti müstəntiqin planlaşdırıb həyata keçirdiyi tədbirlər nəticəsində dəyişir və bu zaman yeni istintaq şəraiti yaranmış olur ki, bunun da həll edilməsi üçün müstəntiq yeni hərəkətlər planlaşdırmalı olur. Bu o vaxta qədər davam edir ki, istintaq qarşısında duran məsələlər həll edilmiş olsun. Başqa sözlə, istintaq başa çatmış olsun. Bununla əlaqədar olaraq istintaq şəraiti başlanğıc (ilkin), aralıq və

MUHASIBAT.AZ

sonuncu istintaq şəratinə də ayrılır. Bu təsnifatın tərəfdarlarından olan N.A.Selivanov göstərir ki, istintaq şəraitinin onların əmələ gəlmə ardıcıllığına, istintaqın ayrı-ayrı mərhələləri ilə olan əlaqəsinə görə fərqləndirilməsi daha məqsədəmüvafiqdir.

Hər bir cinayətin istintaqı zamanı, hər şeydən əvvəl, başlanğıc (ilkin) istintaq şəraiti, aralıq və sonuncu istintaq şəraiti mövcud olur. Başlanğıc (ilkin) istintaq şəraiti cinayət işinin qaldırılması, ilkin və təxirəsalınmaz istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin seçilməsini şərtləndirir. Bu şəraiti istintaqın ilkin mərhələsində toplanmış faktiki məlumatlar kompleksi şəklində təsəvvür etmək olar.

Başlanğıc (ilkin) mərhələdə bir neçə növ şəraitə təsadüf edilir. Məsələn, başlanğıc (ilkin) istintaq şəraitində cinayət və cinayət hadisəsi haqqında məlumat yoxdur, yaxud da tam məlumat yoxdur.

Aralıq istintaq şəraiti istintaqın ayrı-ayrı məsələlərinin həll edilməsi üçün yeni sübut mənbələrinin aşkar edilməsi və rəsmiləşdirilməsində özünü büruzə verir.

Sonuncu istintaq şəraiti aparılmış istintaqın nəticəsini, daha doğrusu, cinayət işi üzrə həll edilməli olan məsələlərin nə ilə nəticələndiyini xarakterizə edir: istintaq başa çatdırılmışdır və iş ittihamnamə ilə birlikdə məhkəməyə göndərilib, cinayət işi dayandırılmışdır və s.

Sonuncu istintaq şəraiti cinayət işi dayandırıldıqda başa çatmış hesab edilir. Lakin sonradan əlavə məlumat mənbələri aşkar edilərsə, yeni şərait yaranmış olur və sonuncu şəraitlə yanaşı, aralıq istintaq şəraiti də yaranmış olur ki, bu da istintaqın sonrakı gedişini planlaşdırmaq üçün yeni tədbirlər görməyi tələb edir.

Bəzi kriminalistlər problem istintaq şəraitini də fərqləndirirlər.

Kriminalistikaya dair son dərsliklərdə istintaq şəraitinin təsnifatına başqa mövqedən yanaşılır. Belə ki, istintaq şəraiti sadə və mürəkkəb istintaq şəraitinə ayrılır.

Mürəkkəb istintaq şəraiti də öz növbəsində faktorların formalaşmasının məzmunu, xarakteri və sayından asılı olaraq beş təsnifləşdirici qrupa bölünür: problem, münaqişəli, taktiki risk, təşkilati-nizamsızlıq və kombinasiya edilmiş şərait.

Forma etibarilə fərqli olsa da, məzmun etibarilə istintaq şəraitinə verilən bu təsnifat yuxarıda verdiyimiz təsnifatdan fərqlənmir.

İstintaq şəraiti obyektiv kateqoriyadır. Hər bir halda və hər bir anda o müstəntiqin və istintaqın digər iştirakçılarının şüurundan asılı olamayaraq real mövcud olur. Ona görə də istintaq prosesində müstəntiq istintaq şəraitini düzgün qiymətləndirməyə çalışmalı, qarşısına çıxan problemi aradan qaldırmağı bacarmalıdır.

### 3. Taktiki əməliyyatın anlayışı və təsnifatı

Cinayətlərin istintaqı zamanı istintaqın daha səmərəli və keyfiyyətli aparılması məqsədilə taktiki əməliyyat həyata keçirilir. İstintaq və təhqiqat orqanları tərəfindən həll edilməli olan taktiki məsələlərə müvafiq olaraq planlaşdırılan və həyata keçirilən taktiki əməliyyatın özünəməxsus xüsusiyyətləri vardır.

Cinayətlərin tez açılmasında cinayətkarın vaxtında ifşa edilməsində hərtərəfli düşünülmüş və dəqiq planlaşdırılmış taktiki əməliyyatın rolu əvəzedilməzdir. Bu da aşağıdakı əlamətlərlə xarakterizə olunur. Belə ki, istintaq aparan şəxs istintaq, əməliyyat-

MUHASIBAT.AZ

axtarış hərəkətlərindən daha səmərəli və məqsədyönlü istifadə etməklə, taktiki məsələlərin keyfiyyətli həll edilməsi imkanına malik olur.

Eyni zamanda, kriminalistik və əməliyyat taktikasından daha geniş istifadə etmək üçün şərait yaranır. Bununla da müstəntiq və təhqiqat orqanı tərəfindən istifadə edilən faktiki məlumatların toplanması və hazırlanmasında təkrarlığa yol verilmir.

Cinayətlərin istintaqı zamanı planlaşdırılan və həyata keçirilən taktiki əməliyyat aşağıdakı tələblərə cavab verməlidir:

- hər bir taktiki əməliyyat konkret bir taktiki məsələnin həllinə yönəlməli və onun dəqiq məqsədi olmalıdır;
- taktiki əməliyyatın səmərəli həyata keçirilməsi üçün müvafiq üsul və vasitələrdən optimal dərəcədə istifadə edilməlidir;
- hər bir taktiki əməliyyat vaxtında planlaşdırılmalıdır.

Taktiki əməliyyat səmərəli həyata keçirilməlidir. Bu yalnız mərkəzləşdirilmiş və vahid rəhbərlik olduqda icraçılar arasında bu və ya digər əməliyyatın həyata keçirilməsi taktikası barədə razılıq təmin edildikdə və onların hərəkətləri əlaqələndirildikdə mümkündür.

Belə bir rəhbərliyi isə müstəntiq həyata keçirir.

Göründüyü kimi, taktiki əməliyyat qarşılıqlı hərəkət proseslərini aktivləşdirir, təşkil edir və istintaq prosesində meydana çıxan taktiki məsələlərin həll edilməsi vasitəsi kimi özünü göstərir. Ona görə də cinayətlərin istintaqı zamanı istintaq təcrübəsində taktiki əməliyyatın daha geniş tətbiq edilməsi zəruridir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq taktiki əməliyyata aşağıdakı kimi anlayış vermək olar.

Taktiki əməliyyat dedikdə istintaq şəraiti nəzərə alınmaqla cinayət işinin ümumi məqsədinə xidmət edən taktiki məsələlərin həll edilməsi məqsədi ilə cinayət-prosessual qanunvericiliyinin normalarına riayət etməklə əlaqələndirilmiş şəkildə həyata keçirilən hərəkətlər (istintaq, əməliyyat-axtarış, yoxlama-təftiş, vergi və s.) sistemi başa düşülür. Taktiki əməliyyata verilmiş anlayışdan görünür ki, hər bir taktiki əməliyyat öz aralarında əlaqələndirilmiş və koordinasiya edilmiş hərəkətlər sistemidir. Buraya istintaq, əməliyyat-axtarış, yoxlama təftiş və istintaq prosesində ortaya çıxan digər təşkilati xarakterli hərəkətlər aiddir. Qeyd edilən hərəkətlər nəticə etibarilə istintaqın ümumi məqsədinə xidmət etməklə yanaşı, bilavasitə istintaqın ayrı-ayrı taktiki məsələlərinin həll edilməsinə də kömək edir. Belə taktiki məsələlərin taktiki məzmunu istintaqı aparılan müvafiq cinayət işi üzrə sübutetmə predmeti ilə şərtləndirilir. Müvafiq olaraq taktiki əməliyyat prosessual qanunla nəzərdə tutulmuş istintaq müddəti ərzində başa çatdırılır.

Taktiki əməliyyat vahid plan əsasında istintaq orqanının səlahiyyətli vəzifəli şəxsi və Daxili İşlər Nazirliyinin müvafiq orqanlarının əməkdaşları ilə birlikdə həyata keçirilir. Zəruri hallarda müvafiq müəssisələrin və ictimaiyyətin köməyindən də istifadə edilir. Taktiki əməliyyata vahid rəhbərliyi müstəntiq həyata keçirir. O, əməliyyatı planlaşdırır, hazırlıq tədbirləri görür, həyata keçirir və nəticəsinə məsuliyyət daşıyır.

Taktiki əməliyyat müxtəlif əlamətlərə görə təsnifləşdirilir:

1. Taktiki əməliyyatın həll edəcəyi ayrı-ayrı məsələlərin xarakterinə görə. Bunlar özləri də iki yerə bölünürlər:

a) iş üzrə əsas məsələlərin həll edilməsi məqsədilə həyata keçirilən taktiki əməliyyatlar;

MUHASIBAT.AZ

b) iş üzrə köməkçi məsələlərin həll edilməsi məqsədilə həyata keçirilən taktiki əməliyyat.

2. İstintaq şəratinin xarakterindən asılı olaraq taktiki əməliyyatın aşağıdakı növləri fərqləndirilir:

a) sadə istintaq şəraitində həyata keçirilən taktiki əməliyyat;

b) mürəkkəb istintaq şəraitində həyata keçirilən taktiki əməliyyat;

c) taktiki risk şəraitində həyata keçirilən taktiki əməliyyat və s.

3. Həyata keçirilən istintaq hərəkətinin məzmununa görə:

a) müxtəlif hərəkətlərdən (istintaq, əməliyyat-axtarış, yoxlama-təftiş və s.) ibarət olan taktiki əməliyyat;

b) eyni hərəkətlərdən (istintaq hərəkətindən) ibarət olan taktiki əməliyyat.

4. İstintaq mərhələlərinə münasibətinə görə:

a) istintaqın ilkin mərhələsində həyata keçirilən taktiki əməliyyat;

b) istintaqın aralıq mərhələsində həyata keçirilən taktiki əməliyyat;

c) istintaqın sonuncu mərhələsində həyata keçirilən taktiki əməliyyat.

5. Təşkilati quruluşuna görə:

a) müəyyən təşkilati quruluşa malik olan və daimi fəaliyyət göstərən və müəyyən bölmələrdə birləşdirilmiş işçilər tərəfindən aparılan taktiki əməliyyat. Buraya əməliyyat-axtarış, narkomaniya və narkobizneslə mübarizə şöbəsinin və s. əməkdaşları aiddir.

b) konkret taktiki əməliyyatı həyata keçirmək məqsədilə yaradılmış struktur. Məsələn, istintaq-əməliyyat qrupu, istintaq briqadası və s.

6. Spesifiklik dərəcəsinə görə:

a) tipik taktiki əməliyyatlar;

b) spesifik taktiki əməliyyatlar.

Qeyd edilən əsaslardan başqa taktiki əməliyyat digər əsaslara görə də təsnifləşdirilir: cinayət işi üzrə aparılan taktiki əməliyyatların sayına, yerinə, vaxtına, icrasına, eləcə də, istintaqı aparılan cinayət işlərinin növlərinə görə və s.

### 4. Taktiki əməliyyatın quruluşu və prinsipləri

Hər bir taktiki əməliyyat motivləşdirilmiş, əlaqələndirilmiş, məqsədyönlüləşdirilmiş və idarə edilmiş hərəkətlər sistemi kimi məzmundan başqa, daxili quruluşa da malikdir. Taktiki əməliyyatın quruluşuna aşağıdakılar aiddir:

İstintaq şəraiti, tipik istintaq şəraiti, cinayət-prosessual şərait, taktiki qərar, kriminalistik hərəkətlər, kriminalistik tövsiyələr, taktiki üsul, texniki üsul.

Qeyd edilənlərdən başqa, A.V.Dulov taktiki əməliyyatın quruluşundan bəhs edərkən ilk növbədə hər bir taktiki əməliyyata xas olan ümumi elementləri də ayırır.

O, belə ümumi, məcburi elementlərə aşağıdakıları aid edir: taktiki əməliyyatın məqsədi, taktiki əməliyyatın şəraiti, taktiki əməliyyatın vasitələri.

Taktiki əməliyyatın məqsədi həmişə istintaqı aparılan cinayət işi üzrə aydınlaşdırılması tələb edilən real taktiki məsələlərdən ibarətdir ki, bu da iş üzrə mövcud olan sübutlardan irəli gəlir. Bununla əlaqədar olaraq taktiki əməliyyatın əsas məqsədi mövcud faktların məcmusu əsasında taktiki məsələləri həll etməkdən ibarətdir.

MUHASIBAT.AZ

Taktiki əməliyyatların əsas elementi hər bir fəaliyyətdə olduğu kimi subyekt hesab edilir.

Taktiki əməliyyatın zəruri elementlərindən biri də xarici şəraitin məcmusudur. Buraya məkan, zaman, şəraitin xüsusiyyətləri və s. aiddir.

Taktiki əməliyyatın quruluşuna daxil olan digər elementlərdən biri də taktiki vasitələrin məcmusudur ki, onların köməyi ilə əməliyyatın məqsədinə nail olunur, ortaya çıxan taktiki məsələlər həll edilir.

Yuxarıda qeyd edildiyi kimi taktiki əməliyyatın quruluşuna daxil olan əsas elementlərdən biri istintaq şəraiti və tipik şəraitdir.

Cinayət prosessual şərait yuxarıda göstərilən şəraitdən daha dardır. Bu termin əsas etibarilə müstəntiq (məhkəmə) tərəfindən prosessual qərarların qəbul edilməsi zamanı mövcud olur.

Taktiki məsələ dedikdə istintaqı aparılan cinayət işinin müvəffəqiyyətlə başa çatdırılması üçün həll edilməli olan məsələlər sisteminin həyata keçirilməsi başa düşülür.

Hər bir taktiki məsələnin zəruri quruluş elementi kimi onun məqsədi çıxış edir.

Taktiki məsələnin həlledici vasitəsi kimi taktiki əməliyyat həyata keçirilir. Kriminalistik ədəbiyyatda "taktiki kombinasiya" termininə də təsadüf edilir. Bu isə həmin əməliyyatın daha mürəkkəb, çox epizodlu olduğunu göstərir.

Kriminalistik hərəkətlər dedikdə cinayət prosessual qanunla nəzərdə tutulan funksiyaları yerinə yetirən vəzifəli şəxslər tərəfindən həyata keçirilən müxtəlif hərəkətlər nəzərdə tutulur.

Kriminalistik hərəkətlər aparılma üsulları və fəaliyyət növündən asılı olaraq üç qrup hərəkətləri özündə birləşdirir:

- bilavasitə istintaqın təşkili və planlaşdırılması ilə əlaqədar olan hərəkətlər;
- bilavasitə cinayətlərin istintaqı zamanı tətbiq edilən elmi-texniki vasitələrin tətbiq edilməsi ilə əlaqədar olan hərəkətlər;
- taktiki ("taktiki-kriminalistik") hərəkətlər. Bu da öz növbəsində prosessual hərəkətlər, qeyri-prosessual hərəkətlərə ayrılır;
- kriminalistik tövsiyələr elmi cəhətdən əsaslandırılmış və yoxlanılmış mülahizələr, müddəalardır ki, kriminalistik hərəkətlərin praktik olaraq həyata keçirilməsinə xidmət edir.

Kriminalistik tövsiyələr taktiki, texniki və təşkilati-idaredici xarakterli olmaqla fərqlənirlər.

- taktiki üsul-konkret istintaq şəraitində müstəntiqin daha əlverişli, səmərəli hərəkət üsulu və ya optimal hərəkət xəttidir.
- texniki üsul taktiki xarakterli üsullardan fərqli olaraq kriminalistikanın elmi-texniki vasitələrindən səmərəli istifadə etməyə xidmət edir. Texniki üsula misal olaraq trasoloji izlərin əmələ gəlmə mexanizmindən asılı olaraq onların aşkar edilməsi üsullarını aid etmək olar. Məsələn, həcmi ayaq izlərinin götürülməsində istifadə edilən texniki üsul.

Hər bir halda istintaqı aparılan cinayət işinin növündən asılı olaraq onu planlaşdırarkən və praktiki cəhətdən taktiki əməliyyatı həyata keçirərkən həmin növ cinayətlərin kriminalistik xarakteristikasının məlumatlarından istifadə etmək lazımdır. Lakin kriminalistik xarakteristikanı taktiki əməliyyatın quruluşunun müstəqil elementinə aid etmək olmaz.

Göründüyü kimi, taktiki əməliyyat da kriminalistik fəaliyyətin məzmununa daxildir.

MUHASIBAT.AZ

İstintaq prosesində taktiki əməliyyatın aparılmasını planlaşdıran müstəntiq aşağıdakı prinsiplərə riayət etməlidir:

- hər bir taktiki əməliyyata hazırlığın və həyata keçirilməsinin fərdiliyi prinsipi;
- taktiki əməliyyat aparılarkən istintaqı aparılan cinayət işinin kriminalistik xüsusiyyətlərinin nəzərə alınması;
- taktiki əməliyyatın aparılmasına hazırlaşarkən və həyata keçirərkən ƏET-nin tələb və müddəalarından istifadə edilməsinin zəruriliyi;
- dinamiklik prinsipi;
- hər bir taktiki əməliyyatın təşkilində kollegiallıq hrinsipinin gözlənilməsi;
- etik normalara riayət edilməsi;
- taktiki əməliyyatın prosessual cəhətdən rəsmiləşdirilməsi.

Yuxarıda qeyd edilən prinsiplər taktiki əməliyyatın aparılmasının müxtəlif mərhələlərində həyata keçirilir. Bu prinsiplər həmin mərhələləri dəqiq müəyyən etməyə, onun məqsədini və bu məqsədə nail olma üsullarını araşdırmağa imkan verir.

Göstərilən bu ümumi prinsiplərlə yanaşı, taktiki əməliyyatı həyata keçirən əməliyyat qrupunun məqsədinin, bu məqsədə çatmağın metodlarının spesifikliyindən, təmasda olduqları obyektlərin xüsusiyyətlərindən asılı olaraq digər xüsusi prinsiplər də mövcud ola bilər.

MUHASIBAT.AZ

## MÖVZU 7. KRİMİNALİSTİK TEXNİKANIN ÜMUMİ MÜDDƏALARI. MƏHKƏMƏ FOTOQRAFİYASI

### PLAN

1.Kriminalistik texnikanın anlayışı və təsnifatı
2.Axtarıcı texniki-kriminalistik vasitələr
3.Obyektlərin qeyd edilməsi , götürülməsi və tədqiq edilməsi üçün istifadə edilən texniki-kriminalistik vasitələr
4.Kriminalistik fotoqrafiya, video, kinoçəkmə və səsyazmanın anlayışı və əhəmiyyəti
5.Məhkəmə –əksedici (əməliyyat) fotoqrafiyanın üsulları
6.Məhkəmə-tədqiqedici (tədqiqat) fotoqrafiyanın üsulları
7.Kriminalistik fotoqrafiyanın, video və səsyazmanın tətbiqinin nəticələrinin prosessual qaydada rəsmiləşdirilməsi

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.
2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.
3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.
4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.
5.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.
6.Баев О.Я. Основы криминалистики. М.: Экзамен, 2003.

MUHASIBAT.AZ

**1.Kriminalistik texnikanın anlayışı və təsnifatı**

Kriminalistika texnikası kriminalistikanını bir bölməsi olub, törədilmiş cinayət hadisəsi ilə bağlı məlumatların aşkar olunması, götürülməsi, qeyd edilməsi, toplanmış məlumatların tədqiq edilməsi, həmçinin cinayətlərin qarşısının alınması məqsədilə elmi-texniki vasitələrin işlənib hazırlanması haqqında nəzəri müddəalardan və təkliflərdən ibarətdir.

Kriminalistika texnikası cinayətlərin açılması və istintaq məqsədilə cinayət prosesində təbiət və texnika elmlərinin tətbiq edilməsi əsasında formalaşmışdır. Kimyanın, fizikanın, təbabətin, biologiyanın və digər elm sahələrinin metodları cinayətin izlərinin aşkar edilməsinə və maddi sübutların tədqiqinə uyğunlaşdırılaraq tətbiq edilmiş, bununla yanaşı, xüsusi kriminalistik metodlar da işlənib hazırlanmışdır.

Kriminalistikada bilavasitə cinayətlərin açılması, istintaqı və qarşısının alınması üçün xüsusi olaraq hazırlanmış elmi-texniki vasitələr sistemi yaradılmışdır.

Texniki-kriminalistik vasitələrin əhəmiyyətindən danışarkən, hər şeydən əvvəl, onların bir çox istintaq hərəkətlərinin səmərəsini yüksəldilməsində böyük rolunu qeyd etmək lazımdır. Məhz texniki-kriminalistik vasitələrin tətbiqi nəticəsində görünməyən və zəif görünən barmaq izlərini, mikroobyektləri, cinayət törətmə vasitələrini, gizli saxlanc yerlərində saxlanılan oğurlanmış qiymətli şeyləri və cinayət hadisəsinin bütün hallarını, şübhə edilən şəxsin təqsirini sübut etmək üçün zəruri olan digər maddi sübutları aşkar etmək olur. Texniki kriminalistik vasitələr protokoldan fərqli olaraq istintaq hərəkətinin aparıldığı şəraiti daha dolğun əks etdirməyə imkan verir.

Axtarış əhəmiyyətli informasiyanın toplanmasında da texniki kriminalistik vasitələrin rolu böyükdür. Onlardan istifadə etməklə bilavasitə hadisə yerində əl, ayaq, sındırma alətlərinin və nəqliyyat vasitələrinin izləri müəyyən olunur, əldə edilmiş məlumatlar oğurluq, soyğunçuluq və quldurluq törədən şəxslərin isti izlərlə axtarılıb tutulmasına imkan verir.

Texniki kriminalistik vasitələrdən əməliyyat-axtarış fəaliyyətində də geniş istifadə olunur. Kriminalistik qeydiyyatlar, axtarışda olan cinayətkarların şifahi portretlərinin tərtib olunmasında istifadə edilən cihazlar və digər kriminalistik vasitələr cinayətin açılmasını, oğurlanmış əşyaların tapılmasını asanlaşdırır.

Hüquq mühafizə orqanlarının cinayətkarlığa qarşı mübarizədə istifadə etdikləri elmi-texniki vasitələri aşağıdakı iki qrupa bölmək olar: 1) əməliyyat-texniki vasitələr (gecə görmə cihazları, digər müşahidə və texniki nəzarət vasitələri və s.); 2) kriminalistik texniki vasitələr (müxtəlif materiallar, cihazlar, aparatlar, alətlər və s.).

Hər iki qrupda müxtəlif obyektlərin axtarılması, qeyd edilməsi, götürülməsi, məlumatların toplanması, tədqiq edilməsi, istifadə edilməsi üçün xüsusi texniki vasitələr mövcuddur.

Tədqiqat aparmaq üçün nəzərdə tutulmuş texniki vasitələr də iki qrupa bölünürlər. Onların bir hissəsi ibtidai istintaq zamanı əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətlərinin həyata keçirilməsində istifadə edilir. Digər hissəsi isə stasionar şəraitlərdə ekspert tədqiqatlarının həyata keçirilməsində tətbiq edilir (bəzi texniki vasitələr hər iki halda istifadə edilə bilər).

MUHASIBAT.AZ

Cinayət prosesində texniki vasitələrin tətbiqi bir sıra prinsiplərə uyğun olmalıdır. Onların tətbiqi o zaman mümkündür ki, bu, vətəndaşların qanuni hüquq və mənafelərini pozmasın, etik və əxlaq normalarının tələblərinə cavab versin. Digər prinsip sübut əhəmiyyəti kəsb edən informasiya mənbələrinin və maddi sübut olan obyektlərin saxlanılmasını təmin etməkdən ibarətdir. Bundan əlavə, istifadə edilən kriminalistik vasitələr elmi cəhətdən əsaslandırılmış, etibarlı olmalıdır. Bütün hallarda texniki vasitələrin tətbiq olunması və onun nəticələri istintaq və məhkəmə hərəkətlərinin protokulunda, ekspertin rəyində və digər prosessual sənədlərdə hökmən öz əksini tapmalıdır. Bu tələb kriminalistik texnikanın tətbiqinin qanuni xarakter daşımasından irəli gəlir. Tətbiq olunan texniki-kriminalistik vasitələrin təsnifatı müxtəlif əsaslara görə aparılır: 1) mənşəyinə; 2) tətbiq edən subyektə; 3) təyinatına görə.

A.İ.Vinberq və V.P.Kolmakov mənşəyinə görə texniki kriminalistik vasitələri üç növə bölürlər: xüsusi kriminalistik məqsədlər üçün hazırlanmış (daktiloskopiya üçün hazırlanmış vasitələr, səyyar kriminalistik laboratoriyalar və s.) kriminalistik məqsədlərin həyata keçirilməisnə uyğunlaşdırılmış (fotoaparatlar, müxtəlif mikroskoplar və alətlər) və universal texniki-kriminalistik vasitələr.

Kriminalistik texnikanın istintaq təcrübəsində tətbiqi təkcə cinayətlərin açılmasında və istintaqında deyil, həm də onların qarşısının alınmasında mühüm rol oynayır. Bu məqsədlə kriminalistik texnikanın istintaq və əməliyyat-axtarış təcrübəsində, ekspertiza idarələrində tətbiqinin nəticələri öyrənilib ümumiləşdirilir və uyğun təkliflər işlənib hazırlanır.

Geniş profilaktik tədbirlər proqramının işlənib hazırlanması üçün cinayətlərin törədilmə üsullarının, ona şərait yaradan halların öyrənilməsi vacibdir. Profilaktik tədbirlər həm cinayətin törədilməsinə şərait yaradan halların aşkar edilməsinə və istintaqın optimallaşdarılmasına həm də onların qarşısının alınmasına aradan qaldırılmasına yönəlməlidir.

Məsələn, surətçıxarma və poliqrafiya texnikasının təcrübədə geniş tətbiq edilməsi ilə əlaqədar pul əskinaslarının və digər qiymətli kağızların saxta yolla hazırlanması cinayətləri çoxalmışdır. Kriminalistlər tərəfindən təklif olunmuş xüsusi boyaların kağızın tərkibinə daxi edilməsi, blanklarda rekvizitlərin, müdafiə torlarının olması həmin saxtalaşdırılmaların aşkar edilməsinə kömək edir.

Laboratoriya tədqiqatlarında istifadə olunan texniki-kriminalistik vasitələrin rolu əvəzedilməzdir. Yalnız həmin vasitələrin köməyi ilə ekspert-kriminalistlər istintaq üçün əhəmiyyət kəsb edən çoxsaylı məsələləri həll edə bilərlər.

Cinayətlərin törədilmə üsul və vsitələri fasiləsiz olaraq dəyişdiyi kimi, onlara qarşı mübarizə vasitələri də durmadan inkişaf edir. Kriminalistik elmi-texniki üsul və vasitələrin profilaktika məqsədi ilə tətbiqi üsullarının müasirləşdirilməsi və dərinləşdirilməsi kriminalistika elmi qarşısında duran mühüm vasitələrdən biridir.

Prof. N.A.Selivanov texniki-kriminalistik vasitələri iki əsas üzrə təsnifləşdirir: mənşəyinə və təyinatına görə.

Mənşəyinə görə o, həmin vasitələri iki qrupa bölür:

- xüsusi kriminalistik vəzifələrin həllinə uyğunlaşdırılmış ümumtexniki vasitələr (foto, kino, videoyazı, səsyazma və s. vasitələr);

MUHASIBAT.AZ

- yalnız kriminalistik vəzifələrin həlli üçün nəzərdə tutulmuş vasitələr (kriminalistik təyinatlı xüsusi fotokameralar, əl izlərin aşkar edib götürmək üçün yod buxarı trubkası və s.).

O, texniki kriminalistik vasitələri təyinatına görə də iki qrupa bölür:

- müstəntiqlər və kriminalistlər üçün sübutların aşkar edilməsi, götürülməsi, qeyd edilməsi üçün nəzərdə tutulmuş texniki vasitələr (fotoşəkil çəkmə, səsyazma, videoyazı aparatları və s.);

- maddi sübutların (əsasən də kriminalistik ekspertizaların aparılması) tədqiqində istifadə edilən texniki vasitələr (məhkəmə tədqiqat fotoqrafiyasının istifadə etdiyi üsul və vasitələr, analitik lüminssensiya lampaları, lupalar, mikroskoplar və s.).

Tətbiq edilən subyektə görə texniki vasitələr müstəntiq və təhqiqatçı (istintaq çemodanı, fotoaparat, axtarış vasitələr və s.), mütəxəssis və ekspet tərəfindən (müxtəlif tədqiqat aparatları) istifadə olunan vasitələrə bölünürlər.

Təyinatına görə texniki vasitələr: 1) axtarıcı; 2) obyektlərin qeyd edilməsi və götürülməsi; 3) obyektlərin tədqiq edilməsi üçün vasitələrə bölünür.

### 2. Axtarıcı texniki-kriminalistik vasitələr

Maddi obyektlərin aşkar edilməsi üçün müxtəlif texniki vasitələrdən, elmi üsullardan və metodlardan istifadə edilir.

Görünməyən, zəif görünən və mikroskopik obyektlərin axtarılması vasitələri əl izlərinin, toz, saç və sair mikrohissəciklərin aşkar edilməsi üçün nəzərdə tutulmuşdur. Bu məqsədlə xüsusi kriminalistik lupalardan, alüminium, qrafit, his, mis oksid və dəmir tozlarından istifadə olunur (metal tozlarını tətbiq edən zaman maqnit fırçasından istifadə edilir). Son zamanlar əlvan rəngli materiallar üzərində qalmış tər-piy izlərini aşkar etmək üçün “kvant” lüminessensiya tozu tətbiq edilir. Əl izlərinin aşkar edilməsinin digər mühüm vasitələrindən biri də yod buxarıdır.

Mikroobyektlərin axtarılması üçün iri böyüdücü lupalardan, ultrabənövşəyi UK-1, OLD-41 qurğularından istifadə edilir. Ultrabənövşəyi şüalarla işləyən qurğular qan, sperma və s. üzvi birləşmələrin hissəciklərini aşkar etməyə imkan verir.

Atəş izlərini, şübhə edilən şəxsin paltarları üzərində dəmir qırıntılarını aşkar etmək üçün S-70, “Voron-3” cihazlarından istifadə edilir.

Soyuq və odlu silahların, güllələrin, giliz və patronların, sındırma alətlərinin, metal pulların və başqa metal predmetlərin aşkar edilməsi üçün kütləsi 1 kq 400 q olan qaldırıcı maqnit axtarıcı tətbiq olunur. Bu cihaz vasitəsi ilə maye və dənəvər mühitlərdən qara metaldan hazırlanmış obyektləri aşkar edib çıxarmaq olar. Həmin obyektlər binalarda və qurğularda axtarılan zaman “İMP” və “İris” metalaxtaran cihazlarından istifadə edilir.

Paltarlarda, yataqda, mebel ləvazimatlarında metal məmulatların aşkar edilməsini kiçikqabaritli elektron metalaxtaran “Qamma” apartı vasitəsi ilə də həyata keçirmək olur. Bunula yanaşı, hüquq mühafizə orqanlarının istifadəsində qiymətli metalların (qızıl, platin və s.) axtarılması üçün də cihazlar vardır.

İstintaq təcrübəsində yumşaq mebellərə baxış keçirilməsi, su tutarlarda meyidləri aşkar etmək məqsədilə metal şuplardan və trallardan istifadə edilir.

MUHASIBAT.AZ

## 3.Obyektlərin qeyd edilməsi , götürülməsi və tədqiq edilməsi üçün istifadə edilən texniki-kriminalistik vasitələr

Təcrübədə axtarış cihazları ilə yanaşı obyektlərin qeyd edilməsi və götürülməsi üçün müxtəlif texniki vasitələrdən istifadə olunur. Daktiloskopik plyonka bu məqsədlə ən çox istifadə edilən vasitələrdəndir. Onlar qara və şəffaf rənglərdə olurlar. Qara plyonkalar ağ rəngli tozlar (alüminium, sink oksidi) vasitəsilə aşkarlanmış tər-piy izlərinin aşkar edilməsi və götürülməsi üçün istifadə edilir. Daktiloskopik plyonkadan müxtəlif predmetlər üzərində qalmış paltar liflərinin, toz və digər mikrohissəciklərinin götürülməsi üçün də istifadə edilir. Daktiloskopik plyonka linolium, taxta və asfalt üzərində aşkar edilmiş bəzi ayaq və nəqliyyat vasitələri izlərinin götürülməsində də tətbiq edilir.

İstintaq təcrübəsində həmçinin gipsdən, "K" pastasından, plastilindən və s. istifadə olunur.

Gips ayaq və nəqliyyat vasitələrinin həcmi izlərinin götürülməsində tətbiq edilir.

"K" pastasının köməyi ilə sındırma alət və vasitələrinin, ayaq və nəqliyyat vasitələrinin izlərinin kiçik hissələrinin surətləri çıxarılır.

Plastilin sındırma alət və vasitələri izlərinin surətlərini hazırlmaq üçün tətbiq edilir.

İstintaq təcrübəsində foto, video və səsyazma aparatlarından da istifadə edilir.

Fotoşəkilçəkmə qeyd etmə vasitəsi kimi hadisə yerində izlərin, axtarış zamanı sübutların götürülməsini, istintaq hərəkəti həyata keçirilən şəraiti əks etdirmək üçün tətbiq edilir.

Fotoşəkil çəkmək üçün müstəntiq "Zenit" tipli güzgülü fotoaparat, fotoişıqlandırıcı, xətkeş və s. ilə təhciz edilir.

Təhlükəli cinayətlərin istintaqı zamanı və istintaq hərəkətlərinin dinamikada əks etdirilməsi tələb olunduğu halda kino və ya videokameradan, səsyazma üçün isə maqnitafondan şahidlərin, zərərçəkənlərin, şübhə edilən şəxsin, təqsirləndirilən şəxsin dindirilməsi və ifadənin yerində yoxlanılması zamanı istifadə olunur.

Obyektlərin ilkin tədqiqi zamanı texniki vasitələrdən: kriminalistik mikroskoplar, lupalar, xətkeşlər, ruletkalar, pərgarlar (onların ölçülməsi üçün) tətbiq edilir (Şəkil 1). Axtarılan şəxslərin kompozision portretini tərtib etmək üçün İKR-2 cihazından istifadə edilir. Bundan əlavə: civə, kvars lampaları, elektron-optik dəyişdirici, narkotik maddələrin ekspres analizi üçün "Politest" dəsti (onun vasitəsi ilə müxtəlif narkotik maddələri müəyyən etmək olur), "Kontrast" cihazı (bu cihaz nəqliyyat vasitələrinə baxış zamanı zavod nömrələrinin dəyişdirilməsi hallarını, boya örtüklərinin qalınlığını müəyyən etməyə imkan verir), "Kinovar" cihazı (portfellərdə, çantalarda, paltarın ciblərində gizlədilmiş qızılın aşkar edilməsi üçün) və s. tətbiq edilir.

Ekspert tədqiqatları prosesində universal "Uparus" reproduksiya qurğusundan istifadə edilir. Bu qurğu əl, sındırma alət və vasitələrinin izlərini, sənədləri və s. obyektlərin şəklinin çəkilməsi və tədqiqi üçündür. Eyni zamanda bu qurğuda infraqırmızı və ultrabənövşəyi şüalar vasitəsi ilə şəkilçəkmə, makro və mikroşəkilçəkməni həyata keçirmək, diapozitivləri hazırlamaq mümkündür.

Güllələr, gilizlər və patronlar üzərində qalmış kiçik izləri tədqiq etmək, meyiddən çıxarılmış güllə üzərindəki izlərlə eksperimental güllənin üzərindəki izlərin optik üst-üstə qoyma metodu ilə tutuşdurulması üçün müqayisəli kriminalistik mikroskopdan istifadə

MUHASIBAT.AZ

edilir (MKM). Kağız və metal pulların, möhür və ştamplarının əkslərinin tətbiq edilməsi üçün də optik qurğudan istifadə edilir.

Odlu silahın hissə və mexanizmlərindən güllənin, patronun, gilizin üzərində qalan izlərin, həmçinin butulkanın, stəkanın yan səthlərində qalmış əl izlərinin şəklinin çəkilməsi üçün "Razvetka" qurğusu mövcuddur. Çətin görünən əl izlərinin komission tədqiqi üçün "Daktiloskopiya" qurğusu tətbiq edilir. Bundan başqa, göstərilən məqsədlərlə daha mükəmməl qurğu olan fərdi EHM-dən də istifadə edilir.

Qeyd olunan qurğu və cihazların ənənəvi kriminalistik tədqiqatlarda istifadə olunan texniki vasitələrin yalnız bir qismini təşkil edir. Bunlarla yanaşı, maddi sübutların ən müasir səviyyədə tədqiqini təmin edən xüsusi cihazlardan istifadə edilir.

Bu texniki vasitələrlə yanaşı məhkəmə ekspertizası obyektlərinin tədqiqi zamanı müxtəlif metodikalar tətbiq edilir.

Spektral analiz tədqiq olunan maddələrin spektrinin öyrənilməsinə əsaslanır. Bunun mahiyyəti ondan ibarətdir ki, tədqiq olunan maddə az miqdarda xüsusi cihaza - spektroqrafa yerləşdirilir və orada elektrik dövrəsinin alovunda və ya qığılcımlarında buxarlandırılır, bunun nəticəsində alınmış ayrı-ayrı atomlar qıcıqlandırılır və onlar işıq buraxmağa başlayır. İşıq linzalar sistemindən keçərək prizmaya düşür və spektrlərə bölünür. Spektral anliz vasitəsi ilə məlum olmayan maddəni və onun kimyəvi tərkibini müəyyən edirlər. Bu metod lak-boya örtüklərinin, yanacaq-sürtgü materiallarının və s. maddələrin tədqiqi zamanı geniş tətbiq olunur.

Lüminssensiya analizi bəzi maddələrin onlara infraqınmızı və ultrabənövşəyi şüalar vasitəsilə təsir edən zaman işıq şüaları buraxmasına əsaslanır.

Xromotoqrafiya metodu maddələrin tərkib hissələrinə parçalanmasına əsaslanır. Bu metod bəzi neft məhsullarının, bir çox sintetik maddələrin, spirt məmulatlarının, tezalışan materialların tədqiqi zamanı tətbiq edilir. Elektrofarez metodu boyaların, mürəkkəblərin, yapışdırıcı və s. maddələrin tədqiqində istifadə edilir.

Müasir dövrdə hüquq mühafizə orqanlarının istifadəsində təyinatına, qablaşdırılmasına görə fərqləndirilən müxtəlif istintaq çemodanları vardır.

Daxili işlər orqanlarında universal və unifikasiya olunmuş (vahid şəklə salınmış) çemodanlardan daha çox istifadə olunur (Şəkil 2). Onlar müstəntiqlər, təhqiqatçılar və kriminalistlər üçün nəzərdə tutulmuşdur. Son illər həmin çemodanlar hüquq mühafizə orqanlarına "Kremen-M1", "Kremen-M2" adları altında daxil olur. Bu çemodanlarda aşağıdakı texniki vasitələr vardır:

- əl izlərinin aşkar edilməsi, götürülməsi və qeyd edilməsi üçün vasitələr (PDM-Ç, PDM-B, PDML-S, yod trubkası, fırçalar, müxtəlif tozlar, tünd rəngli və şəffaf daktiloplyonkalar, daktiloskopiya etmək üçün mətbəə boyası, rezin diyircək və s.);
- mikrohissəcikləri aşkar edib götürmək üçün kriminalistik lupa, yapışqanlı plyonka, pinset, şüşə kolbalar və s.;
- həcmi izlərin surətini hazırlamaq üçün: gips, "K" və "U" silikon pastaları, "Prelest" lakı və s.;
- plan və sxemlərin tərtib edilməsi üçün ruletka, xətkeş, ştangensirkul, kompas, kağız, yazı ləvazimatları və s.;
- fotoşəkil çəkmək üçün "Zenit" fotoaparatı, fotolent üçün kasetlər, fotofokus halqaları, miqyas xətkeşi və s.

MUHASIBAT.AZ

Götürülən obyektləri qablaşdırmaq üçün şüşəkəsən, qayçı, müxtəlif ölçülü polietilen kisələr və s.

Bunlardan əlavə, çemodanda elektrik fanarı, gərginlik ölçən indikator, çəkic, bıçaq və s. olur.

Ən universal kriminalistika komplektləri səyyar kriminalistik laboratoriyalarıdır. Onlar UAZ-452 və RAF-2203 avtomobilləri üzərində quraşdırılmışdır. Kriminalistik laboratoriyalar müstəntiqlərin hadisə yerinə baxış keçirərkən və s. istintaq hərəkətlərinin yerindəcə həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur. Bu laboratoriyalar əsas və əlavə bölmələrdən ibarətdir. Əsas bölmədə müxtəlif prosessual və texniki (dindirmə, protokolun tərtib edilməsi və s.) hərəkətlər, əlavə bölmədə isə fotomaterilların hazırlanması, şəkilərin çıxarılması, maddi sübutların tədqiqi və s. həyata keçirilir. Bundan əlavə, kriminalistik laboratoriyalarda içərisində mikrohissəcikləri götürmək üçün "Veterok" cihazı, ultrabənövşəyi işıqlandırıcı, mikroskop, kinokamera, maqnit qaldırıcı, əl-barmaq izlərinin, həcmi ayaq izlərinin götürülməsi, meyidə baxış üçün nəzərdə tutulmuş vasitələr və s. predmetlər olan çemodanlar vardır.

Hal-hazırda kriminlastik texnikanın sisteminə aşağıdakı bölmələr daxilidir:

- kriminalistik texnikanın ümumi müddəaları.
- kriminlaistik fotoqrafiya, kinoçəkmə, videoyazı və səsyazma.
- trasologiya.
- kriminalistik ballistika.
- kriminalistik xətşünaslıq və müəllifşünaslıq.
- sənədlərin texniki kriminalistik tədqiqi.
- kriminalistik qeydiyyat.
- zahiri əlamətlərinə görə şəxsiyyətin eyniləşdirilməsi.

Bundan əlavə, müasir elmi-texniki nailiyyətlərin kriminalistikada tətbiqinin əsas istiqamətləri də bu sistemə aid edilir.

### 4.Kriminalistik fotoqrafiya, video, kinoçəkmə və səsyazmanın anlayışı və əhəmiyyəti

Kriminalstik fotoqrafiyadan, kinematoqrafiyadan, video və səsyazma vasitələrindən istintaq təcrübəsində həm sübutların əyaniliyini təmin etmək, həm də insanın hiss orqanlarının adi şəraitdə qavraya bilmədiyi izləri və obyektləri aşkar etmək üçün istifadə edilir. Bundan əlavə, həmin vasitələr insan yaddaşının əyani təsvirini də təmin edir.

Hadisə yerinə baxış bir qayda olaraq fotoşəkilçəkmə ilə müşaiyət olunur. Kriminalistik informasiyaların daşıyıcıları olan izlərin və digər obyektlərin fotoşəkilləri onun protokolda təsvir edilməsini tamamlayır və müstəntiqin işlədiyi şərait haqqında əyani təsəvvür yaradır. Bəzi hallarda dindirmə zamanı videonun deyil, səsyazmanın (maqnitafon) tətbiq edilməsi kifayət edir. Məsələn, azyaşlı şahidi dindirən zaman onun nitqinin bütün xüsusiyyətləri həmin vasitədə tamamilə əks olunur.

Fotoşəkilçəkmədən kriminalistik ekspertizaların keçirilməsi zamanı istifadə edilməsi daha mühüm əhəmiyyət kəsb edir. Bu zaman ondan təkcə ekspert rəyinin əsasını təşkil edən obyektlərin əlamətlərinin əyani təsvirini vermək vasitəsi kimi deyil, həm də tədqiqat zamanı

MUHASIBAT.AZ

ekspertizanı maraqlandıran halların aşkar, təhlil və müqayisə edilməsi vasitəsi kimi istifadə olunur.

Bu cür tədqiqatlar adətən, xüsusi aparaturanın və mürəkkəb metodların tətbiq edilməsi ilə mümkün olur.

Beləliklə, kriminalistik fotoqrafiya, videosəsyazma kriminalistika texnikasının bir sahəsi olub, istintaqın qarşısında duran vəzifələri həll etmək məqsədi ilə obyektlərin, faktların əksini almaq, rəsmiləşdirmək və tədqiq etmək üçün texniki vasitələrin və metodların tətbiq edilməsi haqqında elmi müddəalar sistemidir.

Kriminalistik fotoqrafiyanın, video və səsyazmanın əsasını ümumi xarakterli universal texniki vasitələr və metodlar təşkil edir.

Fotoqrafiyada fizikanın, kimyanın və digər elmlərin əldə etdikləri elmi nailiyyətlərdən istifadə edilməsi nəticəsində əhəmiyyətli texniki müvəffəqiyyətlərə nail olunmuşdur və o, hal-hazırda insan fəaliyyətinin müxtəlif sahələrində tətbiq olunur.

Müasir fotoqrafiya qaranlıqda, dumanda şəkil çəkmək, insan gözü ilə görə bilmədiyi obyektləri aşkar etmək imkanlarına malikdir.

Son illər elm və texnikanın inkişafı ilə əlaqədar olaraq kriminalistikada elektron (rəqəmsal) fotoqrafiyadan geniş istifadə olunur. Rəqəmsal fotoqrafiyada işığahəssas materialların təttbiqinə və onların laboratoriyada emalına ehtiyac qalmır.

Rəqəmsal fotoqrafiya kriminalistik obyektlərin elə qeydiyyat üsuludur ki, burada əkslərin alınmasının fotokimyəvi prosesləri elektromaqnit proseslərlə əvəz olunur.

Rəqəmsal fotoqrafiya prosesi optik əkslərin rəqəmsal şəklə salınmasından, onların kompütərə daxil edilməsindən, əkslərin redaktə olunmasından, informasiya daşıyıjısında surətlərin alınmasından və printerdə çapdan ibarətdir. Bu məqsədlər üçün xüsusi texniki vasitələr işlənib hazırlanmışdır. Onlara daxiletmə qurğusu (rəqəmsal foto və videokameralar) , yaddasaxlama qurğusu və əkslərin çıxarılması qurğusu (müxtəlif printerlər) aiddir. Təsvirlərin redaktə olunması kompüterdə proqramm vasitələrinin – qrafik redaktorların köməyi ilə həyata keçirilir.

Kinoçəkmə ilə müqayisədə videoyazının bir çox üstünlükləri mövcuddur. Videoyazıdan istifadə etmək çox sadə və əlverişlidir. Bundan əlavə, videoyazıdan istifadə edərkən obyektlərin əyani təsvirini çəkməklə yanaşı, həm də kadrın səsləndirilməsi, izahedici yazıların verilməsi mümkündür. Videoyazılar nümayiş etdirilərkən bu və ya digər detalların tədqiqi lazım gələrsə, stop-kadrlardan istifadə edilir.

İstintaq hərəkətlərinin gedişində həmçinin müxtəlif maqnitafonlardan istifadə edilir. Onlardan istifadə qaydaları prosessual qanunvericiliklə müəyyən edilir.

## 5.Məhkəmə –əksedici (əməliyyat) fotoqrafiyanın üsulları

Məhkəmə fotoqrafiyası əksedici (əməliyyat) və tədqiqedici (tədqiqat) şəkilçəkmə üsullarına görə də bir-birindən fərqlənir.

Əksedici şəkilçəkmənin müxtəlif üsulları vardır. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

MUHASIBAT.AZ

Panoram, stereo, ölçücü, reproduksiya şəkilçəkmə.

Panoram şəkilçəkmə üsulundan əsasən bir kadra yerləşməyən obyektlərin şəkillərinin çəkilməsi zamanı istifadə olunur.

Panoram şəkilçəkmə obyektin şəklinin hissələrlə çəkilməsi deməkdir. Bu zaman şəkili çəkilən hissələr 10-15% bir-birinin üzərinə düşməlidir. Panoram şəkilçəkmə zamanı adi kiçik formatlı fotoaparatlardan və yaxud panoram fotoapartalardan (“AN-2”, “Qorizont” tipli aparatlar) istifadə edilir. Panoram şəkilçəkmə dairəvi və xətti panorama ayrılır. Dairəvi panoram şəkilçəkmə obyektlər bir müstəvi üzərində olmadıqda və ya bir bir-birinə nisbətən müəyyən bucaq altında yerləşdikdə, həmçinin onları bir nöqtədən çəkmək daha əlverişli olduğu zaman tətbiq olunur. Bu zaman fotoaparat tərpənməz dayağa bərkidilir və hər dəfə müəyyən bucaq altında döndərilir. Bu da dairvi halda şəkil çəkməyə imkan verir. Şəkillərin sayı obyektivin əks etmə bucağından asılıdır. Bucaq böyük olduqca şəkilçəkmə zamanı dönmələrin və buna müvafiq olaraq şəkillərin sayı da az olacaqdır.

Şəkli çəkilən obyektlər bir xətt boyunca yerləşdikdə xətti panoram şəkilçəkmədən istifadə olunur. Bu zaman ayrı-ayrı şəkilçəkmələr vaxtı şəkli çəkilən obyektlərin olduğu xəttə paralel olan xətt boyunca şəkil çəkilməlidir. Hər bir hissənin şəkli çəkilərkən əvvəlki kadrın 10-15%-i növbəti kadrda təkrar olunmalıdır. İstər dairvi və istərsə də xətti panoram şəkilçəkmə həm şaquli, həm də üfüqi istiqamətdə aparıla bilər. Panoram şəkilçəkmə bütünlüklə eyni şəraitdə çəkilməli, həmçinin kadrlar eyni şəraitdə aşkarlanmalı və çap olunmalıdır.

**Stereo şəkilçəkmə**. Müəyyən sahədə olan obyektlərin həcmi və onların bir-birinə nisbətən yerləşmə vəziyyətini müəyyən etməyə imkan verən şəkilçəkmə üsuludur. Bu üsüldan adətən, hadisə yerində çoxlu miqdarda əşya olduqda, meyidin vəziyyəti, ayaq izləri, sındırma alət izləri, nəqliyyat izləri və s. şəklinin çəkilməsində istifadə olunur.

Stereo şəkilçəkmə həm xüsusi stereo fotoapartla (“Sputnik”), həm də adi kiçik formatlı “Zenit” fotoaparatı ilə aparıla bilər. Lakin adi fotoapartlarda bunun üçün ştativə xüsusən stereoplanka bərkidilməlidir. Fotoaparat stereoplankaya bərkidilir, əvvəlcə aparat stereoplankanın sağ kənarına gətirilir və bu vəziyyətdə birinci şəkil çəkilir. Sonra isə aparat göz bəbəkləri arasındakı orta məsafə qədər (təqribən 65 mm) sol tərəfə çəkilir və bu vəziyyətdə ikinci şəkil çəkilir. Nəticədə eyni obyektin iki şəkli alınır. Bu isə stereocütlük adlanır. Alınmış şəkilləri montaj etdikdə obyektin həcmi də nəzərə çarpır. Lakin montaj etdikdə sağ tərəfdə çəkilmiş şəkil sol tərəfdə yerləşdirilməlidir. Nəzərə almaq lazımdır ki, stereocütlüyün hər iki şəkli eyni şəraitdə çəkilməli və eyni laboratoriya şəraitində aşkarlanıb çap olunmalıdır. Stereocütlüklər stereskop vasitəsi ilə baxanda şəkli çəkilən obyektin həcmi haqda adi şəraitdə olduğu kimi real təsəvvür yaranır.

**Ölçücü şəkilçəkmə**. Ölçücü şəkilçəkmə miqyas və metrik fotoşəkilçəmə üsulu ilə aparıla bilər.

Miqyas şəkilçəkmədə şəkli çəkilən obyektlər masştabla çəkilir. Bunun üçün sm və ya mm-lərlə bölünmüş xətkeşlərdən istifadə olunur. Bu zaman alınmış şəkildə obyektin və xətkeşin ölçüləri arasındakı münasibət olduğu kimi alınır və əlavə hesablamaya ehtiyac qalmır. Miqyas şəkilçəkmədə şəkli çəkilən obyektin səthi foto plastinkaya və yaxud fotoplyonkaya paralel vəziyyətdə olmalıdır. Müəyyən təhriflərin alınmaması üçün miqyas şəkilçəkmə zamanı obyektivin optik oxu mütləq şəkli çəkilən səthə perpendikulyar vəziyyətə

MUHASIBAT.AZ

gətirilməlidir. Miqyas şəkilçəkmə əsasən səthi izlərin və kiçik ölçüdə olan obyektlərin səthininin şəklini çəkmə zamanı tətbiq olunur.

Metrik şəkilçəkmə ayrı-ayrı istintaq hərəkətləri zamanı müəyyən obyektlərin forması, ölçüsü və yerləşmə vəziyyətinin dəqiq qeyd olunması məqsədi ilə aparılır.

Metrik şəkilçəkmənin bir neçə variantları vardır. Bunlardan ən sadəsi dərinlik masştabı ilə metrik şəkilçəkmədir. Bunun üçün fotoaparat ştativə elə bərkidilməlidir ki, plyonka və plastinkanın səthi mütləq döşəməyə və ya yerə şaquli istiqamətdə olsun. Bu dərinlik masştabı vasitəsi ilə çəkilir. Dərinlik masştabı şkalanın nöqtəsi düz obyektivin altında müəyyən edilməlidir. Dərinlik masştabı təqribən 8-9 metr uzunluğunda kağız lent olub, üzərində müəyyən bölgülər vardır. Bu bölgülərin hər biri həmin aparatın obyektivinin əsas fokus məsafəsinin ölçüsünə bərabər olur. Əsas fokus məsafəsi 5 sm olan kiçik formatlı fotoaparatlarla şəkil çəkildikdə bu bölmələrin də ölçüsü 5 sm olur. Daha aydın olmaq üçün bölmələr bir-birindən qara xanələrlə ayrılır və birini keçmək şərti ilə nömrələnir. Obyektin şəkli dərinlik masştabı ilə birlikdə çəkilir.

Metrik şəkildə obyektdəki predmetlər arasında olan məsafəni müəyyən etmək olar. Dərinlik masştabı vasitəsi ilə fotoşəkildə alınan ölçülər fokus məsafəsinə nisbətən neqativ azaltmaya əsaslanır. Bu münasibət N-1 ilə ifadə olunur (N - burada neqativ azaltmanın sayını göstərir). Əgər obyektin 20 dəfə kiçildilmiş əksini almaq lazımdırsa, onda aparatı həmin obyektdən 21 fokus məsafəsi qədər aralı yerləşdirmək lazımdır. (20-1) və yaxud 105 sm məsafədə yerləşdirmək lazımdır (5 sm x 21). Dərinlik masştabı ilə şəkilçəkmə obyektin ölçüsünü müəyyən etməyə imkan verir. Bunun üçün dərinlik masştabanın - elə nömrəsi götürülməlidir ki, şəkli çəkilən obyektin olduğu sahənin səthinə uyğun gəlsin. Həmin nömrədən vahid çıxılır və nəticədə azaltma əmsalı alınır. Şəkildə bizi maraqlandıran məsafəni ölçüb onu azaltma əmsalına vurmaqla predmetin həqiqi ölçüsünü müəyyən edə bilərik. Tutaq ki, şəkli çəkilən qutunun uzunluğu fotoşəkldə 2 sm-dir. Dərinlik masştabında qutunun yerləşdiyi vəziyyət 40-cı bölgüyə gəlir. Bu halda azaltma əmsalı 39 (40-1) olacaqdır. Qutunun həqiqi uzuluğu 78 sm (2 sm x 39) olacaqdır. Predmetlər arasındakı məsafəni ölçmək üçün fotoaparatla hər bir obyektin frontal səthi arasındakı məsafə ölçülməlidir. Tutaq ki, birinci obyekt dərinlik masştabında 5-ci bölgüyə uyğun gəlir. Deməli, aparatdan ona qədər olan məsafə 100 sm (5x20) olacaqdır. İkinci predmet isə dərinlik masştabının 30-cu bölgüsünə uyğun gəlsə, ona qədər olan məsafə 150 sm (30x5) olacaqdır. Bu halda predmetlər arasındakı məsafə 50 sm (150-100) olacaqdır. Beləliklə, şəkli çəkilən predmetlər arasındakı həqiqi məsafəni müəyyən etmək olur.

**Reproduksiya şəkilçəkmə**. Səthi obyektlərin, sənədlərin, fotoşəkillərin, çap olunmuş mətnlərin və c. surətini çıxıramaq üçün bu üsuldan istifadə olunur. İstintaq təcrübəsində sənədlərin əslinin (maddi sübutların) surətini çıxarmaq məqsədi ilə repreduksiya şəkilçəkmə üsullarından geniş istifadə olunur. Repreduksiya şəkilçəkmə zamanı xüsusi repreduksiya fotoaparatlarından və ya kiçik formatlı aparatlardan ("Zenit" tipli aparat) istifadə edilir.

Repreduksiya şəkilçəkmə zamanı miqyas şəkilçəkmənin bütün qaydalarına əməl olunmalıdır. Bu zaman şəkli çəkilən obyektin güclü və bərabər işıqlandırılması lazımdır. Bunun üçün hər iki tərəfdə olan lampaların sayı bərabər olmalıdır. Əlyazmaların və rəngli obyektlərin şəklinin işıq süzgəcləri vasitəsi ilə çəkilməsi məsləhətdir. Kiçik formatlı fotoaparatlarda repreduksiya şəkilçəkmə ya ştativ vasitəsi ilə və yaxud RU, yaxud URU

MUHASIBAT.AZ

xüsusi foto cihazları ilə aparılmalıdır. Bu üsulla şəkilçəkmə zamanı neqativ materiallar şəkli çəkilən obyektin növündən asılı olaraq götürülür.

Bəzi hallarda sənədlərin surəti fotoaparat istifadə olunmadan da çıxarıla bilər. Bu üsula refleks şəkilçəkmə üsulu deyilir. Refleks şəkilçəkmə üsulu az miqdarda fotosurət almağa imkan verir. Əlbəttə, bu üsulla alınmış surətin keyfiyyəti fotoaparat vasitəsi ilə alınmış surətlərə nisbətən aşağı olur.

Refleks şəkilçəkmə zamanı obyektin üzərinə qırmızı və narıncı rəngli işıqda xüsusi refleks kağızının emulsiya olunmuş tərəfi qoyulur və üstdən şüşə vasitəsi ilə sıxılır. Refleks kağızı olmadıqda yüksək kontrastlı kağızlardan istifadə olunur. Sonra şüşənin üzərinə lazım qədər işıq salınır. Bu işıq fotokağızdan keçərək açıq hissələrdə əks edilir, tünd hissələrdə isə udulur. Nəticədə əks olunmuş şüalar gizli əksində refleks həkk olunmasına səbəb olur. Sonradan refleks kağızı aşkarlanır, bərkidilir və qurudulur. Alınan neqativ əksdən kontakt üsulu ilə pozitiv alınır.

Kiçik formatlı aparatlarda böyük masştablı şəkilçəkmə. “Zenit” tipli fotoaparatların quruluşunun xüsusiyyətləri 0.65 m-dən az olan məsafədə şəkilçəkməyə imkan vermir. Bu halda əksin masştabı 1:10.5-ə bərabər olacaqdır. Əgər iri masştabda şəkil çəkmək lazım gələrsə, onda fotoaparatın obyektivi irəli çəkilməlidir. Ona görə də “Zenit” tipli aparatlarla kiçik izlərin və maddi sübutların şəklinin çəkilməsi zamanı obyektivin irəli çəkilməsi üçün uzadıcı halqalardan istifadə olunur. Bu cür halqalar istintaq çamadanında olur. Şəkilçəkmə zamanı bu halqalarla aydınlığı tənzim etmək üçün adi üsullardan istifadə edilir. 0.65 m-dən yaxın məsafələrdə iri masştablı şəkil çəkmək üçün halqalar ya təklikdə və ya da dəst halında istifadə olunur. Bu isə şəkli çəkilən obyektin xarakterindən asılıdır. Bunun üçün ya şəkil çəkən öz təcrübəsindən, ya da xüsusi cədvəllərdən istifadə edir.

Əksedici fotoşəkilçəkmənin **üsulları ayrı-ayrı istintaq hərəkətləri** aparılarkən (məsələn, hadisə yerinə baxış, axtarış, istintaq eksperimenti, ifadələrin yerində yoxlanılması, tanınma üçün təqdim etmə və s.) istifadə edilir.

Hadisə yerinin şəklinin çəkilməsi. Hadisə yerinə baxış zamanı müəyyən edilən hallar mütləq protokolda öz əksini tapmalıdır. Lakin bəzən hadisə yerinin vəziyyətini protokolda tam əks etdirmək mümkün olmur. Hətta müstəntiq tam dəqiqliyi ilə baxış apardıqa belə, iş üçün əhəmiyyəti olan bir sıra kiçik halları nəzərdən qaçıra bilər. Buradan da hadisə yerinə baxış protokuluna müvafiq fotoşəkillərin əlavə olunması zərurəti ortaya çıxır. Hadisə yerində çəkilmiş şəkillər istintaq fərziyyələrinin qurulması, habelə sübutların yoxlanılması və qiymətləndirilməsi üçün istifadə edilə bilər. Baxış protokoluna əlavə edilən fotoşəkillər hadisə yeri haqqında daha dəqiq təsəvvür yaratmağa imkan verir. Hadisə yerinə baxış zamanı hadisə yerinin vəziyyətini xarakterizə edən aşağıdakı fotoşəkillər çəkilir: a) istiqamətləndirici; b) icmal; v) mərkəz və q) müfəssəl.

İstiqamətləndirici fotoşəkil hadisə yerinin onu əhatə edən sahə ilə birlikdə çəkilmiş foto şəklinə deyilir. İstiqamətləndirici şəkilçəkmədə məqsəd fotoşəkildən hadisə yerinin bilavasitə harada yerləşdiyini müəyyən etməkdir. Məsələn, oğurluq baş vermiş sahənin nisbi ölçüsü, yaxınlıqda olan tikililər və s. haqda fikir irəli sürmək olar. Bu cür şəkil çəkmə müəyyən hündürlükdən aparıldıqda yaxşı nəticə verir.

İcmal fotoşəkil hadisə yerinin ətrafındakı sahədən təcrid olunmuş halda çəkilmiş şəklinə deyilir. Məsələn, avtonəqliyyat hadisəsinin baş verdiyi yerin, yaxud oğurluq edilən binanın fotoşəkli və s.

MUHASIBAT.AZ

İjmal şəkil çəkmə zamanı panoram şəkil çəkmə üsulundan istifadə oluna bilər. Əgər hadisə yerində predmetlərin yerləşmə vəziyyəti mürəkkəbdirsə, onda streo şəkilçəkmə üsulundan da istifadə olunur.

Mərkəz fotşəkil hadisə yerinin daha mühüm sahələrinin çəkilmiş fotoşəkillərinə deyilir. Adam öldürmə cinayətlərində meyidin, oğurluq cinayətlərində isə sındırılmış qapının, deşik açılmış divarın və s. fotoşəkilləri mərkəz fotoşəklə misal ola bilər.

Mərkəz fotoşəkil əkmə zamanı obyektlərin ölçüləri və onlar arasındakı məsafəni müəyyən etmək üçün miqyas və metrik şəkil çəkmə üsullarından istifadə olunur. Dar yerlərdə icmal və mərkəz fotoşəkil çəkmə zamanı geniş bucaqlı obyektivdən istifadə etmək məqsədəuyğundur.

Müfəssəl fotoşəkil ətrafdakı predmetlərdən ayrıldıqda, nisbətən kiçik olan əşya və bilavasitə izlərin çəkilmiş fotoşəkillərinə deyilir. Müfəssəl fotoşəkil çəkərkən fotoşəkli çəkilən obyektin elə xüsusiyyətlərinin əks etdirilməsinə çalışmaq lazımdır ki, onlar kriminalistik cəhətdən daha mühüm əhəmiyyət kəsb etsin. Məsələn, hadisə yerindən tapılmış sındırma alətinin şəkli çəkilərkən elə etmək lazımdır ki, onun markası, texniki cizgiləri, üzərindəki bütün əlamətlər şəkildə görünə bilsin. Müfəssəl fotoşəkil çəkərkən şəkli çəkilən predmetin işıqlandırılmasına xüsusi fikir verilməlidir. Bu zaman işıqlandırmanın növündən (süni, təbii) asılı olmayaraq şəkli çəkilən predmetin bütün hissələri və cizgilərinin şəklində əks olunmasına imkan verilməlidir.

Meyidin fotoşəkilinin çəkilməsi. Adam öldürmə, özünü öldürmə və ölümlə nəticələn ağır cinayətlərin istintaqı zamanı meyidin fotoşəklinin çəkilməsinin böyük əhəmiyyəti vardır. Fotoşəkil meyidin ümumi vəziyyəti, onda olan zədələrin xarakteri, paltarının vəziyyəti və ətrafda olan predmetləri haqqında ətraflı təsəvvür yaradır. Bundan başqa, fotoşəkil naməlum meyidin şəxsiyyətini müəyyən etməyə imkan verir. Hadisə yerində meyidin istiqamətverici, icmal, mərkəz və müfəssəl fotoşəkilləri çəkilir.

Meyidin fotoşəkli əvvəl onu əhatə edən predmetlərlə birlikdə çəkilir (istiqamətverici şəkil). Bunun üçün fotoaparat elə vəziyyətdə qurulmalıdır ki, meyid kadrın az hissəsini tutsun, əsas hissədə isə onu əhatə edən sahə görünsün. Meyidin fotoşəkli ətrafındakı predmetlərdən ayrılıqda da çəkilməlidir (icmal şəkil). Meyidin vəziyyətinin fotoşəkli isə iki tərəfdən (sağ və sol) çəkilməlidir . Oturmuş və asılmış vəziyyətdə olan meyidlərin fotoşəklini imkan dairəsində dörd tərəfdən çəkmək məsləhət görülür. Asılı vəziyətdə olan meyidin fotoşəklini çəkmək üçün geniş bucaqlı obyektivdən istifadə edilməlidir. Buna şaquli şəkil çəkmə deyilir. Meyidin fotoşəklini yan tərəfdən çəkmək üçün panoram şəkilçəkmə üsulundan istifadə edilə bilər. Uzanmış vəziyyətdə olan meyidin fotoşəkli yan tərəflərdən (3-4 m məsafədə) və üstdən çəkilir. Bu zaman elə etmək lazımdır ki, meyidin şəkli bir kadra yerləşsin.

Meyidin üzərindəki zədələrin, ləkələrin və s. müfəssəl fotoşəklini çəkərkən mütləq masştab xətkeşdən istifadə edilməlidir. Meyit üzərindəki zədələrin şəkli çəkilərkən rəngli fotoşəkil çəkmədən istifadə etmək məsləhətdir.

Hadisə yerində aşkar edilən izlərin fotoşəklinin çəkilməsinin də bir sıra xüsusiyyətləri vardır. Əl izlərinin fotoşəkli iri masştabda miqyas fotoşəkil çəkmə üsulu ilə çəkilir. İzin yanında masştab xətkeşi qoyulur. Rənglənmiş izlərin şəkli isə müvafiq işıq süzgəcləri vasitəsilə çəkilir. Həcmi əl-barmaq izləri çəkilərkən iki tərəfli, dağınıq və kölgəli işıqlanma olmalıdır. Rəngli olmayan əl-barmaq izlərinin şəklinii çəkmək nisbətən çətin olur. İzin

MUHASIBAT.AZ

yerləşdiyi predmet şəffaf olmadıqda onu bir tərəfdən çəpdüşən ensiz işıq şüaları dəstəsi ilə işıqlındırmaq lazımdır. Əks halda isə şəkli keçici işıqda çəkmək olar. Bunun üçün izin olduğu predmetin əks tərəfinə qara kağız və ya parça qoyulur. Qara kağız və ya parça üzərində predmetdəki izin ölçüsündə deşik açılır (işıqlandırma zamanı oradan işıq keçməsi üçün). İşıq mənbəyi üzərində iz olan predmetin arxa tərəfində yerləşdirilir. Şəkilçəkmə zamanı şəklin çəkildiyi yer (otaq və s.) nisbətən qaranlıq olmalıdır.

Ayaq və nəqliyyat izlərinin şəkli imkan dairəsində böyük ölçüdə götürülür və bu zaman miqyas şəkilçəkmə tətbiq olunur. Həcmi ayaq izləri çəkilərkən əsas və əlavə köllgəli işıq verilməlidir.

Müəyyən rəngdə olan səthi ayaq izlərinin şəkli də səthin rənginə müvafiq olaraq işıq süzgəcləri ilə çəkilir. Burada masştab xətkeşi izin səthinə qoyulur. Hadisə yerində ayaq izləri yolu varsa, onun şəkli bütünlükdə götürülür (əgər qısadırsa). İz yolu uzun olduqda isə panoram şəkilçəkmədən istifadə olunur. Bə`zən belə izlərin şəkli dərinlik masştabı ilə də çəkilə bilər. Nəqliyyat izlərinin fotoşəkli də iz yolu kimi çəkilir (yə`ni dərinlik masştabı ilə, yaxud yuxarıda çəkilir). Sonra isə nəqliyyat izinin fərdi xüsusiyyətləri daha aydın əks olunduğu yerin fotoşəkli çəkilməlidir. Nəqliyyat izlərinin fotoşəkli çəkilərkən təkərlər arasındakı məsafəni və s. ölçüləri müəyyən etməyə imkan verən masştab xətkeşindən istifadə olunmalıdır.

Sındırma alət izləri geniş həcmdə masştab xətkeş tətbiq etməklə çəkilir. İlk dəfə sındırma alət izləri yerləşdiyi predmetin müəyyən bir hissəsi ilə birlikdə çəkilir. Sonra isə ya bir qrup iz və yaxud hər bir iz ayrılıqda çəkilir. Əgər izlər bir kadra yerləşmirsə, panoram şəkilçəkmədən istifadə olunur. Bu cür izlərin fotoşəkli çəkilərkən kölgəli işıqlanma məsləhətdir. Böyük relyefli izlərin hissəlirini daha dəqiq əks etmək üçün işıqlanma iki tərəfdən olmalıdır. Bir tərəfdən dağınıq (əlavə), digər tərəfdən isə kölgəli (əsas) işıqlanma olmalıdır.

Ayrı-ayrı predmetlərin - maddi sübutların fotoşəklinin çəkilməsi elə olmalıdır ki, onların yerləşdiyi yer və ətrafdakı predmetlərlə əlaqəsi əks etdirilsin. Həmin predmetlərin dəqiq şəklinin çəkilməsi də məqsədəuyğundur. Predmetlər miqyas xətkeşləri vasitəsi ilə çəkilə bilər. Predmetin düzgün əksinin alınması fotoşəkil çəkmə zamanı işıqlanmanın düzgün olmasından asılıdır.

Tanınma fotoşəkilçəkmə. Tanınma fotoşəkil cinayətin qeydə alınması, axtarış və tanınma, habelə naməlum meyitlərin şəxsiyyətini müəyyən etmək məqsədi ilə çəkilir. Bu növ fotoşəkillər ön tərəfdən qurşağa qədər çəkilir. Bəzən axtarış məqsədi ilə şəxsin sol yan tərəfdən də şəkli çəkilə bilər. Bu o zaman edilir ki, şəxsin sol tərəfində ona məxsus olan xüsusi əlamət olsun.

Şəkilçəkmədən qabaq baş örtüyü götürülür və qulaq tüklə örtülmüşsə, onun üstü açılır. Üzdən və yandan şəkli çəkilən şəxsin başı müəyyən vəziyyətə gətirilməlidir. Şəkil çəkilən zaman nəzərdə tutulmuş üfüqi xətt gözün xarici bucaqlarından və qulaq seyvanının yuxarı 3/1-dən, nəzərdə tutulmuş şaquli xətt isə alının və çənənin tən ortasından keçməlidir. Fotoaparat fotoşəkli çəkilən adamın sifəti səviyyəsində yerləşdirilməlidir .

Bəzən tanınma fotoşəkillə yanaşı, şəxsin boyu bərabəri (başın 3/4 hissəsini çevirməklə) fotoşəkli əlavə olaraq çəkilir. Belə fotoşəkillər şəxsi cinayət etdiyi vəziyyətdə təsəvvür etmək zərurəti meydana çıxdığı hallarda çəkilir. Bunun üçün şəxs hadisə zamanı olduğu geyimdə çəkilməlidir.

MUHASIBAT.AZ

Cinayətkarların qeydiyyatı məqsədi ilə onların şəkli bir qayda olaraq 1/7 natural ölçüdə çəkilir. İri formatlı fotoaparatlarda bu mümkündür (kadrların ölçüləri 6x6 və ondan artıq olduqda). Fotoaparat şəkli çəkilən şəxsin başından obyektivin 8 əsas fokus məsafəsi qədər aralı qoyulur. Kiçik formatlı aparatlarla 1/7 natural ölçüdə şəkil çəkmək mümkün deyildir. Odur ki, belə hallarda masştab xətkeşlərindən istifadə olunur. Xətkeş ya şəkli çəkilən adamın oturduğu stulun söykənəcəyinə (üzü səviyyədə) bərkidilir və yaxud onun paltarına taxılır. Şəkil çıxarılarkən masştab xətkeş vasitəsi ilə əks 1/7 natural ölçüsünə gətirilir. Tanınma şəkli çəkmə zamanı işıqlandırma iki tərəfdən olmalıdır.

Əgər ölmüş adamın şəxsiyyəti məlum deyilsə, tanınma fotoşəkli çəkilməlidir. Bu zaman meyidin sifətinin fotoşəklini həm sağ, həm də sol tərəfdən çəkmək məsləhətdir. Meyit ilk dəfə olduğu vəziyyətdəki kimi çəkilir. Meyidin sifəti tanınmaz vəziyyətə salınmışsa, əvvəlcə onun sifəti bərpa edilməlidir. Bunu isə məhkəmə-tibbi mütəxəssis yerinə yetirir. Buna başqa sözlə meyidin tualeti də deyilir. Meyidin fotoşəkli tualetdən əvvəl və sonra çəkilməlidir. Meyit üz tərəfdən, habelə üzün 3/4 hissəsinin yana çevrildiyi vəziyyətdə sağ və sol tərəfdən çəkilməlidir. Meyidin fotoşəklini stolun üsütündə də sağ və sol tərəfdən çəkmək olar. Şəkilçəkmə zamanı meyidin üzünə lazımi vəziyyət vermək üçün başı altına müəyyən dayaq qoyulmalıdır.

İstintaq ekspermenti aparılarkən fotoşəkillərin çəkilməsi mühüm əhəmiyyət kəsb edir. Həmin fotoşəkillər eksperimentin gedişi və nəticəsini daha aydın göstərir. Bu şəkillərdən hər hansı hərəkətin edilməsinin mümkünlüyünü müəyyən etmək, yaxud hər hansı faktı yoxlmaq üçün istifadə oluna bilər. Təcrübə göstərir ki, eksperimentlərin aparılması zamanı görmə qabiliyyətini yoxlmaqa məqsədi ilə, əmlakın müəyyən yerə sığmasını yoxlamaq üçün, müəyyən yerdən keçməyin mümkünlüyünü aydınlaşdırmaq üçün fotoşəkillərin çəkilməsi müvəffəqiyyətlə tətbiq olunur. Məsələn, görmə qabiliyyətini yoxlamaq üçün müttəhim və ya şahidin müəyyən yerdən müşahidə etdiyi (onların ifadəsinə görə) halların şəkildə əks etdirilməsi. İstintaq eksperimenti zamanı istiqamətverici, icmal və mərkəz fotoşəkillər çəkilə bilər. Məsələn, adamın açılmış deşikdən müəyyən binaya daxil olmasının mümkünlyünü yoxlamaq üçün binanın özünün, ətraf hissələrlə birlikdə açılmış deşiyin və geniş planda yalnız deşiyi şəkli çəkilməlidir.

Şəxsin və maddi şeylərin tanınmaya təqdim olunmasında da fotoşəkilçəkmədən istifadə olunur. Bir sıra hallarda təqsirləndirilən şəxs öz şikayətində göstərə bilər ki, tanınmaya təqdim etmənin prosessual qaydaları pozulmuşdur. Məsələn, yaşı və ya xarici əlamətləri ilə uyğun gəlməyən şəxslərin tanınmaya təqdim edilməsi. Bu halda tanınmaya təqdim etmə zamanı çəkilmiş şəkillər şikayətin yoxlanılmasını xeyli asanlaşdıra bilər. Odur ki, tanınmaya təqdim olunan şəxslər və ya predmetlərin əvvəlcə hamısının şəkli birlikdə çəkilir. Qrup halında predmetlərin şəkli çəkilməzdən əvvəl onların hər birinə nömrələnmiş nişan vurulmalıdır. Tanınmaya təqdim olunan şəxslərin və ya predmetlərin hər birinin şəkli həm də ayrılıqda çəkilməlidir. Şəxsin və ya meyidin fotoşəkli tanınma fotoşəkilçəkmənin qaydalarına əsasən çəkilir. Tanınmış predmetin şəkli geniş planda masştabla çəkilməlidir.

Axtarışda şəkilçəkmə əsasən axtarışın nəticələrini, məsələn, axtarılan əmlakın gizlədildiyi yerin və həmin əmlakın xüsusiyyətlərini aydınlaşdırmaq üçün tətbiq olunur. Əmlakın yerləşdiyi yerinə şəkli çəkilərkən hadisə yerində olduğu kimi istiqamətverici, mərkəz, icmal və fotoşəkil çəkmədən istifadə oluna bilər. Bunun üçün əvvəlcə əmlakın saxlandığı yerin ətrafındakı şeylərə nisbətən vəziyyəti şəkildə əks etdirilməlidir. Bundan

MUHASIBAT.AZ

sonra həmin yerin bütünlükdə şəkli çəkilir. Lazım gəldikdə isə həmin yerin ayrı-ayrı hissələrinin şəklini də çəkmək məqsədə uyğundur.

İfadənin yerində yoxlanması zamanı dindirilən şəxs tərəfindən göstərilmiş sahə və obyektlərin aydın surətdə əks etdirilməsi üçün şəkil çəkmədən istifadə olunur. Obyekt həm onu əhatə edən predmetlərlə birlikdə, həm də ayrılıqda geniş planda çəkilməlidir. Müxtəlif şəxslər tərəfindən göstərilmiş eyni obyektin şəklinin hər dəfə eyni nöqtədən və eyni üsulla çəkmək məqsədəuyğundur. Şəxsin özünün göstərdiyi hərəkət yolunun (məsələn, cinayətin baş verdiyi yerə getmə, oradan çıxma yolları və s.) şəkli çəkilərkən şəkil hərəkətin gedişi üzrə hissələrlə çəkilir.

## 6. Məhkəmə – tədqiqediçi (tədqiqat) fotoqrafiyanın üsulları

Kriminalistik fotoqrafiyanın bu növü əsasən ekspert təcrübəsində müxtəlif maddi sübutların tədqiqi zamanı tətbiq edilir. Lakin o, obyektlərin ekspert tədqiqindən əvvəl əməliyyat məqsədilə müstəntiq tərəfindən də tətbiq oluna bilər. Məhkəmə tədqiqat fotoqrafiyasının aşağıdakı növləri fərqləndirilir: Rənglərin fərqləndirmə ilə şəkilçəkmə, kontrast şəkilçəkmə, mikrofotoşəkilçəkmə,
mikro fotoşəkilçəkmə, görünməyən şüalarda fotoşəkilçəkmə

Rənglərin fərqləndirmə ilə şəkilçəkmə. Şəkilçəkmənin bü növü tədqiq olunan obyektin müəyyən hissəsinin rəng fərqlərini əmələ gətirmək lazım gəldikdə tətbiq edilir. Bu növ şəkilçəkmə gözlə görünə bilməyən, lakin fotoplastinkalardan aydın və dəqiq əks olunan rəng fərqlərini müəyyən etməyə imkan verir. Bizim gözümüz obyektin rəngini ətraf mühitin rəngi ilə birlikdə qəbul edir. Ona görə də insan gözü rəng bölgüsünü heç də tamamilə düzgün qəbul etmir.

Rəng bölgüsü zəif görünən mətni gücləndirmək zəruri olduqda, sənədlərə əlavələr edildiyini müəyyən etmək lazım gəldikdə, hər hansı bir rəngləyici ilə örtülmüş yazını oxumaq lazım olduqda tətbiq edilir. Bu zaman şəkilçəkmə işıq süzgəcləri vasitəsi ilə aparılır. İşıq süzgəci obyektivə keçirilir. Şəkilçəkmdə istifadə olunun işıq süzgəcinin rəngi obyektivin ayrılan rənglərindən birinə maksimum dərəcədə uyğun gəlməlidir. Əgər sarı kağız üzərində göy mürəkkəblə yazılmış sənədin şəklini çəkmək lazım gələrsə, rəng kontrastını gücləndirmək üçün şəkil çəkməni sarı işıq süzgəci vasitəsilə aparmaq, ona görə ki, sarı işıq süzgəcləri göy rəngli şüaları saxlayır, fondan əks olunan şüaları isə barıxır. Göy cizgilərdən gələn şüalar işıq süzgəci ilə qovuşur və onların əksi neqativ materialda şəffaf olur; pozit materialda isə işıqlı fonda məntnin qara əksi alınır. Rəngli hissələrin əks olunmasını zəiflətmək üçün həmin hissələrlə eyni rəngdə olan işıq süzgücindən istifadə etmək lazımdır. Hər hansı rəngi ayırmaq və gücləndirmək üçün məhz həmin rəngdən olan şüaları özünə hopdura bilən işıq süzgəcləri tətbiq edilir. Lakin arzu olunan səmərəli nəticəni almaq üçün hər hansı şüanın qarşısını almaq, onu saxlamaq kifayət deyildir; bununla bərabər, işıq

MUHASIBAT.AZ

süzgəcindən buraxılan şüalara həssas olan neqativ materiallardan da istifadə etmək lazımdır.

Kontrast şəkilçəkmə. Obyektlərin kontrastlığını artırmaq zərurəti ortaya çıxdıqda şəkilçəkmənin bu növündən istifadə olunur. Bu, sənədlərdəki görünməyən və ya zəif görünən mətnləri aşkar etməyə imkan verir. Şəkilçəkmənin üsullarına işıqlı kontrastlar aiddir; mətnin relyef səthini relyefin hissələrindən ayıran kontrast da buraya aiddir. Əksin kontrastlığını dəyişmək üçün kontrast işləyən aşkarlayıcılarla hazırlanmış kontrast fotomaterillar tətbiq edilir.

Zəif görünən hissələrin şəklini çəkərkən əksin düzgün alınması üçün əsas şərait şəkli çəkilən obyektivin işıqlandırılmasıdır. İşığın vsitəsi ilə relyefin zəif hiss olunan fərqləri işıqların fərqinə işıqların fərqinə çevrilir və necə deyərlər, gölgə kontrastı alınır. Konstrastı gücləndirmək üçün isə bərabər əksin kontrastını onun çoxlu təkrarı yolu ilə - kontratipikləşdirmə qaydası ilə artırmaq mümkündür. Bu üsulla şəkilçəkmə alınmış neqativ pozitivə əks olunur; ondan isə ardıcıl olaraq bir neçə neqativ, daha sonra isə pozitiv alınır; bu proses kifayət dərəcədə kontarstlıq alınana qədər davam etdirilir. Sonuncu neqativdən fotokağız üzərində pozitiv hazırlanır.

Mikrofotoşəkilçəkmə. Şəkilçəkmənin bu növü gözlə çətin görünən və ya görünməyən çox kiçik izlərin və digər obyektlərin tədqiqatı zamanı tətbiq edilir. Mikro fotoşəkil çəkmənin obyektlərinə maddi sübut olan sənədlər, tük, tozlar və s. daxildir. Mikro fotoşəkil çəkmənin iki növünü fərqləndirmək olar: a) xüsusi mikro fotoobyektivlə təhciz olunmuş (fokus məsafəsi 10 mm-dən 120 mm-ə qədər) mikrokamera vasitəsi ilə şəkilçəkmə; b) mikroskop vasitəsi ilə şəkil çəkmə.

Birinci üsulla şəkil çəkmə adi fotoapartlar vasitəsi ilə aparılır. Birinci üsul o qədər də çox böyütmə lazım gəlmədikdə (30 dəfəyə qədər böyütmə) tətbiq edilir. Əgər şəkli çəkilən obyekti çox böyütmək lazım gələrsə, onda şəkilçəkmə mikroskopa birləşdirilmiş fotokamera vasitəsi ilə aparılır. Kriminalistik fotokamera vasitəsi ilə aparılır. Kriminalistik məqsədlərlə işıqlandırıcıları olan şaquli fotokameralar (FMN-2, FMN-3) tətbiq olunur. Bundan əlavə, mikrofotonasadkalar vasitəsi ilə adi mikroskopla şəkil çəkmək olar.

Mikro fotoşəkilçəkmədə işıqlanma mühüm əhəmiyyət kəsb edir; burada işıqlanma güclü və bərabər olmalıdır. Şəkli çəkilən obyektin xüsusiyyətlərindən və şəkil çəkmənin məqsədlərindən asılı olaraq mikro fotoşəkilçəkmə əks olunan və ya keçici işıqlanmada aparıla bilər.

Bəzi mikro fotokameralar mikroskopla birləşib vahid tam təşkil edir. Məsələn, MFN-1, MFN-3.

Təcrübədə kriminalistik tədqiqatlar zamanı əksər hallar müqayisəedici mikroskoplar MİS-10 və MS-51 tətbiq olunur . Onlar işıqlandırma qurğusu iki mikroskopdan ibarətdir və bir görnüşdə iki obyekti müşahidə etməyə imkan verir. Müqayisəedici mikroskoplardan çox vaxt güllə və gilizlər üzərindəki izlərin tədqiqi zamanı istifadə edilir.

Müqayisəedici mikro fotoşəkliçəkmə zamanı elə etmək lazımdır ki, şəkli çəkilən obyektlər eyni vəziyyətdə olsun və bərabər surətdə işıqlandırılsın. Şəkilçəkmə vaxtı eyni masştabın gözlənilməsi də vacibdir.

Görünməyən şüalarda fotoşəkilçəkmənin üsulları

MUHASIBAT.AZ

Ultrabənövşəyi şüalarda şəkilçəkmə. Elektromaqnit sahəsi spektrinin görünən hissəsi hüdudlarından kənarda olan ultrabənövşəyi şüalar və əks etmə zamanfı gözlə görünməyən hissələr aşkara çıxara bilmək xassəsinə malikdir.

Ultrabənövşəyi şüalarla fotoşəkilçəkmə həmin şüalarla əks olunma şəraitdə, habelə lüminesensiya işığında həyata keçirilir. Çox zaman ultrabənövşəyi şüaların mənbəyi kimi civə-kvars lampalardan istifadə edilir. Keçici ultrabənövşəyi şüalarla fotoşəkil çəmə zamanı fotoaparatın obyektivində ultrabənövşəyi süzgəc - UFS-1, UFS-2 yerləşdirilir; şəkli çəkilən obyekt isə işıq süzgəci olmadan xüsusi lampalar vasitəsi ilə işıqlandırılır. Ultrabənövşəyi şüalarla fotoşəkilçəkmə də adi foto materillarla aparılır (diapozitvlər, plastinkalar, plyonkalar, “pozitiv”, “mikrat” və s.).

Fotoşəkilçəkmədə lüminessensiyada ona görə istifadə olunur ki, bu zaman şəkli çəkilən obyektin ultrabənövşəyi şüalarla işıqlandırılması xeyli asanlaşır. Bu, adi işıqda müşahidə zamanı xarici əlamətlərinə görə eyni görünən materialları fərqləndirməyə imkan verir. Kimyəvi tərkibinin müxtəlifliyi ilə əlaqədar olaraq bütün kağızlar eyni cür lüminessensiyalaşır. Bəzən oxşar boyayıcılar da lüminessensiyanı eyni cür qəbul etmir. Bu üsul sənədlərdə mətnin görünməyən mürəkkəblə yazıldığını, sənədin pozulmasını, habelə sənədin saxtalaşdırılması faktını müəyyən etməyə imkan verir.

İnfraqırmızı şüalarla şəkilçəkmə. İnfraqırmızı şüalar gözə görünmür. Onlar görünən qırmızı şüalar sahəsinin sərhədində olur. Spektrdə infraqırmızı şüalar təqribən 750 mmk uzun işıq dalğası yerini tutur. Kriminalistik tədqiqatlarda maddi sübutların infraqırmızı şüalar altında tədqiq olunması yaxşı nəticələr verir. Bu həmin şüaların müxtəlif əks etdirmə və hopdurma xassəsinə malik olması ilə əlaqədardır. İnfraqırmızı şüalar nazik anilin boyağı qatını, qalın kağızı, qan ləkəsini keçə bilir, lakin tuş, mətbəə rəngi və qrafit həmin şüaları uda bilir. İnfraqırmızı şüalar tətbiq etməklə sənədlərə əlavələr edilməsini müəyyən etmək, karandaşla və mətbəə boyası ilə rənglənmiş kağızdakı yazını oxumaq, rənglə xətt çəkilməsini, habelə yaxın məsafədən olan atəşin izlərini aşkar etmək mümkündür. İnfraqırmızı şüalarda aparılan tədqiqatın nəticələri fotoşəkillərdə əks etdirilir. Bu halda şəkilçəkmə korpusu infraqırmızı şüalar keçirməyən fotoaparatlar vasitəsi ilə aparılır. Şəkli çəkilən obyekt elə işıq mənbəyi ilə işıqlandırılmalıdır ki, onun spektrində infraqırmızı şüalar çox olsun. Şəkilçəkmə zamanı fotoaparatın obyektivinə infraqırmızı işıq süzgəci geydirilir: plastinka və ya plyonkanın növündən asılı olaraq obyektivə qırmızı və ya infraqırmızı işıq süzgəcləri taxılır (KS-18, KS-19, İKS-1, İKS-2). Şəkil çəkmə “infra-xrom” fotoplastinkasından və ya fotolentindən istifadə etməklə aparılır. Fokus məsafəsi görünən şüalar şəraitində müəyyən edilir. Şəkilçəkmədən əvvəl fokus məsafəsi bir qədər böyüdülür. Fotomateriallarla iş tam qaranlıq şəraitində aparılmalıdır.

Rentgen şüaları ilə şəkilçəkmə. Rentgen şüaları aşağıdakı xassələrə malikdir: adi işıq şüalarını buraxmayan insan bədəni və predmetlərdən keçmək; bir sıra kimyəvi birləşmələri özündə cəmləşdirmək; işığa həssas materillarla foto əksetmə tə`siri göstərmək. Şəkilçəkmənin bu növü odlu silahın, döyüş ləvazimatının, qıfılın və s. daxili quruluşu, habelə onların hissələrinin vəziyyətin müəyyən etmək üçün, güllənin giriş və çıxış yollarını, görünməyən yazıları müəyyənləşdirməkdən ötrü və s. tətbiq olunur. Rentgen şüaları ilə şəkilçəkmə fotolent üzərində obyektdən keçən həmin şüaların əmələ gətirdiyi kölgənin əksini almaqdan ibarətdir. Şəkli çəkilən obyektin xüsusiyyətlərindən asılı olaraq yumşaq rentgen şüalarından (PUM-7) və yaxud möhkəm rentgen şüalarından (RUN-4) istifadə

MUHASIBAT.AZ

olunur. Şəkilçəkmə xüsusi rentgen plyonkalarında (RT-1, RT-2, RM-1, RM-6) və yaxud adi neqativ materiallarda aparılır.

## 7.Kriminalistik fotoqrafiyanın, video və səsyazmanın tətbiqinin nəticələrinin prosessual qaydada rəsmiləşdirilməsi

Kriminalistik fotoqrafiyanın, video və səsyazmanın istintaqın gedişində tətbiqi o zaman sübuti əhəmiyyətə malik olur ki, o, prosessual və texniki cəhətdən lazımi qaydada sənədləşdirilsin. Sənədləşdirmənin prosessual aspekti CPM ilə nizamlanır, texniki aspekti isə təcrübədə işlənib hazırlanmışdır.

Fotoşəkilçəkmə tətbiq edilən istintaq hərəkətlərinin protokollarda aşağıdakılar öz əksini tapmalıdır:

a) şəkli çəkilən obyektlər;

b) tətbiq edilən fotoqrafiya vasitələri (aparatın tipi, obyektivin növü, fotolentin növü və s.);

c) fotoşəkilçəkmənin şəraiti, metodları, vaxtı, hadisə yerinin planında və sxemində göstərilməklə şəkilçəkmə nöqtələri;

ç) zəruri olduqda, əldə edilmiş nəticələr.

İstintaq hərəkətlərinin protokolunda əlavə edilən fotoşəkillər qalın kağız və ya nazik karton üzərinə yapışqanla yapışdırılaraq fotocədvəllər formasında sənədləşdirilir. Fotocədvəllərin baş tərəfində onların hansı istintaq hərəkətlərinə aid olması və hansı tarixdə çəkildiyi göstərilir. Möhürünün əksinin yarısı şəklin, yarısı isə fotocədvəlin kağızının üzərinə düşməklə hər bir fotoşəkil möhürlənir. Hər bir şəklin altında onun sıra nömrəsi və qısa izahedici yazı olur. Fotocədvəllərin hər birində müstəntiqin və kriminalist-mütəxəssisin (əgər şəkli o çəkibsə) imzası qoyulur.

Ekspert-kriminalistlər tərəfindən kriminalistik ekspertizasının keçirilməsi prosesində hazırlanmış fotoşəkillər fotocədvəllər formasında olan xüsusi blankda rəsmiləşdirilir, hər bir fotoşəklin altında izahat yazılır. Şəkildəki daha xarakterik əlamətlər xüsusi oxlarla işarə edilir. Hər bir şəkil ekspert müəssisənin möhürü ilə təsdiq edilir və bu haqda tərtib edilmiş cədvəllərlə imza edir.

Protokola və fotocədvəllərə çəkilmiş şəkillərin neqativləri paketə qoyularaq (üzərində hansı istinaq hərəkəti zamanı çəkilməsi, tarixi və sayı göstərilməklə) əlavə edilir.

İstintaq hərəkətləri zamanı çəkilmiş kinofilmlər izahedici diktor mətni və yaxud yazı ilə müşayiət edilməlidirlər.

Dindirmənin, istintaq ekspermentinin, ifadənin yerində yoxlanılması və digər istintaq hərəkətlərinin videoyazısı həmin hərəkətləri əvvəldən axıra qədər əks etdirilməlidir. Həmin videoyazılar üç hissədən: giriş, təsviri və nəticədən ibarət olur.

Giriş hissəsində istintaqı aparan müstəntiqin adı, soyadı, vəzifəsi, istintaq hərəkətinin hansı cinayət işi ilə bağlı həyata keçirilməsi, onun vaxtı və yeri, iştirakçılara onların hüquq və vəzifələrini izah edilməsi və cinayət-prossesual qanunu ilə nəzərdə tutulan digər hərəkətlərin həyata keçirilməsi əks etdirilir.

Videofilmin təsviri hissəsində sinxron səsyazma ilə müşayiət edilən istintaq hərəkətinin gedişi əks etdirilir.

MUHASIBAT.AZ

Videofilmin nəticə hissəsi giriş və təsviri hissələr iştirakçılar nümayiş etdirildikdən sonra çəkilir. Orta və böyük planla çəkilmiş kadrlarda iştirakçıların çəkilişin istintaq hərəkətinin gedişinə və nəticələrinə uyğun olub-olmaması barədə müstəntqin suallarına cavabları əks etdirilir. Film müstəntiqin istintaq hərəkətinin başa çatması vaxtını iştirakçılara xəbər verməsi ilə başa çatır.

Səsyazmanın tətbiqi də eyni qayda ilə sənədləşdirilir.

Kino və videofilmlər, maqnitafonda yazılmış səsyazma lentləri möhkəm qutulara qablaşdırılır və onların üzərində hansı cinayət işinə aid olması qeyd edilir.

Kriminalistik video və səsyazma. Kriminalistik videoyazmadan ən çox hadisə yerinin mürəkkəb və rəngarəng şəraitinin qeyd etmək zərurəti yarandıqda istintaq hərəkətləri həyata keçirilən zaman istifadə olunur. Videoyazı vasitəsi ilə hadisə yerində ayrı-ayrı predmetlərin və izlərin qarşılıqlı əlaqəsini göstərmək, bu və ya digər istintaq hərəkətinin həyata keçirilməsini, əlavə prosesləri, məsələn, mexaniki hərəkəti, müəyyən hadisənin inkişafınını, gedişini, mexanizmini əks etdirmək mümkündür.

Videoyazı səsi və surəti eyni zamanda sinxron olaraq maqnit lentində qeyd edir və çəkilişin keyfiyyətinə əyani olaraq nəzarət etməyə imkan verir.

Kriminalistik videoyazının adi çəkilişdən spesifik fərqi onun qarşısında duran vəzifələrin və tətbiq etdiyi metodları xüsusiyyətləri və videoyazının şəraitin obyektiv təsviri prinsipinə mane olan quraşdırılmış və s. metodlardan istifadə etməklə əvvəlcədən hazırlanmış plan üzrə həyata keçirilməsinin qeyri-mümkünlyü ilə bağlıdır. Videoyazıdan əsasən istintaq ekspriment, axtarış, hadisə yerinin müayinəsi, dindirmə və üzləşdirmə, həmçinin tanınma üçün təqdim etmə və ifadənin yerində yoxlanması zamanı istifadə edilir.

Videoyazının həyata keçirilməsi ardıcıllığı istintaq hərəkətinin aparılma ardıcıllığı ilə müəyyən edilir. Bununla yanaşı kriminalistik videoyazından istifadə edilərkən istiqamətləndirici (səmtəalma), icmal, mərkəz və müfəssəl çəkiliş metodları da nəzərə alınmalıdır.

Videoyazı tətbiq edilərkən əksedici fotoşəkilçəkmə metodlarından istifadə olunur.

Videoyazının ümumi metodlarının seçilməsi əsasən fotoşəkilçəkmə zamanı mövcud olan faktorlarla müəyyənləşir. Xüsusi üsullar isə tətbiq edilən əksetdirmə metodunun vəzifə və xüsusiyyətlərindən asılı olaraq seçilir. Məsələn, çoxkameralı videoyazı təkrar olunmayan hadisələrin, hərəkətlərin (yanğın zamanı hadisə yerinə baxışın) çəkilməsi üçün məqsədəuyğundur.

Kriminalistik səsyazma. İbtidai istintaqda səsyazmanın tətbiq edilməsinin əsas məqsədi istintaq hərəkətlərinin gedişinin əlavə olaraq səsyazma - əyani qeyd etmə vasitəsi ilə tə`min etməkdən ibarətdir. Bu əsasən dindirmə, üzləşdirmə, tanınma üçün təqdim etmə, ifadənin yerində yoxlanılması kimi istintaq hərəkətlərinin gedişində tətbiq edilir. Bu hərəkətlərin həyata keçirilməsi taktikasında hansı istintaq şəraitlərində səsyazmadan köməkçi qeyd etmə vasitəsi kimi istifadə olunması öz əksini tapmışdır.

İstintaq hərəkətlərinin gedişinin səsləndirmək məqsədi ilə tətbiq edilən səsyazma üsulları əsasən onun kriminalistika tərəfindən işlənmiş qaydaları ardıcıllıqla, prosessual tələblərə uyğun olaraq (məsələn, iştirakçılara səsyazmada istifadə ediləcəyi barədə əvvəlcədən xəbardarlıq etmə) istifadə edilməsindən ibarətdir. Bununla yanaşı, kriminalistik tövsiyələr içərisində texniki xarakterli tələlərə də (məsələn, səsyazma aparılan yerin

MUHASIBAT.AZ

mümkün qədər səs-küysüz olması, mikrofonların qoyulması və s.) riayət olunması mühüm əhəmiyyət kəsb edir.

## MÖVZU 8. TRASOLOGİYA

**P L A N**

1. Trasologiyanın anlayışı və vəzifələrii
2. İzlərin yaranma mexanizmi və təsnifatı
3. İzlərin qeyd edilməsi və götürülməsinin ümumi qaydaları
4. Əl izləri

MUHASIBAT.AZ

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

6.Баев О.Я. Основы криминалистики. М.: Экзамен, 2003.

7.Трасология. Справочник криминалиста. Т. 1. Гомеоскопия; Т. 2. Механоскопия. Волгоград, 1997.

8.Майлис Н.П. Судебно-трасологическая экспертиза.М., 2000.

9.Майлис Н.П. Руководство по трасологической экспертизе. М., 2007.

10.Трасология и трасологическая экспертиза. М., 2002.

Cinayətlər edilərkən bir qayda olaraq cinayət yerində və cinayətin edilməsi ilə əlaqədar digər yerlərdə əksər hallarda cinayətkarı və onun hərəkətini xarakterizə edən müxtəlif xarakterli dəyişikliklər əmələ gəlir. Kriminalistikada iz məfhumu altında cinayət edilməsi ilə əlaqədar əmələ gələn maddi dəyişikliklər başa düşülür. Məsələn, xarici təsir nəticəsində ayrı-ayrı predmetlərin vəziyyətində, yaxud predmetin səthində dəyişiklərin əmələ gəlməsi və s. Lakin kriminalistikada bir obyektin xarici qurluşunun başqa bir obyektdə maddi əksi şəklində ifadə olunması kimi əmələ gələn izlərə misal əl-barmaq və ayaq izlərini, nəqliyyat vasitələri və sındırma aləti izlərini və s. göstərmək olar.

Cinayətlərin istintaqı və qarşısının alınmasında göstərilən izlərin aşkar edilməsi və tədqiq edilməsinin böyük təcrübi əhəmiyyəti vardır. İstintaq təcrübəsi göstərir ki, cinayət zamanı yaranan izlərin tədqiq edilməsi nəticəsində cinayətin kim, yaxud kimlər tərəfindən edilməsi, necə edilməsi, cinayətkarın şəxsiyyətini xarakterizə edən və cinayət işinin istintaqı üçün böyük əhəmiyyət kəsb edən sair hallar haqqında müxtəlif xarakterli məlumatlar əldə etmək mümkündür. Cinayət yerində aşkar edilən izlər vasitəsi ilə izin kim tərəfindən, yaxud bilavasitə hansı predmetdən qoyulmasını müəyyən etməklə yanaşı, bu izlərin yerləşməsinə və xarakterinə görə cinayətkarın cinsi, yaşı, fiziki qüvvəsi, onun boyu, ixtisası, bəzən fiziki çatışmamazlıqları və s. məsələlər barədə də məlumtlar əldə edilir. Məsələn, barmaq izləri üzrə bu izin təxminən kim tərəfindən - az yaşlı və ya həddi buluğa çatmıqş şəxs tərəfindən qoyulması, bəzi hallarda isə belə izlər vasitəsi ilə şəxsin bütün barmaqlarının olması, yaxud onun barmaqlarında hər-hansı bir qüsur olub-olmamasını müəyyən etmək mümkün olur. Bəzən ayaqqabı izi şəxsin cinsini və təxminən yaşını göstərməklə ayaqqabının növünü, formasını, ölçüsün və onun digər xüsusiyyətlərini təyin etməyə imkan verir. Beləliklə, izlərdə cinayətkarın hadisə yerində hərəkəti haqqında və izi qoymuş obyektlər haqqında qiymətli məlumatlar əks olunur ki, bu da həmin izlər üzrə bacarıqla işləməyi və bunlardan düzgün nəticə çıxarmağı tələb edir.

MUHASIBAT.AZ

İzlər üzrə istintaqı aparılan cinayət hadisəsinin hallarının müəyyən edilməsi və izi qoyan obyektlərin eyniləşdirilməsi vəzifəsi həmin izlərin aşkar edilməsini, qeyd edilməsini, götürülməsini və tədqiq edilməsini tələb edir. Lakin cinayətin edilməsi ilə əlaqədar əmələ gələn izlərin müxtəlif xarakterli və müxtəlif növlü olması bunların aşkar edilməsi, qeyd olunması, götürülməsi və tədqiq edilməsini bir vəzifə kimi qarşıya qoyur. Bu baxımdan cinayətlərin istintaqı və qarşısının alınmasında trasologiyanın böyük əhəmiyyəti vardır.

Kriminalistika texnikasının mühüm sahələrindən bir olan trasologiya məhkəmə sübutlarını əldə etmək məqsədi ilə təbii və texniki elmlərin nailliyyətlərindən istifadə edərək izlərin aşkar edilməsi, qeyd edilməsi, götürülməsi və tədqiq edilməsini elmi-texniki üsul və vasitələri müəyyən edir.[1]

Trasologiyada hər hansı bir predmetin xarici quruluşunu özündə əks etdirən az sübut əhəmiyyəti kəsb edən izlərdən və həmin izlər üzərində işlənmənin elmi-texniki üsul və vasitələrindən bəhs olunur.

Trasologiyanın müəyyən etdiyi elmi-texniki üsul və vasitələrdən kriminalistika texnikasının digər sahələrində aparılan tədqiqatlarda, xüsusilə məhkəmə ballistikasında sənədlərin texniki kriminalistik tədqiqatı zamanı da istifadə olunur.

Trasologiya aşağıdakı elmi müddəalara əsaslanır:

A. Bizi əhatə edən maddi aləmin hər bir obyekti fərdidir. Həmin obyektlərin xarici qurluşları da fərdi xarakter daşıyır. Məhz elə bu vəziyyət obyektlərin xarici quruluşunun əksləri üzrə həmin əksi qoyan, yəni izi qoyan obyektin müəyyən edilməsində eyniləşdirmə aparmağa əsas verir.

Trasologiyada obyektin xarici quruluşu dedikdə, onun forması, ölçüsü və səthinin quruluşu başa düşülür. Eyni növ, yaxud eyni cins obyektlərin forması və ölçüsü bir-birinə uyğun gələ bilər. Obyektin formasını, ölçüsünü və buna oxşar sair halları müəyyən etməyə imkan verən əlamətlər əsasən onun xarici quruluşunu xarakterizə etdiyi üçün belə əlamətlərə ümumi əlamətlər deyilir. Lakin hər bir obyekt onu həmin növ, yaxud həmin cins obyektlərdən fərqləndirən yalnız özünə məxsus olan bir sıra əlamətlərə də malikdir. Belə əlamətlər isə fərdi əlamətlər adlanır.

Fərdi əlamətlər bir qayda olaraq obyektin xarici səthinin mikro quruluşunun xüsusiyyətlərində ifadə olunur. Obyektlərin xarici səthinin mikro quruluşunda olan ayrı-ayrı xüsusiyyətlər, onların forması, ölçüsü və yerləşməsini öz məcmuu e`tibarı ilə həmin obyekti fərdiləşdirir.

B. Maddi aləmin bütün obyektləri müəyyən şəraitdə özünün xarici quruluşunun əksini (izini) başqa predmetlərdə qoyma qabiliyyətinə malikdir. Belə əkslərdə (izlərdə) nəinki obyektin forması, ölçüsü, bir çox hallarda isə onun xarici səthinin mikro quruluşunun xüsusiyyətləri də qalır. İzlər üzrə obyektin eyniləşdirilməsinin mümkünlüyü, həmin obyektin xarici səthinin quruluşunun xüsusiyyətlərinin onun buraxdığı izdə nə dərəcədə əks olunmasından çox asılıdır. İzlər müxtəlif şəraitdə əmələ gələ bilər. İzin əmələ gəlmə şəraitindən və mexanizmindən asılı olaraq izi qoyan obyektin xarici səthinin xüsusiyyətləri müxtəlif keyfiyyətlə izdə əks olunur. Obyektin xarici səthinin quruluşunun xüsusiyyətlərinin izdə əks olunma qabiliyyətinə malik olmaması həmin obyektin eyniləşdirilməsini aradan qaldırır. Məsələn, mayelərin xarici quruluşu sabit olmadığı üçün bunların buraxdığı əkslər üzrə eyniləşdirmə aparmaq mümkün olmur. Məhz elə bu səbəbdən trasoloji tədqiqatların

---

[1] "Trasologiya" fransızca "trace" - iz, yunanca "logos" - təlim sözlərindən götürülmüşdür.

MUHASIBAT.AZ

yalnız bərk cisimlər - obyektlər ola bilər. Adətən, belə cisimlərdə iz əmələ gəldikdən sonra iz qoyan obyektin əlamətələri və eləcə də əks olunan əlamətlər müəyyən müddət nisbətən dəyişməz qalır. Bərk cisimlərin - obyektlərin xarici səthinin quruluşu nisbi davamlı olub, iz əmələ gəldikdən sonra çox az dyişikliyə mə`ruz qalır. Trasoloji eyniləşdirmənin obyektlərinin bərklik dərəcəsi nisbi xarakteri daşıyır və bu izin əmələ gəlmə şəraiti ilə müəyyən edilir. İz qoyan obyekt o dərəcədə bərk olmalıdır ki, əksini iz düşən obyektin səthinə köçürərkən özünün fərdi əlamətlərini dəyişmədən izdə düzgün əks etdirə bilsin. Bu baxımdan üzərinə iz düşən obyektin bərklik dərəcəsi izi qoyan obyektin bərklik dərəcəsindən daha az ola bilər. Məsələn, yumşaq torpaqda ayaq, yaxud nəqliyyat vasitələri izləri qaldırdıqda və s.

**2. İzlərin yaranma mexanizmi və təsnifatı**

İzlərin bilavasitə əmələ gəlməsində bilavasitə iki obyekt iştirak edir: a) izin qoyan obyekt; c) üzərinə iz düşən obyekt.

Öz xarici səthnin quruluşunu başqa səthə köçürən obyektə izi qoyan obyekt, səthinə iz düşən obektə isə üzərinə iz düşə obyekt deyilir. İz, iz qoyan obyektlə iz qəbuledici obyektin bir-biri ilə təmasda olmaları nəticəsində əmələ gəlir. İz əmələ gələn zaman obyektlərin təmasda olduqları sahə toxunma səthi adlanır.

İzlər həmişə üzərinə iz düşən obyektin dəyişikliyə uğraması nəticəsində əmələ gəlir. Trasoloji izlər əmələ gəlmə xarakterinə uyğun olaraq qruplara bölünür. İzi bu və ya digər qrupa aid etmək üçün onların həcmi və ya səthi, dinamik, yaxud statik, yerli və periferik izlər olmasını nəzərə almaq lazımdır.

İzlərin böyük əksəriyyəti iz əmələ gətirən obyektlərin biri digərinə, yaxud bir-birinə fəal tə`sir nəticəsində əmələ gəlir. Bu tə`sir xüsusiyyətlərinə əsasən izlər şərti olaraq statik və dinamik izlərə bölünür.

Statik izlər iki obyekt - izi qoyan və üzərinə iz düşən obyekt təmasda olduğu anda hərəkətdə olmadıqda, yə`ni həmin anda hərəkətin kəsildiyi hallarda əmələ gəlir. Adətən, statik izlərdə onu qoyan obyektin təmasda olan hissəsinin bütün xüsusiyyətləri təhrif olunmadan əks olunur. İzdən onu qoyan obyektin formasını və ölçüsünü müəyyən etmək mümkün olur. Belə izlərdə onu qoyan obyektin xarici səthinin xüsusi, əlamətləri əsasən ciddi təhrif olunmadan əks olunduğu üçün eyniləşdirmənin aparılması asanlaşır. Statik izlərə misal olaraq fərdi hamar səthlərdə qalan əl - barmaq izlərini, torpaqda qalan ayaqqabı izlərini və s. göstərmək olar.

İzin əmələ gəlməsində iştirak edən obyektlərin hər ikisini, yaxud birinini hərəkətdə olması prosesində əmələ gələn izlərə dinamik izlər deyilir. Dinamik izlərə sürüşmə, kəsmə və cızma nəticəsində əmələ gələn izləri aid etmək olar. Dinamik izlərdə izi qoyan obyektin xarici səthinin xüsusiyyətləri ciddi təhrif olunmuş şəkildə - xətlər şəklində əks olunur. Bu səbəbdən eyniləşdirmə aparmaq üçün dinamik izlər statik izlərə nisbətən az keyfiyyətli olur. Həmin izlərə görə izi qoyan obyektin formasını, ölçüsünü nadir hallarda tə`yin etmək mümkün olur. Lakin bu həmin izlər üzrə eyniləşdirmə aparmağı aradan qaldırmır.

Üzərinə iz düşən obyektin forması və həcminin dəyişməsi ilə əlaqədar olaraq əmələ gələn izlərə həcmi izlər deyilir. Həmin izlər üzərinə iz düşən obyektin iz düşən sahəsində həcm dəyişiklikləri əmələ gətirməklə yanaşı, izi qoyan obyektin xarici səthinin quruluşunun

MUHASIBAT.AZ

əlamətlərini də özündə əks etdirir və beləliklə, izi qoyan obyektin xarici səthinin quruluşunun əlamətləri haqqında daha tam mə`lumat əldə etməyi tə`min edir. Bu kimi əlamətlər iz qoyan obyektin qrup və bir çox hallarda isə onun fərdi mənsubiyyətini müəyyən etməyə imkan verir.

Həcmi izlər daha çoz üzərinə iz düşən obyektin xarici səthinin formasının plastik dəyişilməsi nəticəsində əmələ gəlir. Bu zaman üzərinə iz düşən obyekt öz formasını dəyişir və izi qoyan obyektin xarici səthinin qruluşuna müvafiq forma alır. Belə izlərə misal gilli torpaqda ayaqqabı, yaxud avtomaşın təkəri izlərini, yumşaq plasilində qalmış əl-barmaq izlərini və s. göstərmək olar.

Həcmi izlər üzərinə iz düşən obyektin qismən dağılması nəticəsində də əmələ gələ bilər. Dağılan sahə adətən izi qoyan obyektin xarici səthinin quruluşunu özündə əks etdirir. Belə izlərə küt alətlə zərbə vurma nəticəsind, yaxud bərk predmetin ağacdan sürüşməsi nəticəsində əmələ gələn izləri, habelə kəsmə və burğu izlərini aid etmək olar.

Həcmi izlərdən fərqli olaraq səthi izlərdə izi qoyan obyekt üzərində iz qalan obyektin səthində həcm dəyişiklikləri əmələ gətirməyib, özünün xarici əlamətlərini yalnız onun səthi üzərində buraxır. Belə izlər ya iz qoyan obyektin hissəciklərinin üzərinə iz düşən obyektin səthinə keçməsi ilə, ya da əksinə, üzərinə iz düşən obyektin hissəciklərinin izi qoyan obyektə köçürülməsi ilə əmələ gəlir. Buna müvafiq olaraq səthi izlər keçən və köçürülən izlərə bölünür.

Keçən səthi izlər iki yola yaranır:

a) izi qoyan obyektin özü yaratdığı izlər. Məsələn, əl-barmaq və yalın ayaq izləri. Belə izlər əl barmaqları kağıza, şüşəyə və digər əşyalara toxunarkən barmaqların dərisini örtən piy hissəciklərinin üzərinə iz düşən obyektə keçməsi nəticəsində əmələ gəlir.

b) izi qoyan obyektin bilavasitə özünün deyil, ona müvəqqəti olaraq yapışan digər hissəciklərin vasitəsi ilə yaranan izlər. Məsələn, əl barmaqları toza, təbaşirə və buna oxşar sair maddələrlə boyandıqda əmələ gələn izlər. Belə izlər əl barmaqlarının öz hissələrindən deyil, na müvəqqəti olaraq yapışan tozun, yaxud təbaşirin izi üzərinə iz düşən obyektin səthində əks etdirilməsi nəticəsində əmələ gəlir.

Köçürülən səthi izlərə misal olaraq təzə rənglənmiş və ya toz ilə örtülmüş əşyalar üzərində qalan əl-barmaq, yaxud ayaq izlərini göstərmək olar. Belə hallarda iz əşya səthində olan tozun və ya rəngin əl barmağını, yaxud ayaq altını əhatə edən sahəyə köçürülməsi nəticəsində yaranır.

Üzərinə iz düşən obyektin səthində izin əmələ gəlmə yerinə görə izlər yerli və periferik izlərə bölünür.

İzi qoyan obyektlə üzərinə iz düşən obyektin təmasda olduğu sahədə əmələ gələn izlərə yerli izlər (lokal) deyilir. Belə izlər bir qayda olaraq obyektlərin təmasda olduğu sahədə əmələ gəlir və onun hüdudlarından kənarda heç bir dəyişikliklər əmələ gəlmir. Məsələn, torpaqda qalan ayaq izləri, şəxs hər hansı predmetə toxunarkən onun səthində qoyduğu əl-barmaq izləri, yaxud sındırma aləti izləri və s.

İzi qoyan və üzərinə iz düşən obyektlərin təmasda olduqları sahənin hüdudlarından kənarda əmələ gələn izlərə periferik izlər deyilir. Məsələn, altı təmiz, lakin üzü tozla örtülmüş ayaqqabı izi qoyarkən onun üstündə olan toz silkələnərkən izi əhatə edən sahəyə səpələnir və periferik izlər əmələ gətirir. Təcrübədə izlərdən fərqli olaraq yerli izlərə daha çox rast gəlinir.

MUHASIBAT.AZ

### 3. İzlərin qeyd edilməsi və götürülməsinin ümumi qaydaları

Cinayət hadisəsi ilə əlaqədar əmələ gələn və işin istintaqı üçün əhəmiyyət kəsb edən hər bir izdən sübut kimi istifadə edilməsi cinayət prosessual qanunvericilikdə göstərilən prosessual qaydalara əməl etməklə yanaşı, həmin izlərin aşkar edilməsi, götürülməsi və qeyd edilməsinin üsul və vasitələrini müəyyən edən kriminalistika texnikasının müəyyən etdiyi texniki qaydalara riayət edilməsində tələb edir. İzlər üzərində işləmə mürəkkəb bir prosesdir. İzlərin növündən asılı olmayaraq onların üzərində müvəffəqiyyətlə işləməni tə`min etmək üçün aşağıdakı texniki qaydalara və tövsiyələrə əmələ edilməsi zəruridir.

1. Digər sübutlarda olduğu kimi izlərdən də bir sübut kimi istifadə etmək üçün onu ən əvvəl aşkar etmək lazımdır. Müstəntiq, yaxud təhqiqat aparan şəxs izlərin harada axtarılması məsələsini həll edərkən hidisə yerinin ümumi şəraitini və onun vəziyyətini rəhbər tutmalıdır. O, üzərinə iz düşə bilən obyektin keyfiyyətindən və izin əmələ gələ bilmə mexanizmindən asılı olaraq izin qala bilməsi güman edilən yerləri dəqiq müayinə etməlidir.

Müstəntiq izlərə baxış keçirərkən onların dinamik və ya statik, həcmi və ya səthi, yerli və ya periferik izlər olmasını, izin əmələ gəlmə mexanizmini, üzərinə iz düşən obyektin vəziyyətini, hansı materialdan olmasını və onun xassələrini, izin xarici formasını və ölçüsünü aydınlaşdırılmalıdır. Bu məlumatlar izin qeyd edilməsi və götürülməsi üçün daha məqsədə uyğun metodun və texniki vasitələrin seçilməsində müstəntiqə kömək edə bilər.

İzlərlə işin növbəti mərhələsi onların qeyd edilməsindən ibarətdir. Qeyd etmə vasitələri kimi fotoşəkilçəkmədən, çertyoj və sxemlərdən, əkslərin çıxarılmasından istifadə edilir.

2. İz aşkar edildikdən sonra onun fotoşəklini çəkmək lazımdır. İzlərin bu qeyd etmə üsulunu bütün hallarda izi götürməzdən əvvəl tətbiq etmək məsləhət görülür.

Trasoloji obyektlərin fotoşəkillərini stereoskopik və panoram fotoşəkilçəkmə metodu ilə çəkmək daha məqsədəuyğundur. Çünki göstərilən metodla çəkilən şəkillərdə çox miqdarda əlamətlər əks olunur və bu, iz haqqında əyani təsəvvür yaratmağa imkan verir.

Belə obyektlərin fotoşəkillərini böyük miqyasda çəkmək lazımdır.

Bəzən aşkar edilən izin, yaxud izlərin səthində müxtəlif səbəblərdən kənar şeylər qala bilər. İzin səthində tapılan, kənar şeylər istintaqı aparılan cinayət hadisəsinin ayrı-ayrı hallarının aydınlaşdırılmasında əhəmiyyət kəsb etdikdə, yaxud həmin kənar şeylərin bilavasitə izin üzərində tapılmasının əyani şəkildə qeyd edilməsi tələbi meydana çıxdıqda izin fotoşəkli iki dəfə sonra ən əvvəl izin tapıldığı vəziyyətdə sonra isə o kənar şeylərdən təmizlənməklə çəkilməlidir.

3. İzi aşkar edib fotoşəklini çəkdikdən sonra o, başqa üsullarla götürülür. İzlərin götürülməsinin və qeyd edilməsinin üsulları əsasən aşağıdakılardan ibarətdir:

a) izin üzərinə iz düşən predmetlə birlikdə, yaxud iz düşən sahəni predmetdən ayırmaqla (mişarlamaq, kəsmək və s.) götürülməsi;

b) bu mümkün olmadıqda, izin növündən asılı olaraq müəyyən edilmiş üsullardan birini tətbiq etməklə onun surətinin çıxarılması.

İzi üzərində olduğu predmetlə birlikdə, yaxud iz düşmən sahəni predmetdən ayırmaqla götürmək mümkün olmadıqda, izin növündən asılı olaraq (səthi, yaxud həcmi) onun surəti

MUHASIBAT.AZ

çıxarılmalıdır. Lakin səthi izlərdə izin surətinin alınması üsulları və götürülməsindən istifadə olunan materiallar həcmi izlərin surətinin alınmasının üsullarından və götürülməsində istifadə olunan materiallardan ciddi fərqlənir. İzin surətinin alınma üsullarının və bu zaman istifadə olunan materialların düzgün tətbiqi izin surətinin keyfiyyətli alınmasının tə`min etdiyi üçün, müstəntiq və ya təhqiqat aparan şəxs bunları dərindən bilməlidir. İzin surəti elə alınmalıdır ki, o, izin mühüm əlamətlərini olduğu kimi özündə əks etdirə bilsin. Yalnız göstərilən keyfiyyətdə alınan iz surətləri izi qoyan obyektin eyniləşdirilməsi üçün istifadə edilə bilər.

Səthin izlərin surətinin çıxarılması müxtəlif rəngli iz götürən plyonkaların vasitəsilə həyata keçirilir. Əksər hallarda əl barmaqlarının tər-piy izlərinin surətləri müxtəlif tozların vasitəsi ilə götürülür.

Həcmi izləri surəti gips, plastilin, "K-18" slikon pastasının və digər vasitələrin köməyi ilə hazırlanır.

4. İzi üzərinə iz düşən predmetlə birlikdə, yaxud iz düşən sahəni predmetdən ayırmaqla götürdükdən, yaxud da izi surətini aldıqdan sonra o, müəyyən edilmiş ümumi qaydalara riayət etməklə mükəmməl qablaşdırılmalıdır. Qablaşdırma təqribən aşağıdakı qaydada aparılmalıdır:

a) qablaşdırma möhkəm və davamlı olmlıdır. Üzərində iz qalan əşya möhkəm qutuyua qoyulmalıdır.

b) əşya qablaşdırılarkən onun tərpənməsinə xüsusi fikir verilməlidir. Bundan ötrü əşya qutuya möhkəm sarınmalı və yaxud arasına müvafiq yumşaq şeylər qoyulmalıdır.

c) üzərində iz qalan əşya ilə onun qoyulduğu qutu arasında boşluq olmalıdır ki, iz qutuya toxunub xarab olmasın.

5. Hadis yerindən götürülmüş izlərin prosessual qaydada rəsmiləşdirilməsi xüsusilə vacibdir. Müstəntiq hadisə yerinə baxış zamanı Azərbaycan Respublikası CPM-nin 236-cı maddəsinin tələblərinə müvafiq olaraq aşkar edilən bütün trasoloji obyektlərə mükəmməl baxış keçirməli və bunun nəticələrini protokolda qeyd etməlidir. Protokolda üzərində iz qalan əşyanın adı və onun təsviri, bu əşyanın tapıldığı yer, əşyanın səthində izini hansı qaydada yerləşməsi və onun təsviri, izin aşkar edilməsində və götürülməsində hansı üsullardan istifadə edilməsi, izin üzərinə iz düşən əşya ilə birlikdə götürülməsi və ya surətini çıxarılması, onun hansı qaydada qablaşdırılması və s. göstərilməlidir. Protokolda həm də izin əlamətləri (əgər bu mümkünsə) əks olunmalıdır.

## 4. Əl izləri

Cinayətlərin açılmasında və cinayətkarın ifşa olunmasında başqa izlərə nisbətən əl-barmaq izləri bir sıra üstünlüklərə malikdir. Əvvəla, əl-barmaq izlərinin əmələ gəlməsi həm də cinayətin növündən və onun törənməsi üsullarından asılı deyildir.

Cinayətkar cinayət edərkən əksər hallarda onu əhatə edən predmetlərə toxunaraq öz barmağının izlərini qoyur. Ayaq, sındırma aləti, nəqliyyat vasitələri və s. izlərdən fərqli olaraq əl-baraq izlərində şəxsiyyətin eyniləşdirilməsi üçün izi qoyan şəxsin barmağının xarici səthinin quruluşununu əlamətləri daha mükəmməl əks olunur. Bu isə öz növbəsində həmin izə əsasən onu qoyan şəxsin bilavsitə müəyyən edilməsinə və beləiklə də onun cinayət hadisəsi ilə nə kimi əlaqədə olması sualını aydınlaşdırmağa imkan verir. Əl-barmaq izlərinin

MUHASIBAT.AZ

başqa izlərdən üstünlüyü bir də onunla izah olunur ki, əl barmaqlarının axırıncı bölməsinin qoyduğu izlər cinayətkarın şəxsiyyətinin müəyyən edilməsində cinayət qeydiyyatı materiallarında istifadə edilir.

Əlin içinin dərisinin quruluşu və onun trasoloci xarakteristikası. İnsanın dərisi iki əsas təbəqədən (qatdan) dəriüstü (epidermis) və onun altı - dərinin özündən (derma) ibarətdir. Dərinin (dermanın) üst hissəsi məməcik qatı adlanır. Dərinin bu qatı sıra ilə yerləşən məməciklərdən ibarətdir. Dəriüstü təbəqə məməcik qatının xarici səthinin quruluşunu (relyefini) olduğu kimi özündə əks etdirməklə papilyar xətlər əmələ gətirir.

Papilyar xətlər - müəyyən naxış yaradan üzdə olan xətlərdir. Əl barmaqlarının papilyar naxışlarının başlıca xüsusiyyətləri onların əksinin bilavasitəliyindən, sabitliyindən, fərdliyindən və bərpa olunma xassəsinə malik olmasından ibarətdir.

Barmaq izlərinin bilavasitəliyi o deməkdir ki, izi qoymuş konkret şəxs predmetlə təmasda olmuşdur.

Papilyar xətlər və onların əmələ gətirdikləri papilyar naxışlar yüksək sabitlik dərəcəsinə malikdir. Doğrudur, hər bir maddi obyektin xarici səthinin quruluşu fərdi xarakter daşıyır. Lakin fərdiliyin ifadə olunma dərəcəsi obyektlərdə eyni deyildir. Bu baxımdan papilyar xətlərin naxışlarında onun xarici quruluşunun əlamətləri böyük miqdarda olmaqla daha aydın ifadə olunur. Həmin xətlər dərinin məməcik qatı kimi ana bətnində yaranır və insanın bütün həyatı boyu ciddi dəyişikliklərə uğramır. İnsan inkişaf edib yaşa dolduqca o, fizik mə`nada böyüdüyü kimi, onun barmaq papilyar xətləri də dəyişikliklərə mə`ruz qalır. Lakin həmin xətlərin miqdarı, nisbi yerləşməsi və onların formaları dəyişməz qalır. Papilyar xətlər yalnız insan öldükdən sonra meyidin çürüməsi ilə əlaqədar məhv olur. Məhz göstərilən səbəblərdən müxtəlif şəxslərin əl-barmaq papilyar naxışları müxtəlifdir. Bu naxışlar fərdi xarakter daşıyır.

Papilyar naxışlar fərdi xarakter daşımaqla yanaşı, həm də bərpa olunma qabiliyyətinə malikdirlər. Papilyar naxışlar dəyişməz qalır və müəyyən zədə və ya yara almış olsa da yenə də bu naxışlar şəxsiyyətin eyniləşdirilməsi üçün öz keyfiyyətini itirmir, çünki zədə və yara sağaldıqdan sonra onu əhatə edən sahədə olan naxışlar yenə əvvəlki vəziyyətini alır. Ona görə də bə`zi cinayətkarlar cinayətdə ifşa olunmasınlar deyə öz barmaq naxışlarını müxtəlif üsullarla silməyə cəhd etmələrinə baxmayaraq müəyyən müddət keçdikdən sonra bu naxışlar yenə də bərpa olunurlar.

Əl içinin hər hansı hissəsi tərəfindən qoyulan izlərə əsasən eyniləşdirmə mümkündür. Lakin təcrübədə ən çox insanın barmağının dırnaq tərəfinin (barmağın üçüncü bölməsinin) buraxdığı izlərdən istifadə olunur.

Əl barmağının dırnaq tərəfini əhatə edən dəriüstü papilyar naxışlar bir-birinin ardınca gələn papilyar xətlərdən yaranır. Papilyar xətlər əsasən üç qrupa bölünür: a) daxili xətlər; b) ətraf xətlər və v) özül xətləri.

Daxili xətlər müəyyən şəkil əmələ gətirən xətlərdir. Özül xətlər isə barmağın üçüncü bölməsinin büküldüyü yer ilə daxili xətlər arasındakı xətləri əhatə edir. Ətraf xətlərlə özül xətlərini əhatə edən sahəyə çərçivə xətləri deyilir. Həmin üç qrup xətlərin görüşdüyü yerə isə delta deyilir.

Əl barmağının üçüncü bölməsinin iç hissəsinin mərkəzini əhatə edən papilyar naxışlar əsasən üç növə bölünür. Bunlar qövsi, ilgəkvari və qıvrım naxışlardır.

MUHASIBAT.AZ

Əl barmaqlarının üçüncü bölməsinin iç hissəsinin mərkəzini əhatə edən papilyar xətlər qövsi şəkildə olduqda, belə papilyar naxışlara qövsi naxışlar deyilir. Adətən, qövsi naxışlarda papilyar xətlər barmağın bir tərəfindən başlayaraq mərkəzə doğru gedir və mərkəzə əyilərək barmağın başqa bir tərəfində qurtarır. Qövsi naxışlar sadə, piramidal və qeyri-müəyyən quruluşa malik olur. Bu naxışlara çox az təsadüf edilir və bütün naxışların təxminən 5% təşkil edir. Qövsi naxışlarda delta olmur.

Əl barmaqlarının üçüncü bölməsinin iç hissəsinin mərkəzini əhatə edən papilyar xətlər ilgək şəklində olduqda, belə naxışlara ilgəkvari naxışlar deyilir. Adətən, ilgəkvari papilyar naxışlar barmağın bir tərəfindən başlayıb mərkəzə doğru gedir və mərkəzdə əyilərək başladığı istiqamətə doğru qayıdır. Bir qayda olaraq ilgəkvari naxışlarda bir delta olur. İki deltalı ilgəkvarı naxışlara da təsadüf edilir.

İlgəyin istiqamətinə görə, yə`ni ilgəyin başlanğıc və bitmə nöqtələrinin istiqamətinə görə bu naxışlar radial və ulnar naxışlara bölünür. Əgər ilgək öz istiqamətini baş barmağa doğru yönəltmişsə, belə naxışlara radial naxışlar deyilir. İlgək öz istiqamətini çeçələ barmağa doğru yönəltdikdə isə belə naxışlara ulnar naxışlar deyilir. İlgəkvari naxışlar üfüqi, şaquli, maili, qarşılıqlı, paralel, yarımçıq, qapalı və s. şəkilli olur. İlgəkvari naxışlar qövsi və qıvrım naxışlardan fərqli olaraq daha çox yayılmış naxışlardır.

Əl barmaqlarının üçüncü bölməsinin iç hissəcinin mərkəzini əhatə edən papilyar xətlər qıvrım, dairə, oval şəkilli olduqda belə naxışlara qıvrım naxışlar deyilir. Qövsi və ilgəkvari naxışlardan fərqli olaraq qıvrım naxışlarda papilyar xətlərin mərkəzini təşkil edən naxışların quruluşu mürəkkəb şəkilli olur. Belə naxışlar papilyar xətlərin mərkəzində dairə, oval, ellips, spiral kimi şəkillər əmələ gətirir. Detallardan biri papilyar xətlərin mərkəzindən sağda, başqa birisi isə solda yerləşir. Qıvrım naxışlar bütün naxış növlərinin təxminən 30% təşkil edir.

Əl izlərinin aşkar edilməsi və qeyd edilməsi. Əl izlərindən cinayətkarların istintaqı zamanı bir sübut kimi istifadə edilməsini tə`min edən əsas şərtlərdən biri müstəntiqin və ya təhqiqat aparan şəxsin barmaq izlərinin əmələgəlmə prosesini və bunların aşkar edilmə və qeydolunma üsullarını nə səviyyədə bilməsindən asılıdır. Barmaq izləri öz əmələ gəlmə prosesinə görə səthi və həcmi olur. Üzərinə iz düşən əşyanın səthində həcm dəyişiklikləri əmələ gəldikdə həcmi izlər yaranır.

Həcmi əl-barmaq izlərini aşkar etmək üçün üzərində iz qalmış səth yandan işıqlandırılır və bu zaman papilyar naxışların kanalları hesabına gölgə kontractı əmələ gəlir və iz görünür.

Həcmi izlərdən fərqli olaraq səthi əl-barmaq izləri üzərinə iz düşən əşyalarda həcm dəyişiklikləri əmələ gətirmir, sadəcə olaraq onun səthində öz əksini buraxır.

Səthi izlər görünən, zəif görünən və görünməyən izlərə bölünür. Rəngli barmaq izləri, adətən görünən izlərdir. Bu izlər barmaqlar müxtəlif rəngli məhlula bulaşdıqda, çirkli olduqda üzərinə iz düşən predmetə toxunarkən onun səthində əmələ gəlir. Rəngli barmaq izlərinə çox vaxt adam öldürmə cinayətlərdə və sındırma vasitəsi ilə edilən oğurluqdan rast gəlmək olar.

Görünən barmaq izləri şəxsiyyətin eyniləşdirilməsi üçün bir çox hallarda az keyfiyyətli olur. Müxtəlif rəngli maddələr (qan, mürəkkəb, his və s.) bə`zən barmağın papilyar naxışlarına sıx yayılaraq şəxsiyyəti eyniləşdirməyə imkan verən xüsusi əlamətləri yox edir.

MUHASIBAT.AZ

Çox qatı rənglə boyanmış barmaqlar iz qoyarkən papilyar naxışların fərdi əlamətlərini örtür və bu əlamətlərdə bir sıra dəyişikliklər əmələ gətirir.

Rəngli və səthi toz ilə örtülmüş əşyalar üzərində də qalan barmaq izlərinin aşkar edilməsi xüsusi üsullardan istifadə edilməsini tələb etmir.

Görünən səthi barmaq izlərindən fərqli olaraq zəif görünən səthi izlər rəngsiz barmaq izləridir. Bu izlər barmaqlar hamar və parlaq əşyaların səthinə toxunarkən dəridə olan yağ və tər hissəciklərinin üzərinə iz düşən əşyanın səthinə keçməsi nəticəsində əmələ gəlir. Rəngsiz zəif görünən barmaq izləri şüşədə, parlaq səthi olan metallarda (pardaxlanmış, nikellənmiş, xromlanmış, gümüşlənmiş, qızılla tutulmuş metal əşyalarda və s.) çini, saxsı, plastik kütlədən hazırlanmış qablarda, pardaxlanmış və laklanmış taxtada, səthi rənglə örtülmüş şeylərdə qala bilər.

Qeyd etmək lazımdır ki, zəif görünən barmaq izlərinə təcrübədə daha çox təsadüf edilir. Bu izlər şəxsiyyətin eyniləşdirilməsində yaxşı nəticələr verir. Belə ki, zəif görünən barmaq izlərində papilyar naxışlar daha aydın əks olunur. Lakin zəif görünən barmaq izlərini aşkar etmək görünən barmaq izlərinə nisbətən çətinlik törədir. Odur ki, belə izlərin aşkar edilməsi üçün xüsusi kriminalistik üsullar tətbiq olunur.

Barmaq izlərinin növlərindən asılı olaraq onların aşkar edilməsi üsulları da müxtəlifdir.

Barmaq izlərinin tapılması və götürülməsi xüsusi kriminalistik üsullardan istifadə olunmasını tələb edir. bu izlərin axtarışında müstəntiq diqqətli olmalıdır. Çünki iz düşən predmetdə zəif əks olunan əl-barmaq izləri həmin predmetin rənginə uyğun gəldikdə bu izlər müstəntiqin diqqəsizliyi üzəndən aşkar edilməmiş qala bilər. Belə izlərin aşkar edilməsində böyüdücü şüşələrdən (zərrəbin - lupa) istifadə edilməli və bir sıra hallarda isə evin işığını söndürüb, fənər və ya şam vasitəsi ilə əşyanın səthi işıqlandırılmaqla izlər aşkar edilməlidir.

İzləri pozmamaq üçün üzərində iz olan şüşə barmaqlarla yan tərəflərdən, şüşə böyükdürsə, yenə də yan tərəflərdən, lakin iki əl ilə tutmaqla götürülməlidir. Qutunu, sandığı, yaxud yeşiyi künclərdən iki əl ilə, stəkanı isə bir əl ilə altdan, o biri əl ilə üst kənardan tutub götürmək lazımdır. Butulkanı bir əl ilə altdan, o biri əl ilə onun ağzından, elektrik lampasını isə patrona taxılan yerdən tutub götürmək məqsədə uyğundur. Bıçaq, tapança və sındırma alətləri yandan, iti yerlərindən tutulub götürülməlidir. Kağıza əl vurmaq məsləhət görülmür, onu ya rezin əlcək, ya da maqqaşla götürmək lazımdır.

Bütün hallarda, bir qayda olaraq qabaqcadan predmetə toxunmadan onu müayinə etmək, sonra isə həmin perdmeti cinayətkarın barmaq izi qala bilmədiyi ehtimal edilən yerlərdən tutub götürmək lazımdır.

Görünən və zəif görünən izlərdən fərqli olaraq görünməyən barmaq izlərinin aşkar edilməsində xüsusi tozlardan, yod buxarından və bu məqsədlə xüsusi hazırlanmış kimyəvi maddələrdən istifadə olunur.

Görünməyən izləri aşkar etmək üçün izin qalması ehtimal edilən səth toz ilə rənglənir və bunun nəticəsində iz aşkar olunur. Əşyaların səthindəki görünməyən barmaq izlərinin rəngləmə üsulları müxtəlifdir. Barmaq izlərinin aşkar edilməsində əsasən sülükəndən, mis oksidindən, sink oksidindən istifadə olunur.

Tozlama vsitəsi ilə izləri aşkara çıxarmaq ən geniş yayılmış üsullardan biridir.

İzi yaxşı aşkar etmək üçün tozun narın və quru olması tələb olunur. Şəffaf səth üzərinə səpələnən tozun rəngi üzərinə iz düşən səthin rəngindən tam fərqlənməlidir. Tünd və ya

MUHASIBAT.AZ

qara səth üzərindəki görünməyən izləri aşkar etmək üçün yuxarıda göstərilən tozlardan başqa, alüminium tozundan da istifadə olunur.

İzin qalması ehtimal edilən səthi tozlamaq və onda olan barmaq izini aşkar etmək məqsədi ilə yuşmaq fırçadan istifadə olunur.

Səthdə izin aşkar edilməsi üçün tozun səpələnməsi üsulunu düzgün tətbiq etməyin böyük əhəmiyyəti vardır.

Predmetin səthini tozlama prosesi iki hərəkətlə icra edilir: a) izin üzərinə tozun səpələnməsi və b) izin tozdan təmizlənməsi, yə`ni səth üzərində olan tozun kənar edilməsi.

Tozlama vasitəsi ilə iz aşağıdakı qaydada aşkar edilir:

Barmaq izi qalması ehtimal edilən predmetin səthinə fırça vasitəsilə toz səpilir. Həmin predmetin səthinin müəyyən sahəsi tozla örtüldükdən sonra, başqa yumşaq fırça ilə onun üzərindən toz ehmalca silinir.

Müxtəlif səthlər üzərində, o cümlədən səthi hamar olmayan əşyalar üzərində qalan barmaq izlərini aşkar etmək üçün təmiz dəmir tozundan istifadə edilir və bir çox yaxşı nəticələr verir. Üzərində iz qalmasına ehtimal edilən səthə dəmir tozu səpələndikdən sonra "maqnit fırça" adlanan fırça səth üzərində gəzdirilir. Bu zaman maqnit fırça iz qalmış yerlərdən başqa səthə səpələnmiş dəmir tozunu özünə çəkir və beləliklə də iz aşkar olunur. Tozu izin üzərinə xüsusi səpələyici (pulverizator) və polietilen balon vasitəsi ilə səpmək olar. Müxtəlif səthlərdə barmaq izlərin aşkar etmək məqsədi ilə aşağıdakı tozlardan istifadə edilə bilər:

şüşədə - alüminium tozu, sink oksidi, qırmızı boyaq tozu, sülügən, mis oksidi.

çini və saxsı qablarda - kanifolla mis oksidinin qarışığı, sülügən, sink oksidi, tunc tozu, qırmızı surquc tozu.

metalda - mis oksidi, sülügən, sink oksidi, tunc tozu, alüminium tozu,

plastmasda - sülügən, sink oksidi, qrafit, alüminium tozu.

rezində - sink oksidi, sülügən.

dəridə - sink oksidi, sülügən.

mərmərdə - sink oksidi, sülügən, qırmızı surquc tozu.

pardaqlanmış ağacda - sink oksidi, mis oksidi, sülügən, talk.

kartonda və kağızda - qrafit, mis oksidi, sülügən, his.

yağlı boya ilə örtülmüş səthlərdə alüminium tozu, kanifolla sink oksidinin qarışığı, qrafit, qurğuşunlu qırmızı boyaq tozları.

meyvələrdə - sink oksidi, kanifolla mis oksidinin qarışığı.

Əl-barmaq izlərini aşkar etmək üçün (tər-piy) yod buxarından da istifadə edilir. Yod buxarı yod borucuğundan barmaq izi qalmasına ehtimal edilən səthə üfürülür. Bu zaman yod buxarı barmaq qalan yerləri örtərək izi aşkar edir.

Görünməyən izlər yod buxarı vasitəsi ilə aşkar edildikdən sonra şəkli çəkilir və yaxud da yod - kraxmal və ya yod - dikstrin plyonkası vasitəsilə götürülür.

Kağız və karton səthdə olan tərli-yağlı barmaq izlərinin aşkar edilməsi məqsədi ilə asetonda həll edilmiş ninhidrindən, yaxud alloksandan istifadə edilir. Ninhidrin məhlulu ilə barmaq izlərinin aşkar edilməsi üsulunun özünəməxsus üstünlüyü vardır. Barmaq izlərinin müxtəlif tozlarla (sülügən, mis oksidi, alüminium, qrafit və s.), yodla aşkar edilməsi müəyyən müddət keçdikdən sonra mümkün olmur. Lakin asetonda həll edilmiş ninhidrin məhlulu bu cəhətdən müstəsnalıq təşkil edir.

MUHASIBAT.AZ

Ninhidrin məhlulu ilə barmaq izləri aşağıdakı qaydada aşkar edilir: asetonda həll edilmiş ninhidrin məhlulu, yə`ni 100 ml asetonla 0.5-2.0 faizli ninhidrin məhlulu və yaxud alloksan məhlulu asetonla qarışdırılır və pulverizator vasitəsi ilə izin üzərinə səpilir.

Əl barmaqlarının tər-piy izlərinin ninhidrin və alloksan vasitəsi ilə aşkar edilməsi texniki cəhətdən mürəkkəb olduğundan bu metoddan çoxdan qoyulmuş yağ-tər izlərini aşkar etmək üçün laboratoriya şəraitində istifadə edilir.

Bir çox hallar da hadisə yerində barmağın papilyar naxışının yalnız kiçik bir hissəsinin əks olunduğu əl-barmaq izləri aşkar edilir. Belə hallarda şəxsi əl-barmaq izlərinə görə eyniləşdirmək üçün təkcə papilyar naxışlardan deyil, həm də həmin naxışların quruluşunu müəyyən edən dərialtı məməciklərin xüsusiyyətlərindən istifadə edilir.

Xüsusi tədqiqatlar vasitəsi ilə sübut edilmişdir ki, bu məməciklər (poralar) hər bir insanda fərdidir və onlar dəyişməzdir. Bu şəxsi poroskopik tədqiqatlar vasitəsi ilə eyniləşdirilməyə imkan verir. Nahamar səth üzərində qalmış izlərlə işləmək üçün "Sapfir" və "Rubin" tozlarından istifadə edilir. "Sapfir" ağ rəngli qarışıq olub, qara rəngli səth üzərində qalmış izlərlə işləyərkən tətbiq edilir. "Rubin" isə qara rəngli olub, ağ səth üzərində qalmış izlərlə işləmək üçün nəzərdə tutulmuşdur.

Yuxarıda göstərildiyi kimi, izi predmetlə birlikdə götürmək mümkün olmadıqda mövcud izköçürmə üsullarından istifadə edilir. Ancaq bu üsullar da bir-birindən fərqlənir. Əgər izin aşkar edilməsində hər hansı bir tozdan istifadə edilmişsə, bu zaman həmin izin götürülməsi üçün daktiloskopik plyonkadan istifadə edilir. Daktiloskopik plyonka şəffaf və tünd rəngli olur. İz qara rəngli, yaxud tünd rəngli tozlarla tozlandıqda şəffaf, açıq rəngli - alüminium, yaxud sülügən tozu ilə rəngləndikdə isə tünd rəngli plyonkadan istifadə olunur.

Həcmi barmaq izlərini iz düşən predmetlə birlikdə götürmək mümkün olmadıqda, onların da əksi alınmalıdır. Belə izləri yuxarıda göstərilən üsullarla müvafiq plyonkalara köçürmək mümkün olmadığından gips məhlulundan, yaxud "K" pastasından istifadə olunur.

Ekspertizanını aparılması üçün materialların toplanması. Aşkar edilən barmaq izlərinin kimə məxsus olmasını müəyyən etmək kriminalist-ekspertlər tərəfindən həyata keçirilir. Ekspert tərəfindən verilən rə`yin tamlığı çox hallarda müstəntiqin göstərilən istintaq hərəkətinə nə səviyyədə hazırlıq aparmasından asılıdır. Müstəntiq hadisə yerində tapılmış barmaq izinin kimə məxsus olmasını müəyyən etmək qərarına gəldikdə ekspertiza tə`yin etməlidir.

Təcrübə göstərir ki, ekspert rəyinin tamlığını təmin edən şərtlərdən biri istər tədqiq edilməli olan, istərsə də müqayisəedici əl-barmaq əkslərinin tədqiqata lazımi səviyyədə təqdim edilməsidir.

Üzərinə iz düşən əşyanı izlə birlikdə ekspert tədqiqatına göndərmək mümkün olmadıqda yuxarıda qeyd edildiyi kimi, izin müvafiq köçürülmə üsullarından istifadə edilməlidir. İstintaq təcrübəsi göstərir ki, izin köçürülməsi texnikasını bilmədən bu əməliyyatı hadisə yerində düzgün yerinə yetirmək mümkün olmür. Odur ki, müstəntiq əl-barmaq izləri üzrində işlərkən izi aşkar etmə üsulları ilə yanaşı, onların götürülməsi və qeyd edilməsi texnikasını da dərindən bilməlidir.

Şəxsi eyniləşdirmək üçün hadisə yerindən götürülmüş əl izləri və yoxlanılan şəxslərin əl izlərinin prosessual qaydada alınaraq müqayisəli tədqiqat üçün daktiloskopik ekspertiziya göndərilir.

MUHASIBAT.AZ

Tədqiqat göndərilən izlərin dəri səthinin hansı hissəsi ilə qoyulmasından asılı olaraq, təmiz vərəqələr üzərində mətbəə boyası vasitəsi ilə hər iki ovucun və bütün barmaqların əksləri alınır. Hər bir əksin altında onun hansı ələ və barmağa mənsub olması haqqında izahedici yazı olur. Vərəqədə müqayisə nümunələrinin kimdən alınması göstərilir və yoxlanılan şəxs imza edir. Əgər yoxlanılan şəxs əvvəllər daktiloskopik qeydiyyatda olubsa, onda onun daktilokartası da müqayisə üçün ekspertiziya göndərilə bilər.

## MÖVZU 9. TRASOLOGİYA

### PLAN

1. İnsanın ayaq izləri
2. Sındırma alət və vasitələrinin izləri
3. Nəqliyyat vasitələrinin izləri

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

6.Баев О.Я. Основы криминалистики. М.: Экзамен, 2003.

MUHASIBAT.AZ

7.Трасология. Справочник криминалиста. Т. 1. Гомеоскопия; Т. 2. Механоскопия. Волгоград, 1997.

8.Майлис Н.П. Судебно-трасологическая экспертиза.М., 2000.

9.Майлис Н.П. Руководство по трасологической экспертизе. М., 2007.

10.Трасология и трасологическая экспертиза. М., 2002.

## 1. İnsanın ayaq izləri

Cinayətlərin istintaqı zamanı bir çox hallarda insan ayaq izlərindən də istifadə olunur. Ayaq izləri hadisə yerində və ona yaxın yerlərdə, oğurlanmış əşyaların, yaxud iş üçün maddi sübut əhəmiyyətinə malik olan əşyaların gizlədildiyi yerlərdə qala bilər. İstintaq təcrübəsi göstərir ki, ayaq izləri vasitəsi ilə iş üçün sübut əhəmiyyətinə malik olan olduqca müxtəlif xarakterli halların aydınlaşdırılmasına nail olmaq mümkündür.

Yalın, ayaqqabı və corab geydirilmiş ayaq izləri fərqləndirilir.

Əgər ayaq izlərinin bir və ya bir neçə əksi olarsa, bu tək ayaq izi adlanır. İnsanının yerişini xarakterizə edən, hər iki ayaq tərəfindən ardıcıl surətdə qoyulmuş üç əks olarsa, buna izlər yolu deyilir.

Aşkar edilmiş iz yolu həm izi buraxan şəxsin bəzi fiziki əlamətləri haqqında (yerişi, fiziki nöqsanları və s.), həm də izin əmələ gəlmə mexanizmi haqqında (yeriyərkən, qaçarkən və s.) mühakimə yürütməyə imkan verir.

Beləliklə, ayaq izlərinin cinayət işlərinin istintaqı üçün yuxarıda qeyd edilən böyük əhəmiyyətini nəzərə alaraq baxış keçirən şəxs nəinki belə izləri axtarmağı bacarmalı, eləcə də onları diqqətlə aşkar etməyi, götürməyi və qablaşdırmağı, zəruri olduqda isə onların qorunub saxlanması qaydalarını mükəmməl bilməlidir.

Ayaqqabı izləri əmələgəlmə mexanizminə görə həcmi və səthi, dinamik və statik olur. Lakin bu izlərin əmələgəlmə mexanizmi bəzi xüsusiyyətlərinə görə yalın ayaq izlərinin əmələgəlmə mexanizmindən fərqlənir.

Təcrübədə statik həcmi ayaq izlərinə daha çox təsadüf edilir və belə izlər, adətən eyniləşdirmə üçün daha yararlı olur. Bu kimi izlər palçıqda, yumşaq yerdə, torpaqda və s. qala bilər. Bundan fərqli olaraq səthi ayaqqabı izləri bərk səthlərdə qalır. Həmin izlər bərk səthlərdə ayaqqabının altı rəngə, qana, una, təbaşirə və bu kimi başqa maddələrə boyandıqda əmələ gəlir.

Ayaqqabı izlərindən fərqli olaraq yalın ayaq izləri əsasən səthi izlər olur. Həcmi yalın ayaq izlərinə çox az təsadüf edilir. Səthi yalın ayaq izləri rəngli və tərli-yağlı izlər olur. Rəngli və istərsə də tərli-yağlı yalın ayaq izləri görünən və görünməyən izlərə bölünür.

Rəngli yalın ayaq izləri insan ayağı müxtəlif rəngli məhlula boyandığı zaman əmələ gəlir.

Tərli-yalın ayaq izləri döşəməyə, kağıza, şüşəyə və buna oxşar sair əşyalara toxunarkən, ayaq altı dəri də olan tər-piy hissəciklərinin üzərinə iz düşən obyektə keçməsi nəticəsində əmələ gəlir. Tərli ayaq izlərinin şəxsiyyətin eyniləşdirilməsində çox böyük əhəmiyyəti vardır. Çünki belə izlər vasitəsi ilə yalnız ayaq izinin ümumi quruluşunu və formasını müəyyən etməklə bərabər, ayaqda olan papilyar naxışların fərdi xüsusiyyətlərini də aşkar etmək mümkündür.

MUHASIBAT.AZ

İnsan ayaq izlərinin yolu. Adətən, insan ayağı izlərinin yolu iki cərgə izlərdən ibarət olur. Bu cərgəni sağ, digər cərgəni isə sol ayaq izləri təşkil edir.

Hadisə yerində iz yolunu taparkən onun ünsürlərini müəyyən etmək məsləhət görülür. İz yolunun ünsürləri hərəkət istiqaməti xətti, pəncənin oxu, pəncə bucağı, yeriş xətti, addımın eni və uzunluğundan ibarətdir.

İz yolunu müəyyən edərkən, əvvəlcə bir cərgədə olan ayaq izlərini birləşdirən iki düz xətt, yaxud da ip çəkilir. Sonra ikinci cərgədəki çəkilmiş düz xətt də bərabər məsafədə o xətt boyu 3-cü düz xətt və ya ip çəkilir. Çəkilən 3-cü düz xətt hərəkət istiqaməti xəttini təyin edir. Cərgədə olan hər hansı bir ayaq izinin tən ortasından düz xətt çəkmək lazımdır. Çəkilən bu xəttə pəncənin oxu deyilir. Pəncə oxu hərəkət istiqaməti xətti ilə birləşənə qədər uzadılmalıdır, bu xətlərin kəsişmə nöqtəsi pəncə bucağını təşkil edir.

Yeriş xəttinin müəyyən etmək üçün iz yolundakı ayaq izlərinin daban hissəsi yanında mıx basdırılır və həmin mıxlara ip çəkilir ki, bu da yeriş xəttinin təyin edir.

İz yolundakı addımın enini və uzununu müəyyən etmək üçün sağ ayaq izlərini təşkil edən cərgədəki düz xəttə şaquli xətt çəkirik. Sağ ayaq izini təşkil edən cərgədən endirilmiş şaquli xəttin sol ayaq izini təşkil edən cərgədə kəsişdiyi nöqtəyə qədər olan məsafə addımın enini, həmin şaquli xəttin sol ayaq izini təşkil edən cərgədə kəsişdiyi nöqtədən həmin cərgədən istər geriyə, istərsə də irəliyə doğru yerləşən birinci ayaq izi hissəsinin arxasına qədər olan məsafə addımın uzununu təyin edir

İz yolunun ünsürlərindən birini də yuxarıda qeyd edildiyi kimi pəncə bucağı təşkil edir. Pəncə bucağı əsasən dörd formada ola bilər.

a) hərəkət istiqaməti xəttinə müsbət münasibətdə olan bucaq; pəncənin uzununa endirilən ox, hərəkət istiqaməti xətti ilə izin daban hissəsi tərəfdən birləşərsə, belə bucağa, müsbət bucaq deyilir.

b) hərəkət istiqamətm xəttinə mənfi münasibətdə olan bucaq; pəncənin oxu, hərəkət istiqaməti xətti ilə izin daban hissəsində deyil, pəncə hissəsində birləşərsə, belə bucağa mənfi bucaq deyilir.

c) hərəkət istiqaməti xəttinə mənfi və müsbət münasibətdə olan bucaq; yəni qarışıq bucaq; iz yolunda tapılan sağ və sol ayaq izi hərəkət istiqaməti xəttinə biri mənfi, digəri isə müsbət istiqamətdə olarsa, belə bucağa qarışıq bucaq deyilir.

ç) iz yolunda pəncə bucağı tamamilə olmaya da bilər. Bu zaman pəncə oxunu nə qədər uzatsaq da, həmin ox hərəkət istiqaməti xətti ilə kəsişməyəcəkdir. Göstərilən bu hal bəzən müəyyən xəstəlik üzündən, uşaqlıq vərdişlərindən, bəzən də şəxsin peşəsi, yaxud ixtisası ilə əlaqədar olaraq əmələ gəlir. Məsələn, dənizçilər və yük daşıyanlar, bir qayda olaraq addımlarını gen və paralel atırlar.

İz yolu ünsürlərinin öyrənilməsinin və bununla yanaşı aşkar edilmiş fərdi xüsusiyyətlərinin aydınlaşdırılmasının cinayətkarın (yaxud cinayətkarların) tapılmasında böyük əhəmiyyəti vardır. Hadisə yerindəki iz yolunun ünsürlərinin təhlil edilməsi çox hallarda cinayəti etməkdə şübhə edilən şəxslərin dairəsini, bir sıra hallarda isə bu iz yolunun bilavasitə kim tərəfindən buraxılmasını müəyyən etməyə imkan yaradır.

Ayaq izlərinin aşkar edilməsi və götürülməsi.

İnsan ayaq izlərinin əmələ gəlmə mexanizmi çox müxtəlif olduğu üçün bunların aşkar edilməsi müəyyən çətinliklər törədir. Hadisə yerində çoxlu miqdarda ayaq izləri tapılarsa, işlə əlaqədar olan maddi sübut əhəmiyyətli ayaq izlərini başqa izlərdən seçib ayırmaq üçün,

MUHASIBAT.AZ

hər şeydən əvvəl cinayətin xarakterini və hadisənin baş verdiyi şəraiti nəzərə almaq lazımdır.

Müstəntiq hadisə yerində ayaq izini axtararkən onu harada və necə axtarmağı yaxşı bilməlidir. Yumşaq torpaqda, palçıqda, qarda və s. yerlərdə həcmi izləri, parketdə və s. buna oxşar səthlər üzərində isə səthi ayaq izlərini axtarmaq lazımdır. Bununla bərabər, cinayətin xarakterini və hadisənin baş verdiyi şəraiti nəzərə alaraq, birinci növbədə hansı izlərə daha çox diqqət vermək və onları harada axtarmağa müəyyən etmək lazımdır.

Bir sıra hallarda üzərində cinayətkarın ayaq izi qalan predmetləri tərpətmək mümkün olmur, hətta belə predmetə toxunarkən onun məhv ola biləcəyi qorxusu meydana çıxır. İstintaq təcrübəsindən mə`lumdur ki, bə`zən ayaq izlərinin əkslərini gips, yaxud "K" pastası vasitəsi ilə götürmək mümkün olmur. Göstərilən hallarda izi üzərində olduğu predmetlə birlikdə götürmək mümkün olmadığından, izin protokolda tam təsviri verilməklə bərabər, fotoşəkli də çəkilir. Belə şəkillər bir qayda olaraq miqyas fotoşəkilçəkmə üsulu ilə çəkilir. İz yolunun fotoşəkili çəkildikdə isə fotoaparat şaquli vəziyyətdə tutulur və panoram şəkilçəkmə qaydası ilə izin əksi alınır.

İnsan ayaq izlərinin növündən asılı olaraq onların götürülməsi üsulları da müxtəlifdir.

Həcmi ayaq izlərinin götürülməsinin geniş yayılmış üsulları belə izlərin gips, yaxud "K" pastası vasitəsi ilə götürülməsidir. Həcmi izlərin götürülməsində tətbiq edilən vasitələrdən asılı olmayaraq, bütün hallarda izi götürməzdən əvvəl o, dəqiq müayəni edilir.

Bu zaman izdə olan ayrı-ayrı artıq şeylər maqqaş vasitəsi ilə götürülür. Əgər izin içərisində su varsa, onda su ya qaşıq, yaxud da su çəkən kağız vasitəsi ilə izdən xaric edilir. Ayaq izi kənar şeylərdən təmizləndikdən sonra gips məhlulunu, yaxud "K" pastasını hazırlayıb izi götürmək lazımdır.

Həcmi ayaq izlərinin surətinin çıxarılması iki mərhələdə keçirilir. Birinci mərhələdə dənəvər və təmiz gips tozu su ilə 1:1 çəki nisbətində qatışdırılır və həmin məhlulun bir hissəsi izi 2-3 mm örtənədək ehtiyatla izin üzərinə tökülür. Bundan sonra əvvəlcədən hazırlanmış və izin mexaniki möhkəmliyini təmin etmək üçün nəzərdə tutulmuş nazik çöplər və nömrələnmiş birkalar məhlulun üstündən izin üzərinə qoyulur. İkinci mərhələdə iz axıradək doldurulur və 15-20 dəqiqə gözlədikdən sonra ayaq izinin bərkimiş surətini götürmək mümkün olur.

Gips məhlulunu hazırlamaq üçün istintaq portfelində olan qaba, yaxud başqa bir qaba üç stəkan su töküb fasilə vermədən qatışdırmaq və məhlul qatılaşıncaya qədər gips tökmək lazımdır. Gips məhlulunu izin bilavasitə üstünə yox, izin kənarında torpaq üzərinə tökmək məsləhət görülür. Məhlul oradan axıb izin üst qatını örtdükdən sonra, izin üstünə ağac çubuqları qoyulur və iz gips məhlulu ilə doldurulur. Gips bərkidikdən sonra o, hər iki tərəfdən altdan torpağı qucaqlamaqla götürülür və suda yuyulur.

Kifayət qədər dərin olmayan izə gips məhlulu tökməzdən əvvəl ona 2-4 sm hündürlükdə torpaqdan və ya kartondan sədd düzəldilir, sonra isə gips məhlulu izin üzərinə tökülüb yuxarıda göstərilən qaydada götürülür.

Qar üzərində olan ayaq izini götürmək üçün gips məhlulu soyuq suda hazırlanır. Gips məhlulunu tökməzdən əvvəl izin səthinə nazik qat quru gips səpilir.

Narın və səpələnən quru torpaq üzərindəki izin götürülməsi bir qədər fərqlənir. Səpələnmiş quru torpaq üzərinə bilavasitə gips məhlulunu tökərkən izin səthində olan ayrı-ayrı xüsusiyyətlər və əlamətlər məhv ola bilər. Ayaq izinin səthini möhkəmləndirmək və onu

MUHASIBAT.AZ

əmələ gətirən ayaqqabının xüsusiyyətlərini özündə əks etdirən əlamətləri olduğu kimi məqsədi ilə spirtdə həll olunmuş yapışqanlı lak, yaxud asetonda qarışdırılmış perxlorvin məhlulundan istifadə edilir.

Spirtdə həll edilmiş yapışqanlı lak, yaxud asetonla qatışdırılmış perxlorvin pulverizator vasitəsi ilə izin səthinə çilənir. Məhlulu elə çiləmək lazımdır ki, onun damcıları iz üzərinə ehmalca düşsün. İzin səthi məhlulun çilənməsi nəticəsində nisbətən bərkidikdən sonra yuxarıda göstərilən qaydada səthə gips məhlulu tökülür.

Yadda saxlamaq lazımdır ki, gips məhlulu həddən artıq duru olduqda o, gec quruyur, həddən artıq qatı məhlul isə xüsusi xətlər əmələ gətirir və izi tədqiq etməyə imkan vermir.

Qeyd edildiyi kimi, həcmi ayaq izlərini götürülməsindən "K" silikon pastası adlanan polimerdən də istifadə edilir. "K" pastası boz rəngli yarımşəffaf duru maddə olub, hər hansı səthə yaxşı yayılmaq xassəsinə malikdir. "K" pastasının vulkanlaşmasını sürətləndirmək üçün ona katalizator əlavə edilir. Alınan izolyasiya materialı (kompaund) K-18 isə ayaq izinin əkslərinin alınmasında tətbiq edilir. İzolyasiya materialı K-18 izin əksini özündə dəqiq əks etdirmək xassəsinə malik olduğu üçün hazırda bu üsuldan daha çox istifadə edilir. Həcmi ayaq izlərindən fərqli olaraq səthi tərli-yağlı yalın ayaq izlərinin götürülməsi daha çox çətinlik törədir. Zəif görünən və ya görünməyən ayaq izləri tapıldıqdan sonra onları görünən izlərə çevirmək məqsədi ilə izi rəngləmək lazımdır.

Belə ayaq izlərini rəngləmə üsulları çox müxtəlifdir.

Bu məqsədlə alüminium, qrafit, qurğuşun tozlarından, hisdən, yod buxarından və sairədən istifadə olunur.

Zəif görünən, yaxud görünməyən səthi tərli-yağlı yalın ayaq izlərinin aşkar edilməsi və götürülməsi üsulları əl barmaq izlərinin aşkar edilməsi və götürülməsi üsulları ilə eynidir.

Ayaq izlərinin götürülməsi üsullarından biri də izin ölçülməsidir. Hadisə yerində tapılmış ayaqqabı izini ölçərkən: a) izin ümumi uzunluğunu; pəncənin enini; uzunluğunu; v) pəncə ilə dabanın arasında olan hissənin enini; q) dabanın enini və uzunluğunu müəyyən etmək lazımdır. İzin ümumi uzunluğunu ölçərkən dabanın arxa hissəsində götürülən nöqtədən pəncənin ön hissəsində götürülən nöqtəni elə bir düz xətlə birləşdirmək lazımdır ki, həmin xətt izi tən yarıya bölsün.

İzin enini ölçmək üçün üç yerdən: pəncənin ən enli yerindən, pəncə ilə daban hissəsinin arasında olan ən ensiz yerdən, dabanın ən enli yerindən ümumi uzunluq xəttini kəsən perpendikulyar xətlər çəkmək lazımdır.

Pəncənin uzunluğunu onun arxa hissəsindən önə qədər olan izin ümumi uzunluq xətti boyu ilə ölçmək lazımdır.

Dabanın ümumi uzunluğu isə onun arxasından eninə qədər olan izin ümumi uzunluq xətti boyu ilə ölçülür.

Yalın ayaq izləri dörd yerdən: izin ümumi uzunluğu, pəncənin eni, pəncə ilə daban arasındakı ara hissəsinin eni ölçülməlidir.

Yalın ayaq izinin enini müəyyən etmək üçün izi üç yerdən: pəncənin daraq hissəsini ən enli yerindən, pəncə ilə daban arasındakı boşluğun ən ensiz yerindən, dabanın isə enli yerindən ölçmək lazımdır.

Hadisə yerində tapılmış iz yolunu ölçərkən onun hərəkət istiqamətinin xəttini, yeriş xəttini, addımın uzunluğunu, enini, addımın bucağını müəyyən etmək lazımdır.

MUHASIBAT.AZ

Şəxsin cinsini müəyyən etmək üçün ayaqqabının xüsusiyyətlərindən başqa digər əlamətlər də əhəmiyyət kəsb edir. Məsələn, proporsional bədən quruluşuna malik olan kişilərin normal yeriş zamanı addımının uzunluğu təxminən 70-90 sm-ə bərabər olur. Qadınlar üçün bu göstərici 50-70 sm-ə bərabərdir.

Yalın ayaq izlərinə görə insanın boyunu müəyyən etmək üçün pəncə və boy arasındakı münasibət nəzərə alınır. Müəyyən edilmişdir ki, kişilərdə pəncənin uzunluğu onların boyunun 15,8%-ni, qadınlarda isə 15,5%-ni təşkil edir. Ayaqqabı izlərinə görə insanın təxminən boyunu müəyyən etmək üçün pəncəni (padoşun) ümumi uzunluğundan 1-2 sm çıxılır və alınan ədədi 1.5-ə və ya 15.5-ə bölərək, qisməti 100-ə vurub boyun təxmini ölçüsünü müəyyən etmək olur.

Ayaqqabının ölçüsü ştimassalarda ifadə olunur. İzə görə ölçünü müəyyən etmək üçün izin uzunluğunun ümumi ölçüsündən 1-2 sm çıxılır və alınan ədəd ştixmassaya - 6.67 mm-ə bölünür.

İzi aşkar edib, qeyd edib götürdükdən sonra onun qablaşdırılması da əsas şərtdir. Qablaşdırmaya aid tələbələr barəsində yuxarıda bəhs olunmuşdur.

Ekspertizanın aparılması üçün materialların toplanması. Müstəntiq tapılmış ayaq izinin kimə məxsus olmasını (əgər həmin iz yalın ayaq izidirsə), yaxud bilavasitə hansı ayaqqabıdan qoyulmasını aydınlaşdırmaq üçün kriminalistik ekspertiza təyin etməlidir. O, ekspertizanın keyfiyyətli aparılmasını təmin etmək məqsədi ilə tədqiq olunan izdən əlavə müvafiq materiallar da ekspertə təqdim etəlidir.

Eyniləşdirmə məqsədi ilə trasoloji ekspertiza təyin edərkən ayaq izləri və ya onların surətləri, müqayisə nümunələri qismində ağ vərəq mətbəə boyası vasitəsi ilə alınmış izlər-əkslər göndərilir. Corab geydirilmiş ayaq izləri ekspertizaya göndərərkən yalın pəncələrin izlərini, corab geydirilmiş ayaq izlərini və corabları ekspertin sərəncamına göndərmək lazımdır. Plyonka üzərinə köçürülmüş səthi və ya gips vasitəsi ilə əksi çıxarılmış həcmi ayaq izlərini ekspertizaya göedərərkən ayaqqabıları da göndərmək lazımdır.

İnsanın diş izləri istintaq təcrübəsində çox az rast gəlinən izlərdən olsa da mühüm kriminalistik əhəmiyyət kəsb edir. Çünki hər hansı bir insanın diş aparatı fərdi xüsusiyyətlərə malikdir və onların əsasında izi qoyulmuş şəxsi eyniləşdirmək olar. Diş aparaının əsas fərdi əlamətləri relyefin xüsusiyyətlərindən, dişin formasından, digər dişlərə münasibətdə vəziyyətindən və s. ibarətdir. Diş aparatında mövcud olan anomaliyalar, patoloci və yaşla bağlı dəyişikliklər də eyniləşdirmə üçün mühüm əhəmiyyət kəsb edir. Bunula yanaşı nəzərə almaq lazımdır ki, diş insan orqanizminin ən möhkəm elemetlərindən biridir. Təcrübədən məlumdur ki, insan dişləri özünün fərdi xüsusiyyətlərin uzun müddət torpaqda və suda qalan zaman deyil, həm də yüksək temperaturun tə`siri altında da saxlaya bilir, dəyişməz qalır və yanmış meyidi eyniləşdirməyə imkan verir.

İnsanın diş izləri meyvə, tərəvəz, pendir, şokalad, insan bədəni üzərində və s. qala bilər.

İnsanın qeyd etdiyimiz izlərindən başqa obyektlə təmasda olan zaman alnının, çənəsinin, qulaqlarının, sifətinin, dodaqlarını, dırnaqlarının izi qala bilər. Bu izlərdən hər biri diaqnostik və eyniləşdirmə tədqiqatı üçün informasiya mənbəyi ola bilər. Belə izlərin öyrənilməsinin elmi əsasını anatomiyanın, biologiyanın, kriminalistik daktiloskopiyanın, poroskopiyanın, həmçinin kriminalistik eyniləşdirmənin və trasologiyanın elmi nailiyyətləri təşkil edir.

MUHASIBAT.AZ

## 2. Sındırma alət və vasitələrinin izləri

Sındırma izləri xüsusi məqsədlə hazırlanmış alət və vasitələrdən istifadə edərkən yaranır. Ancaq bir çox halarda sındırma adi məişət vasitələri ilə də həyata keçirilir.

Sındırma alət və vasitələri tərəfindən qoyulan izlər onların obyektlə təmasda olan səthinin əlamətlərini özündə əks etdirir. (Bunula yanaşı, predmetlər iki hissəyə bölünən zaman da izlər yaranır. Ona görə də bu izlər iki qrupa: sındırma və sınma izlərinə bölünürlər).

Sındırma alət və vasitələrinin izləri aşağıdakı üç qrüpa bölünürlər:

a) zərbə izləri;

b) sürtünmə (sürüşmə) izləri;

c) kəsmə izləri.

Zərbə izləri müxtəlif küt alətlər vsitəsilə qapıları, qıfılları sındıran zaman yaranır. Zərbə və ya sındırma nəticəsində batıq, güc böyük olduqda isə deşik formasında həcmi izlər yaranır. Lakin həcmi izlərlə yanaşı alət və vasitələrin sürüşməsi nəticəsində səthi izlər də yarana bilər, məsələn, qapının rəngi qopub düşür və ya cızılır.

Zərbə izləri sındırma alət və vasitələrinin obyektlə təmasda olan hissəsinin zahiri quruluşun: formasını, böyüklüyünü, relyefini özündə əks etdirir. Ona görə də həmin izlərə görə qrup eyniləşdirməsini, alət tapıldıqdan sonra isə fərdi eyniləşdirməni həyata keçirmək olur. Maneə üzərində qalmış izlərin vəziyyətinə görə həmin izləri qoymuş alətlərin özünün vəziyyətini, zərbənin xaricdən və daxildən endirilməsini müəyyən etmək və bununla da oğurluq zamanı uydurma şəraiti ifşa etmək mümkündür.

Sürtünmə (sürüşmə) izləri alət və vasitələrin maneə üzərində sürüşməsi zamanı yaranır. Sürtünmə izləri sındırm məqsədi ilə istifadə olunan alətlərin iti ucadan qalır və xətt formasında olur. Bu xətlər izi qoyan predmetin zahiri qurluşunu yaxşı əks etdirməsə də onların kriminalistik əhəmiyyəti böyükdür. Belə ki, xəttin eninə görə istifadə olunmuş alətin işçi hisəsinin enini müəyyən etmək və sonra, qrup eyniləşdirilməsini həyata keçirmək olar. Ehtimal olunan alət tapıldıqdan sonra isə fərdi eyniləşdirmə həyata keçirilir.

Qıfılların trasoloci tədqiqat zamanı detal üzərində qalmış sürtünmə izlərinin vəziyyətinə görə onun qopardılması üsulunu, açarın və ya otmıçkanın (qarmağın) qrup mənsubiyyətini müəyyən edirlər.

Kəsmə izləri sındırma üçün kəsici alətlərdən istifadə edən zaman yaranır. Kəsici alət kimi baltadan, mişardan və s. istifadə edilir.

Bu və ya digər alətdən itifadə edilməsi müvafiq üsulun tətbiq edilməsini tələb edir.

Hər bir kəsmə üsulunun isə özünəmxsus izyaratma mexanizm vardır. Bütün kəsmə üsulları üç növə bölünür: sadə kəsmə, qarşı-qarşıya kəsmə və kiçik hissələrə kəsmə.

Sadə kəsmə zamanı kəsici tiyəsi olan alət vasitəsi ilə iki hissəyə bölünür (məsələn, balta və ya bıçaq vasitəsilə). Bu alətlərin tətbiqi zamanı kəsilmiş predmetin hər iki hissəsində sadə kəsik izləri yaranır ki, onlarn da relyfi bir-birinə uyğun gəlmir, çünki tiyənin müxtəlif üzləri tərəfindən qoyulur.

Qarşı-qarşıya kəsmə iki kəsici tiyəsi olan alətlər vasitəsi ilə həyata keçirilir (məsələn, istehkamçı və ya çilingər qayçısı ilə). Kəsilmiş predmetin hər hissəsində alətin hər iki tiyəsinin görüş vəziyyətində izləri qalır.

MUHASIBAT.AZ

Kiçik hissələrə görə kəsmə, yonma (rəndələmə), oyma, mişarlama vasitəsi ilə həyata keçirilir. Bu zaman yonma, oyma və mişarlama izləri yaranır.

Yonma izləri üzərindəki deşiyi genişləndirmək məqsədilə bıçaq və ya digər kəsici alətdən istifadə etdikdə yaranır. Bu zaman izlər sadə kəsmə zamanı yaranan izlərdən qopan yonqarların (hissəciklərin) böyüklüyünə görə fərqlənir. Yonqarlar və mane üzərində qalan izlərdə kəsici alətin dişlərinin əlamətləri əks olunur.

Oyma izləri müxtəlif növ və müxtəlif diametrli burğulardan istifadə edən zaman yaranır. Ona görə də həmin izlərə görə onların qrup mənsubiyyətini müəyyən etmək olur. Burğuların kəsici dişlərinin relyefi yonqarlar üzərində və mane üzərindəki izlərdə əks olunur. İzin divarına görə onun fırlanma istiqaməti və oyma tərəfini müəyyən etmək olur.

Mişarlama izləri mişar dişləri tərəfindən yaranır. Mişarın dişləri bir xətt boyunca düzüldüyündən mişarlama zamanı hər sonrakı diş özündən əvvəlki dişin izlərini məhv edir. Ona görə də izlər eyniləşdirmə üçün yararlı olmur. Mişarla izlərinə görə mişarların dişlərinin böyüklüyünü müəyyən etmək olur. Yonqarların vəziyyətinə görə manelərin hansı tərəfdən mişarlandığını müəyyən etmək mümkündür.

Sındırma alət və vasitələrinin izlərini laboratoriya şəraitində tədqiq edilməsi üçün onların naturada götürülməsi daha məqsədəuyğundur. İz olan hissəni kəsib götürən zaman çalışmaq lazımdır ki, həmin hissə predmet üzərində qalmış bütün izləri əhatə etsin. Əgər bunu etmək mümkün deyilsə, onda sxemdə maneənin kəsilib götürülmüş yerlərini göstərmək lazımdır.

İzi götürməmişdən əvvəl onların mərkəz və müfəssəl fotoşəkillərini çəkirlər.

Sındırma izini götürmək mümkün olmadıqda plastilindən, silikon pastasından, parafindən və s. istifadə etməklə surətini çıxarırlar.

### 3. Nəqliyyat vasitələrinin izləri

Müstəntiq və ya təhqiqat aparan şəxs cinayət yerində və cinayətin edilməsi ilə əlaqədar digər yerlərdə cinayətkarlar tərəfinən istifadə edilən nəqliyyat vasitələri izlərini aşkar edilməsinə də cəhd etməlidirlər. Belə izlərə nəqliyyat vasitələrindən istifadə edilməsi ilə əlaqədar baş verən cinayət işlərinin istintaqı zamanı təsadüf edilir. İstintaq təcrübəsində avtomaşın, motosiklet, velosiped və at-araba nəqliyyatı izlərinə daha çox rast gəlinir. Cinayətkarların istifadə etdikləri nəqliyyat vasitələrinin buraxdığı izlərin tapılması həmin izlərin hansı növ nəqliyyat vasitəsindən əmələ gəlməsini aydınlaşdırır. Aşkar edilən nəqliyyat izlərinin hansı növ və bilavasitə hansı nəqliyyat vasitəsi tərəfindən qoyulmasını müəyyən etmək və eləcə də həmin nəqliyyat vasitəsinin axtarışını təşkil etmək kimi məsələlərin həlli xüsusi biliyə malik olan şəxslərin hadisə yerində iştirakını tələb edir. Hadisə yerində belə mütəxəssislər nəqliyyat izlərini, xüsusilə avtomaşın izlərini müəyyən edərkən meydana çıxan bir sıra texniki və əməliyyat-axtarış tədbirlərinin yerinə yetirilməsində müstəntiqə yaxından kömək edirlər.

Müstəntiq, yaxud təhqiqat aparan şəxs bir qayda olaraq avtonəqliyyat izlərinə baxış keçirərkən , adətən, mütəxəssis-kriminalistləri və dövlət avtomobil müfəttişliyinin işçilərini dəvət edir. Həmin mütəxəssislər aşkar olunmuş avtomaşın təkərlərinin izləri üzrə onun hansı növ və hansı marka avtomaşından əmələ gəlməsini və bir çox hallarda isə izdə

MUHASIBAT.AZ

müəyyən edilən fərdi xüsusiyyətlərə görə onun bilavasitə hansı avtomaşın tərəfindən buraxılmasını müəyyən etmək işində istintaqa kömək edirlər.

Müstəntiq, yaxud təhqiqat aparan şəxs nəqliyyat vasitələri izlərini aşkar edərkən aşağıdakı suallara cavab almaq məqsədi ilə bu izləri dərindən öyrənməlidir:

- nəqliyyatın ümumi əlamətləri (avtomaşının markası, tipi və s.)
- həmin iz hansı nəqliyyat növü vasitəsi ilə buraxılmışdır (avtomaşın, motosikl, velosiped və s.)
- nəqliyyat vasitəsinin nə kimi əlam
ətləri vardır.
- hadisə yerində nəqliyyat vasitəsinin fərdi xüsusiyyətlərini xarakterizə edən əlamətlərin qalması.
- nəqliyyat vasitəsinin hərəkət istiqaməti.

Nəqliyyat vasitəsinin təkərləri kriminalistik baxımdan xüsusi əhəmiyyətə malikdir. Çünki cinayətkarlar tərəfindən hadisə yerində nəqliyyat vasitələrindən istifadə edilib-edilməməsini göstərən izlər, adətən həmin nəqliyyat vasitəsi təkərlərinin izləri olur. Nəqliyyat vasitəsi təkərlərinin izlərinin aşkar edilməsi, onun qeydə alınması, öyrənilməsi və gələcəkdə həmin izlərə əsasən bilavasitə bunu əmələ gətirən nəqliyyat vasitəsinin müəyyən edilməsi bəhs etdiyimiz izlər üzrə cinayətlərin istintaqında mühüm rol oynayır. Aşkar edilmiş təkər izlərinin fərdi xüsusiyyətlərinin araşdırılmasına xüsusi fikir verilməlidir. İstintaq təcrübəsi göstərir ki, nəqliyyat vasitələri izlərinin dərindən və dəqiq tədqiq edilməsi nəticəsində nəinki bu izi əmələ gətirən nəqliyyat vasitəsinin növünü, markasını, hətta bir sıra hallarda bunun fərdi xüsusiyyətlərini də müəyyən etmək mümkündür.

Nəqliyyat vasitələrinin izləri həcmi və səthi olur. Həcmi izlər yollarda, qarda, torpaqda əmələ gəlir. Nəqliyyat vasitəsi yumşaq səth üzərində hərəkət edərkən adətən özünün ağırlığı nəticəsində təkərin əksi həmin səth üzərində qalır. Bu zaman təkərin səthində olan qabarıq səthlər izdə dərin, dərin olan sahələr isə qabarıq əks olunur.

Səthi izlər bərk səthli yollarda təkərin müxtəlif maddələrlə boyanması hallarında əmələ gəlir. Məsələn, yol nəm olduqda və ya təkərlər yolda suya batıqda, təkərlər tozlu və ya palçıqlı yoldan təmiz yola keçdikdə və s. hallarda belə izlər əmələ gəlir.

Nəqliyyat vasitələri izlərinin qeyd edilməsi və göütürülməsi. Nəqliyyat vaksitələri izlərinin qeyd edilməsi və götürülməsinin aşağıdakı üsulları mövcuddur:

1. Nəqliyyat vasitələrinin izlərinin fotoşəkillərinin çəkilməsi;
2. İzlərin ölçülməsi və təsviri;
3. İz əkslərinin alınması.

Nəqliyyat vasitələrinin izlərinin fotoşəkilləri çəkildikdən sonra onlar ölçülməli və təsvir edilməlidir. İzin ölçülməsi hadisə yerinin müayinəsi protokulunda qeyd edilməlidir.

Müstəntiq hadisə yerində nəqliyyat vasitələri izlərini aşkar etdikdə: a) izi ölçməli, daha doğrüsü, nəqliyyat vasitələrinin qabaq və arxa təkərlərinin izlərinin enini, müəyyən edilməsi mümkün olan hallarda təkərin dairəsini, uzunluğunu, təkər qurşağının (protektorun) gediş yolunun enini ölçərək müəyyən etməli; b) nəqliyyat vasitəsinin oxunda olan təkərlərin miqdarını, təkər qurşağının növünü, protektor naxışının növünü və ya fərdi xüsusiyyətlərini əks etdirən izlərin təsvirini baxış protokolunda göstərməlidir.

MUHASIBAT.AZ

Təkər izinin eni bir təkərin orta nöqtəsi ilə başqa təkərin orta nöqtəsindəki məsafə ilə müəyyən edilir.

Təkərin dairəsinin uzunluğu bunu müəyyən etməyə imkan yaradan, təkrar olunan izlər olduğu hallarda ölçülür. Məsələn, təkər qurşağında olan əlamətləri izdə bir neçə dəfə təkrar əks olunması. Bu zaman qeyd edilən iki eyni əlamət arasındakı məsafəni ölçüb, təkərin dairəsinin uzunluğunu müəyyən etmək olar. Təkərin dairəsinin uzunluğunu aydınlaşdırmaq həmin təkərin diametrini də müəyyən etməyə kömək edir.

Bunun üçün təkərin dairəsinin uzunluğu 2p-yə bölünür.

Nəqliyyat izlərinə baxış zamanı bu qeyd edilənlərdən başqa, izlərdə protektor naxışının eyni növ olub-olmamasına da xüsusi fikir verilməlidir. İstintaq təcrübəsi göstərir ki, bir sıra hallarda maşının arxa oxuna salınan təkərin təkər qurşaqları protektor naxışları müxtəlif olur. Bu halın müəyyən edilməsi izi buraxan avtomaşının axtarışını təmin etmək üçün qiymətli məlumatdır.

Avtomaşının təkər qurşağına baxış zamanı aşağıdakılar müəyyən edilməlidir:

a) iz aşkar edilən yerin və ya yolun növü və vəziyyəti (yolun asfaltlı, qara torpaq, qumlu və s. olması);

b) izin növü (həcmi, səthi);

c) izin yerləşdiyi sahə (döngə, düz istiqamədə hərəkət etdiyi sahə);

ç) izin miqdarı;

d) hər izin ayrılıqda eni;

e) arxa və qabaq təkər izlərinin bir-birinə münasibəti (qabaq təkərlərin izlərinin arxa təkər izləri ilə örtülüb-örtülməməsi, əgər qabaq təkər izlərinin müəyyən bir sahəsi xətt şəklində əks olunmuşsa, bu zaman onun hansı enlilikdə olması göstərilməlidir).

ə) yolun səthinə nisbətən həcmi izin maksimum dərinliyi;

ə) təkərin ölçüsü;

f) protektor naxışlarının quruluşu, təkərin və ya təkər qurşağı əksinin səthdə olan xüsusiyyətlərinin forması, ölçüsü və yerləşməsi (yamaq, çatlamış sahə, deşik və s.).

g) təkərin dairəsinin izdə uzunluğu;

ğ) tormoz izinin uzunluğu;

h) hərəkət istiqamətinin əlamətləri və s.

Ekspertizanın aparılması üçün materialların toplanması. Hadisə yerində aşkar edilən nəqliyyat vasitəsi izlərinin müəyyən avtomaşın və ya başqa növ nəqliyyat vasitəinə aid olub-olmaması sualı meydana çıxan kriminalistik ekspertizaya müraciət etmək lazımdır.

Ekspertizanın lazımi səviyyədə aparılması və ekspert rəyinin tamlığı üçün müstəntiq bir sıra materilları toplayıb təqdim etməlidir. Bunlardan başlıcası aşağıdakılardır:

a) cinayət hadisəsi yerində aşkar edilmiş izlərin baxış protokolu;

b) şübhə edilən nəqliyyat vasitəsinin baxış protokolu;

c) şübhə edilən nəqliyyat vasitəsindən alınmış nümunə izlərinin baxış protokolu və s.

Hadisə yerində aşkar edilmiş izlərin baxış protokolu, izlərin hadisə yerində çəkilmiş fotoşəkilləri və onlardan alınan əkslər birlikdə təqdim edilməlidir.

MUHASIBAT.AZ

## MÖVZU 10. MƏHKƏMƏ BALLİSTİKASI

### PLAN

1. Məhkəmə ballistikasının anlayışı
2. Odlu silahlar və onların təsnifatı
3. Döyüş sursatları
4. Atılmış gilizlər üzrə odlu silahların qrup mənsubiyyətinin müəyyən edilməsi və onların eyniləşdirilməsi
5. Atılmış gülləyə görə odlu silahların qrup mənsubiyyətinin müəyyən edilməsi və onların eyniləşdirilməsi
6. Atəş hallarının müəyyən edilməsi
7. Hadisə yerində aşkar edilmiş odlu silaha və atəş izlərinə baxış keçirilməsinin xüsusiyyətləri

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Əsgərov B.M. Atəş izlərinin və hallarının kriminalistik tədqiqi. Bakı, 1998.

3.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

4.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

5.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

6.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

7.Баев О.Я. Основы криминалистики. М.: Экзамен, 2003.

8.Стальмахов А.В., Сумарока А.М., Егоров А.Г. и др. Судебная баллистика. Волгоград, 1998.

9.Тихонов Е.Н. Судебно-баллистическая экспертиза. Барнаул, 1991.

10.Плескачевсикй В.М. Оружие в криминалистике. Понятие и классификация. М., 1999.


### 1. Məhkəmə ballistikasının anlayışı

Məhkəmə ballistikası kriminalistik texnikanın bir sahəsi olub, cinayət işlərinin istintaqı zamanı qarşıya çıxan məsələlərin həlli məqsədilə odlu silahların, döyüş sursatlarının və onların tətbiqi izlərinin aşkar edilməsinin, qeyd edilməsinin, götürülməsinin və tədqiqinin texniki vasitələrini, kriminalistik üsul və metodlarını işləyib hazırlayır.

MUHASIBAT.AZ

Odlu silahın tətbiqi ilə törədilən cinayətlər ağır cinayətlərə aid edilir. Bu kateqoriyalardan olan cinayətlərin istintaqı zamanı bir sıra hallar meydana çıxır ki, onların aydınlaşdırılması üçün xüsusi bilik tələb olunur. Qüvvədə olan qanunvericiliyə görə odlu silahların və döyüş sursatlarının qeyri-qanuni yolla əldə edilməsi, saxlanılması və gəzdirilməsi cinayət-cəzalanan əməldir (Azərbaycan Respublikası CM-nin 228, 229-cu və s.maddələri). Bununla əlaqədar olaraq aşkar edilmiş predmetlərin odlu silahlara və ya döyüş sursatlarına aid olub-olmamasının müəyyən edilməsi ekspertiza rəyi ilə təsdiq olunmalıdır. Bir qayda olaraq, atəş hallarını müəyyən etmək üçün xüsusi kompleks tədqiqatlar tələb olunur.

Xüsusi məhkəmə-ballistik biliklərin yaranmasında ümumi ballistikanın elmi müddəaları əhəmiyyətli rol oynayır. Ancaq məhkəmə-istintaq məsələlərinin özünəməxsus xüsusiyyətləri kriminalistik metodologiya əsasında fizika, kimya, riyaziyyat kimi elmlərin məlumatları nəzərə alınmaqla xüsusi tövsiyələrin işlənib hazırlanmasını şərtləndirir. Məhkəmə ballistikası trasologiya və məhkəmə təbabəti ilə sıx bağlıdır.

Məhkəmə ballistik tədqiqatları iki yerə bölmək olar: eyniləşdirici və qeyri-eyniləşdirici tədqiqatlar. Eyniləşdirici tədqiqatlar atılmış güllələrə və gilizlərə görə konkret odlu silah nümunəsinin eyniləşdirilməsi məqsədi ilə aparılır. Qeyri-eyniləşdirici tədqiqatlar isə diaqnostik, təsnifləşdirici və şərait (situaloji) tədqiqatlarına ayrılır və odlu silahın növünün, modelinin, sisteminin, onun atəşə yararlı olub-olmamasının, tətiyi çəkmədən öz-özünə atəş açılmasının mümkünlüyünün, atəş məsafəsinin, istiqamətinin, atəş açanın yerini, atəşlərin sayı və ardıcıllığının və s. atəş hallarının müəyyən edilməsi məqsədi ilə keçirilir.

Məhkəmə ballistikası tədqiqatlarının obyektləri odlu silahlar, onların ayrı-ayrı hissələri, müxtəlif atıcı qurğular, döyüş sursatları (məsələn, tıxac üçün oyma, pistonu sıxmaq üçün “barklay” və s.) müxtəlif materiallar (metallar, keçə, karton və s.) üzərində atəşin təsirindən zədə yaranan predmetlər ola bilər.

Bir sıra hallarda kriminalistik tədqiqatın obyekti ayrı-ayrı maddi sübutlar deyil, hadisə yerindəki vəziyyət olur. Məsələn, atəş açanın yerinin müəyyən edilməsi.

Atəş izlərinin və döyüş sursatlarının tədqiqatı zamanı spektral, rentgen və kimyəvi təhlil metodlarından istifadə edilir. Silah yağı hissəciklərinin tədqiqatında qaz-maye xromotoqrafiyası və infraqırmızı spektrometriya metodları tətbiq edilir.

Bunları müvafiq qaydada axtarılıb üzə çıxarılması, qeydə alınması, götürülməsi və tədqiqinin istintaqının düzgün istiqamətdə aparılması, cinayət işinin tezliklə açılması və təqsirli şəxsin ifşa olunmasında böyük əhəmiyyəti vardır.

## 2. Odlu silahlar və onların təsnifatı

Odlu silah-barıtın və ya digər partlayıcı maddənin enerjisi hesabına istiqamətlənmiş hərəkət edən mərmi ilə müəyyən məsafədən hədəfə mexaniki zərbə yetirmək üçün nəzərdə tutulmuş silahdır. Mərminin yanmış barıt qazlarının təsiri ilə hərəkətə gəlməsi xassəsinə görə odlu silahlar pnevmatik silahlardan, kamandan və digər atıcı vasitələrdən fərqlənir.

Predmetin odlu silaha aid olub-olmaması faktı cinayətlərin düzgün tövsif edilməsi üçün böyük əhəmiyyət kəsb edir. Bəzi hallarda isə ümumiyyətlə, konkret əməldə cinayət tərkibinin olub-olmamasını müəyyən edir. Kriminalistik təcrübədə odlu silahların və döyüş sursatlarının müxtəlif növlərinə rast gəlinir.

MUHASIBAT.AZ

Elə hallar olur ki, xarici görünüşə görə odlu silaha bənzər predmet odlu silah olmur və ya əksinə, xarici görünüşü bənzəməyən predmet odlu silaha aid edilir.

Aydındır ki, belə predmetlərin odlu silaha və döyüş sursatlarına aid edilməsinin kriminalistik meyarları hərbi-texniki meyarlardan fərqlənir.

Ümumi əlaməti olan məqsədli təyinatdan başqa odlu silah anlayışına birgə qiymətləndirilən bir sıra xüsusi əlamətlər də daxil olmalıdır: a) mərminin atılması üçün partlayıcı maddə (barıt) qazlarının enercisindən istifadə olunması; b) mərminin hərəkətinə istiqamət vermək üçün lülənin olması; v) alışdırıcı qurğunun olması; q) mərminin kifayət qədər zədəyetirmə qabiliyyətinin olması; ğ) qurğunun kifayət qədər möhkəm olması.

Predmetin odlu silaha aid edilməsi üçün son iki əlamət özünün say ifadəsini tapmalıdır. Kriminalistikada bu əlamətlərin qiymətləndirilməsi meyarı kimi hərbi-texniki tələblərdən fərqli olaraq minimum göstəricilər çıxış edir. Belə ki, silahın konstruksiyası birdən artıq atəş açmağa imkan verməlidir. Mərminin zədəyetirmə qabiliyyətinin elmi meyarı kimi minimum qalıq kinetik enerci götürülür ki, bu da kürəvi mərmilər üçün 0,05 kqm/mm-ə bərabərdir (itiuclu mərmilər üçün o daha az ola bilər). Bu göstəricilər müxtəlif kalibrli mərmilərin başlanğıc kinetik enercilərinə-1,1-3.0 kqs.m uyğun gəlir. ( zədəyetirmə qabiliyyətinin hərbi-texniki meyarı 8 kqs. m-dir).

Silahın möhkəmliyinin və mərminin zədəyetirmə qabiliyyətinin müəyyən edilməsi üçün eksperimental atəşlər açılır ki, bunun da, gedişində xüsusi qurğularda mərminin başlanğıc sürəti və ona uyğun kinetik enercisi təyin olunur.

Odlu silahın növünün, sisteminin və modelinin müəyyən edilməsi onun bir çox mühüm ballistik-kriminalistik xüsusiyyətləri: təyinatı, konstruksiyası, tezatma qabiliyyəti, zədəyetirmə qabiliyyəti, güllənin trayektoriyası və uçma məsafəsi haqqında fikir yürütməyə imkan verir. Bundan başqa, alınan nəticələr həmçinin müəyyən şəxs tərəfindən həmin silahın istifadə olunmasının qanunauyğunluğunu və onun əldə olunma mənbəyini müəyyən etmək üçün tətbiq edilir.

Odlu silahın növü dedikdə, ümumi təyinatı ilə şərtləndirilən yaxın ballistik və konstruktiv xüsusiyyətlərə malik olan odlu silahlar başa düşülür. Buna uyğun olaraq hərbi, ov, idman və atipik silahlar fərqləndirilir. Silahın sistemi dedikdə, oricinal silah konstruksiyası başa düşülür ki, ona müstəqil ad verilir. Çox zaman konstruktorun familiyasına görə. Məsələn, Makarov tapançası, Smit-Vesson revolveri, Mosin tüfəngi və s. Odlu silahın daim təkmiləşdirilməsi eyni bir sistem çərçivəsində müxtəlif konstruktiv variantların işlənib hazırlanması və ya silah modeli və nümunələrinin yaranmasına aparır. Məsələn, 1895-ci il nümunəli "Naqan" revolveri, 1933-cü il nümunəli "TT" tapançası.

Odlu silahlar aşağıdakı kimi təsnif edilir:

- təyinatına görə: - döyüş (hərbi, mülki, polis);

- təlim: - idman; - ov.

- vurucu-buraxıcı mexanizminin fəaliyyətinə görə: - qeyri avtomatik (məsələn, "Naqan" revolveri); yarımavtomatik (özüdolduran) (məsələn, Makarov konstruksiyalı tapanca, SKS karabini) və avtomatik (özüatan) (məsələn; APS tapançası, Kalaşnikov konstruksiyalı avtomatlar).

- atəşin xarakterinə görə: -tək-tək, fasiləsiz, kombinə edilmiş.

- lülənin sayına görə: - təklülə, qoşalülə, çoxlüləli.

MUHASIBAT.AZ

- lülənin uzunluğuna görə: qısa lüləli (16 sm-ə qədər), orta lüləli (55sm-ə qədər), uzun lüləli (55 sm-dən böyük).

- kalibirinə görə: kiçik (6,35 mm-dən aşağı), normal (6,35 mm-9 mm), böyük kalibrli (9 mm-dən yuxarı).

- lülənin konstruktiv xüsusiyyətlərinə görə: - yivli, hamarlüləli.

- idarə edilmə üsuluna və digər konstruktiv xüsusiyyətlərinə görə: - tapança, tapança-pulemyot, revolver, tüfəng, snayper tüfəngi, karabin, avtomat, pulemyot.

- hazırlanma üsuluna görə: zavod, kustar, əldədüzəltmə, uyğunlaşdırılmış.

Yivli silahlar. Ballistik-kriminalistik baxımdan odlu silahların mühüm əhəmiyyəti kəsb edən hissələrindən biri lülədir. Lülə silindrik formadadır. Onun ön hissəsi ön kəsiyi, arxa hissəsi isə patronluq və ya xəznə adlanır.

Lülənin daxili səthinin quruluşuna görə, yuxarıda qeyd edildiyi kimi, ilk növbədə yivli və hamarlüləli silahlar fərqləndirilir. Yivli silahların lülə kanalının daxili səthinə baxdıqda vintşəkilli kirinti və çıxıntılar müşahidə olunur. Girintilər-yivlər, çıxıntılar isə yivlərarası sahə adlanır. Yivin aşağı səthi yivin dibi, yan divarları isə yivin tərəfləri aldanır. Atəş zamanı yivlərə girən güllə irəliyə hərəkətlə yanaşı, həm də fırlanma hərəkəti alır ki, bu da onun uzağa uçmasını təmin edir və hədəfi dəqiq vurma qabiliyyyətini artırır. Yivin gülləyə fırlanma hərəkəti verən tərəfi döyüş və ya aparıcı tərəf, əks tərəfi isə boş və ya aparılan tərəf adlanır.

Lüləni ümumi xarakterizə etmək üçün lülənin və onun hissələrinin en kəsiyinin ölçüləri mühüm əhəmiyyət kəsb edir.

Yivlər sayına görə 4-dən 8-ə qədər, sağ və ya sol istiqamətli olurlar.

Yivlərin sayına görə silahlar əsasən, dörd və altı yivli silahlara bölünürlər. Çox nadir hallarda üç yivli (məsələn, 7 mm kalibrli 1988-ci il nümunəli "Mauzer tüfəngi"), beş yivli (məsələn, 7.71 mm kalibrli 1934-cü il nümunəli "Li-Endfild" ingilis tüfəngi) və yeddi yivli (məsələn, 7.71 mm kalibrli "Li-Metford" ingilis tüfəngi) silahlara rast gəlinir.

Odlu silahların mühüm əlamətlərindən biri də onun kalibridir.

Yivli silahlarda kalibr dedikdə, sahədə lülə kanalının diametri, başqa sözlə, iki qarşı-qarşıya olan yivlərarası sahə arasındakı məsafə başa düşülür.

Yivli odlu silahlarda kalibr əsasən 5.6 mm-11.45 mm arasında olur.

Keçmiş SSRİ-də və əksər Avropa ölkələrində kalibri millimetrlərlə, ABŞ-da düymün[2] yüzdə biri, İngiltərədə isə düymün mində biri ilə ölçmək qəbul olunmuşdur.

Cədvəl 1.

| Kalibr (millimetrlərlə) | Amerikanın kalibri (düymün yüzdə biri) | İngilis kalibri (düymün mindən biri) |
|---|---|---|
| 5.6 | .22 | .220 |
| 6,75 | .25 | .250 |
| 7 | .28 | .280 |
| 7.65, 7.62, 7.63 | .30 | .300 (303) |
| 8 | .32 | .320 |
| 9 | .35 (351) | .350 |
| 9.5 | .38 | .370 |
| 10 | .38, .40, .41 | .410 |

[2] 1 düym = 25.4 mm

MUHASIBAT.AZ

| | | |
|---|---|---|
| 11 | .44 | .440 |
| 11.45,(11.43) | .45 | .450 (455) |

Millimetrli kalibrlər daha çox silahın lülə kanalının daxili diametrinə uyğun gəlir, ona görə onu çox vaxt “həqiqi kalibr” adlandırırlar. Amerikan və ingilis kalibrləri şərtidir və daha çox həmin silah üçün nəzərdə tutulmuş gilizin xarici diametrinə uyğun gəlir.

Bəzi yivli odlu silahların konstruktiv və texniki göstəriciləri:

Cədvəl 2.

| Xüsusiyyətləri | “Naqan” revolveri | TT | PM | APS | PSM |
|---|---|---|---|---|---|
| kalibr mm | 7.62 | 7.62 | 9 | 9 | 5,45 |
| Ümumi uzunluğu, mm | 235 | 195 | 160 | 225/540 | 155 |
| lülənin uzunluğu, mm | 110 | 116 | 93 | 140 | 85 |
| yivlərin sayı | 4 | 4 | 4 | 4 | 6 |
| yivlərin istiqaməti | sağ | sağ | sağ | sağ | sağ |
| Sandığın (barabanın) tutumu, patronla | 7 | 8 | 8 | 20 | 8 |
| Sandıqla bərabər patronsuz çəkisi, q | 795 | 854 | 730 | 1020 | 460 |
| Doldurulmuş sandıqla çəkisi, q | 880 | 940 | 810 | 1220/1780 | 510 |
| döyüş tezatması, (atəş/dəqiqə) tək-tək | 15-20 | 10-15 | 30-a qədər | 40-a qədər | 30-a qədər |
| qısa qatarla atəş | ___ | ___ | ___ | 90-a qədər | ___ |
| güllənin başlanğıc sürəti | 272 | 42 | 315 | 340 | 315 |

Kiçik kalibrli yivli silahlar 6.50 mm-ə kalibrə malik olan silahlardır. Silahların bu növünə bir qayda olaraq 5.6 çox mm kalibrli avtomatik olmayan yivli, bir və ya patronlu idman və ov silahları aiddir. Bunlardan başqa, qısa lüləli, yivli, bir və ya çoxpatronlu yarımavtomatik idman tapançaları da bu növ silahlar qrupundadır. Bunların gülləlləri qurğuşundan olub, örtüksüzdürlər.

Kiçik kalibrli silahlar pistonun konstruktiv xüsusiyyətlərinə görə iki qrupa bölünürlər:

a) 6.50 mm-ə qədər kalibrli-”mərkəzdən alışan” pistonlu patrona malik tapançalar: “Kolibri” (Belçika); 4.25 mm kalibrli “Liliput” mod.27 (Almaniya); 5.45 kalibrli yarımavtomatik kiçik qabaritli tapança -PSM (Rusiya); TK (Tula-Korovin, Rusiya); 1906-cı il nümunəli 6.35 mm kalibrli “Brauninq” (Belçika).

b) “Yandan alışan pistonlu patronlar üçün tapançalar: 5,6 mm kalibrli Marqolin, Sevryuqin (Rusiya);”Ctirling” (ABŞ); tüfəng və karabinlər: 5.56 mm kalibrli M16 A 1 avtomatik tüfəngi (ABŞ); pulemyotlar: 5.56 mm kalibrli MK 23 əl pulemyotu (ABŞ).

MUHASIBAT.AZ

Hamarlüləli silahlar. Ov silahları hamarlüləli (qırma və xüsusi güllələrlə atəş açmaq üçün), yivli (ştuserlər, ov tüfəngi və karabinləri) və kombinə edilmiş, yəni iki ədəd hamar və bir yivli lüləli:; həmçinin təklüləli, qoşalüləli və çoxlüləli olurlar.

Hamarlüləli silahlar 10-dan 32-dək kalibrə malik olurlar. Hamarlüləli ov silahlarının kalibri onun lülə kanalının onun lülə kanalının faktiki diametirini əks etdirmir: 12 kalibrli silahın lülə kanalının diametri 18.2 mm; 16 kalibrli - 16.8 mm, 20 kalibrli - 15.7 mm; 24 kalibrli - 13.6 mm və s.-dir. Hamarlüləli ov silahlarının kalibri mm-lə deyil, şərti vahidlərinə ölçülür. Belə hesab olunur ki, bu vahidlər konkret silah üçün bir funt qurğuşundan (453.6 q) həmin silahın kalibrinə uyğun olan neçə əddə kürəvi güllə hazırlmaq mümkün olduğunu göstərir. Məsələn, 12 kalibrli silah üçün 12 ədəd güllə.

Müasir hamarlüli ov silahlarının əksəriyyətinin lüləsinin ön hissəsində lülə kanalı nisbətən konusvari formada (çok və yarımçok) hızırlanır ki, bu da qırma ilə atəş zamanı atəş sıxlığını artırır.

Bəzi hamarlüləli ov silahlarının lüləsinin ağız kəsiyi hissəsində yivlər olur ki, onlar da "paradoks" adlanırlar.

Atəş mexanizminin quruluşuna görə daxili və xarici çaxmaqlı silahlara bölünürlər.

Hamarlüləli silahların qəlibi ilə qundağı birləşdirməyə xidmət edir. Konstruktiv xüsusiyyətlərinə görə qəlib iki cür olur: dirsəkli qəlib və qutu formasında. Bu prisipə uyğun olaraq hamürlüləli silaşlar iki qrupa bölünür: hərəkətli lüləli və tərpənməz lüləli silahlar. Birinci qrupda olan silahlarda lülənin hərəkəti müxtəlif prisiplərə əsaslana bilər. Doldurma zamanı lüləsi aşağaya doğru açılan silahlarda patronun oturucağı qəlibin ön kəsiyinə söykənir. Bunları "sınan" silahlar da adlandırılır. Müasir "sınan" silahlar atılmış patronluqdan çıxrılması üçün ekstratora və ya ecektora malikdirlər. Təklüləli hamarlüləli silahların bəzi modellərində lülə sürüşən çaxmaq vasitəsi ilə bağlanır. Bu zaman giliz çaxmağın ön kəsiyinə söykənir və tullayıcının çıxıntısı vasitəsilə patronluqdan kənar edilir. Bundan başqa, hamarlüləli silahlar tək və çoxpatronlu silahlara bölünür. Sonuncular öz növbəsində qeyri-avtomatik və avtomatik olurlar. Qeyri-avtomtik çoxpatronlu silahlarda silahın yenidən doldurulması sürüşkən lülə yatağının irəliyə-geriyə hərəkət etdirməklə həyata keçirilir. Silahın belə konstruktiv quruluşu "sınan" silahlarla müqayisədə nişan alınmış hədəfdən ayrılmamağa imkan verir ki, bu da atəşin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Məsələn, 12 kalibrli Model 870 Exrress Turkey ov tüfəngi (Türkiyə).

Kustar silahlar emalatxanalarda silah ustalarının hazırladığı silahdır. Tərtibatına və döyüş göstərcilərinə görə zavod üsulu ilə hazırlanan silahlara yaxındır, ancaq konstruksiyası və ölçüləri standartlara uyğun gəlmir. Onlara nadir hallarda rast gəlinir.

Atipik silahlar - qeyri-konstruksiyalı silahlardır, başlıca xüsusiyyəti ondan ibarətdir ki, hər hansı bir məişət predmetinə oxşar düzəldilir. Məsələn, avtoqələm, əsa, çətir və s.

Əldədüzəltmə silahlar - bir qayda olaraq, ələ düşən materiallardan texniki şərtlərə əmələ etmədən hazırlanır. Materialın növünə və hazırlamanın xarakterinə görə: tam əldədüzəltmə - bütün hissələri əldə düzəldilir; zavod üsulu ilə hazırlanmış silah hissələrindən (lülə, çərçivə və s.) istifadə etməklə hazırlanan və odlu silah olmayan ancaq işləmə prinsipi partlayıcı maddənin enercisinə əsaslanar xüsusi cihaz və qurğuların (qaz, start, siqnal və tikinti-montac tapançaları) uyğünlaşdırılması yolu ilə hazırlanan silahlardan fərqləndirilir.

Odlu silahların kəsiklərini (obrez) hazırlandığı silah növündən fərqləndirmək mühüm cinayət-təcrübi və kriminalistik əhəmiyyət daşıyır. Müəyyən edilmişdir ki, istənilən kalibrli

MUHASIBAT.AZ

ov silahlarını (o cümlədən, idman silahının) lüləsi 500 mm-dən az (xəznə də daxil olmaqla) qısaldılarsa, o artıq öz ilkin tə`yinatını itirmiş sayılır, yeni texniki-konstruktiv əlamətlərə əldə edərək keyfiyyətcə yeni odlu silah-yaxın məsafədən canlı hədəfə zədə yetirmək üçün nəzərdə tutulmuş döyüş silahı hesab edilir.

Təcrübə göstərir ki, odlu silahın vəziyyəti haqqında məsələnin həlli zamanı onun üç cəhətini fərqləndirmək lazımdır: silahın texniki sazlığı, atəşə yararlığının və ondan atəş açmağını mümkünlyü.

Silahın texniki cəhətdən sazlığı onun texniki şərtlərə tam cavab verdiyini göstərir. Hətta atəş açılmasını mane olmayan əhəmiyyətsiz çatışmamazlıq (məsələn, kəmmərin bərkidilməsi üçün antabkanın olmaması) silahı texniki cəhətdən nasaz hesab etməyə əsas verir. Silahın texniki cəhətdən sazlığını müəyyən edilməsi onun bütün hissə və mexanizmlərinin tam və hərtərfli tədqiqini, müxtəlif elm sahələrindən mütəxəsislərinin cəlb edilməsini tələb edir. Kriminalstik baxımdan bəzən silahın texniki cəhətdən sazlığı və hətta onun atəş üçün yararlılığı deyil, ondan atəşlər açılmasının mümkünlüyü əhəmiyyət kəsb edir. Belə ki, silah texniki cəhətdən nasaz, ancaq atəşə yararlı, yaxud da atəşə yararsız olur, lakin ondan atəş açılması mümkün olur.

Silahın atəşə yararlı olması dedikdə, ondan atəşlər açmaq üçün mühüm olan hissə və mexanizmlərin normal işini tə`min edən şərtlər kompleksi başa düşülür.

Texniki sazlıq onun atəşə yararlığını göstərdiyi kimi, atəşə yararlılıq da ondan atəş açmağın mümkünlyünü göstərir. Ancaq atəş yarasız silahdan da açılı bilər. Belə vəziyyət o halda baş verir ki, atəş açmaq üçün asanlıqlabərpa oluna bilən hər hansı bir detal çatışmır (məsələn, vurucu iynə əvəzinə mismardan istifadə edilir). Bəzən isə texniki cəhətdən saz silah bu və ya digər səbəbdən atəşə yararsız olur (silah yağının donması və s.).

Tədqiqat zamanı silahın xarici baxışı keçirilir, onun hissə və mexanizmlərinin qarşılıqlı əlaqəsi yoxlanılır. Sonra mümkün olan nasazlıqların aşkar edilməsi, onların atəş açılmasının mümkünlüyünə təsirini müəyyən etmək üçün silah tam olmayaraq və ya tam sökülərək tədqiq olunur.

Tətiyi çəkmədən odlu silahdan öz-özünə atəş açılmasının müəyyən edilməsi cinayətin subyektiv cəhətinin qiymətləndirilməsində mühüm rol oynayır.

Odlu silahın tətiyini çəkmədən ondan öz-özünə atəş açılmasının, bir qayda olaraq iki səbəbi vardır: silaha münasibətdə hər hansı bir hərəkt edilməsi (mexanizmin güclü silkələnməsi, silahın düşməsi, çaxmağa, vurucu mexanizmə zərbələr vurulması və s.) və vurucu-buraxıcı mexanizmin nasazlığı. Tətiyi çəkmədən öz-özünə atəşin mümkünlüyünü vurucu-buraxıcı mexanizmin və onun ayrı-ayrı hissələrindəki çatışmamazlıqların öyrənilməsi ilə müəyyən edilir. Odlu silahın vəziyyəti öyrənilərkən ona bir sistem kimi baxılır ki, ayrı-ayrı hissələr bu sistemin komponentlərini təşkil edir. Buna görə də tədqiqat zamanı əsas diqqət bu hissələr arasındakı qarşılıqlı əlaqənin öyrənilməsinə yönəlir. Onların qarşılıqlı əlaqəsinin öyrənilməsinin ən səmərəli yolu ilkin vəziyyətdə vurucu-buraxıcı mexanizmin hissələrənin adi gözlə və mikroskop altında baxışı (yığılmış vəziyyətdə) və ekspert ekperimentləridir. Eksperimentdən əvvəl hadisə yerində öz-özünə atəş açılmasının səbəb və şəraiti diqqətlə öyrənilir. Ekspermentin nəticələri silahının hissələrinin və onların qarşılıqlı əlaqəsinin daha dərin təhlili (sökülmüş vəziyyətdə tədqiqat) ilə möhkəmləndirilir.

Nadir hallarda tətiyi çəkmədən öz-özünə atəş açılmasının səbəbi gilizin nasaz olması olur. Bu nasazlıq gilizin piston yuvasında zindanın hündür olmasındadır. Ona görə də işin

MUHASIBAT.AZ

hallarına görə atəşin baş verməsəbəbi gilizin nasazlığı olduqda (doldurulduqdan sonra silahın lülələri bağlanan zaman yaxud silah silkələnən zaman atəş baş verir) silahla birlikdə giliz də tədqiqata təqdim edilir.

Odlu silahlar üzərində silinmiş zavod işarələrinin (yazı, nömrə, işarə) bərpa olunması onun harada qeydiyyatda olmasını, kimə məxsus olmasını, əvvələr baş vermiş cinayət işlərində istifadə olunub-olunmamasını və s. aydınlaşdırmağa imkan verir.

Məlumdur ki, silahlar üzərində zavod işarələri:

- tökmə üsulu ilə;
- qravyura üsulu ilə;
- yüksək təzyiqli preslər altında basma üsulu (ştamplama) ilə həll olunur.

Bu üç növdə preslə basma üsulu (ştamplama) ilə həkk olunmuş zavod işarələrinin silindikdən sonra bərpa olunması nisbətən mümkün olunur.

Zavod işarələrinin ştamplanması işarənin xətti üzrə onun yerləşdiyi yerdə metalın xassələrinin (möhkəmliyi, plastikliyi və s.) dəyişməsinə səbəb olur.

Texniki bərpa üsulları da məhz buna görə əsaslanır. Tədqiq olunan səth hamarlanır, cilalanır. Yalnız bundan sonra bərpa olunmanın kimyəvi, elektrokimyəvi və ya maqnit metodları tətbiq olunur.

### 3. Döyüş sursatları.

Döyüş sursatı dedikdə, hədəfə atəş və ya partlayış yolu ilə zədə yetirmək üçün nəzərdə tutulmuş birdəfəlik istifadə edilən predmetlər başa düşülür.

Kriminalistik təcrübədə döyüş sursatları iki sinfə bölünür: a) atıcı (əl atıcı silahların patronları); b) partlayış üçün nəzərdə tutulmuş (məsələn, qumbara, mina, əldə düzəltmə partlayıcı qurğuları).

Müasir odlu silahların patronları unitar patronlardır, başqa sözlə, patronun bütün elementləri bir detalın-gilizin içərisində yerləşir.

Patronların, həmçinin gilizlərin, güllələrin, qırmaların, barıtların və tıxacların növünün, tipinin müəyyən edilməsi onların hansı odlu silah üçün nəzərdə tutulduqlarını tə`yin etməyə imkan verir. Döyüş sursatının şübhə edilən şəxsdən götürülən müqayisəli nümunələri olduqda onların qrup mənsubiyyəti və ya yaranma mənbəyi müəyyən edilə bilər ki, bu da həmin şəxslərin baş vermiş hadisə ilə əlaqəsi üzrə sübutlardan biri kimi çıxış edir.

Giliz patronun əsas hissəsi olub, onun digər hissələrini özündə birləşdirir və patronun patronluqda (xəznədə) möhkəm oturmasını tə`min edir.

Gilizin formasına görə patronlar silindrik (9 mm kalibrli “PM” tapançasının patronu), butulka formalı (7.62 mm kalibrli “TT” tapançasının patronu) və konusvari (7.62 mm kalibrli “Naqan” revolverinin patronu) olurlar.

Yivli silahların patronlarının gilizləri bürünc, mis, latun, polad və s. hazırlanır. Paslanmaya həssas olan metaldan hazırlanan gilizlərin səthi tompakla və ya xüsusi lakla ötürülür. Hamarlüləli ov silahlarının patronlarının gilizləri yalnız silindrik formada olub, metaldan, kartondan və plastik materiallardan hazırlanır. Karton və plastik gilizlərin oturacaq hissələri poladdan düzəldilir. Patronlar alışdırıcı tərkibin gilizin dib hissəsində yerləşməsinə görə “mərkəzdən alışan” və “yandan alışan” pistonlu patronlara bölünürlər.

MUHASIBAT.AZ

“Mərkəzdən alışan” pistonlu patronlarda piston patronun ayrıca bir hissəsi olub, gilizin dib hissəsinin mərkəzində piston yuvasında yerləşir. “Yandan alışan” patronlarda (məsələn,5.6 mm kalibrli patronlar) ayrıca piston olmur, alışdırıcı tərkib gilizin dib hissəsinə bütövlükdə və oturacağın çevrəsi boyunca preslənmiş olur.

Patronun atılan və zədə yetirən elementi mərmidir. Mərmi kimi odlu silahlarda güllə, qırma və seçmə tətbiq edilir. Güllələr başlıq, gövdə (aparıcı hissə) və oturacaq hissədən ibarətdir. Müxtəlif tipli patronların güllələri formasına, uzunluğuna, kalibrinə, örtüyünə və örtüyün materialına görə fərqlənirlər. Formasına görə güllələr itiuculu, kütuculu, silindrik kürəvi və yastıuculu, quruluşuna görə: örtüklü, yarımörtüklü, və örtüksüz (bütöv) olurlar. Örtüklü güllələr öz növbəsində adi və xüsusi güllələrə bölünür. Adi güllələr qurğuşun özəkdən və üzəri paslanmayan təbəqə ilə örtülmüş polad örtükdən ibarətdir.

Xüsusi güllələrə zirehdeşən, izburaxan, yandırıcı və s. güllələr aiddir. Belə güllələrin uc hissəsi tə`yinatından asılı olaraq müvafiq rənglə işarə edilir. Məsələn, izburaxan güllə-yaşıl, yandırıcı-qırmızı rənglə və s.

Yivli silah güllələrinin kalibri nəzərdə tutulduğu silahın kalibri ilə göstərilir. Əslində isə güllənin diametri silahın kalibrindən (yivlərarası sahədəki diametrindən) böyük olur. Məsələn, 7.62 mm kalibrli “TT” tapançası” üçün nəzərdə tutulmuş patronun gülləsinin diametri 7.85 mm-dir. Başqa sözlə, silahın kalibrindən 0.23 mm böyükdür. Hamarlüləli ov silahlarının patronlarında qırmalardan, seçmələrdən və xüsusi güllələrdən istifadə edilir.

Meyidin bədənindən və ya hadisə yerindən tapılan qırmanı müttəhimdən götürülmüş qırma ilə müqayisə etdikdə qrup mənsubiyyətini müəyyən etmək üçün müvafiq tədqiqat apararkən aşağıdakı əlamətlər nəzərə alınır: hazırlanma üsulu, ölçüsü və kimyəvi tərkibi. Zavod üsulu ilə qırmalar qurğuşundan (yumşaq qırma) və ya qurğuşun ilə misin qarışığından (bərk qırma) hazırlanır.

Əldədüzəltmə qırmaların kimyəvi tərkibi müxtəlif ola bilər. Kimyəvi tərkib spektral analiz yolu ilə (lazer mikrospektral analiz) öyrənilir. Bu analizlə ən kiçik həcmdə belə olan qarışıqları ayırd etmək mümkündür.

Əldədüzəltmə qırma “kəsmə” aşkar edildiyi hallarda onun hazırlanmasında istifadə edilən alətin (kəlbətin, isgənə, bıçaq və s.) trasoloci tədqiqat yolu ilə eyniləşdirilməsi imkanını da nəzərə almaq lazımdır.

Patronların doldurulmasında iki cür barıtdan istifadə olunur: tüstülü (qara barıt) və tüstüsüz barıt.

Döyüş silahlarının patronları tüstüsüz barıtla doldurulur. Tüstülü barıt tüstüsüz barıta nisbətən 2-3 dəfə zəifdir. O, fişəng tapançalarının, ov silahlarının patronlarında və əldədüzəltmə patronlarda tətbiq edilir.

Hamarlüləli ov silahlarının patronlarında göstərilən hissələrdən başqa barıt və qırmanı ayırmaq və qırmanı örtmək üçün tıxaclar vardır.

Tıxaclar zavod üsulu ilə hazırlanmış patronlarda keçədən və kartondan hazırlanır.

Əl üsulu ilə doldurulan patronlarda tıxac əvəzinə kağızdan, kartondan, parça hissəsindən və s. materiallardan istifadə edilir. Tıxacları hazırlandıqları materialın növünə, ölçüsünə görə müqayisə etməklə eyni qrupa mənsub olduqlarını aydınlaşdırmaq olar. Tıxacın hazırlanması üçün hər hansı bir materialın müəyyən hissəsi kəsildikdə tıxacla onun kəsildiyi materialın fərdi müqayisəsi aparıla bilər (hissəyə görə tamın müəyyən edilməsi).

MUHASIBAT.AZ

Hadisə yerində tapılmış güllə və gilizlər cinayətkarın istifadə etdiyi patronun tipi haqqında məlumat əldə etməyə imkan verir.

Patronun tipinin müəyyən edilməsi istifadə edilmiş odlu silah sistemi haqqında əməliyyat-axtarış tədbirləri keçirmək üçün mühüm məlumat verir. Bu həmçinin şübhə edilən şəxsdə müvafiq döyüş sursatları aşkar edilərkən qiymətli sübutlar əldə etmək imkanı da yaradır.

***4.Atılmış gilizlər üzrə odlu silahların qrup mənsubiyyətinin müəyyən edilməsi və onların eyniləşdirilməsi**

Atılmış gilizlər üzrə həm yivli, həm də hamarlüləli silahlar tədqiq edilirlər. Gilizlərin tədqiqatı silahın konstruktiv quruluşuna və silahın müəyyən hissələrinin giliz üzərindəki, izlərinə əsaslanır. Avtomatik silahlardan atılan gilizlər üzərində izlərin yaranmasında odlu silahın aşağıdakı hissələri iştirak edir: sandıq, sürgü və ya çaxmaq, əksedici, tullayıcı, vurucu iynə, patronluq (xəznə), lülə qutusu və ya sürgü örtüyünün pəncərəsi, sürgünün ön kəsiyi və s.

Gilizlər üzərində izlər onların yarandıqları proseslərdən asılı oraraq üç qrupa bölünür: 1. Silahın doldurulması zamanı yaranan izlər; 2. Atəş prosesində yaranan izlər;

3. Atəşdən sonra gilizlərin kənar edilməsi zamanı yaranan izlər.

Silahın doldurulması zamanı əmələ gələn izləri aşağıdakı detallar yaradır: sandıq onun doldurulması və patronun xəznəyə ötrülməsi zamanı; sürgünün en kəsiyinin aşağı hissəsi və ya onun xüsusi hissəsi olan göndərici-patronu xəznəyə ötürən zaman; patronluğun səthi-patron xəznəyə girərkən; tullayıcının qarmağı-patronu patronluğa ötürən zaman-gilizin papaqcığının tili üzərində. Bu qrupa daxil olan izlərdən daha sabit olanı tullayıcı qırmağın izidir. Bəzi nümunələrdən olan silahlarda, məsələn, Kalaşnikov konstruksiyalı avtomatlarda, SKS karabinində patronun patronluğa ötürülməsi izləri kifayət qədər aydın əks olunur ki, bir sıra hallarda bu izlərə görə gilizin atıldığı silahın qrupunu müəyyən etmək olur.

Tətiyi çəkdikdən sonra çaxmaq döyüş bölməsindən çıxaraq vurucu iynəyə zərbə endirir, o isə öz növbəsində sür`ətlə irəliyə hərəkət edərək pistona zərbə vurur və onu alışdırır. Bunun nəticəsində çox qısa zamanda (0,001-0.006 saniyə ərzində) barıtın alışması və qazların yaranması baş verir. Təxminən 4000 atm-ə çatan barıt qazlarının təzyiqi altında güllə irəliyə doğru hərəkət edir. Giliz isə gövdəsi ilə patronluğun divarlarına və dib hissəsi ilə sürgünün ön kəsiyinə sıxılır. Bu zaman gilizin dib hissəsində sürgünün ön kəsiyindən statik izlər yaranır.

Göstərilən izlərdən yalnız vurucu iynə və sürgünün ön kəsiyinin izləri daha sabitdir və eyniləşdirmə tədqiqatı üçün əhəmiyyətlidir. Silahın modelini müəyyən etmək üçün vurucu iynə izinin forması, diametri, tərəflərinin ölçüləri (vurucu iynə düzbucaqlı olduqda) nəzərə alınır.

Bir sıra hallarda vurucu iynənin formasına görə odlu silahın sistemi müəyyən edilə bilər. Bu sistemdən olan silahların vurucu iynəsinin izi üçün xarakterik cəhət onun armudşəkilli formada və ya maili dinamik batıq şəkildə-”dilcik” formasında olmasıdır: məsələn; 7.62 mm kalibrli “TT” tapançası, 1935-ci nümunəli “Brauninq”, 9 mm kalibrli “V.iS.-35”, 11,43 mm kalibrli 1911-ci il nümunəli “Kolt” tapançaları və s.)

MUHASIBAT.AZ

Sürgünün ön kəsiyinin izlərində silah modelinin əlamətləri həmin detalın hazırlanması zamanı onun emalı izlərinin forma və istiqamətində əks olunur. Sürgünün ön kəsiyinin emalı relyefindən başqa gilizlər üzərində izləri sürgünün bu səthinin bəzi silah modellərinə və ya onların qruplarına xas olan digər xüsusiyyətləri vardır. Bunlara xəbərdaredici millər (lülənin xəznəsində patron olmasının göstəricisi) və onların kanallarının deşiklərinin kənarı RR,R.38, RRK və s. modelli "Valter" tapançaları) aiddir. Bu izlərdə silah modelinin əlamətləri onların ölçülərində, digər detalların izlərinə nisbətən yerləşməsində və formasında əks olunur. Atəşdən sonra giliz patronluqdan çıxarılarkən silahdan kənar edilərkən onun üzərində yaranan izlərin mexanizmi aşağıdakı kimidir: atəş nəticəsində barıt qazlarının təsirindən sürgü geriyə doğru hərəkət edərkən tullayıcının qırmağı gilizi patronluqdan çıxarır. Geriyə hərəkət yolunda giliz dib hissəsi ilə əksedicinin çıxıntısına toxunur və lülə qutusunun pəncərəsindən kənara tullanır. Bu zaman isə əks edicinin izi dib hissədə əks olunur və eyniləşdirmə üçün istifadə oluna bilər. Bəzi modellərdən olan silahlardan kənar edilmə zamanı gilizin toxunduğu digər detallardan da izlər qalır (həmin izləri təkrar əksolunma izləri də adlandırırlar). Belə izlər gilizin gövdəsi üzərində batıqlar, əziklər və ya cızılmalar formasında olurlar. Onlar gilizin lülə qutusunun pəncərəsinə, sürgü çərçivəsinə toxunması nəticəsində yaranırlar. Məsələn; "Parabellum", 1911-ci il modelli "Kolt" tapançaları gilizlərin ağız kəsiyinin kənarında yerləşən əzik izləri yaradırlar. Gilizin sandığın ağız hissəsinin çıxıntısına dəyməsindən yaranan sabit izlərə Makarov konstruksiyalı tapançalardan atəş zamanı rast gəlinir. Bu izlər xırda xətlərin yelpikvari dəstəsi şəklində olurlar. Gilizlərin gövdəsi üzərində batıq zədələri AK konstruksiyalı avtomatlardan, PPŞ, PPS-tapança-pulemyotlarından, SKS karabinindən açılan atəş zamanı yaranmağa xarakterikdir.

Silahların atılmış gilizlər üzrə qrup mənsubiyyətinin müəyyən edilməsi ona görə mümkün olur ki, odlu silahın sistem və modellərinin konstruktiv xüsusiyyətləri onun üzərində iz qoyan detalların ölçülərinin, formalarının və qarşılıqlı yerləşməsinin fərqli olmasında ifadə olunmuşdur.

Silahın modelini müəyyən etmək üçün giliz üzərində vurucu iynədən, sürgünün ön kəsiyindən, tullayıcıdan və əksedicidən qalan izlərin ölçüləri, formaları və giliz üzərində qarşılıqlı yerləşməsi öyrənilir və odlu silah sistemi və modellərinin daxil olduğu xüsusi cədvəllərlə, kataloqlarla tutuşdurulur. Silahın qrup mənsubiyyətinin müəyyənləşdirilməsi kompyüterlərin köməyi ilə avtomatlaşdırıla bilər. Bunun üçün mə`lum olan bütün silah sistemləri və modelləri kodlaşdırılır və EHM-nın yaddaşına verilir. Naməlum silahın cinsi əlamətləri EHM-nin yaddaşında olan məlumatlarla tutuşdurulur və müəyyən edilmiş əlamətlərlə xarakterizə olunan konkret model və sistem haqqında mə`lumat əldə edilir.

Öz kalibrinə uyğun olmayan silahdan atılan gilizlərin tədqiqatı kriminalistik təcrübənin xüsusi hallarına aiddir. Belə atəş zamanı gilizlərin üzərində iki qrup izlər yaranır: a) silahın patronluğunun forma və ölçülərinin patronun gilizinin forma və ölçülərinə uyğun olmaması izləri; b) digər tipdən olan patronlarla atəş açmaq məqsədi ilə silahın patronluğunun emalı izləri.

Birinci qrupdan olan izlər hər şeydən əvvəl, barıt qazlarının təzyiqinin təsirindən gilizin deformasiyası şəklində təzahür edir ki, nəticədə o, patronluğun forma və löçülərini alır. Butulka formaları gilizi olan patron silindrik patronluğa malik silahdan atılarkən belə izlər

MUHASIBAT.AZ

yaranır. Məsələn, 7.62 mm kalibrli “TT” tapançası üçün nəzərdə tutulmuş patronun 9 mm kalibrli tapançadan atılması.

İkinci qrup izlər patronluğun səthinin relyefinin, alətlərinin köməyi ilə dəyişikliyə məruz qalan səthindəki qüsurlarının və ya əldədüzəltmə üsulla hazırlanmış patronluğun səthinin (kiçik ölçülü patronlarla atəş açmaq üçün içlik) əksləridir. Onlar hər şeydən əvvəl, gilizin gövdəsi üzərində qeyri-bərabər deformasiyalar şəklində olurlar (batıqlar, şişmələr, çatlar). Atılmış gilizlərə görə odlu silahların fərdi eyniləşdirilməsi belə bir cəhətə əsaslanır ki, silahın gilizə təsir edən hər bir hissəsinin fərdi, yalnız ona aid olan mikrorelyefi vardır və o da gilizlərdəki izlərdə əks olunur.

Gilizə əsasən silahı eyniləşdirmək üçün hadisə yerindən tapılan gilizin üzərindəki izlərlə eksperimental atəşdən alınan giliz üzərindəki izlər müqayisəli tədqiq olunurlar. Tədqiqat zamanı mikroskopdan, o cümlədən müqayisəedici mikroskopdan istifadə edilir və müşahidənin nəticələri fotoşəkillərdə əks etdirilir.

*** 5. Atılmış gülləyə görə odlu silahların qrup mənsubiyyətinin müəyyən edilməsi və onların eyniləşdirilməsi**

Yivli odlu silahların atılmış gülləyə əsasən qrup mənsubiyyətinin müəyyən edilməsi dedikdə, güllənin hansı növ silahdan atıldığı, həmin silahın sistemi, modeli və markasını müəyyən etmək nəzərdə tutulur. Hadisə yerinə baxış zamanı hadisə yerindən öldürülmüş və ya yaralanmış şəxsin bədənindən və ya hər hansı hədəfdən güllə tapıldıqda, hələ istintaqın ilk vaxtlarında müstəntiqin qarşısında tapılan güllənin atıldığı silahın əlamətlərini müəyyən etmək vəzifəsi durur. Tapılmış gülləyə görə onun atıldığı silahın qrup mənsubiyyətini müəyyən etmək istintaq fərziyyələrinin qurulması, cinayətkarların axtarılması və ifşa edilməsi üçün əhəmiyyət kəsb edir. Güllənin atıldığı silahın hansı qrupa mənsub olması onun iki kateqoriya ilə-güllənin quruluş əlamətləri və atəş zamanı üzərində əmələ gəlmiş izlərin əlamətləri ilə müəyyən edilir. Güllənin quruluş əlamətlərinə aşağıdakılar aiddir: güllə üzərində örtüyün olub-olmaması, onun forması; ölçüsü (uzunluğu və diametri); güllənin hansı materialdan hazırlanması və çəkisi; güllənin gilizə birləşdirilməsi üsulu.

İkinci kateqoriya əlamətlər-lülə kanalı divarlarının güllə üzərində buraxdığı izlər lülə kanalının daxili quruluşu, onun yivli olub-olmaması, yivlərin sayı, eni, habelə yivlərin istiqaməti, addımı və bucağı haqqında müəyyən nəticəyə gəlməyə imkan verir.

Güllələr üzərindəki izlərin təhlili göstərir ki, onların yaranma mexanizmini üç mərhələyə ayırmaq olar:

a) güllənin silahın lülə kanalının arxa hissəsində yerləşən güllə girişinə girməsi; b) güllənin yivlərə girməsi;

v) güllənin lülə kanalı boyunca irəliləmə-fırlanma hərəkəti.

Güllənin güllə girişi ilə ilkin təması onun aparıcı hissəsinin baş tərəfinə düşür. Güllənin örtüyünü lövhə şəklində açdıqda izlərin başlanğıcı aydın müşahidə olunur. Çox zaman güllənin oxu ilə lülə kanalının oxu uyğun gəlmədiyindən izlərin başlanğıc səviyyəsi xətt şəklində əks olunur.

Barıt qazlarının təsiri altında güllə yivlərə girdiyi anda o düzxətli hərəkət etdiyindən yivlərin tərəflərindən və güllə girişindən yaranan izlər-xətlər güllənin oxuna paralel olurlar. Bunlar birinci izlərdir.

MUHASIBAT.AZ

Güllə yivlərə girdikdən sonra onun hərəkəti irəliləmə-fırlanma hərəkətinə çevrilir. Onun üzərində yivlərdən, yirlərarası sahədən və yivlərin tərəflərindən izlər əks olunur ki, bunlar da ikinci izlərdir. Cilahın eyniləşdirilməsi üçün lülə kanalının nisbətən ön hissəsinin relyefi daha çox əhəmiyyət kəsb edir. Atılmış güllənin tədqiqi zamanı yalnız güllənin özünün ölçüləri deyil, həmçinin yivlərarası sahənin eni, yivlərin dərinliyi, maillik bucağı nəzərə alınır, yivlərin en kəsiyinə diqqət yetirilir.

Yuxarıda göstərilən izlərin əksolunma dərəcəsi, sayı və ölçü göstəriciləri güllələr üzərindəki izlərin ümumi əlamətləridir. Xüsusi, fərdiləşdirici əlamətlər yivlərarası sahədən qalan izlərin mikrorelyefində, onların yivlərin tərəfindən qalan izlərə münasibətdə qarşılıqlı yerləşməsində əks olunmuşdur.

Güllə üzərindəki izlərin ümumi alətləri üzrə həmin güllələrin atıldığı silahın qrup mənsubiyyəti, xüsusi əlamətləri üzrə isə-konkret silah nümunəsi müəyyən edilir. Lülə kanalının mikrostrukturu hər atəşdən sonra müəyyən dəyişikliklərə uğrayır. Silahın intensiv şəkildə istismar edilməsi və əlverişsiz şəraitdə sazlanılması lülə kanalını elə dəyişikliklərə gətirib çıxara bilər ki, onun fərdi eyniləşdirilməsi qeyri-mümkün olur.

Atəş zamanı hamarlüləli ov silahlarının lülə kanalının mikrostrukturunun güllələr və qırmalar üzərində əks olunan izləri onları eyniləşdirməyə imkan verir. Hamarlüləli ov silahından atılan qırmanın üzərində əsasən iki cür iz qalır: statik izlər-qırmaların atəş zamanı bir-birinə qarışılıqlı təsirindən yaranan və dinamik izlər-lülə kanalının daxili davarına sürtünmədən yaranan izlər. Statik izlər dairəvi, batıqlar formasında olub, barıt qazlarının yaratdığı təzyiqin tə`sirindən vahid kütlə halında lülədə irəli, hərəkət edən qırmaların bir-birinə sıxılması nəticəsində yaranır. Bə`zən qırma dənəsinin üzərində iki və ya daha çox iz müşahidə olunur. İki batıq gilizdə alt və üst sırada yerləşən qırmalarda yaranır.

Bəzi hallarda isə bu izlər ikiləşmiş formada olur ki, bu da qırmaların lülə kanalında təkrar saxlanılması nəticəsində baş verir.

Dinamik izlər-lülə kanalının daxili divarından qalan izlər yalnız xarici sırada yerləşən qırmaların üzərində oval formalı izlər-xətlər şəklində əks olunur.

Ağız kəsiyi hissəsində lüləsi daralmış (çox və ya yarımçıq) hamarlüləli ov silahından atəş açarkən daralmanın başlanğıcında mərmilər (qırmalar) yenidən düzülür. Belə yenidən düzülmə ilkin izlərə nisbətən daha zəif əks olunan və kiçik ölçülü toxunma izlərinin, həmçinin lülənin ağız kəsiyindən izlərin yaranmasına səbəb olur. Mərmilər üzərində ikinci izlərin aşkar olunması, şübhəsiz, onların çox deşilmiş lülədən atıldığını göstərir.

Güllələrin məhkəmə ballistik tədqiqatı təkcə qrup mənsubiyyətinin müəyyən edilməsi ilə məhdudlaşmır. Əgər müstəntiqin sərəncamında atılmış güllədən başqa, həmçinin şübhə edilən şəxsdən götürülmüş silah vardırsa, onda silahın fərdi əlamətlərini də tədqiq etmək olar.

Gülləyə görə silahın eyniləşdirilməsi cinayətkarın atəş açdığı güllə üzərindəki izlər ilə müttəhimdən götürülmüş silahdan eksperimental olaraq atılan güllə üzərindəki izləri müqayisə etməklə aparılır. Eksperimental nümunə almaq üçün güllə saxlayan yumşaq hədəfə (məsələn, pambıq) atəş açılır ki, bu da güllə üzərindəki izlərin saxlanılmasına kömək edir.

Güllənin köməyi ilə silahın eyniləşdirilməsi əşyanın xarici səthinin quruluşuna dair trasologiyanın ümumi müddəalarına əsaslanır. Bu həm də lülə kanalının divarlarının

MUHASIBAT.AZ

tədqiqinə aiddir. Hər bir lülə, o cümlədən təzə lülə yalnız ona məxsus və təkraredilməz relyefə malikdir. Atəş zamanı güllələrin lülə kanalı divarlarına möhkəm sıxılması nəticəsində bu relyef kifayət qədər iz buraxır.

Güllə üzərindəki izlərin tədqiqinin əsas texniki üsullarına üzərində iz olan iki güllənin müqayisəedici mikroskop altında tutuşdurulması ; güllə səthinin fotoqrafik açılması üsulu; bəzi hallarda, başlıca olaraq deformasiyaya uğramış güllələrin tədqiqatı zamanı isə güllə örtüyünün mexaniki açılması üsulu aiddir.

a) eksperimental güllə; b) tədqiq edilən güllə

Güllə səthindəki izlərin mikrostrukturu haqqında məlumatı profiloqrafın köməyi ilə müvafiq əyri şəklində almaq olar.

## 6 Atəş hallarının müəyyən edilməsi

Atəş hallarının müəyyən edilməsi üçün odlu silahlar, onların ayrı-ayrı hissələri, döyüş sursatları, hadisə yerindəki vəziyyət və odlu silahın tətbiqi nəticəsində yaranmış zədələr tədqiq edirlər. Odlu silahın tətbiqi nəticəsində yaranmış zədələrdə adətən, atəşin aşağıdakı faktorları müəyyən edilir; a) atəşin əsas faktoru-hədəfin deşilmiş şəkildə zədələnməsi və dəyişikliyə uğraması; b) atəşin əlavə faktorları, barıt hisinin metal hissəciklərinin, silah yağı hissəciklərinin hopması, yanmış barıt qazlarının tə`siri.

Atəş faktorlarının öyrənilməsi yolu ilə atəşin hadisə yerində açılması faktı, atəş məsafəsi, atəşin istiqaməti və atəş açanın yeri, atəşin sayı və ardıcıllığı və s. kimi atəş halları müəyyən edilir.

Güllə hədəfə dəydikdə, bir qayda olaraq iki cür zədə əmələ gətirir: deşib-keçici və kor zədələr. Deşib keçici zədələrdə həm giriş, həm çıxış zədəsi, kor zədələrdə isə yalnız giriş zədəsi və zədə kanalı olur.

Təqdim edilmiş odlu silahdan atəş açılıb-açılmamasının, həmçinin atəş müddətinin müəyyən edilməsi istintaqı aparılan cinayət işi üçün mühüm əhəmiyyət kəsb edir.

Silahın lülə kanalının daxili divarlarının səthindən yanmış barıtın və pistonun alışdırıcı tərkibinin qalıqlarının yayılması həmin silahdan atəş açıldığını göstərir. Bir çox hallarda silahın lülə kanalından yanmamış və ya tam yanmamış hissəciklər aşkar edilir ki, onların barıt hissəcikləri olub-olmamasını müəyyən etmək üçün onlar ilk öncə mikroskop (MBS-9) altında, sonra isə termik və kimyəvi üsullarla tədqiq olunurlar. Tam yanmamış və ya yanmamış barıt hissəciklərinin olması son dəfə təmizləndikdən sonra həmin silahdan atəş açıldığını göstərir və ya əksinə.

Atəş müddətinin müəyyən edilməsi bir sıra faktorlardan asılıdır. İlkin olaraq qeyd etmək lazımdır ki, yaxın keçmişdə açılmış atəşin əlaməti barıt tüstüsü iyinin gəlməsidir. Bu iy patronluqdan, lülənin ağız kəsiyindən, eləcə də atılmış gilizdən gəlir. İy qeyri-sabit olduğundan və qısa zamanda itdiyindən müasir dövrdə atəşin müddəti təqribi olaraq müəyyənləşdirilə bilir. Atəş müddəti haqqında məsələnin həllini tə`min etmək üçün atılmış giliz atəş baş verəndən 6 saat müddətində ekspertizaya təqdim edilməlidir. Əgər bu mümkün olmursa, onda qazabənzər atəş məhsulları ya indikator borusu və aspirator vasitəsi ilə qeyd olunur, ya da konservləşdirilir. Konservləşdirilmiş vəziyyətdə qazabənzər atəş məhsullarının 24 saat saxlanılması mümkün olur.

MUHASIBAT.AZ

Atəş zamanı istifadə olunan barıtdan asılı olaraq lülə kanalının daxili divarları təbəqə ilə örtülür: tüstülü barıt olduqda-sarı rəngli, tüstüsüz barıtdan zəfi bozumtul rəngli təbəqə ilə. Atəşdən sonra silah təmizlənmədiyi halda meteoroloci şəraitdən asılı olaraq lülənin daxili divarlarında əvvəl su damcıları, sonra isə hissəvi olaraq pas əmələ gəlir. Müəyyən müddətdən sonra isə lülə kanalının divarları pas təbəqəsi ilə örtülür.

Atəş məsafəsi cinayətlərin istintaqı zamanı müəyyən edilməsi vacib olan, atəşi xarakterizə edən mühüm hallardan biridir.

Mərminin odlu silahın ağız kəsiyindən uçduğu nöqtədən hədəfə dəydiyi nöqtəyədək olan məsafə atəş məsafəsi adlanır.

Məhkəmə ballistikasında atəş məsafəsi üç yerə bölünür:

1) dirəyib atma; 2) yaxın məsafədən atəş; 3) uzaq məsafədən atəş.

Dirəyib atma zamanı silahın lüləsinin ağız kəsiyi ya tam, ya da nisbi olaraq hədəfə dirənmiş vəziyyətdə olur. Bu zaman lülənin obyektin səthinə nisbətən istiqaməti perpendikulyar və ya müəyyən bucaq altında ola bilər. Dirəyib atma zamanı giriş zədələri müxtəlif formalı olurlar: xaçşəkilli, X-şəkilli, ulduz formalı, bəzən isə barıt qazlarının təsirindən-xətti formalı.

Silahın lüləsinin ağız kəsiyində barıt qazlarının təzyiqindən, həmçinin hədəfin xüsusiyyətlərindən asılı olaraq dirəyib atma zamanı qazların 3 cür mexaniki təsiri fərqləndirilir: deşiçi, dağıdıcı və kontuziyaedici. Deşici təsir ona əsaslanır ki, yüksək təzyiqə malik qazlar hədəfə bərk cisim kimi təsir edir və mərminin diametrindən böyük olan zədə yaradır. Bu, hədəf nisbətən yumşaq olduqda baş verir. Dağıdıcı təsir o zaman baş verir ki, barıt qazları yüksək sürətlə zədə kanalının başlanğıcına daxil olur və öz yolunda hədəfin daha bərk hissəsi ilə qarşılaşdıqda, hədəfin yumşaq təbəqəsini yuxarıya doğru qaldırır və o dartılaraq radial istiqamətlərdə cırılır.

Kontuziyaedici təsir lülənin ağız kəsiyi qarşısında qazların təzyiqi zəif olan silahla bədəni örtən paltara (xüsusi ilə çox təbəqəli) atəş açan zaman baş verir.

Dirəyib atma zamanı hədəf üzərində əlavə zədənin əlavə gəlməsi, yəni silahın lüləsinin ağız kəsiyinin zədə ətrafında əks olunması müşahidə edilir. Bu zədə kriminalistik ədəbiyyatda ştans-əks və ya "ştansmarka" adlanır. Bəzən isə uzun lüləli silahların sümbəsinin başlığının ön hissəsi, sürgü qapağının ön plankası, qoşalülə ov silahının ikinci lüləsinin ön kəsiyi zədə üzərində əks olunur.

Giriş zədəsi ətrafında silahın lüləsinin ağız kəsiyinin əksinin olması dirəyib atəş açmanın mühüm xarakterik əlamətidir. O nəinki atəşin istiqaməti və məsafəsi, həmçinin silahın növü, kalibri və atəş vəziyyəti haqqında məsələni həll etməyə imkan verir.

Dirəyib atma üçün həmçinin barıt hissəciklərinin və barıt hisinin əsas kütləsinin zədə kanalına, xüsusilə onun başlanğıc hissəsinə girməsi xarakterikdir. Paltar üzərində xüsusilə mahud və yun parçadan olan paltarlar üzərində zədə ətrafında liflərin ütülməsi, bəzi hallarda yanması müşahidə olunur.

Yaxın məsafədən atəş elə atəş hesab olunur ki, bu zaman hədəfə yalnız mərmi deyil, həmçinin atəşin əlavə faktorları təsir edir.

Yaxın məsafədən atəşin hədəfə təsiri istifadə olunan tüstülü və ya tüstüsüz barıtın vəziyyətindən, hədəfin növündən, silahın lüləsinin uzunluğundan və s. şərtindən asılıdır.

Bir neçə santimetr məsafədə (1-3 sm) barıt qazları lülə kanalının formasını saxladığından hədəfə deşici təsir göstərirlər və dirəyib atma zamanı olduğu kimi burada da

MUHASIBAT.AZ

material çatışmamazlığı formasında zədə yaranır ki, onun diametri güllənin kalibrindən böyük olur.

Yaxından atəş zamanı da barıt qazları giriş zədəsinin kənarlarının cırılmasında əks olunan partlayıcı təsir göstərir. Cırılmış yerin forması xətti, T-şəkilli, xaçşəkilli ola bilər. Atəşin yaxın məsafədən atılmasını göstərən əlamətlərdən biri də girişin zədəsi ətrafında hiss izlərinin olmasıdır. Hisin hopma intensivliyi atəş məsafəsindən asılıdır.

Lülənin ağız kəsiyi obyektə yaxınlaşdıqca hisin intensivliyi çox, səpələnmə radiusu kiçik olur və əksinə.

Yaxın məsafədən atəşin növbəti əlaməti atəşin hədəfə termik təsirində-ütülmə, parça və ya dərinin yanması izlərində əks olunur. Yaxından atəşin daha bir əlaməti giriş zədəsi ətrafında yanmamış və ya tam yanmamış barıt və silah yağı hissəciklərinin hopmasıdır. Barıt hissəciklərinin hopma izləri ilə uyğun gəlir. Onlar 80 sm-dək, yağ hissəcikləri isə 115-150 sm-ə tullana bilir.

Atəş məsafəsi artdıqca hədəf üzərində əvvəlcə termik izlər, sonra hiss izləri və sonda yanmamış barıt hissəciklərinin hopması izləri yox olmağa başlayır. Qeyd etmək lazımdır ki, quru səthlərə nisbətən nəm səthlərdə atəşin əlavə faktorları daha intensiv əks olunur.

Dirəyib atma və yaxından atəş zamanı izlər açıq aşkar bildiyi hallarda atəş izləri adi müayinə üsulu ilə müəyyən edilir. Zədə ətrafında barıt hisini, metal hissəciklərini aşkar etmək üçün infraqırmızı şüalarla tədqiq metodlarından, rengenoqrafik və kimyəvi üsullardan istifadə edilir.

Hamarlüləli odlu alov silahlarından atəş zamanı atəş məsafəsinin qırmaların təsirindən yaranan giriş zədəsinə görə müəyyən edilməsinin özünəməxsus xüsusiyyətləri vardır. Atəş məsafəsini müəyyən edərkən nəzərə almaq lazımdır ki, karton tıxaclar maksimum 5-10 metr, keçə tıxaclar isə 30-50 metrə qədər məsafəyə atıla bilər. 3-5 metrə qədər məsafədən açılan atəş zamanı keçə tıxaclar hədəfə əhəmiyyətli zədə yetirə bilərlər.

Yivli silahdan yetirilən güllə zədəsindən fərqli olaraq hamarlüləli ov silahlarından yetirilən qırma zədələri atəş məsafəsini daha dəqiq təyin etməyə imkan verir. Düzgün doldurulmuş qırmalı patronla atəş zamanı lülədən atıldıqdan sonra qırma topası eninə səpələnməyə və uzununa dartılmağa başlayır. Belə ki, 10 m məsafədə onun diametri 0,4-0,7 m, uzunluğu isə 1.3 m olur. Məsafə böyüdükcə bu parametrlər də artır. Qırma mərsimi adətən, 50-100 sm məsafəyə qədər, yəni dirəyib atma və yaxından atəş zamanı hədəfə vahid kütlə halında təsir edir. Bu zaman hədəf üzərində aydın görünən material çatışmamazlığı ilə müşayiət olunan dairəvi və ya oval formalı böyük mərkəzi zədə yaranır. Onun diametri silahın kalibrindən və məsafədən asılı olaraq 1.5 sm-dən 4 sm-ə qədər ola bilər. 50-100 sm-dən 2-5 m-ə qədər olan məsafədə qırma mərmisi nisbətən topa halında tə`sir göstərir. Bu zaman əsas mərkəzi zədənin ətrafında ayrılmış qırma dənələrinin təsirindən bir neçə xırda deşik-zədə yaranır. 2-5 m məsafədən isə artıq mərkəzi zədə yaranmır, hədəf üzərində bu və ya digər sahədə səpələnmiş çoxsaylı xırda zədələr yaranır.

Kriminalistik təcrübə göstərir ki, ov silahlarının müxtəlif ölçülü kəsiklərindən qırmalı patronlarla atəş zamanı 5-20 sm məsafədən başlayaraq qırmanın vahid kütlə halında tə`siri qurtarır və o səpələnməyə başlayır.

Yaxın məsafədən atəş sərhəddindən başlayaraq silahın təsir məsafəsinə qədər davam edən atəş uzaqdan atəş adlanır.

MUHASIBAT.AZ

Uzaqdan atəş zamanı hədəf üzərində yalnız sürtülmə kəmərciyi və mərmi zədəsi mövcud olur.

Atəş istiqamətini müəyyən etmək üçün ilk növbədə giriş və çıxış zədələrini (deşib keçici zədələrdə), giriş zədəsini və zədə kanalının (kor zədələrdə) tədqiq etmək lazımdır.

Atəş açanın həmin vaxtda olduğu yer atəşin istiqamətinin, atəş məsafəsinin və yaxud bir-birinə yaxın olan iki hədəfdən keçən eyni bir güllənin vurduğu zədələrin tədqiqi vasitəsi ilə müəyyən edilir. Birinci halda müəyyən edilmiş istiqamətdə təqribi atəş məsafəsi götürülür və üzərinə silahın uzunluğu əlavə edilir. İkinci halın isə iki variantı vardır: a) nisbətən yaxın məsafədən atəş açılması hallarında atəş açan şəxsin yer hədəfdəki zədələrin mərkəzindən keçən düzxətt boyunca müşahidə aparmaqla (izləməklə) müəyyən edilir; b) atəş uzaq məsafədən açıldıqda isə nişan alan şəxsin durduğu yer güllənin uçuş trayektoriyası üzrə müəyyən edilir. Dəlib keçən güllə zədələri bir-birinə yaxın olan hallarda həmin zədə kanallarına kağız boru qoyulur və oradan müşahidə aparılır. Güllə zədələri bir-birindən uzaq məsafədə yerləşdikləri hallarda isə şərti olaraq onlar arasındakı məsafə kiçildilir. Bunun üçün məsələn, şüşəni dəlib keçmiş güllə zədəsi kanalına böyrü üstə kibrit dənəsi yerləşdirilir və divardakı ikinci zədəyə doğru sap çəkilir və ikinci zədənin yaxınlığında bərkidilir. Sapın altında foto ştativi qoyulur, sapın istiqaməti dəyişdirilmədən ştativə bərkidildikdən sonra ştativlə ikinci zədə arasındakı hissəsi kəsilir. Həmin nöqtədən və birinci zədənin mərkəzindən müşahidə etməklə nişançının durduğu yer müəyyən edilir. Bu yerin şəklini də çəkmək olar. Onun üçün fotoaparatı elə yerləşdirmək lazımdır ki, obyektivin optik oxu güllənin uçuş xəttinə uyğun gəlsin, obyektivin özü isə bilavasitə dəlib keçmiş güllə zədəsinə və yaxud həmin zədə kanalına qoyulmuş kağız boruya yaxın olmalıdır.

Atəş açılan yer qrafik hesablama yolu ilə də müyyən edilə bilər. Bu məqsədlə hadisə yerinin üfüqi və şaquli proyeksiyalarda geniş planı tərtib olunur. Planda üzərində atəş zədələri olan predmetlərin yerləşməsi göstərilir. Planda qeyd edilən atəş zədələri xətlə birləşdirilir ki, bu da atəşin istiqamətini göstərir. Bir sıra hallarda mərminin uçuş xətti əks olunan planla ehtimal olaraq atəş açanın və zərər çəkənin qarşılıqlı vəziyyətini də müəyyən etmək olar. Nəzərə almaq lazımdır ki, silah atəşi açanın əlində təxminən 140-175 sm hündürlükdə olur.

Atəş açanın yerini müəyyən etmək atılmış gilizlərin və tıxacların tapılmasını, habelə ayaq izlərinin və s. müəyyən edilməsini asanlaşdırır və əksinə.

Güllənin hərəkət istiqamətini müəyyənləşdirən əlamətlərə hədəfin üzərində material hissəciklərinin (ağac yonqarı, qış gödəkçələrində pambıq və s.) güllənin hərəkət xətti boyunca tökülməsi, yaranın çıxış hissəsinin ətrafında dağılmış sümük hissəciləri, paltar üzərində giriş zədəsi kənarında sapların liflənərək zədə kanalına doğru, çıxış zədəsi kənarında isə xaricə doğru yönəlməsi və s. daxildir.

Hədəfə zədə yetirən atəşin sayını müəyyən etmək üçün hədəf üzərindəki zədənin sayı hər bir zədəni yaradan mərminin xüsusiyyətləri, hər bir zədə kanalının istiqaməti, atəş məsafəsi və tətbiq edilən silahın xüsusiyyətləri müəyyən edilməlidir. Hədəf üzərindəki zədələrin sayı atəşin sayının müəyyən edilməsi üçün kifayət qədər əsas vermir və əksinə. Belə ki, zədələrin sayı yalnız atəşin sayından deyil, həmçinin silahın növündən, istifadə edilən mərminin tipindən, atəş məsafəsindən, istiqamətindən və atəş zamanı zərər çəkmiş şəxsin vəziyyətindən asılıdır.

MUHASIBAT.AZ

Əgər zədə iki və daha çox atəşdən yaranmışsa, onda atəşin ardıcıllığı məsələsi ortaya çıxır. Hadisə yerində açılmış atəşin ardıcıllığının müəyyən edilməsinin kriminalistik ədəbiyyatda bir sıra əlamətləri göstərilir. Bu əlamətlərdən biri sonrakı atəşlər zamanı yaranan sürtülmə kəmərciyinin və metal hissəciklərinin izlərinin təmiz lülədən atılmış birinci atəşə nisbətən intensiv əks olunmasıdır. Bu əlamət adi gözlə açıq rəngli parçalar üzərində yaxşı görünür.

İkinci əlamət lüləsi yağlanmış silahdan atəş açarkən birinci atəş zamanı sürtülmə kəmərciyindən və giriş zədəsi ətrafında silah yağı hissəciklərinin hopması izləridir. Ultrabənövşəyi şüalarla müayinə zamanı yaxından atəşdə yağ izləri geniş ləkə formasında, atəşdə isə zədə kənarında nazik çevrə şəklində müşahidə olunur. Sonrakı atəşlər zamanı yağ hissəcikləri tamamilə yandığından digər zədələrdə yağ izləri, qalmır. Bunlardan başqa, güllə üzərindəki izlər və revolverdən atılmış gilizlərin barabanda nisbi yerləşməsi əsasında da atəş ardıcıllığını müəyyən etmək olar.

### *7. Hadisə yerində aşkar edilmiş odlu silaha və atəş izlərinə baxış keçirilməsinin xüsusiyyətləri

Odlu silahın tətbiq edilməsini aşkar çıxarmaq üçün aparılan əsas istintaq hərəkəti hadisə yerinə baxışdır. Belə baxışın məhkəmə ballistikası sahəsində mütəxəssisin iştirakı ilə aparılması məqsədə uyğundur.

Əgər baxış açıq ərazidə aparılarsa, mütləq protokolda baxışın aparıldığı hava şəraiti (yağış, külək, onun istiqaməti və sürəti, temperaturu və s.) qeyd olunmalıdır.

Baxış zamanı ilkin olaraq həqiqətən odlu silahın tətbiq olunub-olunmasına; hansı silah və döyüş sursatının tətbiq olunmasına; hansı predmetlər üzərində atəş zədələri olmasına; atəşin istiqaməti və məsafəsinə; atəş açanın təxmini yerinə; atəş açılmasının səbəb və şəraitinə (atəş silahın düşməsi və ya ona zərbə dəyməsi nəticəsində açılmışdır (tətiyi çəkmədən öz-özünə atəşin açılması) və s. diqqət yetirilməlidir.

Hadisə yerində odlu silah aşkar edildikdə onun vəziyyətinin mümkün qədər qeyd edilməsi zəruridir, bunun üçün miqyas xətkeşindən istifadə etməklə mərkəz və müfəssəl şəkilçəkmə metodları ilə odlu silahın şəkli çəkilir. Şəkildə yalnız onu əhatə edən əşyalar, silahın növü və aşkar olunduğu yer deyil, həmçinin ayrı-ayrı hissələrinin-lülənin, çaxmağın, qoruyucunun və s. vəziyyəti əks olunmalıdır. Bu zaman silahın dəyməsi və düşməsi izlərini aşkar etmək məqsədi ilə həm də ətraf predmetlərin, döşəmənin, torpağın səthinə baxış keçirilir.

Protokolda iki tərpənməz əşya, o cümlədən meyidin əlinə (dabanına) qədər olan məsafə qeyd olunur.

Odlu silaha baxış keçirərkən ehtiyat tədbirlərini yadda saxlamaq lazımdır: tətiyə toxunmamaq, silahı lüləsi yuxarıya doğru tutmaq, yerə salmamaq. Onun lüləsinə hər hansı bir predmet salmaq olmaz.

Baxış üçün silah ağ kağız üzərinə qoyulur.

Silahdan sandığı (içərisindəki patronları sayı və üzərindəki zavod işarələri qeyd edilir) və patronluqdakı patron çıxarılır. Ov silahlarında lülə ayrılır. Revolverlər istisna təşkil edir. Belə ki, onların barabanının kamoralarından nə atılmış gilizlər, nə də patronlar çıxarılmır. Üzərindəki işarələrə görə hansı gilizin və patronun lülə qarşısında olması və digər giliz və ya

MUHASIBAT.AZ

patronların yerləşmə ardıcıllığı qeyd edilir. Silah boşaldıldıqdan sonra onun üzərindəki zavod işarələri və konstruktiv xüsusiyyətləri qeyd edilir. Baxış zamanı aşağıdakılar müəyyən edilir və protokolda qeyd edilir: silahın növü, sistemi (modeli) və kalibri; lülə kanalında izlərin sayı və istiqaməti; silahın nömrəsi, və digər zavod işarələri; səthində hər hansı izlərin olması; çaxmağın vəziyyəti; silahın atəşə hazır olub-olmaması; sandığındakı patronların sayı; lülə kanalının vəziyyəti; yanmış barıt qoxusu gəlib-gəlməməsi və s.

Lülə kanalına kənar predmentlərin düşməməsi, barıtın yanması izlərinin nəmdən qorunması məqsədi ilə lülənin ağzı təmiz kağız və ya əski parçası ilə sarınmalıdır.

Atəş müddətinin müəyyən edilməsi qarşıya çıxdıqda silah tezliklə tədqiqata çatdırılmalıdır. Əgər silahın təmizlənməsi, məcburiyyəti olarsa, onda bu, silaha baxış keçirildikdən sonra edilir. Lülə kanalı pambıq və ya tənzif tamponlarla üç dəfəyədək silinir və onlar ayrılıqda qablaşdırılaraq tədqiqata göndərilir.

Hadisə yerində gilizin yerinin aşkar edilməsi tətbiq edilmiş silahın, növündən asılı olur. Bir çox silahlarda atılmış gilizlər silahdan avtomatik kənar olunmur (məsələn, əksər ov silahları, revolver) və onları atəş açan şəxsin atdığı və ya gizlətdiyi yerdə aşkar etmək olar. Avtomatik silahlardan atılan gilizləri aşkar etmək üçün isə hər bir modeldən olan silahın gilizin tullanmasının müxtəlif olduğunu nəzərə almaq lazımdır.

Gilizlərin aşkar olduqları yerlər ardıcıl nömrələnir, protokolda və sxemdə qeyd edilir.

Protokolda gilizlə iki tərpənməz əşya arasında məsafə göstərilir və miqyas şəkilçəkmə metodu ilə şəkli çəkilir.

Gilizin üzərində ehtimal olunan əl-barmaq izlərinin zədələnməsi və yeni izlərin düşməməsi üçün onun ağız kəsiyinin bir hissəsinin kənarından iki barmaqla tutaraq götürmək lazımdır.

Baxış protokolunda gilizin gövdəsinin forması; dib hissəsinin konstruktiv xüsusiyyətləri; hazırlandığı material, onun rəngi, ölçüləri, ağız kəsiyinin daxili diametri, gilizin uzunluğu, oturacağının diametri; üzərindəki zavod işarələri, güllə ilə bərkidilmə üsulu; üzərindəki atəş izləri (həmçinin doldurulma və kənar edilmə izləri); deformasiyalar (çatlama, partlama, qabarma, barıt və s.) onların xarakteri və s. göstərilməlidir.

Hadisə yerində ilk növbədə müəyyən edilməlidir ki, neçə atəş açılmışdır. Buna uyğun olaraq bütün mərmilər axtarılmalıdır. Hadisə yerində güllənin dəyməsi (o cümlədən rikoşet olaraq) ehtimal olunan bütün predmetlərə diqqətlə, baxış keçirilir. Güllə və ya qırmanın aşkar edildiyi yerdə şəkli çəkilməlidir.

Əgər üzərində kor zədə olan predmeti götürmək mümkün olmursa, onun güllə və qırma girən hissəsi kəsilərək götürülür. Sonradan həmin hissəni parçalayaraq ehtiyatla mərmiləri çıxarırlar. Götürülən sahənin ölçüləri atəş faktorlarının hopması zonasının ölçüləri ilə müəyyən edilir. Ancaq buna qədər güllə zədəsinin mərkəzi qeyd olunmalıdır. Bunun üçün ən münasib üsul zədənin mərkəzindən keçən bir-birinə perpendikulyar olan düz xətlər keçirilməsindən ibarətdir. Götürülən sahədə aşağı, yuxarı, xarici və daxili səthlər qeyd olunur.

Mərmilər aşkar edildikcə onlar nömrələnir, hadisə yerinin sxemində qeyd edilir.

Hadisə yerinə baxış protokolunda mərminin forması; konstruktiv xüsusiyyətləri; metalın rəngi; gilizlə birləşdirmə üsulu; üzərindəki zavod işarələri; deformasiya uğraması və deformasiyanın xarakteri; üzərində lülə kanalının daxili divarlarından qalan izlər; onların istiqaməti əks etdirilir.

MUHASIBAT.AZ

Baxış protokolunda qırmaların sayı; forması; metalın rəngi; ölçüləri (diametri): üzərində kənar hissələrin olub-olmaması; deformasiyanın mövcudluğu və xarakteri; lülə kanalından olan izlər və onların xarakteri və s. göstərilir.

Aşkar edilən mərmilər ayrıldıqda, meyidin bədənindən çıxarılan qırmalar isə qurudularaq (yuyulmur) ikiqat pambıq arasında qablaşdırılır.

Ov patronları ilə atəş açılan hallarda hadisə yerində tıxaclar və aralıq qatlar aşkar oluna bilər. Baxış protokolunda onların aşkar olunduqları yerlə yanaşı, həmçinin tıxacın və aralıq qatın materialı (keçə, əski parçası, karton və s); forması; ölçüləri üzərində ki, atəş izləri, deformasiya dərəcəsi, həmin tıxacdan bir neçə dəfə istifadə edilib-edilməməsi və s. göstərilir.

Zədələnmiş hədəfə baxış keçirərkən üzərində olan atəşin bütün izlərini aşkara çıxarmağa çalışmaq lazımdır. Bu zaman zədənin və zonaların forması, predmet üzərində və əsas zədəyə münasibətdə yerləşməsi qeyd olunur. Baxış lupanın və ultrabənövşəyi şüaların tətbiqi ilə aparılır. Atəş zədəsinin və atəşin əlavə izlərinin tədqiqatı, ölçülməsi və şəkilinin çəkilməsi onun ilkin vəziyyətinin dəyişdirilməsinə qədər aparılır.

Atəş zədəsi şüşə hədəfin üzərində olduğu zaman zədənin konfiqurasiyası miqyas şəkilçəkmə metodu ilə çəkilir. Bu zaman zədənin əks tərəfindən ekran qoyulur. Bu məqsədlə təmiz ağ kağızdan istifadə edilir. Üzərində güllə zədəsi olan şüşənin çərçivədən çıxarın zaman arxasına təmiz ağ kağız yapışdırılır ki, çıxarılan zaman dağılmasın. Paltarlar üzərində olan odlu silah zədələrinin səthi ağ parça ilə (20x20 sm) tikilərək hər biri ayrılıqda qablaşdırılır. Zədələrin üzərində paltarı qatlamaq, həmçinin paltarları yaş vəziyyətdə tədqiqata göndərmək olmaz.

MUHASIBAT.AZ

# MÖVZU 11. YAZININ KRİMİNALİSTİK TƏDQİQİ

## PLAN

1.Yazının kriminalistik tədqiqinin elmi əsasları və anlayışı
2.Yazının eyniləşdirici əlamətlərinin təsnifatı
3. Kriminalistik xətşünaslıq
4. Xətşünaslıq ekspertizası üçün materilların hazırlanması
5. Xətşünaslıq tədqiqatının metodikası
6. Kriminalistik müəllifşünaslıq

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

6.Ищенко Е.П., Егоров Н.Н. Криминалистика для следователей и дознавателей. М.,2010.

7.Судебно-почерковедческая экспертиза (общая часть).М.,1989.

8.Федосеева В.Б., Золотова Т.Н. Основные правила поготовки материалов для производства судебно-почерковедческой экспертизы. М.,1980.

9.Мерецкий Н.Е.,Милованова М.М.,Федотов И.С.Проведение судебных экспертиз:криминалистическое обеспечение. Москва-Воронеж, 2004.


### 1.Yazının kriminalistik tədqiqinin elmi əsasları və anlayışı

Sənədlərin ekspertizasının obyektləri içərisində yazının kriminalistik tədqiqi xüsusi yer tutur.

Prosessual təbiətinə görə sənədlər yazılı və maddi sübutlara bölünürlər. Yazılı sənədlərin məzmunu iş üzrə həqiqətin müəyyən edilməsində böyük əhəmiyyət kəsb edir. Yazılı sənəd onun ifadə etdiyi məlumatları eynilə özündə əks etdirən başqa sənədlə, yaxud da onun surətilə əvəz oluna bilər. Əgər sənəd cinayətin törədilməsi vasitəsi olmuşsa və ya cinayətin izlərini özündə əks etdirirsə, onda o, maddi sübut kimi çıxış edir. Maddi sübut qismində çıxış edən sənədlərlə ehtiyatla davranmaq lazımdır. Əks halda onlarda əks olunmuş sübuti əhəmiyyətli məlumatlar məhv olar və bunun da nəticəsində istintaqın gedişi xeyli çətinləşə bilər. Ona görə də belə sənədlərlə davranarkən bir sıra məlum qaydalara riayət etmək zəruridir. Həmin sənədlərin üzərində hər hansı qeydlər etmə, yazmaq, onları qatlamaq və

MUHASIBAT.AZ

yaxud da işin materiallarına tikmək, yapışdırmaq olmaz. Maddi sübut olan sənədlər üzərində onların hansı iş ilə bağlı olaraq haradan götürüldüyünü bildirən izahlı yazı olan xüsusi paketlərdə saxlanmalıdır.

Cinayət işinin materiallarına maddi sübut kimi əlavə olunan sənədlərə diqqətlə baxış keçirilməlidir. Bu məqsədlə blankların müxtəlif rekvizitləri, möhürlərin və ştampların əksləri, tarixləri tutuşdurulur. Daha sonra sənədin mətnində dəyişiklik edilməsini göstərən əlamətlərin olub-olmaması müəyyən edilir. Bu zaman müstəntiqin onun sərəncamında olan elmi-texniki vasitələrdən, lupalardan, işıq süzgəclərindən, ultrabənövşəyi şüalardan, elektrik optik dəyişdirici (EOP) cihazından istifadə etməsi onun işini əhəmiyyətli dərəcədə yüngülləşdirə bilər.

Yazının kriminalistik tədqiqi iki növə ayrılır: kriminalistik xətşünaslıq və kriminalistik müəllifşünaslıq.

Krimnalistik xətşünaslıq eyniləşdirici və diaqnostik məsələləri həll edir. Kriminalistik xətşünaslığın vəzifələri mətni icra etmiş şəxsin özünün və yaxud da onun xüsusiyyələrinin və vəziyyətinin, cinsinin və yaşının, fiziki və peşə xüsusiyyətlərinin, sərxoş olub-olmamasını və s. müəyyən olunmasından ibarətdir.

Kriminalistik müəllifşünaslığın vəzifələri isə əlyazmanın və yazı makinasında icra edilmiş mətnin müəllifini müəyyən etməkdən ibarətdir.

Yazının kriminalistik tədqiqi kriminalistik ekspertizaların geniş yayılmış növlərindən biridir. Yazı insan fikrinin xüsusi işarələrin məcmuu ilə qeydetmə vasitəsidir. Yazı prosesinin mahiyyətini başa düşmək üçün akademik İ.P.Pavlovun nitq və yazı proseslərini özündə cəmləşdirən insanın ali sinir fəaliyyəti haqqında dialektik təliminə əsaslanmaq lazımdır[1]. Bu təlim yazının kriminalistik tədqiqi xüsusi nəzarəti tələb olunmadan və avtomatik olaraq icra edilən yazı texnikasını inkişaf etdirsin. Qrafik işarələrin icra edilməsində əlin avtomatik hərəkətləri həmin işarələri asanlıqla əks etdirilməsi deməkdir ki, bunun hesabına da qrfik işlərinin icra edilməsi insan şüurunun nəzarəti olmadan mümkün olur. Nəticədə isə əsas fikrin yazının məzmununa verilməsinə imkan yaranır. Yazını icra edən ən əsas diqqətini yazıda əks etdirməli olduğu fikrə verir.

Yazı vərdişləri ali sinir fəaliyyətinin mürəkkəb mexanizmlərinə aiddir. Onlar aşağıdakı növlərə bölünürlər.

1) texniki vərdiş - bu yazını icra edən yazı üsulları və qabiliyyətini düzgün ifadə etmə bacarığıdır (yazı alətini tumağı bacarmaq, vərəqlərinin yerləşdirilməsi, hərəkətlərin əlaqələndirilməsi və s.);

2) qrafik vərdişlər - əlin və yazı alətinin hərəkətləri ilə qrafik işarələri əks etdirmək və onları bir-biri ilə əlaqləndirməyi bacarmaqdan ibarətdir;

3) Yazı nitqinin vərdişləri (söz ehtiyatı, bu və ya digər tipik cümlələrin işlədilməsi).

Yazını icra edənin eyniləşdirilməsi üçün qrafik və texniki vərdişlər daha mühüm əhəmiyyət kəsb edir, çünki bu vərdişlər aydın görünür, sabit olur və fərdi xarakter daşıyır.

**Yazının (xəttin) fərdiliyi.** Fiziologiya və texniki baxımdan iki eyni xüsusiyyət olmadığı kimi elə iki insan orqanizmi də ola bilməz ki, onlar eyni keyfiyyətə malik olsunlar və öz vərdişlərini eyni səviyyədə inkişaf etdirsinlər. Xəttin fərdiliyi hər şeydən əvvəl ali sinir fəaliyyətinin növlərinin fərqlənməsi ilə əlaqədardır ki, yazı vərdişlərinin yaranması da bundan asılıdır. Xəttin fərdiliyinin əmələ gəlməsi mücərrəd prosesi deyildir. Bu fərdilik

[1] Павлов И.П. Сочинения. М.1949. səh. 327.

MUHASIBAT.AZ

müəyyən ictimai əhatədə və metodik şəraitdə baş verir. Xəttin fərdiliyinin əmələ gəlməsi şəxsin yazı yazması məktəbdə və yaxud bilavasitə özü öyrənməsindən, bu öyrənmə üsulunun düzgünlüyündən və s. asılıdır. Bütün bunlar hərəkətlərin vərdişi halına keçməsinə təsir edir, onların ümumi sxemasına görə oxşarlaşdırır. Lakin onlar ayrı-ayrı hissələri ilə bir-birindən fərqlənir. Xəttin (yazının) fərdiliyi bir çox daxili və xarici faktorlardn əmələ gəlir[2]. Xarici faktorlar hərəkət xüsusiyyətlərinin əmələ gəlməsi və mənimsənilməsi, hərəkətlərin icra edilməsi qaydası və ölçüsü üçün xüsusi əhəmiyyət kəsb edir. Onlara yazı ləvazimatı, masanın hündürlüyü, işıqlanma, sakitlik, yaxud səs-küy və s. aiddir. Yazı vərdişlərinin əldə edilməsində müəyyən ümumilik olsv da bu vərdişlər hər bir insan üçün müəyyən cəhətləri ilə fərqlənir. İ.P.Pavlovun təlimindən belə bir nəticə çıxır ki, baş beyin yarımkürəsində müvəqqəti əlaqələr ümumiyyətlə deyil, yalnız konkret şəxsiyyətdə baş verir ki, bu da özünün anatomik və əsəb-psixoloji xüsusiyyətlərinə malik olmaqla xəttin formalaşmasına da öz təsirini göstərir. Məhz bunlar yazı vərdişinin formalaşmasına təsir edən daxili faktorlardır.

Bir çox şəxslərin xətti oxşar əlamətlərə malik olur ki, bu da dilin özünün və həmin dildə yazı üçün istifadə olunan işarələrin quruluşundan irəli gəlir, lakin bütün hallarda hər bir şəxsin dinamik stereotipi fərdi olaraq qalır. Xəttin fərdiliyi anlayışı haqqında danışarkən unutmaq olmaz ki, şüurun özü və yazını icra edənin iradəsi də şəxsin öxünəməxsus xəttinin əmələ gəlməsinə təsir edir. Hər bir yazı yazan şəxs yazını öz məqsədinə uyğunlaşdırmağa çalışır ki, bu da getdikcə vərdiş halına keçərək daim möhkəmlənir, adət şəklini alır və xüsusi olur. Xəttin ümumi və xüsusi əlamətlərinin məcmuu fərdi olduğu kimi, yazı nitqinin əlamətlərinin məcmuu da fərdidir. Hər bir şəxsin yazı nitqinin fərdiliyi ilk növbədə onun düşünmə qabiliyyəti ilə müəyyən edilir. Müəyyən şəxsin yazı nitqi onun nitq əhatəsindən, danışıq nitqinin əmələ gəldiyi şəraitdən, yazı vərdişi və onun möhkəmlənməsindən çox asılıdır. Bundan başqa yazı nitqinin fərdi vərdişlərinin formalaşmasında yazını icra edənin ümumi mədəni səviyyəsi də böyük əhəmiyyət kəsb edir. Bütün bunlar belə bir nəticəyə gəlməyə imkan verir ki, şəxsiyyətin eyniləşdirilməsində təkcə xəttin ümumi və xüsusi əlamətləri deyil, habelə yazı nitqinin xüsusiyyətləri də nəzərə alınmalıdır. Məhz belə olduqda yalnız xətti deyil, həm də bütünlükdə yazını tədqiq etmək olar.

**Yazının (xəttin) sabitliyi**. Mərkəzi əsəb sisteminin fəaliyyəti haqqında İ.P.Pavlovun nəzəriyyəsi xəttin sabitliyinin başa düşülməsi üçün də elmi əsas yaratmışdır. Təhsilin ilkin mərhələsində (məktəb təhsili zamanı) xəttin sabitlik dərəcəsi yüksək olmur. Ona görə də belə xətlər üzrə şəxsiyyətin eyniləşdirilməsi o zaman mümkündür ki, xətt nümunəsi qismində tədqiq olunan sənədin icra olunduğu vaxtda yazılmış əlyazması təqdim olunsun.

Dinamik stereotip asanlaşdıqda (sadələşdikdə) artıq hərəkətlər avtomatik olur, xətdə dəyişdirilən elementlərin sayı azalır. Bu halda tədqiq olunan sənədlə müqayisə nümunlərinin müxtəlif vaxtlarda yazıldığına baxmayaraq yazıya görə şəxsiyyətin eyniləşdirilməsi mümkün olur.

Sabitlik əsas yazının mühüm keyfiyyətlərindən biri olub, şəxsiyyətin eyniləşdirilməsi üçün ondan istifadə edilməsinə imkan yaradır. Məhz sabitliyə əsasən vərdiş formalaşdıqdan sonra insan həyatının müxtəlif dövrlərində icra edilmiş əlyazması, habelə təhrif olunmuş yazı üzrə şəxsiyyətin eyniləşdirilməsi mümkün olur. Müəyyən müddət içərisində xəttin

[2] Манцветова А.И., Мельникова Я.Б., Орлова В.Ф "Теория и практика криминалистической экспертизы" (експертиза почерка). Сб.6-7, М., 1961, səh.10.

MUHASIBAT.AZ

sabitliyindən danışarkən nəzərə almaq lazımdır ki, həmin dövrdə konkret şəxs tərəfindən icra olunmuş əlyazmaların hamısı heç də mütləq eyni olmur. Deməli, mütləq sabit stereotip yoxdur, xətt yalnız nisbi mənada sabit ola bilər, çünki xəttdə az da olsa, bəzi dəyişikliklər olur. Bu dəyişikliklər isə dinamik stereotipin hərəkəti ilə izah olunur. Ona görə də xətlər müqayisə edilərkən şəxsiyyətin eyniləşdirilməsi üçün mütləq eyni formada olan cizgilər axtarmaq lazım deyildir; nəzərə almaq lazımdır ki, stereotip mütləq dəyişməz deyildir; o, dinamikdir, hərəkətdədir. Xətti icra edənin şüurundan asılı olmayaraq keçmiş stereotipin özünü müəyyən dərəcədə olsa da, büruzə verməlidir. Məhz buna əsasən dəyişdirilmiş (qəsdən təhrif edilmiş) xəttin tədqiqi ilə şəxsiyyətin eyniləşdirilməsi mümkün olür.

Dinamik stereotipin sabitliyi sübut edir ki, yazının qəsdən sol əllə yazılması hallarında da xəttin əlamətləri özünü biruzə verir. Yazı zamanı xətt dəyişdirilərkən müəyyən xüsusiyyətlər ortaya çıxır. Lakin baş beynin müəyyən sahələrində özünə yer tutan müvəqqəti və şərti əlaqələr sağ əlin yazısından sol əlin yazısına keçir. Sol əllə yazılmış yazıda sağ əl yazısının əlamətlərinin olması da bununla izah edilir.

**Variasiyalılıq.** Variasiyalılıq sənədin yazılması şərtinin dəyişməsinə orqanizmin reaksiyasının nəticəsidir. Bu şərait obyektiv və subyektiv ola bilər. Xəttin variasiyalılığı şəxsiyyətin eyniləşdirilməsinə mane olmur.

Müstəntiqin və ekspetin yazının əmələ gəlməsi, dəyişməsi və sabitliyinin qanunauyğunluqlarını bilməsini xətt üzrə şəxsiyyətin düzgün eyniləşdirilməsində, müqayisəedici materialların toplanmasında, habelə ekspert tədqiqatı nəticələrinin qiymətləndirilməsində böyük əhəmiyyəti vardır.

## 2. Yazının eyniləşdirici əlamətlərinin təsnifatı

Kriminalistik tədqiqatın nəzəriyyəsinə və təcrübəsinə uyğun olaraq yazı əlamətlərini üç növə ayırmaq qəbul edilmişdir: 1) yazı nitqinin əlamətləri; 2) yazının topoqrafik əlamətləri; 3) xəttin əlamətləri.

Göstərmək lazımdır ki, yazının hər üç əlaməti şəxsiyyəti eyniləşdirmək məqsədi ilə istifadə edilə bilər. Azərbaycan dilində yazılmış sənədlərin kriminalistik tədqiqatı öz elmi əsasına görə rus dilində yazılmış sənədlərin kriminalistik tədqiqatı ilə oxşarlıq təşkil etməklə bərabər, özünəməxsus xüsusiyyətləri də vardır. Bu xüsusiyyətlər Azərbaycan əlifbasında rus əlifbasında olmayan bəzi hərflərin olması, azərbaycan dilinin leksik, dialektoloji və orfoqrafik xüsusiyyətləri ilə əlaqədardır. Xəttin əlamətlərinin yuxarıda göstərilən təsnifində Azərbaycan yazısının xüsusiyyətləri əsas götürülür.

Göstərilən əlamətlər Azərbaycan dilində icra olunmuş əlyazması kimi yazının digər əlamətləri ilə birlikdə onu icra edənin şəxsiyyətinin eyniləşdirilməsində istifadə olunur.

### Yazı nitqinin əlamətləri

**1) Savadlılıq dərəcəsi.** Savadlılıq dərəcəsi dedikdə yazı nitqi vərdişinə malik olmaq dərəcəsi nəzərdə tutulur. Savadlılıq dərəcəsi orfoqrafik, sintaksis, leksik və stilistik səhvlərin xarakteri və sayı ilə müəyyən edilir. Yüksək savadlılıq dərəcəsinə malik şəxsin əlyazmasında yazı nitqinin də yüksək inkişaf dərəcəsi özünü göstərir. Belə ki, yazını icra edənin geniş lüğət ehtiyatı, səlist cümlə quruluşu hiss olunur. Lakin bu o demək deyildi ki, yüksək savadlılıq dərəcəsinə malik şəxs əlyazmasında heç bir səhvə yol verə bilməz.

MUHASIBAT.AZ

Savadlılıq dərəcəsi aşağı olan şəxslərin icra etdikləri sənədlərdə orfoqrafik və stilistik səhvlərə daha çox rast gəlmək olar. Belə şəxslər (adətən az savadlılar) işarələri yerində qoymurlar. Onların yazılarında çox nadir hallarda nöqtə və vergüllərə rast gəlmək olur. Sözlərdəki "a" hərfi çox zaman "o" hərfi ilə əvəz edilir. Məslən, "Mamedov" əvəzinə "Momedov", "Abasov" əvəzinə "Abbosov" yazılır.

**2) Leksik əlamətlər.** Leksik əlamətlər aşağıdakılardan ibarətdir:

a) yazını icra edənin ümumi lüğət ehtiyatı;

b) müəyyən söz və söz birləşməsinin tez-tez təkrar olunması;

v) köhnəlmiş sözlərdən və arxaizimindən istifadə edilməsi;

q) yerli dialektlərdən istifadə olunması;

d) peşə ilə laqədar olan söz və ifadələrin işlədilməsi;

e) əcnəbi sözlərdən və yaxud yazını icra edənə məlum olan digər dillərdə işlədilən sözlərdən istifadə edilməsi;

c) hər hansı bir sbzün mənasına uyğun gəlməyən ifadələrin işlədilməsi.

Azərbaycan dili özünün zəngin və hərtərəfli leksikologiyası ilə xarakterizə olunur.

Azərbaycanda əsasən dörd dialekt qrupu fərqləndirilir: şərq, qərb, şimal və cənub zonalarının dialekt qrupları [3].

**1.Şərq dialekt qrupunda** Quba, Bakı, Şamaxı, Salyan və Lənkəran dialektləri fərqləndirilir. Bu qrupda aşağıdakı xarakterik dialekt xüsusiyyətləri vardır:

a) "a" hərfi "y" hərfini təsiri ilə "e" hərfinə çevrilir. Məsələn, "qaysı" sözü "qeyrisi", "qaymaq" sözü "qeymaq", "qaynana" sözü "qeynana" işlədilir.

b) "a" səsi "o" səsinə çevrilir. Bu xüsusiyyət Bakı dialektinə aiddir. Məsələn, "papaq" sözü "popaq", "baba" sözü "boba" kimi işlədilir.

v) "y" hərfi əvəzinə "k" hərfi işlədilir. Məsələn, düyü-dügü, iynə-ignə, dymə-dügmə və s.

**2. Qərb dialekt qrupuna** Qazax, Borçalı, Gəncə və Qarabağ dialektləri aiddir. Bu dialektin əsas xüsusiyyətlərinə aşağıdakılar aiddir:

a) qabaq cərgədəki "i" saitinin "ı" saiti ilə əvəz edilməsi. Məsələn, bildir-bıldır, işıq-ışıx, qiymət-qıymət;

b) sözün sonundakı "b" hərfinn zəifləyərək "f" hərfinə keçməsi. Məsələn, kitab-kitaf, başqab-boşqaf və s.

c) sözün əvvəlindəki "y" və "h" hərflərinin tam reduksiya olunması. Məsələn, yurd-urd; yumruq-umruq; hürmək-ürmək; hörmət-örmət və s.

ç) "b" hərfinin "v" hərfinə keçməsi. Məsələn: baba-bava, çoban-çovan, qabaq-qavax və s.

d) "c" hərfini "j" hərfinə keçməsi. Məsələn: bacı-bajı; baca-baja; qoca-qoja və s.

e) sait səslərlə qurtaran sözlərin təsirlik halında "yı", "yi", "yu", "yü" şəkilçilərini qəbul etməsi. Məsələn, qapını-qapıyı, kişini-kişiyi və s.

Qazax, Tovuz, Borçalı dialektlərində ədəbi dildən fərqli olaraq xüsusi üçvariantlı şəkilçilərdən "ör", "or", "ər" istifadə olunur. Məsələn: alır-alər, qurur-quror, görür-görər və s).

**3. Şimal dialekt qrupuna** Şəki, Zaqatala, Oğuz, Qəbələ və Qax dialektləri aiddir. Həmin dialektə aid xüsusiyyətlər bunlardır:

---

[3] Bax: Şirəliyev M.A. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1962.

MUHASIBAT.AZ

a) ön saitlərlə qurtaran sözlərə arxa saitlərdən affiks əlavə olunur. Məsələn, gəlmək-gəlmax, gündəlik-günnıx və s.

b) Zaqatala və Qax ləhcələrində “f” hərfinin yerinə “p” hərfi işlədilir. Məsələn, fərə-pərə, fəhlə-pəhlə, fındfq-pundıx və s.

c) spesifik işarə əvəzliklərinin və 3-cü şəxsdə şəxs əvəzliyinin işlədilməsi. Məsələn, bu-ubu, belə-həblə, o-hu; ho; onlar-honlar və s.

ç) Şəki dialektində 3-cü şəxsdə “if” və “ıf” affiksləri ilə bərabər “alıb-alıf, alıbdı;gəlib-gəlif-gəlibdir və s.

d) Zaqatala və Qax zonası ləhcələrində indiki zaman köməkçi “dürür” feli işlədilir. Məsələn, o gəlir-gələdurur; o baxır-baxadurur.

e) “ya” bağlayıcısı inkar mənasında da işlədilir. Məsələn, nə oxuyur, nə yazır - ya oxuyur, ya yazır.

**4. Cənub dialekt qrupuna** Naxçıvan, Ordubad və Cənubi Azərbaycan dialekti aiddir. Bu qrup dialekt aşağıdakı əlamətlərlə xarakterizə olunur:

a) “e” hərfi “ə” hərfinə çevrilir. Məsələn, pendir-pəndir, elə-heylə.

b) Ordubad ləhcəsində çox zaman “i” hərfi “ı” hərfinə keçir: yedik-yedıx; gedirik-gedirıx.

c) incə saitlərdən əvvəl “k” və “g” hərfləri “ç” və “c” hərflərinə keçir: kənd-çənd, çəkic-çəçic.

ç) sözün əvvəlindəki “x” hərfi “h” hərfi ilə əvəz olunur, xoruz-horuz; xurma-hurma.

d) Ordubad ləhcəsində “ç” hərfi rus dilindəki “h” hərfi kimi tələffüz olunur: çox-hox; çıxır-hıxır və s.

e) indiki zamanı bildirən “ır”, “ir”, “ur”, “ür” şəkilçiləri əvəzinə “iy”, “is”, “iri” şəkilçiləri işlədilir. Məsələn, gəlir-gəliy, sevir-seviri.

İmzasız məktubların tədqiqatı zamanı, xüsusilə mətn əhəmiyyətli dərəcədə təhrif olunmuş xətlə yazıldıqda yerli dialektlərin, habelə dialekt-orfoqrafik səhvlərin öyrənilməsi icraçının olduğu yeri müəyyən etməyə imkan verir. Bundan başqa sabit dialekt sözlərinin və ifadələrinin təkrar olunması yazının müəllifinin şəxsiyyətinin müəyyən edilməsinə imkan verir.

Qeyd etmək lazımdır ki, dialekt səhvləri özünün sabitliyi ilə fərqlənir və müəyyən dialekt şəraitində təhsil almış şəxsin yazı nitqində uzun zaman saxlanılır.

Azərbaycan dilinin yuxarıda göstərilən dialekt xüsusiyyətləri tədqiq olunan yazının müəllifini müəyyən etməkyə imkan verir.

Mühüm **leksik əlamətlərdən biri də digər dildən olan sözlərdən** istifadə edilməsidir. Hazırda rus, ingilis, fransız və s. dillərdən götürülmüş bəzi sözlər azərbaycan dilinin qrammatik qaydalarına tabe olur və çox zaman heç bir zaman heç bir fonetik dəyişikliyə uğramadan işlədilir. Azərbaycan dilində icra edilmiş yazıları tədqiq edərkən digər dillərdən götürülmüş sözlərin çox işlədilməsinə və onların yazı qaydasına fikir vermək lazımdır. Bundan ekspertizada mühüm eyniləşdirmə əlaməti kimi istifadə olunur.

Azərbaycan dilinin leksikasında müəyyən bir şey ilə bağlı sözlər və ifadələr də vardır. Bu sözlərdən xüsusi peşə sahiblərinin yazılarında istifadə olunur və müəyyən istehsalla əlaqədar predmetlərin fərqləndirilməsinə kömək edir. Məsələn, “çayka” sözü neftçilər arasında bir neçə adla işlədilir ki, bu da ədəbi dildə yoxdur. Leksikanın peşə xüsusiyyətlərinə müəyyən peşə ilə əlaqədar olan hərəkətlərin yerinə yetirilməsini göstərən

MUHASIBAT.AZ

söz birləşmələri də aidir. Məsələn, balıqçılar çox zaman "dənizə getmişdik balığa" ifadəsini işlədirlər.

Azərbaycan dilinin leksikasına şərti olaraq ixtisar edilmiş sözlər də daxildir. Məsələn, "Azərnəşr", "Azərneft".

Tədqiq olunan əlyazmalarda eyni peşə sözlərinin və ifadələrinin işlədilməsi o deməkdir ki, yazının müəllifi müəyyən peşə üzrə xüsusi biliyə malikdir. Bundan da yazıya görə şəxsin eyniləşdirilməsində istifadə olunur.

Çox zaman Azərbaycan ədəbi dilini kifayət dərəcədə bilməyən şəxslərin şifahi və yazılı nitqində hərfi mənasında deyil başqa mənada işlənən söz birləşmələrinə rast gəlmək olur. Məsələn, "Mənim gözüm səndən su içmir", "ağzını təmiz saxla".

Beləliklə Azərbaycan dilinin yuxarıda izah olunan leksik əlamətləri yazını icra edən şəxsin axtarılmasına, habelə yazının tədqiqatı zamanı ekspert tərəfindən müəyyən edilən eyniləşdirmə əlamətlərinin tamamlanmasına çox kömək edir.

**1. Orfoqrafiya əlamətləri**. Orfoqrafiya əlamətlərinə aşağıdakılar daxildir:

a) sözlərin hərf tərkibində, cinsdə olan orfoqrafik səhvlər;

b) dialekt səhvləri;

c) yazını icra edənə tanış olan digər dilin təsirindən irəli gələn səhvlər;

ç) orfoqrafiyanın köhnəlmiş qaydalarının tətbiq edilməsi ilə əlaqədar səhvlər;

d) ikinci hecasında "i" və "yi" tələffüz olunan sözlər yazıda "i" hərfi ilə yazılır. Məsələn, "ayilə" deyilir "ailə" yazılır; "dayirə" deyilir "dairə" yazılır.

**Samit səslərin yazılış qaydalarından** aşağıdakıları göstərmək olar;

a) ilk və ya son samiti "d" və "t" səsləri kimi tələffüz olunan sözlər yazıda "d" hərfi ilə başlayır və ya qurtarır. Məsələn, dükan, diksinmək, dərd, kənd və s.

b) sözlərin sonunda tələffüz zamanı işlədilən "z" hərfi yazıda "s" hərfi ilə, s həfi isə "z" həfi ilə əvəz olunur. Məsələn, Almaz-Almas, palas-palaz, Tovus-Tovuz və s.

c) sonunda "q", "x", "ğ" hərfləri tələfüz olunan iki hecalı sözlər, yazıda "q" hərfi ilə qurtarır. Məsələn, bulağ-bulaq, qaşığ-qaşıq, torpağ-torpaq və s.

**Qoşa sait və samit səsələrinin** yazılış qaydalarının da xüsusiyyəti vardır. Məsələn:

a) birinci və ya ikinci hecasında vurğunun uzadılması məqsədi ilə olan sait səslər qoşa yazılır, Məsələn, maarif, maaş, təbii və s.

b) sözlərin ikinci və ya üçüncü hecasında bir-birinin ardınca gələn sait və samit səslərin hər ikisi qoşa yazılır. Məsələn, təəccüb, təəssüf, məəttəl, təəssürat və s.

Azərbaycan **dilinin orfoqrafiya qaydaları mürəkkəb** sözlərin yazılış qaydasını da müəyyən edir:

a) isim və miqdar sayları ilə əmələ gələn mürəkkəb sözləri birlikdə yazılır. Məsələn, beşmərtəbə.

b) mürəkkəb sözü əmələ gətirən isim və fel birlikdə yazılır: məsələn, anadangəlmə.

c) ayrılıqda götürülən hissəsi məna verməyən və ya başqa məna verən mürəkkəb sözlər defislər yazılır. Məsələn, "qonaq-qara", "kol-kos", "çör-çöp" və s.

ç) şəkilçilərin köməyi olmadan isimlərin əmələ gətirdiyi sözlər birlikdə yazılır. Məsələn, qayınana, əməkgün və s.

d) "xana" və "namə" sözləri ilə əmələ gələn mürəkkəb sözlər birlikdə yazılır: kitabxana vəkalətnamə, Qabusnamə.

MUHASIBAT.AZ

Sadə **isim və sifətdən düzəldilən mürəkkəb sifətlər** birlikdə yazılır. Məsələn, ağbirçək, balacaboy və s.

Tərkibində "öz", "bərabər" və "qoşa" sözləri olan mürəkkəb sifətlər də birlikdə yazılır. Məsələn, azişlənən, bərabərhüquqlu, qoşabuynuz və s.

Azərbaycan dilində yazıları tədqiq edən şəxs həmin dilin orfoqrafiya əlamətlərini bilməlidir. Bu, yazının orfoqrafiya əlamətlərini müəyyən etməkdə kömək göstərə bilər.

**Dialekt səhvləri.** Dialekt-orfoqrafiya səhvləri yalnız müəyyən dialekt şəraitində yazmağı öyrənmiş şəxslərin yazı nitqində müşahidə edilir. Ayrı-ayrı şəxslərin yazı nitqində kifayət qədər sabit olan dialekt səhvlərinə rast gəlmək olar ki, bu da yazıya görə şəxsiyyətin eyniləşdirilməsində az əhəmiyyət kəsb etmir. Xüsusilə həddən artıq təhrif olunmuş xətlə yazılan mətnlər üzrə yazı müəllifinin müəyyən edilməsi çox vaxt dialekt-orfoqrafiya səhvlərinə əsaslanır.

Yazını icra edənə tanış olan digər dilin təsirindən irəli gələn səhvlər. Təcrübədə elə hallara rast gəlmək olur ki, yazı rus dilində icra edilir, lakin orada Azərbaycan dili orfoqrafiyasının təsirindən irəli gələn səhvlər müşahidə olunur. Bu xüsusiyyət vətəndaş Q-nın işi üzrə tədqiq edilən əlyazmasında müəyyən edilmişdir. Rus dilində yazılan həmin mətndə Azərbaycan dili orfoqrafiyasının xüsusiyyətləri ilə bağlı səhvlər buraxılmışdır: "briqadir" sözü "birqadir" yazılmışdır. Bu spesifik orfoqrafiya səhvindən əlyazma müəllifinin şəxsiyyətini eyniləşdirməkdə istifadə olunmuşdur.

**Durğu işarələi əlamətləri.** Durğu işarələrinin lazım olduğu yerdə qoyulmaması sabit səhvlərdən olub, eyniləşdirmədə istifadə edilir. Belə səhvlərə tirenin (-) qoyulması qaydalarının pozulması; həmcins üzvlü cümlələrdə durğu işarələrinin qoyulmaması və s. aiddir. Az və ya orta savdlı şəxslər, adətən yazıda durğu işarələrini qoymurlar ki, bu da yazı müəllifinin müəyyən edilməsinə kömək edən əlamətlərdəndir.

3. **Sintaksis əlamətləri:** buraya cümlənin tipi və cümlədə sözlərin yerləşdirilməsi qaydası aiddir.

**4. Stilistik əlamətlər**: buraya yazının müəyyən stili, məsələn, ədəbi, elmi, məişət, peşə, kərüzarlıq stili və s. daxildir.

**5. Semantik əlaqələr:**

a) sənədin məzmunu;

b) leytmotiv - sənddə ifadə olunmuş əsas fikir.

c) sənədin məzmununu əsalandıran faktiki materillar.

ç) arxitektonika - yəni sənədn quruluşu (giriş, bölmələr, onların yerləşməsi, naticə və s.

## 3. Kriminalistik xətşünaslıq

Əlyazmaların xətşünaslıq tədqiqatı kriminalistik ekspertizanın ən geniş yayılmış növləri sırasına aiddir.

Xətşünaslıq tədqiqatının obyektləri həm əlyazmalar (məktublar, gündəliklər və s.), həm də qısa qeydlər, imzalar və rəqəm yazıları ola bilər.

Şəxsiyyətin eyniləşdirilməsi məqsədilə xəttin xüsusiyyətləri ilə yanaşı yazı nitqinin əlamətlərindən də istifadə oluna bilər. Ancaq xətşünaslıq tədqiqatlarında xəttin əlamətləri əsas rol oynayır.

MUHASIBAT.AZ

**Xəttin əlamətləri.** Xəttin əlamətləri iki qrupa ayrılır: ümumi və xüsusi. **Ümumi əlamətlər xətti bütövlükdə xarakterizə edir, xüsusi əlamətlər isə ayrı-ayrı hərflərin icrası zamanı meydana gəlir**.

**Xəttin ümumi əlamətlərinə** yazı vərdişi; yazının sürəti, yazarkən hərəkətin mürəkkəblik dərəcəsi; yazıda hərflərin ölçüləri; xəttin meyli; hərflər və ya onların elementlərinin bir-biri ilə əlaqələndirilməsi; xəttin düzülüşü və hərflər arasındakı məsafə daxildir.

Yazı vərdişi dedikdə, yazı yazmağı mənimsəmə dərəcəsinin xarakteristikası, habelə bütövlükdə xəttin formalaşma dərəcəsi başa düşülür. **Dərəcəsinə görə vərdiş üç qrupa bölünür: aşağı, orta və yüksək yazı vərdişi**

**Yazı sürəti** - əlyazmanın icra olunma sürətini ifadə edən xəttin əlamətidir. Bu əlamət aşağıdakı növlərdə ola bilər: **adət edilmiş (yüksək, orta və aşağı sürətlər), yavaşlaşdırılmış, tezləşdirilmiş, qeyri-bərabər**.

**Mürəkkəblik dərəcəsinə görə xətlər sadə quruluşlu, bəsitləşdirilmiş** və mürəkkəb quruluşlu xətlərə ayrılır.

**Xəttin ölçüsü dedikdə, ayrı-ayrı hərflərin eni və hündürlüyü nəzərdə tutulur. Hündürlüyü 2 mm-ə qədər olan kiçik; 2 mm-dən 4 mm-yə qədər olan hərflər orta; 4 mm-dən artıq** olan hərflər isə böyük ölçülü hesab olunur.

**Xəttin meyli** dedikdə hərflərin şaquli elementlərinin sərt xəttinə nisbətən yerləşmə vəziyyəti nəzərdə tutulur. Meylinə görə xətlər sağa, sola və düzünə meyl edən xətlərə bölünür.

Hərflərin və ya onların elementlərinin **əlaqəlilik dərəcəsinə görə xətlər kiçik, orta və yüksək** əlaqəli xətlərə bölünür. Yazı alətin kağızdan ayırmamaq şərti ilə altı və ya daha çox işarənin fasiləsiz icra edilməsinə yüksək əlaqəli xətlər, 4 işarənin (hərfin) fasiləsiz icrasına orta əlaqəli xətlər, ondan az sayda işarənin fasiləsiz icrasına kiçik əlaqəli xətlər deyilir. **Yazı hərəkətinin əsas forması: düz xətli, qövsvari, bucaqvari, ilgəkvari, dalğavari.**

**Xəttin xüsusi əlamətləri:** ümumi əlamətlərlə müqayisədə xüsusi əlamətlər daha çox sabitdirlər və onları təhrif etmək çətindir. Bundan əlavə, xüsusi əlamətlərdə yazı-hərəkət vərdişlərinin əlamətləri əks olunur və ona görə də həmin əlamətlər eyniləşdirmə üçün xüsusi əhəmiyyət kəsb edir. Bu əlamətlər aşağıdakı qaydada təsnifləşdirilir: **a) hərflərin quruluşuna görə (sadə, bəsit, mürəkkəb xətlər); b) xəttin icrası zamanı əl hərəkətinin formasına görə (düz xətli, qövsvari, bucaqvari, ilgəkvari, ovalşəkilli, dairəvi); v) hərflərin və ya onların elementlərinin bir-biri ilə birləşmə formasına görə (qövslə, ilgəklə, bucaqla, qayıdış düzxətlə, qayış qövslə); q) hərəkət istiqamətinin nisbiliyinə görə (aşağıdan yuxarı və ya əksinə); ğ) hərflərin elementlərinin hərəkət ölçüsünə görə (şaquli böyüdülmüş və üfüqi böyüdülmüş); d) hərflərin elementlərinin icrasında əl hərəkətlərinin ardıcıllığına görə; e) əl hərəkətlərinin başlanğıc və bitmə nöqtəsinin yerinə görə; c) əl hərəkətlərinin təsir qüvvəsinin - basma qüvvəsinin intensivlik dərəcəsinə görə və s.**

Qeyd etmək lazımdır ki, ekspert təcrübəsində xəttin ümumi və xüsusi əlamətlərinin daha müfəssəl təsnifatından istifadə edilir ki, bu da konkret şəxsin xəttini xarakterizə edən yazı hərəkətlərinin bütün əlamətlərini ardıcıl olaraq təhlil etmək üçün zəruridir.

**Qəsdən dəyişdirilmiş xəttin tədqiqi**

MUHASIBAT.AZ

İstntaq təcrübəsində xəttin qəsdən dəyişdirilməsi hallarına tez-tez rast gəlinir. Cinayətkarlar bu və ya digər mətn yazarkən çalışırlar ki, öz xətlərini dəyişdirərək tanınmaz etsinlər və yaxud da başqasının xəttinə oxşatsınlar.

Bu cür əlyazmaların tədqiqat imkanları və xüsusiyyətləri onların ayrıca öyrənilməsini tələb edir.

Ört-basdır etmək məqsədi ilə öz xəttinin qəsdən dəyişdirilməsinin aşağıdakı müxtəlif növləri fərqləndirilir:

- meylin dəyişdirilməsi - xəttin işarələrinin sağdan sola və ya şaquli vəziyyətə, bəzi hallarda isə şaquli vəziyyətdən və ya sola meyldən sağa dəyişilməsi;
- ümumi əlamətlərin və onların məcmusunun dəyişdirilməsi - hərf və rəqəmlərin ölçüsünün, əlaqələrin, topoqrafik əlamətlərin və s. dəyişdirilməsi;
- quruluşun və xüsusi əlamətlərin dəyişdirilməsi - xəttin konstruktiv mürəkkəbliyinin və bununla əlaqədar digər ümumi və xüsusi əlamətlərin dəyişdirilməsi;
- yazının səriştəli dəyişdirilməsi - xəttin kriminalistik ekspertizasının metodikası ilə tanış olduqda və əlyazmanın dəyişdirilmiş xətlə icra etməyi məşq etdikdən sonra xəttin dəyişdirilməsi;
- yazı alətin tutma üsulunun dəyişdirilməsi - barmaqların yazı alətinin ucundan uzaq məsafədə və ya qeyri-adi formada yerləşməklə tutmaqla icra olunmuş əlyazmalar;
- yazan əlin dəyişdirilməsi (vərdişsiz soləlli yazı) sol əllə yazmağa vərdiş edilmədən icra olunmuş soləlli xətt özünəməxsus təhrif olunmuş (çox və ya az dərəcədə) adi xətdir. Əsas əlaməti "güzgü əksliyidir", yəni yazı işarələrinin bütövlükdə və yaxud onun hissələrinin icrası zamanı hərəkətin adi istiqamətinin əksinə dəyişdirilməsindən ibarət olan xətt əlamətləridir ki, onun nəticəsində yazı işarələri, yaxud onların elementləri güzgüdə əks olunmuş kimi görünür;
- çap hərflərlərinə oxatma və ya stilləşdirilmiş (xüsusi şriftli) yazı - xəttin mətbəə çap şriftlərinə oxşadılmaqla dəyişdirilməsi və ya xüsusi şriftli (çertyoc, kitabxana, memar və s.) yazı;
- aşağı vərdişli xəttə oxşatma - hərəkət avtomizmi səviyyəsinin aşağı salınması, adət olunmuş əlaqənin qismən pozulması və icra olunmuş sürətinin yavaşdırılması, yazı işarələrinin quruluşunun xeyli sadələşdirilməsi ilə və bunula da əlyazmalarda yazı vərdişinin düşməsi əlamətləri meydana çıxır və onlar zahirən az savadlı şəxs tərəfindən icra olunmuş əlyazmalarına bənzəyir;
- məktəbli yazılarına oxşatma yazı qaydalarına riayət olunmaqla və yazı sürəti aşağı salınmaqla yazmağa yeni öyrənən ibtidai sinif şagirdlərinin xəttini təqlid etmə;
- başqa şəxsin xəttinə oxşadılma - başqa şəxsin xəttinə xas olan ümumi quruluşun və əlamətlərin (ümumi və xüsusi) əks etdirilməsi.

Qəsdən öz xəttini dəyişdirməklə icra olunan əlyazmalarının tədqiqi zamanı ekspert ilk növbədə qəsdən dəyişdirilmə faktını və növünü müəyyən etməlidir. Sonrakı tədqiqat müəyyən edilmiş əlamətlər qrupu üzrə aparılır. Burada əsas diqqət mətnin dəyişdirilməmiş adi xətlə icra olunan fraqmentlərinə yönəldilməlidir. Bu zaman tədqiq olunan mətnlərdə iki qrup əlamətlər müəyyən edilməlidir.

**İmzaların tədqiq edilməsinin xüsusiyyətləri**

MUHASIBAT.AZ

İmzaların tədqiqi metodikası prinsip etibarı ilə mətn yazılarının tədqiqiqndən fərqlənir.İmzalar transkripsiyadan asılı olaraq üç növə bölünür: hərflərdən ibarət imzalar, müəyyən ştrixlərdən ibarət olan imzalar, qarışıq (hərflərdən və ştrixlərdən)

İmzaları saxtalaşdırmanın müxtəlif üsulları vardır. Bu məsələ həll edildikdən sonra yazı nitqinin əlamətləri tədqiq olunur. Azərbaycan dilində icra olunan imzaların tədqiqi göstərir ki, bir çox hallarda adından imza edilmiş şəxslər öz imzasını icra edərkən səhvlərə yol verirlər. İmzalarda yol verilən orfoqrafiya səhvləri sabit ola bilər. Müqayisə olunan imzalarda bu səhvlərin təkrar edilməsi mühüm eyniləşdirmə əhəmiyyəti kəsb edə bilər.

Bəzən başqasının adından imza edən şəxs də orfoqrafiya səhvlərinə yol verir. Məsələn, şəxs Azərbaycan orfoqrafiyasının təsiri ilə saxtalaşdırdığı imzada orfoqrafiya səhvlərinə yol verir. Tədqiq olunan imza "Крapüov" hərflərindən və xətlərdən ibarət idi. Bu imza saxtalaşdırılarkən "v" hərfinin əvəzinə "p" hərfi yazılmışdır.

Daha sonra, imzanın sənəddə başqa hissələrə nisbətən yerləşdirilməsi xüsusiyyətlərini xarakterizə edən topoqrafik əlamətlər tədqiq olunur.

İmzaların tədqiq zamanı tətbiq edilən xəttin əvvəldə göstərilən xüsusi əlamətləri tətbiq edilir. Lakin bu əlamətlərə aşağıdakılar da əlavə olunur:

a) İmzanın ayrı-ayrı hissələrinin nisbi ölçüləri (monoqramlar, xətlər, bəzəyici ştrixlər);

b) imzanın elementlərinin nisbi yerləşdirilməsi;

v) imzanın bucaq əmələ gəlmiş hissələrində bucaqların ölçüsü;

q) İmzadakı xətlərin istiqaməti, forması və ölçüsü;

d) İmzada monoqramların icra edilməsi xüsusiyyətləri (forması, istiqaməti, birləşdirmə üsulu, nisbi ölçüləri və s.).

İmzaların əlamətlərinin təsnifi heç də göstərilənlərlə məhdudlaşmır. Təcrübədə bu əlamətlərə əlavələr edilməsi mümkündür (məsələn, imzada hərfin olmaması və onun yalnız ştrixlərdən, cizgilərdən ibarət olması, şərti transkripsiyası olan imzalar və s.).

### 4. Xətşünaslıq ekspertizası üçün materillarıın hazırlanması

Ekspertizanın təyin edilməsi və ekspertiza üçün materialların hazırlanması çox zaman müxtəlif hərəkətlərin edilməsini, ayrı-ayrı materilların axtarılmasını, çoxlu nümunələrin hazırlanması və müəyyən məlumatların çatdırılmasını tələb edir.

Müstəntiq və məhkəmə ekspertizanın təyin edilməsinə qədər istintaq hərəkətlərinin aparılması ilə toplanılan bütün sübutları dərindən öyrənilməlidir.

Yazının kriminalistik ekspertizası predmetinin müəyyən edilməsi. Ekspertizaya hazırlığın bu mərhələsində xətt ekspertizasının predmeti ümumi formada müəyyən edilir.

İş üzrə ekspertiza predmetini müəyyən etdikdən sonra müstəntiq və ya məhkəmə ekspertiza obyekti üzrə konkret (dəqiq) sullar hazırlamalıdır. Bu zaman müstəntiq və ya məhkəmə məhz hansı maddi sübütların xətt ekspertizasına göndərilməsinin zəruri olduğunu da müəyyən etməlidir. Daha sonra hansı nümunələr və digər materialların toplanması məsələsi həll olunmalıdır. Azərbaycan Respublikası CPM-in 273-cü maddəsinə (tədqiqat üçün nümunələrin götürülməsi) müstəntiq tədqiqat üçün nümunələri götürməlidir.

Bilavistə nəyin tədqiq edildiyindən (xəttin, imzanın, rəqəmlərin və s.) asılı olaraq müqayisəli tədqiqat üçün məhz müvafiq nümunələr hazırlanmalıdır. Müqayisəli tədqiqat

MUHASIBAT.AZ

üçün hazırlanan xətt materiallarının nümunələri iki qrupa ayrılır: sərbəst və eksperimental nümunələr.

Nümunələrə qarşı irəli sürülən əsas ümumi tələb onların etibarlı olmasıdır, yəni ki, onların tədqiqat olunan mətni yazmış şəxsə mənsub olmalıdır. Digər tələb ondan ibarətdir ki, yazı nümunələri müqayisə üçün müəyyən xüsusiyyətlərə malik olmalıdırlar. Belə ki, nümunələr tədqiq edilən sənədin imkan qədər dilinə, yazılma vaxtına, yazı materiallarına və vasitələrinə, mahiyyətinə, məqsədinə və s. uyğun olmalıdır. Bundan əlavə, yazı nümunələri tam olmalıdır, yəni şübhə edilən şəxsin yazı xəttinin bütün variantlarını özündə əks etdirməlidir. Zamanına görə sərbəst nümunələr tədqiq olunan sənədin tərtib olunduğu vaxta yaxın olmalıdır. Bu xüsusilə o hallarda vacibdir ki, tədqiq olunan mətnin müəllifi təhsilini və yaxud xüsusi hazırlığını davam etdirir. Çünki bu zaman həmin şəxsin yazı vərdişləri, söz ehtiyatı (leksikonu) dəyişə bilər.

**Sərbəst xətt nümunələri** elə nümunələrdir ki, onlar müəyyən şəxs tərəfindən müstəqil yazı prosesində (heç bir məcburiyyət olmadan) cinayət və ya mülki işin qaldırılmasından qabaq və onunla əlaqədar olmadan icra edilir. Sərbəst nümunələr öz məzmununa görə maddi sübut olan sənədə imkan dairəsində uyğun gəlməlidir. Yəni həmin nümunələrdə olan sözlər və ya rəqəmlər məhz tədqiq olunan sənəddəki sözlər və ya rəqəmlərdən olmalıdır. Yaxşı olar ki, sərbəst xətt nümunələri öz məzmununa görə tədqiq olunan sənədə uyğun olan sənəddən götürülsün. Məsələn, mətnin həcminə görə böyük olan böhtan xarakterli imzasız məktub tədqiq olunarsa, burada təkcə qrafik əlamətlər deyil, habelə yazı nitqinin əlamətləri də müəyyən edilməlidir.

Sərbəst xətt nümunələri imkan dairəsində tədqiq edilən yazının olduğunu blankda və vərəqədə olmalıdır. Bu nümunələr tədqiq olunduğu sənədin yazıldığı yazı vasitələri ilə yazılmış xətdən götürülməlidir. Sərbəst imza nümunələri imkan dairəsində çox 10, 15, 20 və s. vərəqdə götürülməlidir. **Rəqəmlərdən ibarət yazıların** tədqiqatı üçün də sərbəst rəqəm yazısı nümunələri çox götürmək lazımdır. Bu onunla izah edilir ki, rəqəm yazıları, olduqca qısa və qrafik materialın həcminə görə məhdud olur.

**Ekspermental nümunələr diqtə** edilməklə icra olunan yazı nümunələrindən, müəyyən növ şriftlə icra edilmiş nümunələrdən, konkret şəraitdə icra olunmuş nümunələrdən və s. ibarət ola bilər.

Eksperimental nümunələr müstəntiq və ya məhkəmə tərəfindən müvafiq qaydalarda təqsirləndirilən şəxsdən alının nümunələrdir. Məsələn, hər hansı bir hadisə barədə izahat, şəxsin tərcümeyi-halı və s. yazdırılır.

Diqtə edilməklə eksperimental yazı nümunəsi müstəqil nümunə alındıqdan və buna ciddi olaraq hazırlaşdıqdan sonra alınmalıdır. Diqtə ediləcək mətni qabaqcadan hazırlamaq zəruridir.

Müəyyən növ şriftlə yazılan nümunələr tətdqiq edilərsə eksperimental nümunələr də şübhə edilən şəxsdən və ya təqsirləndirilən şəxsdən həmin növ şriftlə (məsələn, çap hərfi ilə, çertyoc şriftləri ilə və s.) götürülməlidir.

Çox zaman eksperimental imza nümunələrinin alınması lazım gəlir. Belə nümunələrin götürülməsi qaydası əsasən xətt nümunələrində olduğu kimidir. Əgər ekspertiza tədqiqatının obyekti imza müəyyən qrafada və ya sətirdədirsə, onda nümunə-imzalar da həmin yerlərdə götürmək lazımdır.

MUHASIBAT.AZ

Müəyyən bir şəxs digərinin imzasını icra etməkdə şübhə edilirsə, onda həmin şəxsə təklif edilir ki, ayrı-ayrı vərəqlərdə imzası tədqiq olunan şəxsin soyadını bir neçə dəfə yazsın. Bu zaman hər birində 3-5 dəfə soyadı yazılmış 10-15 vərəqə götürmək kifayətdir.

Sərbəst rəqəm yazısı nümunələrindən başqa eksperimental rəqəm yazı nümunəsinin də götürülməsi tədqiqat üçün vajibdir. Əgər tədqiq edilən rəqəm yazısı müəyyən pul sənədləri üzərindədirsə, onda eksperimental nümunə də həmin sənədin blankında götürülməlidir.

Yazının kriminalistik ekspertizasına göndərilən materiallarda xətlərin nümunələri göndərilən bütün adamların şəxsiyyəti haqqında məlumat olmalıdır. Ekspert yazını icra etməkdə şübhə edilən şəxsin adı, soyadı və atasının adı, anadan olduğu il, ictimai mənşəyi, təhsili, milliyyəti, ixtisası, xarici dilləri bilməsi, eynəkdən istifadə etməsi, bundan əlavə hər hansı xəstəliyin olması (xüsusilə əsəb xəstəliyi və yaxud barmaqların xəstəliyi), sağ və sol əl ilə yazması haqda məlumata malik olmalıdır. Şəxs haqda digər məlumatları da ekspertə vermək olar. Məsələn, şəxsin spirtli içgi içməsi və ya narkotik maddələr qəbul etməsi haqda məlumat.

**5. Xətşünaslıq tədqiqatının metodikası**

Xəttin kriminalistik tədqiqatı üç əsas mərhələdən ibarətdir; a) ayrılıqda tədqiqat; b) müqayisəli tədqiqat; v) müəyyən edilmiş uyğunluqlar və müxtəlifliyin qiymətləndirilməsi.

Ayrılıqda tədqiqat zamanı xəttin dəyişdirilməsi əlamətlərinin olub-olmadığı aydınlaşdırılır. Əlyazmasını tədqiq edən ekspert ilk növbədə yazının qeyri-adi icra edilməsi əlamətələrini müəyyən etməlidir.

Təhrif edilmiş xətt tədqiq edilərkən (əgər yazı çap şriftlərinə oxşatmaqla icra edilmişsə) yazının ayrılıqda təqiqatı mərhələsində əsasən iki qrup əlamətlər müəyyən olunmalıdır; a) yazı işarələrinin ümumi qruluşunun dəyişdirilməsi nəticəsində əmələ gələn xətt əlamətləri (çap yazısı xəttinin əlamətləri); b) yazını icra edən şəxsin normal yazısına məxsus olan və sabitliyi nəticəsində tədqiq olunan yazıda özünü göstərən əlamətlər.

Xəttin qəsdən təhrif edilməsi də mümkündür. Bu zaman hərflərin əlaqələndirmə dərəcəsinin aşağı olduğu hiss olunur. Belə ki, hərflərin ölçüləri müxtəlif olur, hərflərin meylində sabitlik hiss edilmir, hərfləri əmələ gətirən düz xətlərdə sınmalar hiss olunur və s.

Xəttin təhrif olunması əlamətlərinin müəyyən edilməsi və ekspert rəyində onların ətraflı şərh olunması müqayisəli tədqiqat mərhələsində uyğun gələn və fərqlənən əlamətlərin düzgün qiymətləndirilməsinə kömək edir.

Azərbaycan dilində icra olunan əlyazma və ya imzaların ayrılıqda tədqiqatı zamanı ilk növbədə yazı nitqinin əlamətləri müvafiq təsnifata uyğun olaraq öyrənilir. Azərbaycan dilində olan əlyazmasının tədqiqatı zamanı peşə ilə əlaqədar olan sözləri, arxaizmləri, dialekt xüsusiyyətlərini, başqa dildən götürülmüş qarşılıqlı sözləri, adət halına keçmiş orfoqrafiya səhvlərini, habelə dialekt orfoqrafiyası səhvlərini ayırmaq və öyrənmək lazımdır. Bunlar sonradan yazı icra edənin müəyyənləşdirilməsinə kömək edə bilər.

Ayrılıqda aparılan tədqiqatın obyektini rəqəm yazısı təşkil etdikdə müvafiq əlamətlər Azərbaycan rəqəm yazısının spesifik cəhətləri nəzərə alınmaqla müəyyən edilməli və təhlil olunmalıdır.

Azərbaycan dilində olan yazıların ayrılıqda tədqiqatı zamanı ilk növbədə Azərbaycan yazısının qüvvədə olan qaydalarına nisbətən qeyri-adi görünən əlamətlər müəyyən edilməli,

MUHASIBAT.AZ

sonradan isə müvafiq təsnifata uyğun olaraq yazı nitqinin əlamətləri təhlil olunmalıdır. Hər şeydən əvvəl, mətnin məzmunu, yazı nitqinin əlamətləri, topoqrafik əlamətlər, ümumi əlamətlər, sonradan isə xəttin xüsusi əlamətləri öyrənilməlidir. Xüsusi əlamətləri əlifba hərflərinin tətbiqinə əsasən tədqiq etmək məsləhətdir. Bu zaman hər bir hərfdə əks olunan xüsusi əlamətlər müəyyən edilməlidir. Aydın görünməsi və yadda qalması üçün xüsusi əlamətlər ayrıca cədvəldə göstərilir və həmin əlamətlər oxlarla işarə edilir.

Müqayisəli tədqiqat. Yazının kriminalistik ekspertizanın mühüm mərhələsidir. Bu mərhələdə ayrılıqda tədqiqat zamanı müəyyən edilən eyni adlı eyniləşdirmə əlamətləri müqayisə edilir, aşkar edilmiş uyğunluqlar və fərqlər qiymətləndirilir.

Mətn tədqiq olarkən müqayisəli yazı əlamətlərindən başlamaq məqsədəuyğundur. Bu cür müqayisə təhrif olunmuş xətlə, çap hərflərinin şriftləri ilə, habelə sol əllə icra edilən yazıların tədqiqatı zamanı daha mühüm əhəmiyyət kəsb edir.

Yazı nitqinin əlamətlərindən sonra topoqrafik əlamətlər müqayisə edilir

Öz həcminin böyüklüyünə görə xəttin ümumi xarakteristikası əlamətlərinin, habelə ümumi və xüsusi əlamətlərin müqayisəsi xüsusi ilə fərqlənir. Müqayisəni xəttin ümumi xarakteristikasından, o cümlədən yazı vərdişindən başlamaq məsləhətdir. Təkcə bu əlamətin uyğun gəlməməsi, hətta digər əlamətləri öyrənmədən də eyniliyin olmaması haqda nəticə çıxarmağa imkan verə bilər. Tədqiq olunan mətn və ya imza yüksək vərdişli hərəkətlərlə, müqayisə nümunələri isə orta və ya aşağı vərdişli hərəkətlərlə icra olunmuşsa, onda bu müxtəliflik eyniliyin olmaması barədə qəti nəticə çıxarmaq üçün kifayət edə bilər. Lakin müqayisə zamanı ümumi əlamətlərin müxtəlifliyinin aşkar edilməsi eyniliyi inkar etmək üçün tam əsas deyildir. Çünki ümumi əlamətlər yazını icra edənin iradəsindən asılı olaraq asanlıqla dəyişdirilə bilər. Ona görə müqayisəli tədqiqat mərhələsində əsas diqqət xüsusi əlamətlərin müqayisəsinə verilməlidir. Yazını icra edən tərəflərdən xüsusi əlamətlərin dəyişdirilməsi çətindir, əksər hallarda isə mümkün deyildir.

Müqayisəli tədqiqat mərhələsində xüsusi əlamətlərin müqayisəsi də ayrılıqda tədqiqat zamanı tətbiq olunan ardıcıllıqla həyata keçirilməlidir.

Xəttin müqayisəli tədqiqatı prosesində ekspert çox zaman eyni şəxsin icra etdiyi tədqiq olunan və müqayisə nümunəsi yazılarına həm uyğun gələn, həm də uyğun gəlməyən əlamətləri müəyyən edir. Bu uyğunluq və müxtəlifliyi öyrənən ekspert, onların xparakterik olduğunu və yaxud təsadüf xarakter daşıdığını da müəyyən etməlidir. Ekspert həm uyğun gələn, həm də müxtəlif olan əlamətləri fikrən bir qrupda birləşdirərək onları yazının fərdiliyi üçün kifayət etmək baxımından qiymətləndirir. Beləliklə, ekspert, tədricən yazını icra edənə məxsus fərdi - xarakterik cəhətlər toplayır və bunun əsasında da eynilik haqqında müəyyən nəticəyə gəlir. Deməli, yazının müqayisəli tədqiqatı zamanı eyniləşdirmə əlamətləri aşağıdakı keyfiyyətlərə malik olmalıdır: xarakterlik, sabitlik, az təsadüf edilmək, özünəməxsus forma və ölçü, yerləşdirmə qaydası, digər əlamətlərlə spesifik uyğunluq təşkil etmək.

Deyilənlərdən o nəticəyə gəlmək olar ki, eyniliyin olub-olmaması məsələsi ekspert tərəfindən əlamətlər kompleksinin qiymətləndirilməsi ilə həll edilir. Ekspert yazının icraçısı və müəllifi haqqında konkret nəticəyə gəlmək üçün müəyyən edilmiş uyğun gələn əlamətlərin kifayət edilməsi məsələsini həll edərkən uyğun gəlməyən əlamətləri də göstərməli və aydınlaşdırılmalıdır. Yazını icra edən haqqında yalnız sabit və fərdi əlamətlərin məcmusuna əsaslanmaqla nəticə çıxarmaq olar. Ona görə ki, yalnız həmin əlamətlərin

MUHASIBAT.AZ

məcmusu fərdi və təkrar edilməz olub, müəyyən şəxsə məxsus olan yazı vərdişi sistemi haqqında mülahizə söyləməyə imkan verər.

Yazı tədqiqatı üzrə ekspertizanın nəticələrini qiymətləndirərkən əlamətlərin təkcə keyfiyyətinə deyil, habelə hər bir əlamətin eyniləşdirmə üçün əhəmiyyəti olan kəmiyyət cəhətinə də diqqət yetirməlidir. Bu zaman riyazıi statistikanın göstərişlərindən istifadə olunmalıdır.

Beləliklə, xətşünaslıq tədqiatı vasitəsilə həll edilən əsas məsələ əlyazmanın icraçısının şəxsiyyətinin eyniləşdirilməsidir. Bununla yanaşı, kriminalistikada yazının diaqnostik tədqiqatları metodikaları da işlənib hazırlanmışdır və bu tədqiqatların vasitəsilə əlyazmanın icrası şəraitinə, icraçının vəziyyətinin xarakterinə, yazının təhrif edilmə üsulu da, icraçının cinsinin müəyyən edilməsinə və s. aid məsələlər həll edilə bilər.

Hazırda icraçının psixo-fizioloji, peşə, təhsil, intellektual və digər xarakterik xüsusiyyətlərinin müəyyən edilməsi üzrə nəzəri və eksperimental tədqiqatlar aparılır.

Xətşünaslıq tədqiqatlarında elmi-texniki tərəqqinin nailiyyətləri geniş təbiq edilir, riyazi, kibernetik və s. metodlardan istifadə olunur.

### 6. Kriminalistik müəllifşünaslıq

Müəllifşünaslıq ekspertizasının predmeti sənədin və cinayət işinin digər materiallarının mətnini tədqiq etməklə müəllifin şəxsiyyəti haqqında məlumatları müəyyən etməkdən ibarətdir. Ekspert tədqiqatının bilavasitə obyekti yazılı nitqdən və onda öz əksini tapmış yazı vərdişlərindən ibarətdir. Müəllifşünaslıq ekspertizası diaqnostik və eyniləşdirmə xarakterli məsələləri həll edir. Diaqnostika obyektlərin və hadisələrin mahiyyətini və vəziyyətini dərk etməyə kömək edir. Ümumiyyətlə, o, dərketmə fəaliyyətinin bir formasıdır. Müəllifşünaslıqda diaqnostik məsələləri həll etmək üçün tədqiq olunan mətnin yazı nitqinin əlamətlərinin məcmuu müəyyən edilməlidir. Bu əlamətlər sənədin mətninin struktur xüsusiyyətlərindən ibarətdir və müəllifin şəxsiyyəti haqqında müəyyən məlumatlar almağa imkan verir (ana dili, dil vərdişlərinin formalaşdığı yer haqqında və s.).

Şəxsiyyətin formalaşma şəraitlərinin özünəməxsusluğu hər bir insanın dil və intellekt vərdişlərinin fərdiliyi və təkrar olunmazlığını şərtləndirən bir sıra nitq-təfəkkür xüsusiyyətlərinə malik olmasına səbəb olur.

Bu, mətnin müəllifinin eyniləşdirilməsini və diaqnostik məsələlərin həllini mümkün edən yazı-nitq əlamətlərindən ibarətdir. Müəllifşünaslıq ekspertizasında mətn dedikdə eyni bir fikirlə əlaqəli olub müəllifin xüsussiyyətlərinin və vəziyyətinin kriminalistik tədqiqi üçün material ola biləcək cümlələrin məcmuu başa düşülür. Tədqiq olunan mətnin həcmi 500 sözdən az olmamalı və müstəqil nitq hissələrini (isim, sifət, fel və s.), bağlayıcı və şəkilçiləri, durğu işarələrini özündə ehtiva etməlidir. Belə tədqiqat obyektləri məktub, ərizə, izahat, rəy, məqalə, tərcümeyi-hal və s.-dən ibarət ola bilər.

Məhkəmə-müəllifşünasılıq ekspetizası həm eyniləşdirmə, həm də diaqnostik xarakterli məsələləri həll edir. Birinci qrupa sənəd, onun ayrı-ayrı hissələrinin və ya bir neçə sənədin müəllifinin müəyyən edilməsi (eyniləşdirilməsi) daxildir. Bu məsələnin həll edilməsi axtarış üçün mühüm əhəmiyyət kəsb edir. Diaqnostik məsələlərlə yazının qəsdən dəyişdirilməsi, sənədinin mətninin yazıldığı şərait, təhsil və savad səviyyəsinin, müəllifin qrup mənsubiyyətinin (ana dili, təhsili və s.) aydınlaşdırılması üçün əhəmiyyət kəsb edən faktların

MUHASIBAT.AZ

müəyyən edilməsi aiddir. Müəllifşünaslıq ekspertizasında eyniləşdirmə tədqiqatının müvəffəqiyyətlə aparılması əsasən müqayisə üçün tolanmış sərbəst və eksperimental nümunələrin keyfiyyətindən və həcmindən asılıdır.

Sərbəst nümunələr (cinayət işi ilə əlaqəli olmayan) aşağıdakı keyfiyyətlərinə görə tədqiq olunan mətnə uyğun olmalıdır: 1) yazıldığı dilə; 2) icra edildiyi vaxta; 3) stilinə; 4) ünvanına; 5) müəllifin vəziyyətinə.

Eksperimental yazı nümunələri yoxlanılan şəxs tərəfindən sərbəst inşa formasında yazılır. Bu zaman diktə etmə və ya köçürmək olmaz. Əks halda mətni icra edənin yazı vərdişləri özünü büruzə verməyəcəkdir. Əvvəlcə inşa yoxlanılan şəxsin sərbəst seçdiyi mövzuda icra edilməlidir. Sonra isə müstəntiqin təklif etdiyi mövzuda inşa yazılır. Ekspertizaya təklif olunan materialın təxminən həcmi 25-30 səhifə (sərbəst və eksperimental) olmalıdır.

Ayrı-ayrı sözlər, söz birləşmələri və hətta cümlələr müqayisə nümunəsi ola bilməz. Bütün hallarda müəllifşünaslıq ekspertizasının aparılması üçün ekspertə qərarda və ya qərardadda aşağıdakı məlumatlar verilməlidir: 1) haradan göndərilməsi, harada aşkar edilməsi, icra edilmə vaxtı və şəraiti; 2) yoxlanılanın şəxsiyyəti haqqında (cinsi, yaşı, milliyyəti, sosial vəziyyəti, təhsili, peşəsi, ana dili, yaşayış yeri, tədqiq olunan sənədin icrasının güman edildiyi vaxtda yoxlanılan şəxsin psixi, xroniki, alkoqol qəbul etməsi və digər ağır xəstəlik keçirməsi; 3) əgər sənəd şəxsi məktub kimi ünvanlanıbsa, ona həmin şəxsin haqqında sosial-bioqrafik məlumatlar ehtimal olunan müəllifə tanış olub, olmaması, nə vaxtdan tanışdırlar və tanışlığın xarakteri.

MUHASIBAT.AZ

## MÖVZU 12. SƏNƏDLƏRİN TEXNİKİ-KRİMİNALİSTİK TƏDQİQATI

**P L A N**

1. Sənədlərin texniki kriminalistik tədqiqinin anlayışı və vəzifələri
2. Sənədin saxtalaşdırılmasının müəyyən edilməsi
3. Zədələnmiş sənədlərin məzmununun bərpa edilməsi
4. Mətnin yazıldığı alətin və sənədin materialların qrupının mənsubiyyəti və fərdi eyniliyinin müəyyən edilməsi

**İstifadə edilmiş ədəbiyyat**

1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Белкин Р.С. Курс криминалистики в 3 т. Т. 1: Общая теория криминалистики. М.: Юристь, 1997.

6.Ищенко Е.П., Егоров Н.Н. Криминалистика для следователей и дознавателей. М.,2010.

7.Судебно-почерковедческая экспертиза (общая часть).М.,1989.

8.Федосеева В.Б., Золотова Т.Н. Основные правила поготовки материалов для производства судебно-почерковедческой экспертизы. М.,1980.

9.Мерецкий Н.Е.,Милованова М.М.,Федотов И.С.Проведение судебных экспертиз:криминалистическое обеспечение. Москва-Воронеж, 2004.

### 1. Sənədlərin texniki kriminalistik tədqiqinin anlayışı və vəzifələri

Ayrı-ayrı cinayət işləri üzrə istintaq və məhkəmə bıxışı zamanı müstəntiq və məhkəmə bir çox hallarda kriminalistik ekspertizanın bir növü olan sənədlərin texniki ekspertizasının köməyindən istifadə edirlər.

Sənədlərin texniki-kriminalistik tədqiqi eyniləşdirmə və diaqnostik xarakterli məsələləri həll edir.

MUHASIBAT.AZ

Pozulmuş yazıların aşkar edilməsi üçün kompleks fiziki-kimyəvi metodlardan istifadə edilir. Həmin metodlar vasitəsi ilə zəif görünən xətlər gücləndirilərək aşkar edilir, spektrin görünən və infraqırmızı sahələrində ilkin mətnin lüminssensiyası aşkarlanır.

Pozma xətlər üzrə həyata keçirildiyi hallarda ilkin mətnə baxış  zamanı yanakı və keçici işıqda şəkilçəkmə vasitəsilə müəyyən oluna bilər.

Sənədləri tədqiq edən müstəntiq və mütəxəssisin qarşısında duran məqsəd və vəzifələrindən asılı olaraq sənədlərin kriminalistik tədqiqi iki növə ayrılır: sənədlərin texniki-kriminalistik tədqiqi, yazının kriminalistik tədqiqi.

Ayrı-ayrı cinayət işləri üzrə istintaq və məhkəmə baxışı zamanı müstəntiq və məhkəmə bir çox hallarda kriminalistik ekspertizanın bir növü olan sənədlərin texniki ekspertizasının köməyindən istifadə edirlər.

Sənədlərin texniki-kriminalistik tədqiqatının vəzifələri aşağıdakılardan ibarətdir.

Sənədlərin tam və ya hissəvi saxtalaşdırılmasını (pozma, kimyəvi maddələrlə pozma, əl ilə və ya makinada əlavə etmə), habelə imzaların, möhür və ştampların (surətinin) saxtalaşdırılmasını aşkar etmək;

2. Saxtalaşdırılmış və ya zədələnmiş sənədin məzmununu və xarici görkəmini bərpa etmək.

3. Sənədin materialının və ya onun icra edildiyi texniki vasitənin qrup mənsubiyyəti və fərdi eyniliyini müəyyən etmək.

## 2. Sənədin saxtalaşdırılmasının müəyyən edilməsi

Sənədi saxtalaşdıran şəxslər kimyəvi və ya mexaniki yolla pozma, yaxud yazıya əlavə etmə üsulundan istifadə edilir.

Kimyəvi pozma zamanı mətn kimyəvi reaktiv vasitəsi ilə pozulur. Kimyəvi reaktiv vasitəsi ilə pozmanın əlamətlərinə vərəqə səthinin dəyişilməsi aiddir. Pozulma yerlərində vərəqənin parlaqlığı itir. Sənədin ayrı-ayrı hissələrində mürəkkəb yayılmaları, yazı ştirxlərinin dəyişməsi, vərəqə torunun və ya xətlər əmələ gəlir. Bundan başqa pozulmuş mətnin ayrı-ayrı ştrixləri də müşahidə oluna bilər. Kimyəvi reaktivlə pozulma əlamətini aşkar etmək üçün tədqiqatı müvafiq işıqlanma şəraitində lupa altında aparmaq zəruridir. Sənədələrin tədqiqinin ultrabənövşəyi şüalar altında aparılması yaxşı səmərə verir. Bu zaman kimyəvi reaktivin təsir göstərdiyi yer digər rəngin luminissensiyası üzrə reaktivin təsir etmədiyi sahə ilə müqayisə əsasında müəyyən edilir. Kimyəvi pozulmaları aşkar etmək üçün kimyəvi üsullardan da istifadə olunur, lakin kimyəvi üsuldan istifadə edilməsi sənəddə elə dəyişiklik əmələ gətirə bilər ki, sonradan onun tədqiqi mümkün olmaz. Odur ki, kimyəvi üsuldan az hallarda istifadə olunur.

**Pozma** - sənədin mətninin mexaniki olaraq dəyişdirilməsidir və dəyişdirilmənin əlamətləri aşağıdakılardır: pozulan sahədə vərəqənin köhnəlməsi hiss olunur ki, bu da lupa vasitəsi ilə yandan düşən işıq altında müəyyən edilir; vərəqə nazikləşir. Bu da vərəqəni işığa tutub baxmaqla hiss olunur; bəzən vərəqə torunun ştrixləri və xətlər pozulur; çox hallarda pozulan yerdə hərf və ya rəqəmlərin qalıqları (müəyyən hissələri) qalır; pozulan yerdə yeni mətn yazıldıqda mürəkkəbin yayılması müşahidə olunur.

MUHASIBAT.AZ

Pozma əlamətləri sənədlərin dağılan, bucaq altında, yanakı düşən və keçici işıqda müxtəlif böyütmə imkanlarına malik olan lupa və mikroskoplardan istifadə etməklə tədqiqi ultrabənövşəyi şüalar vasitəsi ilə aşkar edilir.

Pozulmuş mətnləri aşkar etmək üçün kompleks fiziki-kimyəvi metodlardan istifadə edilir. Spektrin həm görünən, həm də infraqırmızı sahələrində yerləşdirilməklə ilkin mətnin görünməyən xətləri lüminssensiya olunur və mətnin oxunması mümkün olur. İlkin mətnin ayrı-ayrı xətlərinin pozulduğu hallarda ona baxış, fotoşəkilçəkmə, yankı düşən və ya keçici işıq vasitəsi ilə aşkar etmək olar.

**Yazıya əlavə**. Saxtalaşdırmanın bu üsülü sənədin məzmununu dəyişdirmək məqsədi ilə mətnə müəyyən ştirxlər (cizgilər), hərflər, rəqəmlər və ya sözlər əlavə edilməsindən ibarətdir. Mətnə əlavə edilməsini müəyyən etmək üçün xətti və texniki-kriminalistik tədqiqat aparılmadır. Birinci halda sənədin mətninin eyni şəxs tərəfindən icra olunduğunu müəyyən etmək olar. Lakin bu, o zaman mümkündür ki, əlavə yazıda müqayisə üçün qrafik əlamətlərinin sayı kifayət qədər olsun.

Yazıya əlavəni aşağıdakı əlamətlərə görə müəyyən etmək olar: mətnin yerləşdirilməsi xüsusiyyətlərinə görə - yazıya əlavə edən şəxs boş yerlərin ölçüsü məhdud olur və həmin hissədə yazmağa məcbur olur ki, bu da sözlər və hərflər arasında intervalın kiçik olmasını səbəb olur; əsas və əlavə mətn ştrixlərinin yazı vasitələrinin (mürəkkəbin) müxtəlif olması; sənədin kəmiyyət göstəriciləri arasında uyğunsuzluğun olması.

Yazıya əlavəni ştrixlərin vəziyyətini öyrənməklə də müəyyən etmək olar. Belə ki, sonradan yazılmış ştrixlər əvvəl yazılan ştirxlərin üzərinə düşür. Əgər mətnə əlavə etmədən qabaq yazı pozulmuşsa, onda ştirxlərdə mürəkkəb yazılmaları müşahidə olunur. Yazıya əlavəni ştirxlərin vərəqədəki büküşlər vasitəsi ilə kəsilməsinə əsasən də müəyyən etmək olar. Əgər mətn vərəqədəki büküşlərin əmələ gəlməsindən qabaq yazılmışsa, onda ştrixlərin büküşlərə düşən hissəsində mürəkkəb yayılmaları əmələ gəlir ki, bu da yazının müəyyən hissəsinin büküşlərdən əvvəl və ya sonra edildiyini müəyyən etməyə imkan verir.

Yuxarıda göstərilən əlamətləri mikroskopik və ya spektrin görünməz şüaları alıtında aparılan tədqiqat vasitəsi ilə müəyyən etmək mümkündür. Bu əlamətlərin bir qismini lupa vasitəsi ilə də aşkar etmək olar.

Yazıya makina ilə də əlavə etmək olar (Əlbəttə, yazı makinasında yazılan mətn nəzərdə tutulur). Makina yazsına edilən əlavəni aşağıdakı əlamətlərinə görə müəyyən etmək mümkündür.

1. Yazıya edilən əlavənin əsas mətninin yazıldığı makinada icra edilməməsi yazı makinalarının eyniləşdirilməsi üçün müqayisəli tədqiqat aparmaqla müəyyən edilir. Əsas və əlavə mətnin eyni makinada icra edildiyini aydınlaşdırmaq məqsədi ilə əlavə mətnin əsas mətnə nisbətən yerləşmə vəziyyəti öyrənilir. Həmçini həmin mətnlərdə hərflərin şaquli oxuna uyğun gəlməsi əlavə mətn hərflərinin əsas mətn hərflərindən yuxarı və aşağı olması da öyrənilir.

2. Makina ilə yazıya edilən əlavə istifadə olunan lent vasitəsi ilə ayırd edilə bilər. Belə ki, yazıya əlavə edilərkən başqa lentdən istifadə olunmuşsa, bu zaman tədqiqat rəngayırıcı üsulla aparılır.

**Sənədin əslindən müəyyən fraqmentləri kənarlaşdıraraq digərini yapışdırmaq.** Bu zaman cinayətkar sənəddən müəyyən işarəni, rəqəm və s. kənarlaşdırır və onların yerinə başqasını yapışdırır. Bunu sənədə adi işıqda və ya müxtəlif növ işıqlanma şəraitində baxmaqla

MUHASIBAT.AZ

müəyyənləşdirmək mümkündür. Bu növ saxtalaşdırmanı müəyyən etmək üçün kağızın və mürəkkəbin müqayisə edici tədqiqatı aparılır; vərəqə toru və xətlərin uyğun gəlməsi yoxlanılır.

Adətən başqasının sənədindən istifadə etmək üçün cinayətkarlar həmin sənədə şəkil yapışdırırlar. Bu zaman cinayətkar yapışdırılmış şəkildə möhürün əksinin hissəsini saxtalaşdırmalı və onun əksini (ottiskin) qalan hissəsi ilə uyğunlaşdırmalı olur. Yenidən fotoşəkil yapışdırılması əlamətləri aşağıdakılardır:

1. Foto-şəkil üzərində möhürün əksinin olmaması;

2. Foto-şəkildəki möhür əksi xətlərinin sənədin vərəqi üzərindəki əksini xətlərinə uyğun gəlməməsi.

Sənədi fotoşəkil yapışdırmaqla saxtalaşdırmaq. Fotoşəkildəki möhürün əksinin xətlərilə sənədin üzərində olan möhürün əksinin xətlərinin uyğun gəlməməsi.

3) Həriflərin vəziyyəti, ölçüsü, həmçinin həriflər arasındakı məsafənin müxtəlif olması;

4) Vərəqənin zədələnməsi.

Ultrabənövşəyi şüalar altında tədqiqat zamanı yapışdırıcı maddənin qalınlığı və vərəqənin müxtəlif yerlərində şəklin eyni dərəcədə yapışmamasını müəyyənləşdirmək mümkün olur.

Bəzi hallarda pasportların, əmək kitabçalarının və s. sənədlərin səhifləri dəyişdirilir. Səhifələrin dəyişdirmə əlamətləri onlar arasında uyğunsuzluq əmələ gəlməsində, mətnin fraqmentləri üzərində möhür əkslərinin uyğunsuzluğu, vərəqələrin ölçülərinin fərqli olması, səhifələrin nömrə ardıcıllığının pozulması, sənədin seriya və nömrələrinin müxtəlif olması, kağızın və mürəkkəbin rənginin müxtəlif olmasından ibarət ola bilər.

**İmzaların texniki saxtalaşdırılmasının tədqiqi.** İmzanı saxtalaşdırarkən cinayətkar onun həqiqi sahibinin xəttinə oxşar olaraq sənəddə imza edir; belə saxtalaşdırma xətt ekspertizası tədqiqatı vasitəsi ilə müəyyən edilir. İmzalar texniki üsullarla da saxtalaşdırılır ki, bu da texniki kriminalistik tədqiqat yolu ilə aşkar edilir.

İmzanı saxtalaşdıran şəxsə köçürmənin aşağıdakı müxtəlif üsullarından istifadə edir: a) imzanın şəklini karandaşla çəkmək və sonradan onu mürəkkəblə təzələmək; b) vərəqəni işığa tutmaqla imzanın şəklini çəkmək; v) itiləşmiş predmetlə imzaya təsir göstərərək onun şəklini başqa vərəqəyə, yaxud mürəkkəblə təmizləmək; q) imzanı köçürmə vərəqələri (kopirovka) vasitəsi ilə köçürmək.

Saxtalaşdırılan imzaların tədqiqi zamanı imzanın əslinə lupa və ya mikroskopla baxdıqda onun üzərində qrafit və ya köçürmə vərəqəsində olan xüsusi kütlənin qalığı aşkar edilir.

Göstərilən üsullarla imzanın saxtalaşdırılmasını "EOP" - elektrik optik cihazı ilə baxmaqla da müəyyən etmək olar.

Ucu itilənmiş predmet vasitəsi ilə təzyiq göstərməklə imza saxtalaşdırılarkən onun surəti əmələ gəlir ki, həmin surətin də izləri sonradan mürəkkəb və ya karandaşla təzələnir. Belə halda saxtalaşdırma əlaməti olaraq imzaya təzyiq göstərən ştrixlər (cizgilər) alınmış surətin ayrı-ayrı fraqmentləri ilə üst-üstə düşməyə bilər. İmzanın təzyiq altında alınmış surəti müxtəlif işıqlanma şəraitində aşkar edilir.

Vərəqəni şaquli vəziyyətdə aşağı tutaraq mürəkkəblə imzanın şəkli çəkilərkən aşağı cizgilər qalın olur ki, bu da mürəkkəbin axması ilə əlaqədardır.

MUHASIBAT.AZ

**Möhür və ştamp əkslərinin saxtalaşdırılmasının müəyyən edilməsi**. Möhürlər və ştamplar kauçukdan və metaldan hazırlanır. Onlar xüsusi emalatxanalarda müəyyən tələblərə riayət etməklə hazırlanır. Mətnlərin sətirləri eyni ölçüyə və şəklə malik olan şriftlərlə yığılır və onlar arasında məsafə eyni olur. Şriftlər mətni və ya ifadələri daxildən bölən yerlərə münasibətdə simmetrik yerləşirlər. Mətnin mərkəzinə münasibətdə bütün hərflər ciddi olaraq radial şəkildə yerləşirlər. Saxtalaşdırma olduğu hallarda göstərilən qaydalar pozulur.

Möhür və ştampların əksləri müxtəlif üsullarla saxtalaşdırılır. Möhür və ştampın əksini rezin, ağac və ya digər materiallardan kəsməklə saxtalaşdırdıqda əksin üzərində xarakterik əlamətələr əmələ gəlir: hərflərin ölçüsü və ştrixlərin eyni bərabər olması; hərflərin müəyyən hissələri olmur və s.

Əgər əks sənəd üzərində onun əksinin şəklini çəkməklə saxtalaşdırılırsa, bunu işarələrin şəklinə, onların ölçüsü və yerləşməsinə görə; əslin işarələri və digər elementlərinin yazılması üsulu əlamətlərinə görə müəyyən etmək olar.

Bəzi cinayətkarlar möhürün, ştampın əksini saxtalaşdırmaq üçün onun güzgüdəki əksinin şəklini vərəqə üzərinə çəkir, sonradan isə onu hazırlanan sənədə köçürürlər. Bu halda aşağıdakı xarakterik əlamətlər ortaya çıxır: hərf və rəqəmlərin ölçüsü mətbəə şriftlərinə uyğun gəlmir; əksi çıxarılan hərflərin ölçüsü müxtəlif olur; hərflərin kənarlarında mürəkkəb yayılmaları müşahidə edilir və s.

Mətbəə şriftlərini yığmaqla möhür və ştampın əksləri saxtalaşdırılarkən aşağıdakı əlamətlər meydana çıxır: metal şriftlərin izləri qalır; işarələr eyni bərabərlikdə rənglənmir; rəngləyici maddənin sıçrımları kənara çıxır; işarələr bir-birinə qarışır və s.

Möhür və ştamp şəkilləri - əksləri köçürmə vərəqələri vasitəsi ilə yaxud karandaşla qabaqcadan şəklini çəkməklə saxtalaşdırıldıqda köçürmə vərəqələrinin, yaxud da karandaş qrafitinin qalıqları müəyyən edilir. Bunu da lupa və ya mikroskop vasitəsi ilə müəyyən etmək mümkündür.

## 3. Zədələnmiş sənədlərin məzmununun bərpa edilməsi

İstintaq prosesində bəzən elə sənədlərin məzmunu ilə tanış olmaq zərurəti ortaya çıxır ki, onlardakı mətnin üzərindən xətlər çəkilir; mətn mexaniki yolla və ya kimyəvi reaktivlər vasitəsi ilə pozulur və s.

Kimyəvi reaktivlərlə pozulan mətni bərpa etmək üçün bəzi hallarda kimyəvi üsullardan istifadə edilir. Belə tədqiqatın nəticəsi mətn ştrixlərinin materiallarından, habelə pozma üçün istifadə edilən konkret reaktivdən asılıdır. Görünməyən yazıları aşkar etmək üçün ultrabənövşəyi şüalarla lüminissensiya analizindən də istifadə olunur. Bu zaman xüsusi işıqlanma şəraitində pozulmuş ştrixlər öz rənginə görə lüminissensiya vərəqində fərqlənir. Bu üsulla aşkar edilmiş mətnini şəklini də çəkmək olar. Şəkil infraqırmızı şüalarda çəkildikdə daha yaxşı nəticlər almaq mümkündür.

Mətn mexaniki yolla pozulduqda, adətən, onun səthində rəngləyicinin qalıqları qalır. Belə halda mətni onun ayrı-ayrı ştrixlərinin şəklini xüsusi kontraslı fotomateriallarda çəkməklə aşkar etmək mümkündür. Sənədin mətni təbii faktorların təsiri ilə (günəş işığı, hava, oksigen və s.) pozulduqda da tədqiqatın göstərilən üsulları tətbiq edilir.

Xətt çəkilmiş, qaralanmış və boyaqla örtülmüş mətnlərin bərpa edilməsi. Belə mətnlər yüksək kontraslı şəkilçəkmə, habelə rəngayırıcı üsulla aşkar edilir. Xətt çəkilmiş və ya

MUHASIBAT.AZ

qaralanmış məntləri müəyyən etmək üçün infraqırmızı şüalarda şəkilçəkmə, habelə mətnə "EOP" elektron cihazı vasitəsilə baxmaq üsulu tətbiq olunur. Belə ki, tərkibində qrafit və ya metal duz olan, habelə həmin maddələrin olmadığı maddələrlə ləkələnmiş ştrixlər infraqırmızı şüalar altında aparılan tədqiqat nəticəsində aşkar edilir. Rəngli ləkələrlə - məsələn, bənövşəyi və ya göy mürəkkəblə ləkələnmiş mətni həmin rəngdə olan işıq süzgəcləri (svetofiltr) vasitəsi ilə oxumaq mümkün olar.

Bir sıra xətt çəkilmiş və ya qaralanmış mətnlər diffuzion köçürmə üsulu ilə aşkar edilir. Bu, o hallarda edilir ki, mətn mürəkkəblə yazılıb tuşla ləkələnmiş olsun. Həmin üsuldan istifadə edilərkən tədqiqat aşağıdakı qaydada aparılır: foto kağız distilə edilmiş suda yuyulur və 1-20 mm aşağı olmaqla tədqiq olunan obyektə kontakt gətirilir. Onun üzərinə sarı, qırmızı və ya zəif adi işıq salınır və kontraslı aşkarlayıcıda aşkar edilir. Hadisə yerinə baxış və axtarışı zamanı yanmış və cırılmış sənədlər aşkar edilə bilər. Onların mətnin bərpa edilməsi cinayətin istintaqı üçün mühüm əhəmiyyət kəsb edir. Cırılmış (xırda hissələrə bölünmüş) sənədlər əvvəlcə kağızın fiziki xüsusiyyətləri ilə rənginə, qalınlığına, mətbəə qrafalarına, yazı mətnin rənginə və maddəsinə görə seçilir. Bundan sonra kağızın hissəcikləri şüşə üzərində cırılma xəttinə görə düzülür. Əvvəlcə sənədin çərçivəsini təşkil edən kənarları düz olan hissəciklər, sonra isə cırılma xətlərinə, mətninə görə seçilmiş daxili hissəciklər düzülür. Yığılmış kağız hissəciklərinin üzərinə həmin ölçüdə şüşə və şüşələrin kənarları yapışqan lent vasitəsi ilə bərkidilir.

**Yanmış sənədlərin məzmununun bərpa edilməsi.** Yanmış sənədlərin külü dağıldılmamışdırsa onun məzmunu müəyyən etmək olar. Yanmış sənədin dağılmaması üçün qabaqcadan onu qliserin vasitəsi ilə bərkidirlər. Yazı ştrixləri (cizgiləri) materilların alışma qabiliyyəti və onların öz rənginə görə yanmış kağızın rəngindən fərqlənməsi bəzən adi şəraitdə yandan düşən işıq altında sənədin məzmunu və ayrı-ayrı fraqmentlərini müəyyən etməyə imkan verir.

Əgər bu metodlar müsbət nəticə verməzlərsə, onda külləmə metodu tətbiq oluna bilər. Bu metodun mahiyyəti ondan ibarətdir ki, yanmış sənəd iki istiliyə davamlı şüşə arasında yerləşdirilir və temperaturun təsirinə məruz edilir və sənədin mətni külləmə fonunda aydın görünür.

Qrafit karandaşı və mətbəə rəngi ilə icra olunmuş mətni əksər hallarda yanmış sənədlər üzərində aşkar etmək mümkün olur, çünki onlar yüksək temperatura davamlıdır. Mətn sənədin üz və ya arxa tərəfindən şəklini çəkməklə də aşkar edilə bilər. Yanmış sənədləri götürərkən ehtiyatlı olmaq lazımdır. Yaxşı olar ki, sənədlərin götürüməsi mütəxəssisin iştirakı ilə həyata keçirilsin. Belə hallarda yanmış sənədlərin qalıqları altına kordon və ya metal list qoyulur və həmin listlə birlikdə içərisində mahlıc olan qutunun daxilinə yerləşdirilir, yumşaq, nazik kağızla hər tərəfdən örtülür və bundan sonra qutunun qapağı bağlanır.

### 4. Mətnin yazıldığı alətin və sənədin materialların qrup mənsubiyyəti və fərdi eyniliyinin müəyyən edilməsi

Sənədlərin texniki tədqiqatı zamanı çox hallarda obyektin (möhürün, ştamp, yazı makinası) fərdi eyniliyini müəyyən etmək olur. Bununla bərabər materialların qrup

MUHASIBAT.AZ

mənsubiyyətini də (kağız, karandaş və ya mürəkkəblə ştrixlərin maddəsi, yazı makinasının və s.) müəyyən etmək mümkündür.

**Kağızların tədqiqi**. Kağızların tip və növünü müəyyən edən əlamətlər bunlardır: kağız kütləsinin tərkibi, kağız hazırlanması və kəsilməsi üsulu. Kağızlar tərkibinə daxil olan maddələr mikroskopik tədqiqat vasitəsi ilə müəyyən edilir. Tədqiqat zamanı kağızın tərkibindəki ona naziklik və möhkəmlik verən maddələr (kaolin, qips, mel və s.) də aşkar olunur. Bu maddələr kimyəvi üsulla mikroskop vasitəsi ilə müəyyən edilir. Kağıza hamarlıq verən maddələr (yapışqan, parafin və s.) də öyrənilir. Göstərilən maddələrin xarakteri və xüsusiyyətləri müqayisə olunan kağız nümunələrinin cinsi olub - olmaması müəyyən edildikdə nəzərə alınır. Tədqiqat zamanı həmçinin kağızın fiziki əlamətləri (çəkisi, qalınlığı, nazikliyi və s.) də nəzərə alınmalıdır.

Mürəkkəb ştrixlərinin tədqiqi. Mürəkkəbin tədqiqi onların müəyyən qrup mənsubiyyəti aşkar etməyə imkan verir. Mürəkkəb ştrixlərinin tədqiqinin əsas üsulları aşağıdakılardır: mikroskop üsulu, rəngayırıcı şəkilçəkmə, lüminissensiya analizi və kimyəvi təhlil üsulları. Mikroskop tətbiq etməklə bəzən oxşar rəngdən olan mürəkkəb ştrixlərin və onların kimyəvi tərkibini aşkar etmək olar. Mürəkkəb ştrixlərində mürəkkəbin bircinsli olmadığı və rəngləyicinin tərkibini təhlil etməklə öyrənilə bilər.

İstintaq təcrübəsi göstərir ki, bir çox hallarda cinayətkarın müəyyən sənədi hazırlamaq üçün konkret yazı makinasından, mətbəə şriftindən, möhür və ya ştampından istifadə etdiyini müəyyən etmək zərurəti ortaya çıxır. Bu isə eyniləşdirmə yolu ilə mümkündür.

Yazı makinasının eyniləşdirilməsi makina yazısının mətnin icra edildiyi makinanın qrup mənsubiyyətini müəyyən edilməsi axtarılan yazı makinaları və sənədi icra edənlərin dairəsini müəyyən etmək üçün mühüm əhəmiyyət kəsb edir. Yazı makinalarının qrup mənsubiyyətini müəyyən etməyə imkan verən əsas ümumi əlamətlər aşağıdakılardır: əsas mexanizmin addımı, şriftin tipi, sətirlər arası intervalın ölçüsü, işarələr komplekti.

Əsas mexanizmin addımı makinanın düyməciklərinə təsir edərkən onun karetasının hərəkət etdiyi məsafədir. Əsas mexanizmin addımı makinanın nisbətən dəyişməz əlamətidir. Eyni sistemə aid olan makinada bu göstərici də eynidir. Əsas mexanizmin addımını ölçmək üçün mətndən 15-20 işarəlik sətir götürməli və elə etmək lazımdır ki, son işarələr eyni adlı olsun. Həmin sətrin məsafəsini işarələrin sayından bir rəqəm çıxmaq şərti ilə işarələrin sayına bölmək lazımdır. Eyni adlı işarələrin eyni nöqtələri arasındakı məsafə ölçülməlidir.

Şriftin tipi. Şriftlər işarələrin hündürlyü və ölçüsü, habelə onların şəklinə görə fərqlənir. İşarələrin ölçüsü müəyyən edilərkən onların eni və hündürlüyü nəzərə alınmalıdır.

Sətirlər arası interval. İnterval mexanizminin köməyi ilə sətirlər arasında məsafəyə müəyyən edilə bilər. Müxtəlif modelli makinalarda intervallar da müxtəlif olur. İntervallar pərgarın (sirkulun) köməyi ilə göstərici vint və xətkeş vasitəsi ilə ölçülür.

Yazı işarələrin komplekti. Müxtəlif modelli makinalarda yazı işarələri komplekti həmişə eyni olmur. Yazı makinalarının klaviaturasında 42,44 və ya 46 düyməcik olur ki, onlar da 84, 88 və yaxud 92 işarəyə uyğun gəlir. Yazı makinalarının tədqiqi zamanı apastrof və durğu işarələrinə riyazi işarələrlə, habelə müxtəlif formalı mö`tərizələrlə xüsusi fikir verməк lazımdır.

Göstərilən əlamətlər yazı makinasının modeli və markasını, habelə bütünlükdə qrup mənsubiyyətini müəyyən etməyə imkan verir. Konkret yazı makinasının eyniləşdirilməsi, yəni mətnin konkret makinada yazıldığını müəyyən etmək fərdi əlamətlərin məcmuu

MUHASIBAT.AZ

əsasında mümkündür. Hər bir makinanın özünə məxsus qüsurları vardır ki, bunlar da yazıda əks olunur. Xüsusi əlamətlərə şriftlərin qüsurları (məsələn, şriftin ayrı-ayrı hissələrinin düşməməsi); karetanın tullanması; bütün mənt boyu işarələrin yayılması və aydın olmaması və s. aiddir.

Mətnin eyni makinada yazıldığını müəyyən etmək üçün ekspertin sərəncamında həmin makinada yazılmış sərbəst və eksperimental yazı nümunəsi verilməlidir. Çalışmaq lazımdır ki, eksperimental yazı nümunəsi sərbəst yazının icra edildiyi şəraitdə yazılsın (məsələn, eyni mətndə, kağızdan və köçürmə vərəqəsindən istifadə edilsin). Ekspermental nümunələr elə yazılmalıdır ki, makinanı xarakterizə edən əlamətlər maksimum dərəcədə əks olunsun. Yəni addımın böyüklüyü, sətirlər arasındakı intervalın bütün varinatları, sətirlərin maksimum uzunluğu habelə işarələrin tam yığımı mətində əks olunsun. Belə nümunələr vaxt (icra olunma şəraiti) etibarı ilə də tədqiq olunan sənədə uyğun gəlməlidir. Əgər tədqiq olunan sənəd icra edildikdən sonra makina təmir edilmişsə bu barədə ekspertə xəbər vermək lazımdır.

Möhür və ştampları eyniləşdirmək o zaman lazım gəlir ki, möhürün və ştampın əksinin həqiqiliyi şübhə doğursun, eyni zamanda müqayisə üçün əsl əksini əldə edilməsi mümkün olsun. Müqayisə zamanı eyniləşdirmə əlamətləri tutuşdurulur.

Tədqiq olunan əks, möhürün əslinin əksi ilə müqayisə edilərkən əvvəlcə möhürün ümumi quruluşunun əlamətlərindən, (möhürün çərçivəyə alınması, orada gerb, işarə və s. olması) möhürün forma və fraqmentlərindən və şirftlərin növündən istifadə olunur. Göstərilən ümumi əlamətlərdən başqa xüsusi əlamətlərin də tədqiq edilməsi zəruridir. Xüsusi əlamətlərə işarələrin yerləşdirilməsi xüsusiyyəti, onların fraqmentlərinin şəklinin xüsusiyyətləri aiddir. Müqayisə üçün möhürün əslinin sərbəst və eksperimentl əksləri olması zəruridir. Eksperimental əksin alınması sərbəst əksin alındığı şəraitə uyğun olmalıdır. Hər iki nümunələr möhür haqqında tam təsəvvür verməlidir. Eksperimental əks nümunələri rəngləmə intensivliyinə görə müxtəlif olduğu üçün nümunə alınarkən möhürə həddindən artıq güclü təsir göstərilməməlidir. Nümunə kimi götürülən əkslərin bir qismini almazdan qabaq möhür və ştamp ehtiyatla təmizlənməlidir.

Poliqrafiya məmulatlarının tədqiqi. Sənədlərin hazırlanması və çoxaldılması üçün ən müxtəlif çap çoxaltma vasitələrindən istifadə edilir. Bir çox rəsmi sənədlər və işgüzar kağızlar xüsusi blanklarda hazırlanır. İstintaq prosesində bir çox hallarda sənədlərin hazırlanmasında istifadə olunmuş çap çoxaldıcı vasitələrin növünü müəyyən etmək, konkret çap maşınını, cihazı, aparatı, çap formasını eyniləşdirmək zərurəti ortaya çıxır.

Poliqrafiya sahəsində aşağıdakı çap növləri təbiq edilir: yüksək, yastı (ofset poliqrafiya) və dərin.

Yüksək çap formasında çap edilən elementlər çap etməyən elementlərdən yuxarıda dayanır. Yastı çap formasında isə həmin elementlər eyni səthdə yerləşirlər. Dərin çap formasında çap edən elementlər müxtəlif dərinliklərə malik olub, rənglə dolu olur və çap etməyən elementlər yüksəkdə, eyni səth üzərində dayanırlar.

Sənədlərin tez və texniki cəhətdən mürəkkəb olmayan, kiçik tirajlarla çoxaldılması üçün operativ poliqrafiya vasitələrindən istifadə edilir. Bu vasitələrə aşağıdakılar aiddir:

- rotaprint tipli kiçik formatlı maşınlarda olan ofset çapı;
- trafaret çapı (rotator);
- elektroqrafiya (kseroks);

MUHASIBAT.AZ

Rotaprintdə çap etmək üçün çap forması nazik alüminium falqa və yaxud da xüsusi kağız üzərində hazırlanır, mətn və şəkillər onun üzərinə salınır. Kimyəvi üsullarla işlədikdən sonra forma silindir üzərində bərkiyir və oradan əkslər üzərinə köçürülür. Rotaprintin əlamətləri yastı çap üçün ümumidir.

Rotator yazı makinasında hazırlanmış trafaret vasitəsilə çap yolu ilə sənədlərin çoxaldılması üçün olan aparatdır. Çap forması təzə rənglənmiş silindirin üzərinə qoyulur və rəng hərflərin basıldığı sahələr vasitəsi ilə kağıza hopur. Rotatorda çapın ümumi əlamətləri rəngləyicinin səthi vəziyyətdə olmasından, möhürün əksinin kölgələrin ultrabənövşəyi şüalarda lyüminessensiya olunmasından ibarətdir.

Sənədlərin çap-çoxaltma vasitəsi ilə hazırlanmış blanklara baxış keçirən zaman onların saxta olması əlamətləri aşkar edilə bilər. Primitiv şəkildə hazırlanmış saxta blankda qrammatik səhvlər, çap işarələrində uyğunsuzluqlar aşkar oluna bilər. Lakin əksər hallarda onu əsli ilə müqayisə etmək lazım gəlir.

Blankların müqayisəli tədqiqi zamanı onların növünün, hazırlanma üsullarının uyğun olub-olmaması, şriftin ölçüsü və şəkli, mətnin hissələrinin qarşılıqlı vəziyyəti, hərflərin əkslərindəki qüsurlar tutuşdurulur.

## MÖVZÜ 13.ZAHİRİ ƏLAMƏTLƏRƏ GÖRƏ ŞƏXSİYYƏTİN EYNİLƏŞDİRİLMƏSİ

### PLAN

1. Zahiri əlamətlərə görə şəxsiyyətin kriminalistik eyniləşdirilməsinin əhəmiyyəti
2. Anatomik, funksional- dinamik və xüsusi əlamətlərin təsnifatı
3. İnsanın zahiri əlamətləri haqqında məlumatın toplanması və cinayətlərin istintaqında həmin məlumatlardan istifadə edilməsi
4. Fotoportret ekspertizası

MUHASIBAT.AZ

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redaktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Ищенко Е.П., Егоров Н.Н. Криминалистика для следователей и дознавателей. М.,2010.

6. Герасимов.М.М.Восстановления лица по черепу.М.1955.

7. Мусаев.Ш.М.Судебно-медицинское отождествление личности по черепу.Баку,1996.

8.Топорков А.А. Словесный портрет: Практическое пособие. М.,1999.

9.Зинин А.М.Применение субьективных портретов. М.,1996.

10.Руководство по расследованию преступлений. 2-ое издание под ред.А.В.Гриненко.М.,2008.

### 1.Zahiri əlamətlərə görə şəxsiyyətin kriminalistik eyniləşdirilməsinin əhəmiyyəti

İnsanın zahiri əlamətlərindən cinayətkarların şəxsiyyətini eyniləşdirmək üçün,onları axtarmaq və tutmaq lazım gəldiyi zaman geniş istifadə edilir.

Zahiri əlamətlərə görə şəxsiyyətin eyniləşdirilməsi qaydaları hələ XIX əsrin 80-ci illərində əvvəlcə Qərbi Avropada, sonra isə digər ölkələrdə elmi surətdə işlənib hazırlanmışdır. Fransız kriminalisti A.Bertelyon “Şifahi portret” adlanan xüsusi terminologiyadan istifadə etməklə insanın xarici görünüşünü təsvir edən xüsusi metodika yaratmışdır.

Hazırda insanın zahiri əlamətlərinin siyahısı xeyli genişlənmiş, bu əlamətlərin əhəmiyyəti dəqiqləşdirilmiş və təsvir üsulları daha da təkmilləşdirilmişdir.

Zahiri əlamətlərə görə şəxsiyyətin eyniləşdirilməsi cinayətlərin istintaqı ilə əlaqədar olmayaraq da aparıla bilər. Məsələn, keçmiş SSRİ yazıçıları və ədəbiyyatşünasları tərəfindən XIX əsrin 30-cu illərində yaşamış naməlum gənc zabitin fotoşəkli tapılmış və belə qənaətə gəlinmişdir ki, həmin şəkil M.Y.Lermontovun şəklidir. Lakin bəzi sənətşünaslar və tarixçilər bu fikir ilə razılaşmamışlar. Kriminalistlər Lermontovun və naməlum zabitin fotoşəklinə əsasən eyniləşdirmə tədqiqatı apararaq müəyyən etmişlər ki, tapılmış fotoşəkil M.Y.Lermontovun şəkillərindən biridir.

Zahiri əlamətlər iki qrupa bölünür. Birinci qrupu insan bədəninin anamotik quruluşunun xüsusiyyətlərini xarakterizə edən əlamətlər, ikinci qrupu isə yalnız hərəkət zamanı meydana çıxan əlamətlər təşkil edir. Odur ki, birinci qrupa daxil olan əlamətlərə anatomik, ikinci qrupa daxil olan əlamətlərə isə funksional (funksional-dinamik) əlamətlər deyilir.

Köməkçi zahiri əlamətlər qrupuna paltarı və digər şəxsi şeyləri xarakterizə edən əlamətlər aiddir.

MUHASIBAT.AZ

Anatomik əlamətlərə sifətin və bədənin ayrı-ayrı hissələrinin cizgiləri (çöhrə), forması, ölçüləri, vəziyyəti, rəngi və quruluş xüsusiyyətləri aiddir.

Bədən hissələrinin ölçüləri bilavasitə ölçülməklə deyil, bədənin digər hissələrinin ölçülərinə nisbətən gözlə baxıb müqayisə etməklə təyin olunur. Məsələn, alnın hündürlüyü burun və ağız hissəsinin hündürlüyünə olan münasibətinə görə, qolların uzunluğu insanın boyuna olan münasibətinə görə təyin edilir. Əməliyyat-axtarış təcrübəsində bədən ölçüləri üçhədli dərəcə ilə, yəni alçaq, orta və yüksək dərəcələrlə, ekspert təcrübəsində beşhədli və yeddihədli dərəcələrlə təsvir edilir. Beşhədli dərəcəyə əlavə olaraq “çox alçaq” və “çox yüksək” dərəcələri, yeddihədli dərəcəyə isə daha iki ölçü-”orta dərəcədən alçaq” və “orta dərəcədən yüksək” ölçüləri aiddir.

Zahiri görünüşü təsvir edərkən sifətin cizgilərinə xüsusi fikir verilir. Sifətin cizgiləri qabaq tərəfdən və profildən də təsvir edilir.

## 2. Anatomik, funksional-dinamik və xüsusi əlamətlər

Anatomik əlamətlər aşağıdakı kimi qruplaşdırılır:

I. Cins və yaş. Əsaslı məlumat olmadıqda yaş təxmini göstərilir.

II. Boy. Adətən alçaq boylu (160 sm-ə qədər), orta boylu (160-170 sm) və hündür boylu (170 sm-dən yuxarı) adamlar fərqləndirilir. Lakin qadınların boyu orta hesabla kişilərdən 5-10 sm alçaq olur. Qeyd etmək lazımdır ki, bu rəqəmlər yalnız azırbaycanlılara aiddir. Bu rəqəmlər yer kürəsinin müxtəlif regionları üçün müxtəlif ola bilər.

III. Ümumi bədən quruluşu. Sümük və əzələ sisteminin inkişaf dərəcəsinə görə adamlar, atletik, möhkəm bədənli, orta və zəif bədənli, dərialtı piy təbəqəsinin qalınlığına görə isə artıq, orta köklükdə, kök ola bilərlər.

IV. Baş. Bədənə münasibətə görə baş kiçik, orta və böyük olur. Başın uzunluğu qaşüstü qövslərin arasından ənsənin ən uzaq nöqtəsinə qədər olan məsafə ilə, eni iki təpə və ya gicgah sümükləri arasındakı məsafə ilə, hündürlüyü isə qulaq deşiyindən təpəyə qədər olan məsafə ilə ölçülür. Başın forması uzunsov, normal və yastılaşmış; ənsənin forması isə qabarıq, yastı və çapılmış ola bilər. Kəllənin anomaliyalarına ensiz, itiləşmiş kəllə, arxaya doğru əyilmiş və ya şaquli alına malik yüksək və ya çox yüksək kəllə və təpəsi yəhər şəklində çökmüş çox alçaq və ya yastı kəllə aiddir.

V. Tüklər. Saç qalın, orta sıxlıqda və seyrək; formaca düz, dalğavari və qıvrım; rənginə görə açıqqumral, qumral, tünd-qumral, qara, sarı-qırmızı və şabalıdı; alına münasibətdə bitmə istiqamətinə görə qövsvari, düz, qırıq və əyri ola bilər.

VI. Sifət. Sifət dairəvi, oval, düzbucaqlı, kvadrat, rombabənzər və üçbucaqlı, eləcə də enli, orta enlikdə, ensiz, qısa, orta uzunluqda, profildən isə qabarıq, düz və çökək ola bilər. Sifətin anomaliyalarına onun ayrı-ayrı hissələrinin və ya formasının assimmetrik yerləşməsi aiddir. Bundan əlavə uzun artıq, orta köklükdə və kök olması, habelə rəngi (ağ, çəhrayı, qırmızı, sarımtıl, qəhvəyi torpaq rəngi) nəzərə alınmalıdır.

VII. Alın. Hündürlüyünə görə-alçaq, orta hündürlükdə, yüksək, mailliyinə görə-arxaya əyilmiş, şaquli, qabağa əyilmiş, üfüqi, xaricə doğru əyilmiş vəziyyətdə olur. Xüsusiyyətləri: qaşüstü, qövslərin, alın çıxıntılarının və ya çuxurlarının kəskin gözə çarpması.

VII. Qaşlar. İstiqamətinə görə qaşlar daxilə doğru əyilmiş, üfüqi, xaricə doğru əyilmiş vəziyyətdə olur. Qaşların konturları-qövsəbənzər, düz, sınıq, əyri; uzunluğuna görə-qısa,

MUHASIBAT.AZ

orta uzunluqda, uzun; eninə görə-ensiz, orta enlikdə, enli. Xüsusiyyətləri: eninin eyni bərabərlikdə olmaması, seyrək, çox qalın, sallaq (cod), assimmetrik.

IX. Gözlər. Gözlərin rəngi-qara, qonur, yaşılımtıl, mavi (göy), boz olur. Xüsusiyyətləri: gözlərin müxtəlif rəng alması, buynuz qişada ləkələrin olması, qızarmış olması, bəbəklərin armudabənzər formada olması.

Gözlərarası sahə: kiçik, böyük, orta olur. Göz yarığının vəziyyəti: xaricə əyilmiş üfüqi, daxilə əyilmiş. Göz almalarının vəziyyəti: batıq, orta dərəcədə qabarıq. Göz yarığının açılma dərəcəsi: enli, orta enlilikdə, ensiz.

Göz yarığının forması: oval, badamvari, üçbucaq, yarığabənzər. Xüsusiyyəti: çəpgözlülük-bəbəklərin daxilə və ya xaricə doğru baxması (birtərəfli və ya ikitərəfli), bəbəkdə titənin olması, gözün olmaması, protezin olması, bulanıqlıq.

Göz qapaqlarının nişanələri: açıq və ya örtülü göz qapağı, göz qapağının hərəkətsiz hissəsinin sallanması. Xüsusiyyətləri: göz qapaqlarında qırışların olması, aşağı göz qapağının kənarında dəri yastığının olması, göz qapağının çevrilmiş, şişmiş, qızarmış, üst göz qapağının sallanmış olması, gözlərin sulanması.

Kirpiklər: uzun, orta uzunluqda, qısa; qalın, seyrək olur; Xüsusiyyətlərinə isə kirpiklərin kirpiklərin olmaması, müxtəlif olması aiddir.

X. Burun. Ümumi quruluşu burun üstünün dərinliyi, burunun hündürlüyü, eni, irəli çıxması, burun arxasının konturları, burun kökünün vəziyyəti. Burun üstünün dərinliyi: çox, orta və az dərinlikdə. Burunun hündürlüyü: alçaq, orta hündürlükdə, yüksək. Burun arxasının uzunluğu: qısa, orta uzunluqda, uzun. Burunun eni: ensiz orta enlilikdə, enli. Burunun qabağa çıxması: az, orta dərəcədə, çox. Burun arxasının konturu: basıq, düz, qabarıq, əyri. Xüsusiyyətləri: burun üstünün çox enli və ya çox ensiz olması, burun arxasının yuxarı 1/3 hissəsinin qalınlaşması. Burunun ucu: nazik, orta qalınlıqda, qalın: formasına görə-itiləşmiş, dairələşmiş, küt. Xüsusiyyətləri: yastı, enli, haçalanmış (ikilənmiş). Burunun anomaliyaları: burun arxasının və ya burunun ucunun əyilməsi. Burunun əsası: azca yuxarı qalxmış, üfüqi, aşağıya düşmüş. Burun qanadları: hündürlüyünə görə-alçaq, orta hündürlükdə, hündür; qalınlığına görə-nazik, orta qalınlıqda, qalın. Burun dəliklərinin diametri: çox böyük, orta ölçüdə, çox kiçik.

XI. Dodaqları: üst dodağın hündürlüyü (dodağın qırmızı haşiyəsindən burunun əsasına kimi)-alçaq, orta hündürlükdə, hündür olur. Vəziyyətinə görə-üst dodağın arxaya əyilməsi, şaquli olması, qabağa əyilməsi. Dodağın qırmızı haşiyəsinin eni: ensiz, orta enlilikdə, enli. Dodaqların qalınlığı: nazik, orta qalınlıqda, qalın. Xüsusiyyətləri: üst dodağın yuxarı qalxması, alt dodağın sallanması, burun-dodaq büküşünün kəskin gözə çarpması, çapıqlar.

XII. Ağız: ölçüləri-kiçik, orta böyüklükdə, böyük olur. Ağız bucaqları: üfüqi, aşağı əyilmiş, yuxarıya qalxmış; xüsusiyyətləri-ağzın sağ və ya sol bucağının yuxarı qalxması və ya aşağı əyilməsi, ağız xəttinin sola və ya sağa əyilməsi.

XIII. Çənə altın alçaq, orta hündürlükdə, hündür, orta enlilikdə, ensiz; arxaya və ya qabağa əyilmiş, şaquli vəziyyətdə olur. Konturuna görə yastı, orta konturlu, qabarıq; dairələşmiş, üfüqi düz xətli, itiləşmiş; xüsusiyyətləri: haçalanmış, köndələn şırımlı, ikiyə bölünmüş çənəaltı.

XIV. Qulaq seyvanı: profildən vəziyyəti şaquli əyilmiş, ölçüsü böyük, orta böyüklükdə, kiçik; forması oval, dairəvi, düzbucaqlı, üçbucaqlı olur. Qulaq sırğalığının quruluş xüsusiyyətləri kiçik, orta ölçüdə, böyük, üçbucaqlı, oval, düzbucaqlı, ayrılmış və ya

MUHASIBAT.AZ

bitişmiş; çuxur və ya çəp şırımlı, deşilmiş. Traqusun (xarici qulaq girəcəyinin qabağında olan üçbucaq şəklində çıxıntının) ölçüsü kiçik, orta ölçüdə, böyük.

Antitraqusun quruluş xüsusiyyətləri üfüqi, əyilmiş, düz, qabarıq, çökük. Qıvrımın xüsusiyyətləri enli, orta enlilikdə, ensiz. Qarşı qıvrımın xüsusiyyətləri içəriyə batmış, orta vəziyyətdə, qabarıq.

Qulaq seyvanının üz tərəfindən (fasdan) vəziyyəti söykənmiş, orta dərəcədə aralanmış və çox aralanmış.

XV. Sifətin qırışları. Buraya alın, qaşarası, gicgah, traqus, burun-dodaq, ağız, yanaq, boyun qırışları aiddir.

XVI. Dişlər: dişlərin sayı, dişə taxılan qapaqlar və onların sayı, qapaqların hansı dişlərdə yerləşməsi, diş emalının rəngi, dişlərin quruluşunun yerləşməsinin, frontal yerləşməsi xəttinin anomaliyaları. Dişlərin bir-birinin üstünə düşməsinin forması normal, düz, distal (yuxarı dişlərin qabağa və aşağıya doğru çıxması), mezial (alt dişlərin qabağa və yuxarıya doğru çıxması). Dişlərin xüsusiyyətlərinə onların xəstəlikləri, zədələnmələri aiddir (protezlər, plastinkalar, metal qapaqlar, körpüyəbənzər protezlər, söykənən protezlər, plomblar, materialın növü).

XVII. Boyun: qısa, orta uzunluqda, uzun, qırtlaq, əyrilik.

XVIII. Çiyinlər: ensiz, orta enlikdə, enli; enmiş, üfüqi, yuxarı qalxmış. Xüsusiyyətləri: bir çiynin digərindən yüksəkdə yerləşməsi.

XIX. Gövdə: döş qəfəsinin eni (ensiz, orta enlilikdə, enli), konturu (içəriyə batmış, yastı, qabağa doğru çıxmış). Çanaq: ensiz, orta enlilikdə, enli; Arxa (oturacaqlar): yastı, əyri. Xüsusiyyətləri: bir az beli bükülmüş, qozbel, onurğa sütunu əyilmiş.

XX. Qollar. qolların uzunluğu uzun, qısa, orta uzunluqda, Əllər: qısa, uzun, orta uzunluqda; ensiz, enli, orta enlilikdə. Barmaqlar: qısa, orta uzunluqda, uzun; nazik, orta qalınlıqda, qalın. Eninə görə: enli, orta enlilikdə, ensiz; profildən: yastı, orta dərəcədə qabarıq, qabarıq; səthinin görüşünə görə: hamar, şırımlarla örtülü. Rənginə görə: ağ çəhrayı, göyərmiş; xüsusiyyətləri: ağ ləkələrin olması. Dırnaqların (xarici görünüşü) forması: dırnaqların necə tutulması (qısa, uzun, bir dırnağın tutulmaması, manikürün olmaması, boyağın rəngi).

XXI. Qıçlar: uzunluğu qısa, ortauzunluqda, uzun.

Qıçların boylama oxunun vəziyyəti: düz və ya əyilmiş (“x” formada və ya “o” hərfinə oxşar). Xüsusiyyətləri: ayaq barmaqlarının qalınlaşması, anomaliyaları, barmaqların əyilməsi, müxtəlif uzunluqda və ya şişkinlikləri olması və s.

**Xüsusi əlamətlər.** Bu əlamətlər bir neçə qrupa bölünür ki, onlardan bəziləri ümumi nişanələri təsvir edərkən göstərilmişdir.

Birinci qrup: dəri üzərində olan nişanələr (ləkələr, şişlər, tatuirovka, ziyillər və s). Bu nişanələrin adı, harada yerləşməsi, forması, böyüklüyü, rəngi və digər təfsilatı nəzərə alınmalıdır.

İkinci qrup: kəsiklər və ya çapıqlar dəriüstü nişanələrə aid olsa da, onların əmələ gəlməsində təkcə dəri deyil, alt toxumalar da iştirak etdiyindən xüsusi qrupa ayrılmalıdır. Çapıqlar zədələnmədən, cərrahi əməliyyatdan sonra, yanıqlardan, donmalardan, elektrik zədələnmələrindən, müxtəlif maddələrin təsirindən, xəstəliklər nəticəsində törəyə bilər.

Üçüncü qrup: peşə ilə əlaqədar nişanələr (döyənəklər, qabıqlanmalar, maddələrin yeridilməsi, dərinin, dırnaqların boyanması və s).

MUHASIBAT.AZ

Dördüncü qrup: tatuirovkalar şəkli, rəngi, məzmunu, xarakteri, forması, ölçüsü, harada yerləşməsi.

Beşinci qrup: anomaliyalar (anadangəlmə eybəcərliklər), müxtəlif zədələnmələr, amputasiya olunmuş hissələr və s.

Şəxsi əşyalar və paltarlar çətin görmə şəraitlərində istintaq üçün mühüm əhəmiyyət kəsb edir.

Çünki belə şəraitlərdə "gözəçarpan əlamətlər" və "xüsusi nişanələr" olmadıqda paltar və digər əşyalar daha asan qavranılır və yadda qalır. Ona görə də paltar və əşyalar mümkün qədər dəqiq təsvir edilməlidir xüsusilə də şəxsiyyəti məlum olmayan meyidlərə baxış zamanı).

**Funksional- dinamik** əlamətlər (dinamik nişanələr) şəxsiyyəti tanımaq və axtarmaq üçün yararlı olduğu halda ekspertiza üçün yararlı deyildir. Funksional əlamətlərə qamət (boy-buxun), yeriş, əl-qol hərəkəti, mimika, danışıq xüsusiyyətləri, görmə və eşitmə defektləri aiddir.

Qamət gövdənin, başın və qolların adi vəziyyətidir. Qamət düz, bir az beli bükülmüş və donqar ola bilər.

Yeriş qıçların, gövdənin və qolların avtomatlaşdırılmış hərəkətləri kompleksindən ibarətdir.

Ağır, yüngül, səndələyən, yırğalanan və tullanan yerişlər mövcuddur. Yeriş zamanı əllərin vəziyyəti yeriyərkən şəxsin əl-qolunu atması, yaxud əl-qolu yanına sallanmış vəziyyətdə yeriməsi də nəzərə alınmalıdır.

Danışarkən nitqə daha təsirli ifadə vermək üçün əl-qolun hərəkət etdirilməsi, çiyinlərin atılması, başın tərpədilməsi və s. kimi çox müxtəlif hərəkətlər kompleksi də müşahidə edilə bilər.

Mimika üz əzələlərinin insanın psixi vəziyyətinin təsirindən irəli gələn hərəkətinə deyilir.

Mimika çox inkaşaf etmiş və əksinə, az ifadəli, yaxud ifadəsiz ola bilər. İnsanın xarici görünüşünü təsvir edərkən mimikanın necə təzaür etməsi nəzərə alınmalıdır.

Səs, tembrinə görə diskant, alt, tenor, bariton, bas; qüvvəsinə görə zəif, orta güclülükdə və güclü, aydınlığına görə təmiz, küt, tutqun və xırıltılı olur.

Nitq yavaş, cürətli, sakit, həyacanlı, qırıq-qırıq olması ilə xarakterizə edilir.

### 3.İnsanın zahiri əlamətləri haqqında məlumatın toplanması və cinayətlərin istintaqında həmin məlumatlardan istifadə edilməsi

Zahiri əlamətlərə əsasən yaradılmış "şifahi portret" əməliyyat-axtarış, istintaq və ekspert təcrübəsində tətbiq edilir. Müstəntiq və əməliyyat-axtarış işçisi axtarış apardıqda, gizlənmiş cinayətkarı izlədikdə və tutduqda, xəbərsiz itkin düşmüş şəxsi axtardıqda, meyidin tanınmasında, şübhə edilən şəxsin, təqsirləndirilən şəxsin, şahidlərin, zərər çəkmiş şəxslərin şəxsiyyətini müəyyən etdikdə zəhiri əlamətlərdən istifadə edir.

"Şifahi portret", gizlənmiş cinayətkarların və xəbərsiz itkin düşmüş şəxslərin axtarılmasında tətbiq edilir. Belə hallarda axtarılan şəxsin xarici görünüşünün ətraflı təsviri axtarış aparan şəxsə imkan verir ki, şəxsin obrazını fikrində yaratsın və saxlasın.

MUHASIBAT.AZ

Zahiri əlamətlər haqqında şəxsləri dindirdikdə, cinayət qeydiyyatı sənədlərini öyrəndikdə və fotoşəkilləri tədqiq etdikdə məlumat toplamaq olar.

Dindirmə zamanı axtarılan şəxsin zahiri əlamətləri haqqında sərbəst danışmaq təklif edilir və alınmış məlumatlardan axtarış məqsədilə istifadə etmək üçün "şifahi portret" tərtib olunur.

Bəzən cinayətkarın xarici görünüşü haqqında məlumat hadisə yerində qalmış izlərə və maddi sübutlara baxış keçirdikdən və onun nəticələri təhlil edildikdən sonra əldə edilir.

Məsələn, hadisə yerində cinayətkarın keçdiyi yerin ölçüsünə görə onun bədən quruluşunu təyin etmək; əl-ayaq izlərinə görə isə boyunun təxmini uzunluğu haqqında fikir yürütmək mümkündür.

Şəxsiyyəti məlum olmayan meyidləri və itkin düşmüş şəxsləri qeydə aldıqda onların xarici əlamətləri həmin adamların qohumlarını, tanışlarını dindirməklə, eləcə də foto şəkillərə əsasən qeydiyyat kartasında ətraflı təsvir edilməlidir.

Şəxsiyyəti məlum olmayan meyidlərin təsvirində başın nişanələrindən əlavə, bütün bədənin nişanələri və xüsusi nişanələr (çapıqlır, xallar və s), habelə bütün dişlərin vəziyyətinin ətraflı xarakteristikası da göstərilməlidir. Şəxsiyyəti məlum olmayan meyidin qeydiyyat kartası xəbərsiz itkin düşmüş şəxsin qeydiyyat kartası ilə tutuşdurulur və onların xarici nişanələri bir-birinə oxşadıqda meyidin fotoşəkli, xəbərsiz itkin düşmüş şəxsin qohumlarına tanınmaq üçün təqdim edilir. Oxşarlıq olmadıqda qeydiyyat kartası şəxsiyyəti tanınmamış meyidin kartotekasında qalır. Şəxsiyyəti məlum olmayan meyidin xarici görkəmi meyidin tualetindən sonra alınmış tanınma şəkilçəkmə qaydalarına əsasən qeyd olunur.

"Şifahi portret" həbsdə olan şəxsin qeydiyyatında da tətbiq edilir. Zahiri əlamətlər həbs olunmuş şəxsin anketində göstərilir. Fotoşəkillərlə yanaşı "şifahi portret" də şəxslərin əlifba qeydiyyatına mühüm əlavədir.

Şəxsiyyətin müəyyən edilməsi şahidin şəxsiyyətinin də aydınlaşdırılması üçün zəruridir. Anket məlumatlarını aydınlaşdırmaqdan əlavə, şəxsin zahiri əlamətlərini onun sənədlərində olan fotoşəkillərdəki əlamətlərlə də tutuşdurmaq lazımdır.

Zahiri əlamətlər insan bədəninin müayinəsində də qeyd edilir.

Zahiri əlamətlərə görə şəxsiyyətin eyniləşdirilməsi tanınma üçün təqdim etmədə ən geniş yayılmış üsullardan biridir.

İctimaiyyətin köməyi ilə şəxsiyyətin müəyyənləşdirilməsi üsullarından, yəni axtarılan şəxsin zahiri əlamətlərinin şifahi, təsvirlərinin mətbuatda dərc edilməsi, radio və televiziya verilişləri ilə elan edilməsi üsullarından da geniş istifadə olunur.

Beləliklə, zahiri əlamətlərə əsasən şəxsiyyətin eyniləşdirilməsi üsullarının 3 qrupa bölmək olar:

1) əməliyyat-axtarış işçilərinin tətbiq etdiyi əməliyyat üsulu;

2) müstəntiq və məhkəmənin tanınma üçün təqdim etmə formasında həyata keçirdiyi məhkəmə-istiqtaq üsulu;

3) ekspert üsulu.

Birinci halda əməliyyat işçiləri haqqında axtarış elan edilmiş şəxsin təsvirini tutulub-saxlanılmış şəxsin zahiri nişanələrilə, yaxud postpatrul xidməti zamanı sənədlər yoxlanıldıqda axtarılan adamın zahiri nişanələri ilə tutuşdurulur.

MUHASIBAT.AZ

Eynilik axtarış sənədlərində təsvir olunmuş əlamətləri dindirmə və ya tanınma üçün təqdim etmə protokolunda təsvir olunmuş əlamətlərlə tutuşdurmaqla da müəyyən edilə bilər.

Zahiri əlamətlərə görə şəxsiyyətin eyniləşdirilməsi cinayət qeydiyyatı materiallarına əsasən də mümkündür.

Şəxsiyyəti müəyyən etmək üçün çox vaxt fotoalbomlardan, fotoşəkillərdən, cinayət kartotekalarından, xəbərsiz itkin düşmüş şəxslərin və şəxsiyyəti məlum olmayan meyidlərin qeydiyyatı zamanı tərtib edilən materiallardan da istifadə olunur.

Alınmış məlumatların axtarış məqsədi ilə istifadə olunması üçün həmin məlumatlar axtarılan şəxslərin zahiri əlamətlərinə uyğun olaraq sistemləşdirilir. Bu məlumatlar əsasında axtarılan şəxsin portretlərini hazırlayırlar. Əksər hallarda kriminalist-mütəxəssisin iştirakı ilə rəssam tərəfindən rəsm portreti hazırlanır. Bununla yanaşı, kompozision-rəsm portretindən də istifadə edilir.

Bu portretlər ağ rəngli, əvvəlcədən standartlar üzrə hazırlanmış plyonkalar üzərində başın, üzün xüsusi elementlərinin (gözlərin, saçın, qulaqların və s.) rəsmlərini çəkməklə tərtib olunur. Şahidlərin və digər şəxslərin verdiyi məlumatlar əsasında axtarılan şəxsin portretini hazırlamaq üçün İKR-2 qurğusundan istifadə edilir ki, bu da həmin işi xeyli asanlaşdırır.

Şəxsiyyətin fotoşəkillərə əsasən ekspertiza vasitəsilə eyniləşdirilməsinin bir neçə növü vardır:

1) Şəxsin fotoşəklinin güman edilən orginalla müqayisəsi.

2) Canlı adamın (və ya meyidin) iki və ya bir neçə şəklinin bir-biri ilə müqayisəsi.

3) Kəllənin fotoşəklinin adamın sağlığında çəkilmiş yotoşəkli ilə müqayisəsi.

## 4. Fotoportret ekspertizası

Şəxsiyyətin eyniləşdirilməsi təkcə onun zahiri əlamətlərinə görə deyil, həm də fotoportretinə görə həyata keçirilə bilər. Bu eyniləşdirici fotoportret ekspertizası vasitəsilə mümkündür. İstintaq təcrübəsində fotoşəklin konkret şəxsə mənsub olub-olmaması, müxtəlif fotoşəkillərdə eyni şəxsin əks edilib-edilməməsi məsələlərinin həll edilməsi hallarına çox tez-tez rast gəlinir. Belə halların hamısında müstəntiq fotoportret ekspertizası təyin etməli olur.

Eyniləşdirici fotoportret ekspertizası insanın zahiri əlamətlərinə görə eyniləşdirilməsindən həm metodlarına, həm də eyniləşdirilən obyektlərin xarakterinə görə fərqlənir. Bu növ ekspertizalarda eyniləşdirilən obyekt eyniyyət məsələsi müəyyən edilən konkret fiziki şəxsdən ibarət olur. Eyniləşdirən obyekt rolunda isə həndəsi cəhətdən dəqiq əks olunmuş baş və üzün fotoşəkli, kəllə sümüyü və yaxud onun fotoşəkli ola bilər. Rəsm ilə çəkilmiş şəkillər qeometrik nöqtələri dəqiqliklə əks etdirmədiyi üçün onlar fotoportret ekspertizasının obyekti ola bilməz. Bu tələbə cavab verdiyinə görə rentgen şəkilləri fotoportret ekspertizasının obyekti ola bilər.

Fotoportret ekspertizası qarşısında qoyulan suallar meyidin tanınma üçün çəkilmiş və digər fotoşəkillərini, itkin düşmüş şəxslərin fotoşəkillərini, pasport və şəxsiyyəti təsdiq edən digər sənədlərə yapışdırılmış fotoşəkilləri, rentgen şəkillərini müqayisə etməklə həll edilir.

Fotoşəkillərə görə ekspert eyniləşdirməsi ümumi və xüsusi anatomik əlamətlər əsasında həll edilir.

MUHASIBAT.AZ

Ümumi eyniləşdirmə əlamətləri kimi sifətin cizgilərinin, başın, çiyinin, sinənin və s. əlamətlərinin normal morfoloji variasiyası qəbul edilir. Xüsusi eyniləşdirmə əlamətləri dedikdə isə anatomik anomaliyaların, yəni "xüsusi nişanların" (kəsiklərin, anadangəlmə xalların, müxtəlif dəri xəstəlikləri və s. izlərin) böyüklüyü, forması, yeri və s. ilə bağlı xüsusiyyətləri, sifətin antropometrik nöqtələrinin qarşılıqlı vəziyyəti, ölçüsü başa düşülür.

Eyniləşdirici fotoportret ekspertizasının müvəffəqiyyətlə həyata keçirilməsi tədqiqat üçün göndərilmiş eyniləşdirmə obyektlərinin və müqayisə nümunələrinin keyfiyyətindən çox asılıdır. Eyniləşdirən obyektlər, məsələn, fotoportret, rentgen şəkli ekspertin sərəncamına aşkar edildiyi vəziyyətdə təqdim olunmalıdır.

Keyfiyyətli fotoşəkillərin, rentgen şəkillərinin ekspertizaya təqdim edilməsi, eyniləşdirmə obyektlərini və müqayisə nümunələrini hazırlayarkən zəruri şərtlərin gözlənilməsi, ekspertə birmənalı müsbət və ya mənfi cavab verməyə imkan verir.

Ekspert tədqiqatının müvəffəqiyyətlə həyata keçirilməsi üçün yaxşı olardı ki, təqdim olunan müqayisə nümunələri rakursuna, vaxtına, miqyasına və s. görə tədqiq olunan fotoşəkillə eyni olsun. Əgər neqativlər aşkar olunubsa, onları da ekspertin sərəncamına göndərmək zəruridir.

Bu və ya digər eyniləşdirmə əlamətlərinin xətti və bucaq ölçülərini (məsələn, ağızın bucaqlarını) müqayisə etməzdən əvvəl şəkillərin eyni və ya müxtəlif vəziyyətlərdə çəkilməsinə əmin olmaq lazımdır. Çünki müxtəlif vəziyyətlərdə və ya işıq şəraitində çəkilmiş fotoşəkillərdə eyniləşdirmə əlamətləri fərqlənə bilər.

Eyniləşdirici fotoportret ekspertizası həyata keçirilərkən xətti və bucaq ölçmələri, qrafik, tutuşdurma, üst-üstə qoyma və s. metodlardan istifadə edilir.

Bu və ya digər metodun tətbiq edilməsi tədqiqat obyektinin xüsusiyyətləri ilə müəyyən edilir. Məsələn, xətti və bucaq ölçmələri metodu eyni vəziyyətdə çəkilmiş fotoşəkillərin tədqiqi zamanı tətbiq edilir. Bu zaman tədqiq edilən fotoportretin açıq əks olunmuş bir neçə antropometrik əlamətləri müəyyən edilir və sonra xətkeş, pərgar və s. ölçü vasitəsi ilə onlar arasındakı məsafə və həmin nöqtələri birləşdirən xətlər arasındakı bucaqların ölçüsü müəyyən edilir. Bununla da fotoşəkillərin müəyyən edilmiş rəqəm göstəriciləri müqayisə edilir. Əgər bu göstəricilər üst-üstə düşərsə, onda şəkillərin eyni şəxsə mənsub olması müəyyən edilir. Nəzərə almaq lazımdır ki, fotoşəkillər eyni miqyaslı olmalıdır.

Qrafik metodunun mahiyyəti sifətin kontur xətlərinin əyrisini və antropometrik nöqtələri birləşdirən düz xətlərin ölçüsünü xarakterizə edən koordinatlar sistemində qrafiklərin qurulmasından və müqayisə edilməsindən ibarətdir. Antropometrik nöqiələri birləşdirən düz xətlərin uzunluğu xətkeş və pərgar, sifətin bu və ya digər hissəsinin kontur xətlərinin əyrilik səviyyəsi isə xüsusi cihazla ölçülür. Həmin ölçülər əsasında müqayisə edilən fotoşəkillərin kordinatlar sistemində qrafiki qurulur. Qrafiklərin üst-üstə düşüb-düşməməsi ekspertə müsbət və ya mənfi rəyə gəlməyə imkan verir.

Fotoşəkillərin tutuşdurulması metodunun mahiyyəti isə ondan ibarətdir ki, müqayisə edilən fotoşəkillər eyni bir xətt üzrə dəqiqliklə (məsələn, sifəti tən yarıya bölən şaquli xətt üzrə) kəsilir və sonra isə bir şəklin sol hissəsi digərinin sağ hissəsi ilə tutuşdurulur. Əgər əlamətlər uyğun gəlirsə, deməli fotoşəkillər eyni şəxsə məxsusdur (yenə də nəzərə almaq lazımdır ki, şəkillər eyni vəziyyətli və eyni miqyaslı olmalıdır).

Üst-üstə qoyma metodunun mahiyyəti ekspertiziya təqdim olunmuş eyni vəziyyətli, eynimiqyaslı fotoşəkillər əsasında hazırlanmış diapozitivlər və ya neqativlər eyni adlı

MUHASIBAT.AZ

antropometrik nöqtələr üzrə üst-üstə qoyulur və onların hamısının uyğun gəlməsi eyniyyət məsələsini müsbət həll etməyə imkan verir. Bu zaman keçici işıqdan və proyeksiya aparatından istifadə edilir.

Fotoportret ekspertizasının tədqiqat metodlarını təkmilləşdirmək məqsədi ilə insanın sifəti, başı haqqında olan məlumatları analiz etmək üçün müxtəlif riyazi üsullar da işlənib hazırlanmışdır.

Hal-hazırda eyniləşdirici fotoportret ekspertizası zamanı elektron hesablama maşınlarının tətbiq edilməsi ilə bağlı tədqiqtlar aparılır.

Yuxarıda qeyd etdiyimiz kimi, fotoportret ekspertizasının obyektlərindən biri də insanın kəllə sümüyü və ya onun rentgen şəklidir. İnsanın kəllə sümüyünü onun fotoşəkli ilə tutuşdurmaqla eyniyyət məsələsini həll etmək mümkün olur. Bu məqsədlə prof. M.M.Gerasimovun skulptur bərpa etmə metodundan istifadə edilir 1. Bununla yanaşı son illər respublikamızda t.e.d.Ş.M.Musayev tərəfindən işlənib hazırlanmış kəllə sümüyünün əksinin və fotoşəklin kompüter vasitəsi ilə tutuşdurulmasından da geniş istifadə edilir.

## MÖVZU 14. KRİMİNALSTİK QEYDİYYAT
## P L A N

1. Kriminalistik qeydiyyatın anlayışı, əhəmiyyəti və növləri
2. Əməliyyat məlumat uçotu
3.Kriminalistik uçot
4.Köməkçi məlumat kompleksiyası

### İstifadə edilmiş ədəbiyyat

1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redəktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Александров И.В., Ищенко Е.П., Ищенко П.П. и др. Криминалистическая регистрация: Учебное пособие.Красноярск,1991.

6.Белкин Р.С. Репортаж из мастерской следователя. Рассказы о криминалистике. М.,1998

Ищенко Е.П., Егоров Н.Н. Криминалистика для следователей и дознавателей. М.,2010.

7.Самищенко С.С. Атлас необычных папиллярных узоров. М.,2001.

8.Руководство по расследованию преступлений. 2-ое издание под ред.А.В.Гриненко.М.,2008.

MUHASIBAT.AZ

### 1. Kriminalistik qeydiyyatın anlayışı, əhəmiyyəti və növləri

Kriminalstik qeydiyyatı cinayətlər və bir sıra obyektlər haqqında məlumatların toplanması, qeydiyyatı, sistemləşdirilməsi və sonradan həmin məlumatların hüquq mühafizə orqanları tərəfindən axtarış, eyniləşdirmə və s. məqsədlərlə istifadə edilməsi üçün yaradılmış xüsusi bir informasiya sistemi kimi müəyyən etmək olar.

Kriminalstik qeydiyyatın obyektləri aşağıdakılardan ibarətdir:

- insanlar;
- meyidlər;
- predmetlər.
- izlər (məsələn, açılmış cinayətlərlə bağlı hadisə yerindən götürülmüş əl izləri);
- üzərində iz olan predmetlər (məsələn güllə və gilizlər);
- cinayətlər (xarakterik üsullarla törədilmiş açılmış və ya açılmamış cinayətlər).

Buradan məlum olur ki, qeydiyyata alınan obyektlərin bir hissəsi açılan cinayətlərlə səbəbli əlaqədədir.

Belə obyektlər (məsələn, zorakı ölüm əlamətləri olan tanınmayan meyidlər) sübuti əhəmiyyət kəsb edən informasiyaların daşıyıcısı olub, konkret işlər üzrə eyniləşdirmə məsələsinin həll olmasında istifadə edilə bilər.

Başqa obyektlərdə əks olunmuş informasiyalar sübuti əhəmiyyətə malik olmayıb, istintaqın istiqamətini müəyyən etməyə kömək edir.

Kriminalstik qeydiyyat sistemli quruluşa malik olub bir neçə yarım sistemi özündə birləşdirir. O, kriminalstik qeydiyyatın ayrı-ayrı növlərindən ibarətdir. Kriminalistik qeydiyyatın növləri qeydiyyatın formasına (kartotekalar, albomlar, siyahılar və s.); üsuluna (əlifba, zahiri əlamətlərə görə, cinayətin törədilmə üsuluna görə, daktiloskopik və s.) informasiyanın hazırlanma və verilmə üsuluna görə (əl ilə, mexanikləşdirilmiş, avtomatlaşdırılmış) görə fərqlənir. Kriminalistik qeydiyyat mərkəzdə və yerlərədə aparılır.

Mərkəzləşdirilmiş qeydiyyat DİN informasiya mərkəzində və ekspert-kriminalstika idarəsində aparılır.

Kriminalistik qeydiyyatın hər bir növünün əsasında məlumatların tapılması, qeydiyyatı, sistemləşdirilməsi, hazırlanması, ötürülməsi, saxlanması və zəruri hallarda hüquq mühafizə orqanlarının təşəbbüsü ilə həmin informasiyanın onlara verilməsi ilə bağlı fəaliyyəti dayanır.

Kriminalistik ədəbiyyatda kriminalistik qeydiyyatın aşağıdakı növləri fərqləndirilir.

1. Əməliyyat-məlumat uçotu;
2. Axtarış uçotu;
3. Kriminalistik uçot;
4. Köməkçi məlumat kolleksiyaları.

Prof.R.S.Belkin haqlı olaraq qeyd edir ki, kriminalstik qeydiyyatın birinci iki növü sıx şəkildə əlaqəlidir və onları ayrı-ayrı növlərə ayırmağa ehtiyac yoxdur. Ona görə də, o, kriminalistik qeydiyyatı üç növə bölür.

### 2. Əməliyyat məlumat uçotu.

MUHASIBAT.AZ

Daxili işlər nazirliyinin bölmələri tərəfindən aparılan məlumat uçotu əlifba daktiloskopik kartotekalar formasında aparılır. Əlifba kartoçkaları cinayət törətmiş, məhkum olunmuş, həbsdə olan və haqqında axtarış elan olunmuş şəxslər, narkomanlar, qumarxana, tiryəkxana saxlayanlar və inzibati nəzarət altında olan şəxslərlə bağlı aparılır. Qeydiyyatın bu növünə ağır cinayət törətmiş şəxslərin uçotu daxildir.

Onlar haqqında fotoalbomlar, fototekalar və şifahi portret tərtib edilir.

Kriminalistik qeydiyyat törədilmiş cinayətlərin tezliklə açılmasına, istintaq və əməliyyat-axtarış fərziyyələrinin yoxlanmasına, xəbərsiz itkin düşmüş şəxslərin tapılmasına mühüm kömək edir. Onun vasitəsi ilə şübhə edilən şəxs və təqsirləndirilən şəxs haqqında zəruri məlumatları əldə etmək, cinayətkar qəsdin obyekti olmuş predmetlərin axtarılıb tapılması, şəxsiyyətin meyidə görə eyniləşdirilməsi mümkün olur.

Ən çox istifadə olunan soyada (əlifba) görə aparılan əməliyyat məlumat uçotudur. Həmin uçot üzrə bütün təqsirləndirilən və şübhə edilən şəxslər yoxlanılır. Bu məqsədlə uyğun sorğu blankı doldurulur və informasiya mərkəzinə göndərilir. Sorğu yoxlamanın nəticələri ilə bağlı məlumatla birilikdə geri qaytarılır və orada yoxlanılan şəxsin məhkumluğu (CM-nin hansı maddəsi ilə,) cəzanın müddəti, harada icra edildiyi və ya nə vaxt azad olunduğu, haqqında axtarış elan edilib- edilmədiyi (kim tərəfindən, nə vaxt, nə üçün) göstərilir.

Soyada görə aparılan uçot daktiloskopik uçotla sıx bağlıdır. Soyad uçotuna götürülən şəxslər həm də eyni zamanda, daktiloskopik uçota alınır. Yalnız o şəxslər uçota alınmırlar ki, onlar törətdikləri cinayətə görə məhkum olunsalar da həbsə alınmamışlar.

Soyad və daktiloskopik qeydiyyat eyni vaxtda həyata keçirilir. Bu zaman qeydiyyata alınan şəxs həm də daktiloskopiya olunur. Əlifba və daktiloskipik kartaların bir nüsxəsi DİN-nin informasiya mərkəzinə göndərilir və daktilodüsturlar çıxarılaraq daktilokartiya yazılır.

Daktilokartlar kartotekada soyadlara görə deyil, daktilodüsturlara görə yerləşdirilir və bu da öz növbəsində yoxlanılan şəxsin daktilokartını asanlıqla tapmağa imkan verir.

**Əsas və əlavə düsturların çıxarılması.**

Əsas düstur çıxarılarkən yalnız dairəvi (qıvrım) naxışlar nəzərə alınır. Bu zaman digər naxışlar, yəni ilgəkvari və qövsi naxışlar nəzərə alınmır. Daktilokartaya əksi köçürülmüş sağ və sol əlin barmaqları (on barmaq), ardıcıl olaraq beş cütə bölünür. Hər cüt barmaqlar (sağ əlin baş və şəhadət barmaqları)-16, ikinci cüt barmaqlar (sağ əlin orta və adsız barmaqları)-8, üçüncü cüt barmaqlar (sağ əlin çeçələ və sol əlin baş barmağı)-4, dördüncü cüt barmaqlar (sol əlin şəhadət və orta barmaqları)-2, beşinci cüt barmaqlar (sol əlin adsız və çeçələ barmaqları-1 rəqəmi ilə ifadə olunur.

Göstərilən rəqəmlərlə yalnız qıvrım naxışlar şərti ifadə olunur. Həmin rəqəm işarələri sağ əlin baş barmağından başlayaraq sol əlin çeçələ barmağına kimi bütün barmaqlar ardıcıl olaraq kəsir şəklində, cüt barmaqlar surətdə, tək barmaqlar məxrəcdə yazılır. Məsələn, sağ əlin baş, şəhadət və çeçələ barmaqları, sol əlin orta və adsız barmaqları qıvrım naxışlıdırsa, bu zaman 18:27 indeksli alınacaqdır. Lakin bir çox hallarda daktilokartaya köçürülən barmaq əksləri içərisində qıvrım naxışlar olmur. Bu zaman barmaq əkslərinin heç birində qıvrım naxış olmadığı üçün alınan kəsrin həm surətində, həm də məxrəcində 0:0 olacaqdır.

MUHASIBAT.AZ

Daktilokartaya köçürülmüş barmaq papilyar naxışlarının əkslərində qıvrım naxışların olub-olmamasından asılı olmayaraq vahid rəqəm alınsın deyə, bütün hallarda kəsrin həm surətinə və həm də məxrəcinə 1:1 əlavə edilir. Əgər on barmağın hamısının papilyar naxışları qıvrım olarsa 32:32 kəsrli yəni 16+8+4+2+1: 16+8+4+2+1=31:31+1:1=32:32 kəsrli düstur alınacaqdır. Barmaqda papilyar naxışlarının heç biri qıvrım olmadıqda isə 1:1 yəni 0+0+0+0+0:0+0+0+0+0+0: 0+1:1=1:1 kəsrli düstur alınacaqdır.

Əsas düstura müvafiq olaraq daktilokartalar kartotekalarda yerləşdirilir. Düsturu alınan kəsrin surətinin rəqəminə müvafiq olaraq bütün qeydiyyat kartoları 32 qrupa ayrılır: 1:1, 2:1, 3:1.., 32:1. Bu qrupların isə hər biri öz növbəsində kəsrin məxrəc rəqəminə görə 32 şöbəyə bölünür. 1:1, 1:2, 1:3..., 1:32. Beləliklə də nəticə etibari ilə 1024 qrup müxtəlif düsturlu kartekalar yaranmış olur.

**Əlavə düstur.** Əsas düsturdan fərqli olaraq əlavə düstur çıxarılarkən təkcə qıvrım naxışlar deyil, həmçinin bütün naxış növləri, yəni qövsi və ilgəkvari naxışlar da nəzərə alınır. Bu naxışlar qabaqcadan müəyyən edilmiş şərti rəqəmlərlə işarə olunur.

a) qövsi naxışlar 1 rəqəmi ilə işarə olunur,

b) radial ilgəkvari naxışlar, yəni öz istiqamətini baş barmağa doğru, yönəltmişsə, belə naxışlar 2 rəqəmi ilə işarə olunur.

v) ulnar ilgəkvari naxışlar, yəni ilgək öz istiqamətini çeçələ barmağa doğru yönəltmişsə, ilgəyin mərkəzi ilə delta arasında kəsişən papilyar xətlərin sayından asılı olaraq 3,4,5 və 6 rəqəmlərlə işarə olunur. Belə ki, ulnar ilgəkvari naxışın mərkəzi ilə delta arasında doqquzdan çox olmayaraq papilyar xətlər kəsişdikdə 4,14-dən 16-ya qədər papilyar xətlər kəsişdikdə 5,17 və daha çox papilyar xətlər kəsişdikdə isə 6 rəqəmləri ilə işarə olunur.

Bunu qeyd etmək lazımdır ki, daktilokartada sağ əlin barmaqlarının əksləri əl barmaqlarının düzüldüyü ardıcıllıqla yerləşdirilir. Lakin daktilokartada sol əlin barmaqları başqa istiqamətdə əks olunur. Çünki, daktilokartada sol əlin barmaqlarının əksləri sağ əlin barmaqlarının əkslərinin düzüldüyü ardıcıllıqla da yerləşdirilir. (sol əlin baş barmağının əksi sağ əlin baş barmağının altında, sol əlin şəhadət barmağının əksi, sağ əlin şəhadət barmağının altında və i. a.) Bunun nəticəsində daktilokartada sağ əlin barmaqlarının əksləri sağa doğru istiqamətdə olduğu halda, sol əlin barmaqlarının əksləri sola doğru istiqamətdə olur. Bu səbəbdən sol əlin barmaqlarından hər hansı birinin ilgəkvari naxşı öz istiqamətini çeçələ barmağa doğru yönəltmişsə, daktilokartada ilgəyin istiqaməti baş barmağa doğru olacaqdır. Beləliklə, daktilokartada sol əlin ilgəkvari naxışı öz istiqamətini çeçələ barmağa doğru yönəltdikdə, bu ilgək əslində radial, əksinə ilgəkvari naxış öz istiqamətini baş barmağa doğru, yönəltdikdə isə ulnar ilgək olmalıdır.

q) qıvrım naxışlar sol deltanın aşağı qolunun vəziyyətindən asılı olaraq 7,8 və 9 rəqəmləri ilə işarə olunur.

Qıvrım naxışlarda sol deltanın aşağı qolu daxili vəziyyətdə olduqda 7 orta vəziyyətdə olduqda 8 və ən nəhayət xarici vəziyyətdə olduqda 9 rəqəmi ilə işarə olunur.

Əgər qıvrım naxışın sol deltasının aşağı qolu sağ deltanın aşağı qolunun üstündən keçirsə və bunların arasındakı üç və üçdən artıq papilyar xətlər keçirsə, bu vəziyyəti sol deltanın aşağı qolunun daxili vəziyyəti hesab edilir. Əgər qıvrım naxışın sol deltasının aşağı qolu sağ deltanın aşağı qolu ilə üz-üzə gəlirsə, yaxud bu qollar üst-üstə düşürsə və bunlar arasındakı ikidən çox olmayaraq papilyar xətlər keçirsə, bu vəziyyət sol deltanın aşağı qolunun orta vəziyyəti hesab edilir. Əgər qıvrım naxışın sol deltasının aşağı qolu sağ

MUHASIBAT.AZ

deltanın altından keçirsə və bunlar arasından ikidən artıq papilyar xətlər keçirsə, bu vəziyyət sol deltanın aşağı qolunun xarici vəziyyəti hesab edilir.

Əlavə düstur da əsas düstur kimi kəsr şəklində ifadə olunur. Lakin əlavə düstur çıxarılarkən kəsrin surətində sağ əl məxrəcində isə sol əlin barmaq naxışlarının rəqəmlə ifadə olunmuş işarələri əks olunur. Kəsrin surətində və eləcə də məxrəcində bir-birinin ardınca yazılır. Əgər qeydiyyatdan keçən şəxsin sağ əlinin çeçələ barmağının naxışı ulnar ilgəkdirsə, bu zaman düstur çıxarılarkən ilgəyin mərkəzi ilə delta arasında kəsişən papilyar xətlərin miqdarı da göstərilməlidir. Qeydiyyatdan keçən şəxsin hər hansı bir barmağı olmadıqda, yaxud hər hansı barmağının papilyar xətləri zədəli olduqda sıfır ilə işarə olunur.

Əlavə düstur üzrə qeydiyyat kartaları kəsrin əvvəlcə surətində, sonra isə məxrəcində olan rəqəmlərin yüksəldiyi ardıcıllıqla yerləşdirilir. Barmaqlarından hər hansı biri olmayan, yaxud barmağın üçüncü bölməsinin papilyar naxışları zədələnən şəxslərin daktilokartaları ayrıca saxlanılır. Daktiloskopik qeydiyyat kartasına qısa şəkildə şəxsin anket məlumatları, məhkumluğu, həbsdə olması, zahiri görkəminin xüsusi nişanları, əl barmaqlarının xüsusi əksləri və daktilodüsturları yazılır. Xüsusi təhlükəli residivist sayılan şəxslərin kartalarında bu barədə qərarın hansı məhkəmə orqanı tərəfindən və nə vaxt çıxarılması da göstərilir.

Daktiloskopik kartotekalar onbarmaq, beşbarmaq və təkbarmaqlı (mono) sistemlər üzrə xüsusi blanklar vasitəsi ilə təşkil olunur. Onbarmaq qeydiyyat blankları kartotekalarda əsas və əlavə hissələrdən ibarət olan daktilodüsturlar üzrə düzülür. Daktilodüsturların əsas təyinatı qeydiyyatda olan şəxsin mexaniki üsulla axtarılan zaman həmin axtarışı asanlaşdırmaqdan ibarətdir. Qeydiyyatda olan şəxsin eyniləşdirilməsi isə yalnız papilyar naxışların müqayisəli şəkildə tədqiqindən sonra mümkündür.

Eyniləşdirmə üçün böyük əhəmiyyət kəcb edən informasiyaya malik olduğundan Azərbaycan Respublikasında "Daktiloskopiya qeydiyyatı haqqında" qanun 1999-cu ildə qəbul edilmişdir.

**Zahiri əlamətlərinə görə şəxslərin uçotu.**

Əməliyyat-məlumat uçotunun bu növü fotoalbomlar formasında aparılır. Lakin tədricən bu uçot vasitələri videobanklar və videotekalar ilə əvəz olunur. Bu videobanklarda və videotekalarda məhkum olunmuş şəxslərin, "qanun oğrularının" və hüquq mühafizə orqanları üçün maraq kəsb edən digər şəxslərin video və fotoəkslərin sistemləşdirilmişdir.

Uçota alınan şəxslərin hər bir qrupu üçün (oğrular, quldurlar və s.) ayrı-ayrı videokasetlər mövcuddur. Uçotun əsas məqsədi onları zərər çəkmiş şəxslərə tanınma üçün təqdim etməkdən ibarətdir.

Əntiq əşyaların və mədəniyyət nümunələrinin uçotu. Bu uçot oğurlanmış mədəniyyət nümunələrinin axtarılıb tapılmasına, onların oğurlanması ilə bağlı cinayətlərin istintaqına kömək etmək məqsədi ilə təşkil olunmuşdur.

Tarixi, bədii və elmi əhəmiyyət kəsb edən oğurlanmış və sonradan aşkar edilmiş arxeoloji və etnoqrafik predmetlərin, bədii əsərlərin, nadir əlyazmaların, kitabların və s. qeydiyyatı bu uçota daxildir.

Ümumdövlət səviyyəsində dövriyyədə olan oğurlanmış və götürülmüş sənədlərin, nömrəli predmetlərin uçotu. Bu uçot oğurlanmış və yaxud da qanun əsasında tutulub saxlanmış, həbs edilmiş şəxslərdən götürülmüş, tapılmış və ya könüllü şəkildə verilmiş sənədlərin və predmetlərin qeydiyyatını əhatə edir. Həmin sənədlər və predmetlər (məsələn, pasport, ov tüfəngi və s.) fərdi nömrələrə malik olurlar.

MUHASIBAT.AZ

Axtarışda olan şəxslərin və oğurlanmış pasportların uçotu avtomatlaşdırılmış formada aparılır. Bu avtomatlaşdırılmış informasiya-axtarış sisteminə oğurlanmış və itirilmiş, saxta sənədlər, haqqında axtarış elan olunmuş şəxslərin, xüsusi təhlükəli cinayətkarların, xəbərsiz itkin düşmüş şəxslərin pasportlarının qeydiyyatı aiddir.

Oğurlanmış və sahibsiz nəqliyyat vasitələrinin uçotu. Bu uçotdan axtarış tədbirlərini həyata keçirərkən və Dövlət Avtomobil Müfəttişliyi bölmələrində nəqliyyat vasitələrini qeydiyyata götürülən zaman istifadə olunur. Axtarışda və sahibsiz nəqliyyat vasitələrinin uçotu da avtomatlaşdırılmış formada aparılır. Bu avtomatlaşdırılmış məlumat-axtarış sisteminə yüngül və yük avtomobillərinin, avtobusların uçotu daxildir.

## 3. Kriminalistik uçot

Əməliyyat məlumat və axtarış uçotlarından fərqli olaraq kriminalstik uçotların formalaşdırılması üçün zəruri olan informasiyaların toplanılmasında xüsusi kriminalstik biliklərdən istifadə olunur. Kriminalstik uçotların formalaşdırılmasının əsas məqsədi cinayətlərin açılmasını, istintaqını və qarşısının alınmasını zəruri informasiya ilə təmin etməkdən ibarətdir.

Kriminalistik uçotlar adətən daxili işlər orqanlarının ekspert-kriminalistika bölmələri tərəfindən aparılır. Kriminalistik uçotlarda cinayətlərin törədilmə üsulları, xəbərsiz itgin düşmüş şəxslər, naməlum meyidlər, saxta pul əskinazları, izlərin müxtəlif növləri, (əl sındırma alət və vasitələrinin izləri və s.) poliqrafiya üsulu ilə saxtalaşdırılmış sənədlər, itirilmiş və oğurlanmış odlu silahlar və s. haqqında məlumatlar toplanılır və sistemləşdirilir.

Cinayətin törədilmə üsullarına görə aparılan kriminalistik uçot törədilmə mexanizmindən, üsul və vasitələrində xarakterik sabit əlamətlər müşahidə olunan cinayətlərlə bağlı formalaşdırılır. Bu uçot subyekti məlum olan və olmayan cinayətlər üzrə formalaşdırılır.

**Xəbərsiz itkin düşmüş şəxslərin uçotu.** Bu uçot Daxili İşlər Nazirliyinin informasiya mərkəzi səviyyəsində aparılır.

Xəbərsiz itkin düşmüş şəxslərlə bağlı formalaşdırılan kartotekalarda həmin şəxslərin demoqrafik məlumatları, yox olduğu yer, vaxt, zahiri əlamətləri, paltarları, ayaqqabları öz əksini tapır.

Analoji kartalar şəxsiyyəti məlum olmayan meyidlər haqqında da doldurulur. Burada meyidin harada, nə vaxt tapılması, ölümün vaxtı və səbəbləri, anatomik xüsusiyyətlərinin müfəssəl təsviri, xüsusi nişanələri, paltarları və ayaqqabları, şəxsin predmetləri haqqında məlumatlar göstərilir.

Açılmamış cinayətlərlə bağlı hadisə yerindən aşkar edilib götürülmüş əl izlərinin uçotu DİN-nin ekspert-kriminalistik bölmələri və cinayət axtarışı şöbələri tərəfindən aparılır. Bu uçot mühüm kriminalistik əhəmiyyət kəsb edir. Onun vasitəsi ilə ayrı-ayrı cinayət əməlləri ilə bağlı aşkar edilib götürülmüş əl izlərinin eyni bir şəxsə mənsub olduğunu müəyyən etmək mümkündür.

Onların harada və kim tərəfindən hazırlandığını müəyyən etmək məqsədi ilə aparılır. Əskinazların uçot üzrə yoxlamazdan əvvəl onların ekspert tədqiqi həyata keçirilir. Onların saxta olduğu müəyyən edildikdə, onda saxtalaşdırma üsulları, istifadə olunmuş materialların tərkibi və quruluşu müəyyən edilir.

MUHASIBAT.AZ

Poliqrafiya üsulu ilə saxtalaşdırılmış kağız pulların uçotu kimyəvi və fiziki tədqiqatı aparmaq üçün kifayət qədər imkanları olan ekspert-kriminalistik bölmələri tərəfindən aparılır. Həmin tədqiqatlar vasitəsi ilə saxta əskinazların, qiymətli kağızların, xarici valyutaların saxtalaşdırılması üsulları və texnologiyasını, bununla məşğul olan şəxsləri müəyyən etmək olar.

Poliqrafiya üsulu ilə saxtalaşdırılmış sənədlərin kriminalstik uçotu da analoji qaydada və eyni məqsədlərlə həyata keçirilir.

Oğurlanmış, itirilmiş, tapılmış və könüllü təhvil verilmiş odlu silahların uçotu mərkəzləşdirilmiş qaydada və yerlərdə aparılır. Uçot kartoçkasında odlu silahın növü, modeli, kalibri, nömrəsi, hazırlandığı zavod, harada, nə vaxt oğurlandığı, itirildiyi, tapıldığı, təhvil verildiyi göstərilir. Uçot kartoçkaları kartotekalarda silahların növlərinə görə sistemləşdirilir. Ayrı-ayrı növlərə daxil olan silahların karçotkaları isə onların sistemi, modeli, seriyası və nömrələri nəzərə alınmaqla düzülür.

Əgər uçota götürülən silahın nömrələrinin, seriyasının və s. dəyişdirildiyi, məhv edildiyi aşkar edilərsə, onda həmin silah tədqiqat üçün ekspert-kriminalist bölməsinə göndərilir.

Üzərində odlu silahın izləri qalmış güllə və patronların, sursatların uçotu DİN-nin ekspert kriminalist bölmələri tərəfindən aparılır. Bu uçotun əsas məqsədi bir neçə cinayətin törədilməsində eyni bir silahdan istifadə edilməsi faktını müəyyən etməkdən ibarətdir. Bu uçota açılmamış cinayətlərlə bağlı hadisə yerində aşkar edilib götürülmüş güllələrin, gilizlərin və döyüş sursatlarının qeydiyyatı daxildir.

Odlu silahdan atılmış güllələr, gilizlər və patronlar kalibrinə, silahın növünə, yivləri sayına və istiqamətinə görə sistemləşdirilirlər.

Odlu silahların tapılması, götürülməsi və könüllü təhvil verilməsi zamanı həmin silahlardan eksperimental atəşlər açılır və güllələr, gilizlər və patronlar müqayisə yolu ilə uçot üzrə yoxlanılır.

### 4. Köməkçi məlumat kompleksiyaları.

Eyniləşdirici və köməkçi əhəmiyyət kəsb edən informasiyaların toplanmasının ötürülməsinin kriminalistik kolleksiyalarda müxtəlif növ sistemləri mövcuddur. Bu kolleksiyalardan əvvəllər tədris-metodik və əyani vəsait məqsədi ilə istifadə edilirdi. Lakin tədricən onlar birləşdirilərək təcrübi-kriminalistik məqsədlərlə istifadə edilən köməkçi informasiya sistemi yaradılmışdır. Respublika DİN-nin ekspert-kriminalistik idarələrində üzərində odlu silah izləri qalmış atılmış güllə və patron gilizlərinin, kolleksiyası vardır. Həmin kolleksiyalarda ov silahlarından və hamar lüləli silahlardan atılmış patronlar, sursatlar, gilizlər, həmçinin açılmamış cinayətlərlə bağlı aşkar edilib götürülmüş güllələr və gilizlər saxlanılır. Bu kolleksiya bir neçə cinayətin eyni bir silahdan istifadə etməklə törədildiyini müəyyən etməyə imkan verir. Həmin kolleksiya vasitəsi ilə həm də müsadirədə olunmuş, tapılmış və könüllü təhvil verilmiş silahlar eyniləşdirilərək onların törədilmiş cinayətlə əlaqəli olub, olmadığı müəyyən edilir. Qeyd etdiyimiz kolleksiyalarla yanaşı kriminalstik qeydiyyat sistemində cinayət ilə bağlı hər hansı bir məlumatı əks etdirməyən obyektlərin kolleksiyaları mövcuddur.

Bu məlumat kolleksiyaları müxtəlif növ məlumatların natural nümunələrindən ibarətdir (kağız, qıfıl, soyuq və digər məlumatlar). Hal-hazırda cinayət aləti qismində istifadə edilən alətlərin, metal kəsiklərinin, lifli materialların, narkotik vasitələrin, güclü

MUHASIBAT.AZ

təsir edən maddələrin və s. məlumatların kolleksiyaları mövcuddur. Onlar, əsasən, DİN-nin ekspert-kriminalistika bölmələrində və idarələrində yerləşdirilir.

Belə kolleksiyalar təkcə obyektlərin natural nümunələrindən deyil, həm də onların şəkillərindən, surətlərindən və s. ibarət ola bilər.

Natural kolleksiyaların təşkili müasir elmi əsaslarla aparılır. Sorğulara avtomatik şəkildə cavab verən, müasir texnologiya ilə təhciz olunmuş bir sıra informasiya sistemləri vardır. Buna misal olaraq, "Marka" (lak boyaların və örtüklərin nümunələri) və "Lif materialları" AİAS-ı (Avtomatlaşdırılmış İnformasiya Axtarış Sistemləri) göstərmək olar. Analoji sistemlər narkotik və partlayıcı maddələr üzrə də təşkil olunmuşdur.

Geniş yayılmış avtomatlaşdırılmış qeydiyyat sistemlərindən biri də daktiloskopik məlumatların toplanmasını, saxlanmasını və tez yoxlanmasını təmin edən ADİS-dir (Avtomatlaşdırılmış Daktiloskopik Məlumat Sistemləri). Bu sistem çərçivəsində daktiloskopiya etmə üsulundan fərqli olaraq (mətbəə boyası ilə barmaqların rənglənməsi və s.) skaner vasitəsi ilə tutulub saxlanmış şəxslərin qısa zaman kəsiyin ərzində "canlı" daktiloskopiyası həyata keçirilir. Tez bir zaman içərisində əl izləri yüksək keyfiyyətlə ADİS-in kompüterinə ötürülür 1.

Beləliklə, kriminalistik qeydiyyat vasitəsi ilə hüquq mühafizə orqanları onları maraqlandıran ən müxtəlif məlumatları ala bilərlər. Məsələn, yoxlanılan şəxslə bağlı onun inzibati qeydiyyatda olub-olmamasını, məhkumluğunu, narkoman olmasını, daktiloskopik qeydiyyatda olub-olmamasını müəyyən etmək olar.

## MÖVZU 15. KRİMİNALİSTİK ODOROLOGİYA VƏ KRİMİNALİSTİK FONOSKOPİYA

**P L A N**

1.Kriminalistik odorologiyanın anlayışı və əhəmiyyəti
2.Kriminalistik odorologiyanın növləri
3.Kriminalistik fonoskopiyanın anlayışı və əhəmiyyəti
4.Kriminalistik fonoskopiyanın müasir

MUHASIBAT.AZ

## İstifadə edilmiş ədəbiyyat

1.Kriminalistika. K.Q.Sarıcalinskayanın redaktəsi ilə. Bakı, hüquq ədəbiyyatı,1999.

2.Криминалистика. Под.ред.Р.С.Белкина.М.: Норма, 2004.

3.Криминалистика. Под ред.В.А.Образцова. М.: Юристь, 2007.

4.Курс криминалистики: В 3 т. Т. 1.Общетеоретические вопросы. Криминалистическая техника. Криминалистическая тактика. Под ред.О.Н.Коршуновой и А.А.Степанова. Санкт-Петербург. Юридический центр пресс, 2004.

5.Галяшина Е.И. Судебная фоноскопическая экспертиза. М.,2001.

6.Аистов И.А.Учебное пособие по криминалистике. Использование следов биологического происхождения при расследовании преступлений. М.,2002.

7.Ищенко Е.П., Егоров Н.Н. Криминалистика для следователей и дознавателей. М.,2010.

8.Мерецкий Н.Е.,Милованова М.М.,Федотов И.С.Проведение судебных экспертиз:криминалистическое обеспечение. Москва-Воронеж, 2004.

9.Руководство по расследованию преступлений. 2-ое издание под ред.А.В.Гриненко.М.,2008.

10. М.В.Салтевский, Криминалическая одорология, Киев., 1976

## 1.Kriminalistik odorologiyanın anlayışı və əhəmiyyəti

İstintaq prosesinə müasir elmi-texniki vasitə və metodların tətbiqi cinayətlərin üstünün vaxtında açılmasına təminat yaradır. Belə yeni metodlardan biri də odorologiyadır.

Kriminalistik odorologiyanın kriminalistikada tətbiqinin mümkünlüyünü ilk dəfə V.Bezrukov, A.Vinberq, M.Mayorov, R.Todorov və başqaları qeyd etmişlər.

Onlar göstərmişlər ki, xidmət-axtarış işlərinin köməyilə şəxslərin, onlara məxsus əşyaların və s. müəyyən olunmasında iylərdən istifadə olunur. İy izlərinin istintaq prosesində eyniləşdirmə əhəmiyyəti böyükdür. Mütəxəssislərin fikrincə insanın iyi onun kimyəvi imzasıdır. Hər bir insanın özünəməxsus iyi olduğu üçün o fərdi xarakter daşıyır. Bu isə dərinin, tərin, piyin spesifikliyindən irəli gəlir. Fərdi insan iyi paltarlara, ayaqqabıya keçir və uzun müddət qalır.

Odorologiya iki sözdən əmələ gəlmişdir. Latınca "odor"-iy (iyi hiss edirəm) və yunanca "logor"-təlim deməkdir. Beləliklə, odorologiyanın hərfi mənası iylər haqqında təlim, iylər həqqında elm deməkdir.

Odorologiyanın predmeti iylər, onun təbiəti və yaranma qanunauyğunluqları, iylərin aşkar olunması və qavranılması mexanizmi, ardıcıl olaraq iy bilmənin psixi-fizioloji təbiətinin açılması hesab edilir. Təbii olaraq predmeti dərk etmək üçün odorologiyanın metod və vasitələri müxtəlif elmlərə əsaslanır, buna görə də odorologiya bir neçə elmlərin əsasında yaranan sahədir.

MUHASIBAT.AZ

Odorologiyanın mahiyyətini dərk etmək üçün, ilk növbədə “iy” terminin anlayışını izah etmək məqsədəmüvafiqdir. “İy” termini iki mənada işlədilir. Birincisi, bu terminlə maddi obyektlərin-fiziki cisimlərin, canlıların xüsusiyyətləri müəyyən edilir. Bu xüsusiyyətlərin xarakterinə görə buxarlanma sürətini müəyyənləşdirirlər. Buna görə də maddələri aşağıdakı kimi təsnifləşdirirlər: buxarlanan və adi maddələr 1.

Fiziki cəhətinə görə buxarlanma maddənin məhlul və ya bərk vəziyyətindən qaz halına çevrilməsi deməkdir. Buxarlanma istənilən temperaturda baş verir. Lakin onun hansı sürətlə baş verməsi maddənin xassəsindən və xarici mühitdən asılıdır. Məsələn, temperatur yüksəldikcə məhlulların buxarlanma sürəti də artır. Bununla belə həmin obyektin yuxarı hissəsindən molekullar ayrılır, həmin molekullar hava ilə birlikdə iybilmə orqanına daxil olur və ona təsir göstərir. Ona görə də biologiyada iyi canlı orqanizmlərdə iybilmə orqanlarının əsəb sonluqlarının qıcıqlandırılmasına səbəb olan buxarlanan cisim xüsusiyyəti kimi xarakterizə edirlər.

İkincisi, “iy” termini maddə ilə iybilici reseptorların qarşılıqlı hərəkəti nəticəsində insanda yaranan subyektiv qavramanı (əksolunmanı) müəyyən edir.

İyin əmələ gəlmə təbiəti və mexanizmi onu göstərir ki, praktiki olaraq bütün maddi izlər odoroloji informasiya daşıyır.

M.V.Saltevskinin fikrincə əmələ gəlmə mexanizminə görə iy-izləri şərti olaraq mənbəə-izlərə və iy-izlərə bölünür.

Bəzi müəlliflərin fikrincə isə iyin iz mənbəyi olan maddi obyektləri iki qrupa bölmək məqsədə müvafiqdir: insan iyinin iz-mənbəələri və obyektin öz iyinin iz-mənbəyi.

İnsan iyinin iz-mənbəələri öz növbəsində aşağıdakılara bölünür:

1) İnsan bədənindən ayrılmış bərk və maye halında olan hissəciklər (toxuma hissələri, tük, qan, sperma, Yağlı-tərli ifrazat, tüpürcək və fizioloji fəaliyyətlə bağlı olan digər ifrazatlar);

2) İnsan bədəni ilə daimi təmasda olan predmetlər (paltar, ayaqqabı), şəxsi əşyalar (eynək, pulqabı və s.), tualet predmetləri (daraq, pomada, qadın saç şpilkası və s.) digər predmetlər, məsələn, çətir, yelpik, və s.

3) İnsan bədəni ilə müvəqqəti təmasda olan obyektlər (məsələn, cinayət alət və vasitələri).

Obyektin öz iyinin iz-mənbəələri üzvi və qeyri-üzvi mənşəli predmet və obyektləri təşkil edir. Onlar insan haqqında odoroloji informasiya daşıyır. Bunlar xüsusi iy xassəsinə malik olan bərk, maye, dağılan və qazvari cisimlərdir. Məsələn, aromatik maddələr, efir, yanacaq və sürtkü yağları, narkotik, heyvanlar, bitkilər və s. Qeyd etmək lazımdır ki, bunlardan bəziləri insanla təmasda olduqda insan haqqında iy-informasiyasını daşıya bilərlər. Bu zaman onlar “insan iyinin iz-mənbələri” qrupuna aid edilə bilərlər.

Odoroloji izlərin ikinci qrupunu iy-izləri təşkil edir. Özünün fiziki mahiyyətinə görə bunlar həmin yerdə olmayan iyli obyektlərdən ayrılan və qaz halında olan molekullardır. Əgər içərisində ağ neft, efir, benzin və s. olan qabı ağzı açıq vəziyyətdə müəyyən müddət otaqda saxlayıb, sonra isə götürülsə, onda onların iyi uzun müddət otaqda qalacaqdır.

Bu halda otağın havasında ağ neftin, efirin, benzinin və s. molekullarının olması iy izinə tipik misaldır. Belə izlər onların mənbələri haqqında keyfiyyət informasiyası verir və

MUHASIBAT.AZ

buna görə də maddi izlərlə oxşarlıq təşkil edir. Lakin maddi izlərdən o tapıldığı yerdə öz mənbəsinin olmamasına görə fərqlənir.

İyin iz-mənbələrinin aşkar edilməsinin mürəkkəbliyi baxış aparan şəxsdən ilk növbədə hadisənin mexanizmini təhlil etməyi və cinayətkarın ehtimal davranışı haqqında fərziyyə irəli sürməyi tələb edir.

İnsan iyinin iz-mənbəyi olan obyektlərlə işləyərkən aşağıdakı qaydalara riayət etmək lazımdır:

aşkar edilmiş predmetlər üzərində papilyar naxış izlərini pozmamaq üçün, ilk növbədə cinayətkarın onu necə qoya biləcəyini düşünmək, sonra isə onu götürmək lazımdır;

xırda predmetlərə baxış keçirərkən pinsetdən istifadə etmək, iri predmetləri isə yalnız əlcəklə tədqiq etmək lazımdır;

predmetə baxış keçirərkən ilk növbədə papilyar naxışların və digər mikro və makro hissəciklərin olub-olmamasına fikir vermək lazımdır.

Baxışdan sonra iyin predmet mənbəyini konservləşdirmək, yəni qermetik bağlanan qapalı qabda yerləşdirmək lazımdır. Böyük olmayan predmetlər, yaxud əşyalar üçün (papaq, əlcək, şarf, burun dəsmalı, və s.) şüşə tıxaclı şüşə bankalardan istifadə edilir.

Əgər şüşə tıxac yoxdursa, onda bankanı polietilen qapaqla da bağlamaq olar, lakin bu zaman onun kənarları plastilinlə bərkidilməlidir. İri predmetlər və əşyalar polietilen torbalara yerləşdirilib bağlanılır ki, nəticədə qermetik qablaşdırma əmələ gəlir.

İnsan iyinin iz-mənbələrinin üçüncü qrupunu təşkil edən obyektlərə cinayət alətləri üzərində cinayətkarın izləri olan bütün sair maddi obyektlər təşkil edir. Bu izlər, məsələn, yalın ayaqla, əllə, ayaqqabı və s. qoyula bilər.

Nisbətən böyük olmayan, məsələn, balta, çəkic, kərpic parçası, kəlbətin və s. bu kimi predmetlər üzərində qoyulmuş izlər yuxarıda qeyd edilmiş qaydada aşkar edilir və konservləşdirilir.

İzlə birlikdə götürülə bilməyən obyektlərdən, yaxud tədqiqat üçün zəruri olan digər obyektlərdən iyin iz-mənbəyinin qeydə alınmasının öz xüsusiyyətləri vardır (məsələn, döşəmə, asfalt, torpaq, qar üzərində ayaqqabı izindən iyin qeydə alınması). Belə hallarda xüsusi olaraq işlənib hazırlanmış iy seçən cihaz POZ tətbiq olunur. Həmin cihazın tərkibinə şprislər, şüşə butulka, banka, 0,5-1 l. Həcmli polietilən flyaqalar, polietilən torba və kisələr daxildir. İy izini metal qabda da yerləşdirmək mümkündür.

İy izinin seçilməsi metodikası və onun konservləşdirilməsi olduqca asandır. Fərz edək ki, ayaqqabı izi vardvr. Hər şeydən əvvəl, izin surətini hazırlamaq, sonra ondan şprislə iy izini ayırmaq lazımdır. Şprisin iynəsini 100-200 sm həcmdə izin səthinə gətirilir və onu 1-2 sm hündürlükdə fırladırlar ki, nəticədə iy molekulları ilə birlikdə hava səddi yaranır.

Alınmış porsiya şüşə qaba yerləşdirilir, bəzi hallarda isə şüşə qabın baş hissəsini aşağı çevirirlər.

Seçmənin göstərilən üsulu üç-dörd dəfə aparılır, sonra qabı qermetik bağlayır və müvafiq qaydada möhürləyirlər.

Havanı iy izilə birlikdə qaba vurmamışdan əvvəl həmin qaba böyük olmayan yuyulmuş pambıq və yaxud cuna tamponlar yerləşdirirlər.

Onlar bankada olan qaz qarışığının hərəkətini artırır və iy izinin etibarlı saxlanılmasına imkan verir.

İy izlərdən cinayətkarın axtarışında da geniş istifadə edilir.

MUHASIBAT.AZ

Bu zaman xidmət-axtarış itləri kinoloq mütəxəssisinin müşayiətilə cinayətkarları “isti izlərə” görə izləyir.

Xidmət-axtarış itlərindən istifadə etmənin taktiki qaydaları müvafiq normativ aktlarda, təlimatlarda və daxili işlər orqanlarının nizamnamələrində öz əksini tapmışdır.

Göründüyü kimi, xidmət-axtarış itlərindən iki istiqamətdə istifadə edilir:

1) Odoroloji izlərin aşkar və tədqiq olunması üçün;

2) digər işlərin yerinə yetirilməsində, məsələn, patrul xidmətində, cinayətkarın tutulmasında, dustaqlar üzərində keşik çəkilməsində və s.

İy-izlərdən istifadə edilməsinin taktiki-texniki üsulları müxtəlifdir.

## 2. Kriminalistik odorologiyanın növləri

Qeyd edilənlərdən, daha doğrusu, iy-izlərin götürülməsi üsulu, tədqiqi və qeydiyyatdan asılı olaraq kriminalistik odorologiyanın iki növə bölürlər.

1) Kinoloji odorologiya;

2) İnstrumental (olfaktronik) odorologiya. 1

Kinoloji odorologiyanın analizatoru qismindən xidmət-axtarış itlərinin iybilmə üzvü çıxış edir. Xidmət-axtarış itləri vasitəsilə, iy-izlərinin eyniləşdirilməsində seçmə üsulu geniş tətbiq olunur.

Seçmə istintaqının müxtəlif mərhələlərində həyata keçirilə bilər.

Seçmə, bu iy-izlərinin tədqiqatı üçün onların əmələ gəlmə mənbələrini müəyyən etmək məqsədilə, mütəxəssis-kinoloq tərəfindən xidmət-axtarış itlərinin tətbiqi üzrə həyata keçirilən taktiki-əməliyyat tədbiridir.

Seçmə tədqiqat kimi, adətən, cinayət işi qaldırıldıqdan sonra tətbiq olunur. O, iki mərhələdən ibarətdir:

1) Seçmənin təşkilinə hazırlıq;

2) Onun bilavasitə aparılması.

Hazırlıq mərhələsində seçmənin aparılacağı yer, vaxt, iştirakçıların dairəsi, seçməyə məruz qalacaq obyektlər və s. müəyyən edilir.

Seçmə bilavasitə həyata keçirilərkən mütəxəssis-kinoloqa xüsusi yer verilməlidir. Ona görə də kinoloqun ixtisas dərəcəsini nəzərə almaq lazımdır. Seçmənin müvəffəqiyyətlə aparılması üçün kinoloqla əvvəlcədən görüşmək, onunla birlikdə seçmənin planını tərtib etmək, eyni zamanda, xidmət-axtarış itindən istifadənin taktiki üsullarını müzakirə etmək məqsədəmüvafiqdir.

Seçmə zamanı istifadə ediləcək obyektlərin sayı haqqında ədəbiyyatda vahid fikir yoxdur. Hər bir halda onların sayı üçdən aşağı olmamalıdır. Lakin təcrübədə əksər hallarda 6-8, bəzən isə daha çox predmetlər arasında seçmə aparılır.

Seçmə, onun məqsədini iştirakçılara izah etməklə başlanır. Seçmə üçün istifadə olunan bütün predmetlər iştirakçıları təqdim edilir. Həmin predmetlər aşağıdakılardır: konservləşdirilmiş iyin iz-mənbəyi, yaxud hadisə yerindən götürülmüş iy-izi; seçmə üçün nəzərdə tutulmalı, bilavasitə, şübhə edilən şəxsə məxsus olan və ondan götürülmüş iyin predmet-mənbəyi; seçmədə istifadə olunacaq digər obyektlər.

Seçmə prosesində onun iştirakçıları qablaşdırmanın və iy izləri daşıyan obyektlərin əmələ gəlməsinin bilavasitə şahidi olurlar.

MUHASIBAT.AZ

Bundan sonra iyin iz-mənbəyi olan predmetlə birlikdə obyektləri 1-2 m məsafədə bir xətt boyu düzürlər. Sonra kinoloqu dəvət etməklə ona iyə görə predmetləri seçmək üçün xidmət-axtarış itinin tətbiqini təklif edirlər. Seçmə üçün obyektlərin yerləşdirilməsi zamanı kinoloqun olmaması bəzi alimlərin fikrincə obyektivliyə səbəb olur. Belə ki, kinoloq hansı əşyanın seçilməli olmasını bilmir 1 .

Seçmənin nəticələrinin rəsmiləşdirilməsi barədə vahid fikir yoxdur. Eyni zamanda, Azərbaycan Respublikası CPM-də də konkret norma nəzərdə tutulmamışdır.

İnstrumental (olfaktropik) odorologiyada iy-izlərinin eyniləşdirilməsi xüsusi elmi-texniki vasitə və metodlardan istifadə etməklə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, iybilmə analizatorlarının modelləşdirilməsi yolunda müvəffəqiyyətlər 60-cı illərə təsadüf edilir. Belə ki, həmin illərdə Drevniks tərəfindən iyli maddələrin təsiri altında kontakt potensialının dəyişilməsini nəzərə almaqla iyin intensivliyinin obyektiv ölçülməsini nəzərdə tutan cihazın yaradılması; adsorbsiyanın istiliyindən istifadə edilməsi əsasında iylərin ölçülməsinə və təsnifləşdirilməsinə imkan verən Mankrif konstruksiyası; Razano və Spens tərəfindən yaradılmış “elektrik burnu”, habelə qaz-xromotoqrafiya və mass-spektroskopiya metodlarının köməyilə insan tərəfindən ayrılmış iylərin tədqiqatı istintaq prosesində mühüm əhəmiyyət kəsb edir. Məhkəmə odoroloji ekspertiza təyin edilərkən ekspertə iydaşıyan obyektlərə yanaşı, yoxlanılan şəxsdən müqayisəedici nümunələr də götürülməlidir.

Bu nümunələrin aşağıdakı qaydada götürülməsi təklif edilir:

Yoxlanılan şəxsə bədənin müxtəlif hissələrinə bumazey parçalar qoymaq təklif olunur. Bu parçalar yoxlanılan şəxsin bədəni ilə 30 dəqiqə təmasda qalmalıdır. Bundan sonra bu parçalar götürülüb qermetik qaydada qablaşdırılır. Qabın üzərindəki birkada iy-izlərin kimdən, nə vaxt, bədənin hansı hissələrindən götürülməsi barədə məlumatlar qeyd edilməlidir. Yoxlanılan şəxsdən iy nümunələrinin götürülməsinin nəticələri Azərbaycan Respublikası CPM-nin müvafiq maddələrinin riayət etməklə rəsimləşdirilməlidir.

Müstəntiqin qərarı ilə məhkəmə odoroloji ekspertizə təyin edilərkən ekspertə yuxarıda qeyd edilən materiallar göndərilir və ekspert qarşısında təxminən aşağıdakı suallar qoyulur:

iy daşıyan obyekt (paltar, kağız, silah və s.) üzərində olan iy yoxlanılan şəxsə məxsusdurmu?

iydaşıyan obyekt üzərində olan iy-izləri qadın, yaxud kişiyə məxsusdur?

iyə əsasən bu qan ləkəsi, tüklər, tər konkret şəxsə aiddirmi?

iy izləri konkret şəxsin (yaxud şəxslərin) ayaq, əl izləri ilə qoyulmuşdurmu?

şübhə edilən şəxslərdən kimin sındırma aləti üzərində (sındırılan səth, sındırılmış qıfıl, qaçırılmış nəqliyyat vasitəsi və s.) iy izləri qoymuşdur?

kağız üzərində (məktub, zərf, müəyyən sənədlər və s.) olan iy-izləri şübhə edilən şəxslərdən kimə məxsusdur?

siqaret kötüklərində, yandırılmış kibrit çöpləri üzərində olan iy-izləri hansı şübhə edilən şəxs tərəfindən qoyulmuşdur?

bu paltar (yaxud paltar hissəsi) üzərində olan iy-izləri yoxlanılan şəxsin iyidirmi?

təqdim olunan şeylərdən (predmetlərdən) hansının üzərində yoxlanılan şəxsin iy-izi qalmışdır?

MUHASIBAT.AZ

Beləliklə, istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi prosesində iy-izlərlə işləyərkən həm kinoloji odorologiya, həm də instrumental (olfaktropik) odorologiyanın üsul və metodlarından istifadə edilə bilər.

### 3.Kriminalistik fonoskopiyanın anlayışı və əhəmiyyəti

Aparılmış tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, insanın danışıq səsi fərdi xüsusiyyətlərə malikdir. Bu fərdilik nitq prosesində iştirak edən orqanların quruluşundan və funksiyasından asılıdır. Həmin orqanlardakı patoloji dəyişikliklər nitq prosesinin fərdiliyinə təsir edir. Bundan başqa tədqiqatlar göstərir ki, insanın danışıq səsi vaxta görə sabit olmaqla, hər şeydən əvvəl, cinsi və yaş xüsusiyyətlərindən asılıdır. Fərdi qaydanın mövcudluğu kimi insan nitqi şəxsin xüsusi həyat tərzindən və onun psixi xarakterindən asılı olaraq hər bir insana xas olan xüsusiyyətlərlə xarakterizə olunur.

Sosial və psixi faktorların təsiri nəticəsində uşaq və yetkinlik dövründə formalaşan səs və nitq vərdiş halına keçərək insanın bütün həyatı boyu dəyişməz qalır.

Kriminalistikanın metodlarından biri səs yazılarının /fonoqramların/ tədqiqidir. Fonoskopiya yunanca fonos-səs, skopoye-köçürmək deməkdir. Maqnit lentinə yazılmış şifahi danışığın kriminalistik tədqiqi maraqlı və perspektiv məsələlərdən ibarətdir.

Şifahi danışığın yazıldığı maqnit lentlərinin və səs yazan texniki vasitələrin maddi sübut qismində istifadə olunması qüvvədə olan cinayət prosessual qanunvericiliyində nəzərdə tutulmuşdur.

Aparılmış elmi tədqiqatların nəticəsi göstərir ki, qeyd etmənin yazı metodları ilə müqayisədə səsin fonoqram yazıları bir sıra üstünlüklərə malikdir. Bura hər şeydən əvvəl səs yazısında əks olunmuş faktiki materialın əyaniliyi və həqiqiliyi aiddir. Bundan başqa səs yazısı vasitəsilə dindirilən şəxsin ruhi vəziyyəti, onun nitq vərdişləri, sosial və etnoqrafik mənşəyi, inkişaf səviyyəsi barədə geniş məlumat əldə etmək mümkündür.

İnsanın səs və niqt əlamətləri istintaq məhkəmə təcrübəsində, habelə əməliyyat-axtarış fəaliyyətində geniş istifadə olunur. Tanınma üçün təqdim edərkən səs və nitq əlamətlərinə görə eyniləşdirmə aparılır. İstintaq orqanları öz işlərində müxtəlif səs yazılmış materiallarla qarşılaşdıqlarından hal-hazırda səs yazan aparatlardan geniş istifadə edirlər. Səs yazılmış belə materiallara CPM-nə müvafiq olaraq protokola əlavə olunan dindirmə və digər istintaq hərəkətlərinin fonoqramaları, cinayətin aləti sayılan məs: montaj məqsədilə istifadə olunan /fonoqramalar, cinayətin izlərini saxlayan / məs: təsadüfən cinayət törədilməsi barədə aparılan söhbətin yazısı/ fonoqramalar, təqsirləndirilən şəxsin cinayət hərəkətlərinin obyekti olmuş /əgər onlar oğurlanmış və ya saxtalaşdırılmışdırsa/ fonoqramlar aid ola bilərlər.

### 2.Məhkəmə fonoskopik ekspertizasının müasir imkanları

İstintaq və məhkəmə orqanlarının fonoskopik ekspertizanın imkanlarına tez-tez müraciət etmələri həmin ekspertiza növünün təcrübi əhəmiyyətini və geniş tətbiq edilməsinin zəruriliyini bir daha sübut edir.

MUHASIBAT.AZ

Məhkəmə fonoskopik ekspertizası vasitəsilə həll olunan məsələlər əsasən üç qrupa bölünür:

a) fonoqramların, yəni maqnit lentlərinə yazılmış danışığın texniki ekspertizası;

b) fonoqramda olan mətnin aydınlaşdırılması;

v) fonoqrama görə şəxsiyyətin eyniləşdirilməsi;

Fonoqramların texniki ekspertizasının əsas vəzifələri maqnit lentinin fiziki və akustik göstəricilərinin /parametrlərinin/ tədqiqatından ibarətdir.

Fonoqramların texniki ekspertizası zamanı əsas etibarı ilə aşağıdakı suallar həll olunur:

1. Təqdim olunmuş maqnit lentinin fiziki vəziyyəti necədir? Bunu müəyyən etmək məqsədilə lentin maqnit tozu təbəqəsinin zədələnməsi, lentin qırılıb-qırılmaması, əzilməsi, səthində piy-yağ ləkələrinin olub-olmaması yoxlanılır.

2. Təqdim olunmuş fonoqramdakı mətn eyni vaxtdamı yazılmışdır, yoxsa sonradan montac edilmişdir?

3. Fiziki parametrlərinə və aydınlıq dərəcəsinə görə fonoqramdakı yazının keyfiyyəti necədir?

4. Ekspertizaya təqdim olunmuş fonoqramın əsl və ya onun surəti olub-olmaması müəyyən edilir.

5. Qeyd edilən məsələlərdən başqa, fonoqramların texniki ekspertizası vasitəsilə səs yazan aparatın eyniləşdirilməsini də aparmaq mümkündür.

Tədqiq edilən fonoqramda olan mətnin aydınlaşdırılması ən çətin proseslərdən biri hesab olunur. Lentə yazılmış danışıq keyfiyyətsiz və uzun olduqda tədqiqat prosesi daha da mürəkkəbləşir. Belə hallarda ekspert tərəfindən lentindəki danışığın müəyyən hissəsi dəqiqləşdirilərək məzmunu aydınlaşdırılır.

Fonoqramaya görə şəxsiyyətin eyniləşdirilməsinin mahiyyəti tədqiq edilən və eksperimental fonoqramlardakı fərdi nitq əlamətlərini müəyyən edərək onları müqayisə etməkdən ibarətdir.

Eyniləşdirmə prosesində ekspert fonoqramları tədqiq edərək fərdi nitq əlamətlərinin daha yaxşı əks olunduğu fraqmentləri aydınlaşdırır. Bu zaman nəinki fərdi nitq əlamətləri, həmçinin danışıqdakı jarqon və dialektik xüsusiyyətləri də öyrənilir.

Danışıq səslərinin yazıldığı fonoqramların hazırlanması müxtəlif şəraitdə baş verir. Yazının keyfiyyətinə kənar səslər, elektirik siqnalları və s. təsir edir. Bu nöqteyi nəzərdən tədqiq edilən fonoqramlar əsas etibarı ilə üç qrupa bölünür:

1. kafi keyfiyyətə malik olan və xüsusi düzəlişlər etməyə ehtiyac olmayan fonoqramlar;

2. qeyri-kafi keyfiyyətə malik və üzərində xüsusi düzəlişlərin aparılması mümkün olmayan fonoqramlar;

3. üzərində xüsusi düzəlişlər aparılmasına ehtiyac olmayan fonoqramlar ekspertiza tədqiqatı üçün ən keyfiyyətli fonoqramlar hesab olunur.

Keyfiyyətli fonoqramlar hazırlamaq üçün stasionar aparatlardan və yüksək texniki göstəricilərə malik olan maqnitafonlardan istifadə olunur. Bunun üçün aşağıdakı tələblərə riayət etmək vacibdir.

1. Yüksək keyfiyyətə malik olan kassetlərdən /məs. MK-60, MK-90/ və az səsə malik olan polietilen lentlərdən istifadə etmək,

2. Yaxşı olar ki, yazmanın sürəti 18,05 sm/san və ya 9,53 sm/san. olsun.

MUHASIBAT.AZ

3. Yazma prosesində enerji mənbəyi qismində elektrik şəbəkəsində istifadə edilsin. Əgər bu mümkün deyildirsə onda enerji mənbəyinin /batareyanın/ təzəliyinə xüsusi diqqət yetirilməlidir.

4. Fonoqram telefon kanalından istifadə edilməklə yazılarsa, telefon dəstəyi maqnitofonun şnuru ilə paralel birləşdirilməlidir.

5. Fonoqram yazılarkən kənar səslər maksimum dərəcədə neytrallaşdırılmalıdır/ məs. radioqəbuledici, televizor, ventilyator, və s./

6. Səs yazılarkən avtomatik tənzimləyici qurğudan istifadə etmək məsləhət bilinmir.

7. Fonoqram hazırlanarkən səs yazısının təbii şəraiti bərpa edilməlidir.

Fonoqramaya görə şəxsiyyətin eyniləşdirilməsində nəinki tədqiq edilən fonoqramın, həmçinin nümunə /etalon/ fonoqramın da rolu böyükdür.

Son zamanlar istintaq məhkəmə orqanlarının səs yazan avadanlıqla təchiz edilməsi səs yazılarının tədqiqi ilə məşğul olan məhkəmə fonoskopik ekspertizasının təcrübədə geniş tətbiqi üçün şərait yaradır.

Fonoskopik ekspertizalar təyin edilərkən şübhə edilən şəxsin səs və nitqinin nümunələri şəklində fonoqrafik materialların hazırlanması zəruriyyəti yaranır. Belə nümunələr sərbəst və eksperimental ola bilər. Müstəntiq sərbəst nümunələri istintaq hərəkətləri apararkən toplayır. Sərbəst nümunələri şübhə edilən şəxsin dindirmə prosesində səs yazan aparatlar vasitəsilə də əldə etmək mümkündür.

Şübhə edilən şəxsin eksperimental səs və danışıq nümunələri müvafiq qaydalara riayət etməklə alınır.

Keyfiyyətli nümunə fonoqram hazırlamaq üçün aşağıdakı şərtlərə riayət olunmalıdır.

1. Eksperimental səs yazısı tədqiq edilən fonoqramın hazırlandığı eyni növ maqnitafon və mikrafondan, oxşar xüsusiyyətə malik maqnit lentindən istifadə edilməklə hazırlanır;

2. Eksperimental səs yazısı mübahisəli fonoqramın hazırlandığı oxşar akustik mühitdə və şəraitdə aparılır;

3. Nümunə səs yazısı hazırlanarkən kənar danışıqlar, səslər və xarici akustik siqnallar /radio, televizor və s./ maksimum dərəcədə neytrallaşdırılmalıdır;

4. Yaxşı olar ki, yazının sürəti tədqiq edilən fonoqramdakı sürətlə eyni olsun;

5. Əgər tədqiq edilən fonoqram bilavasitə telefon kanalından yazılmışdırsa, onda nümunə fonoqram hazırlanarkən həmin telefon kanalından istifadə edilməlidir. Məsələn, şəhər avtomat telefon stansiyası kanalını daxili telefon stansiyası kanalı ilə əvəz etmək olmaz və əksinə.

6. Səsin yazılışı zamanı maqnitafonla mikrafonu eyni predmetdə yerləşdirmək məsləhət bilinmir;

7. Nümunə səs yazılarkən şübhə edilən şəxs üçün elə şərait yaradılmalıdır ki, onun səsi maksimum təbii alınsın;

8. Nümunə səs yazılarkən müəyyən edilsə ki, şübhə edilən şəxs səsini qəsdən dəyişdirərək istintaqı aldatmağa çalışır, bu barədə ona xəbərdarlıq edilərək, həmin hal pratokolda qeyd olunur.

Nümunə fonoqramlar vəziyyətdən asılı olaraq monoloq, dialoq və ya mətnin oxunması şəklində hazırlana bilər.

MUHASIBAT.AZ

Monoloq şəklində hazırlanmış fonoqramlar şübhə edilən şəxsin mübahisəli fonoqramın məzmununa uyğun danışığdan ibarətdir. Belə fonoqramlarda mübahisəli yazıdakı nitq fraqmentlərinə uyğun olan sözlər, vurğulara və ifadələrə daha çox rast gəlinir.

Nümunə fonoqram monoloq şəklində hazırlanarkən şübhə edilən şəxs işin hallarını öz xeyrinə təsvir etmək məqsədilə özündən asılı olmayaraq təbii danışmağa çalışır. Bu isə onun danışığındakı əlamətlərin fonoqramda daha çox əks olunmasına şərait yaradır.

Dialoq şəklində hazırlanmış fonoqramlarda şübhə edilən şəxslə söhbət tədqiq edilən fonoqramda olan danışığa uyğun aparılır.

Dialoq əsasən sual-cavab formasında aparılır. Suala verilən cavablar tam, dolğun və aydın olmalıdır.

Mətnin oxunması şəklində fonoqram hazırlanarkən tədqiq edilən fonoqramda olan nitq fraqmentləri şübhə edilən şəxs tərəfindən oxunur. Bu üsuldan monoloq və dialoq şəklində fonoqramlar hazırlamaq mümkün olmadıqda istifadə edilir.

Ekspertiziya hər üç formada hazırlanmış fonoqramların təqdim edilməsi tədqiqatın keyfiyyətini yüksəldən əsas amillərdəndir.

Ekspertiziya göndərilən materiallar aşağıdakılardan ibarətdir:

1. Ekspertiziya təyin etmə haqqında qərar və işin materialları;

2. Fonoqramın hazırlandığı maqnitofon və mikrofonlar /yaxud eyni xüsusiyyətə malik olan maqnitofon;

3. Tədqiq edilməli olan fonoqramlar;

4. Nümunə fonoqramlar;

5. Tədqiq edilməli və etalon fonoqramların hazırlandığı maqnit lentinin /kassetin/ tipinə uyğun iki ədəd yazılmamış kassetlər.

Səs və danışığın ekspert tədqiqatı bir neçə mərhələdən ibarətdir:

1. İlkin auditiv tədqiqat. Bu mərhələdə yazıya qulaq asmaqla subyektlər arasındakı danışığın keyfiyyəti, danışanların cinsi, yazılma sürəti və vaxtı danışığın səviyyəsi və aydınlığı, kənar səslər, danışığın həcmi müəyyənləşdirilərək onun auditiv, linqvistik və instrumental tədqiqat üçün yaralı olması dəqiqləşdirilir. Ekspertizaya təqdim edilmiş nümunələr də bu qaydada tədqiq edilirlər.

2. Şəxsiyyətin səs və danışığa görə eyniləşdirmə tədqiqatı. Bu mərhələdə auditiv, linqvistik və instrumental analizlərdən istifadə edilməklə şəxsin eyniləşdirilməsi aparılır.

Auditiv tədqiqat yazı fonoqramlarına dəfələrlə qulaq asmaqla yüksək keyfiyyətli aparatlarda səsin gücləndirilməsi, danışığın bərpa edilməsi, xışıltının azaldılması və səsin təmizlənməsi yolu ilə aparılır. Linqivistik tədqiqat vasitəsilə tədqiq edilən obyektlərdəki fonetik, leksik və sintaksistik əlamətlərin oxşarlığı və fərqləri öyrənilir.

İnstrumental, akustiki tədqiqatların aparılmasında ixtisaslaşdırılmış aparat-proqram kompleksindən istifadə olunur.

3. Tədqiqatın sintez hissəsi. Bu mərhələdə auditiv, linqvistik və instrumental tədqiqatın nəticələri təhlil edilərək, eyniləşdirmə üçün kifayət sayılan əlamətlərin kompleksi müəyyənləşdirilir.

Müqayisəli tədqiqat prosesində səsin və danışığın oxşar əlamətlərinin aydınlandırılması və onlar arasında asılı fərqlərin olmaması müsbət fərdi-konkret nəticəyə gəlməyə imkan verir.

MUHASIBAT.AZ

Tədqiq edilən fonoqramalarda və nümunələrdəki əlamətlər kompleksində fərqli cəhətlər üstünlük təşkil etdikdə ekspert mənfi rəy verir.

Ekspertiza üçün hazırlanmış fonoqramların ciddi dəyişikliyə məruz qalıb öz keyfiyyətini itirməməsi üçün göstərilən qaydalara riayət olunmalıdır.

1. Səs yazılmış plyonka polietilen zərfə qoyularaq karton və ya plastmas qutuda şaquli vəziyyətdə yerləşdirilməlidir.

2. Maqnit plyonka saxlanılan yerdə hərarət 15-25 S, rütubət isə 45-75% olmalıdır;

3. Yazılmamış maqnit plyonkasını maqnitofonda saxlaman olmaz. Belə ki, maqnitofon iş prosesində qızdığından plyonkanı qurudaraq deformasiyaya uğrada bilər;

4. Hazır fonoqramları güclü maqnit sahəsinə malik olan qurğuların /elektrik mühərrikləri, transformatorlar və s./ yaxınlığında saxlamaq düzgün deyildir.

5. Maqnit lentini uzun müddət istinin təsiri altında saxlamaq olmaz /günəş şüasının, qızdırıcı qurğuların və s./;

6. Ekspertizaya göndərilən maqnit lentinin qoyulduğu qutu təsadüfi maqnit sahəsinə məruz qalmasın deyə, nazik alüminium vərəqinə bükülərək qablaşdırılmalıdır.

MUHASIBAT.AZ